Suleym ibn Qeys Hilali

# ALİ-MUHƏMMƏDİN SİRLƏRİ

Bakı – 2015

**Müəllif:** Suleym ibn Qeys Hilali

**Tərcüməçi:** Taleh Abbasov

Azərbaycan Respublikasının Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi
DK-624/A saylı, 06 avqust 2015-ci il tarixli məktubu ilə
çap olunmasına razılıq verilmişdir.

**ALİ-MUHƏMMƏDİN SİRLƏRİ**

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 312 s.

© T. Abbasov, 2015

# SÜLEYMİN KİTABI İSLAMDA YAZILMIŞ İLK KİTABDIR

Allahın kitabı Qurani-Kərimdən və Əhli-Beytin (ə) sahib olduğu mirasdan başqa müsəlman aləmində Süleym ibn Qeys əl-Hilalinin qələmə aldığı bu kitabdan daha qədimi yoxdur. Bu da kitaba digərlərinə nisbətdə xüsusi əzəmət bəxş edir. Kitabın müəllifi etiqad və İslam tarixi barədə düşünən ilk yazar olmaqla qısa zaman kəsiyində böyük bir işi həyata keçirə bilmişdir.

Həmçinin Süleymin qələmə aldığı tarixi zaman kəsimi İslamın ən əhəmiyyətli, Peyğəmbərdən (s) sonra ümmət arasında əsrlərdən bəri davam edən fikir ayrılıqlarının mənşəyi sayılacaq dövrdür. Bu cəhətdən də Süleymin kitabı həmin dövrdə baş verən hadisələrə aydın və parlaq işıq salır.

Həmçinin Süleymin hədislərin seçilməsinə və dəqiqləşdirilməsinə xüsusi diqqət göstərdiyi də kitabın mövzularından və baş vermiş hadisələrin əhəmiyyətindən də görünür. Aşağıda hədis kitablarında qeyd edilən, lakin heç bir kitabda Süleymdən əvvəl zikr edilməyən əhəmiyyətli tarixi hadisələri qeyd edirik:

1. Qədir Xum hadisəsi;
2. Səqəleyn hədisi;
3. Mənzilət hədisi;
4. Səfinə (Nuhun gəmisi) hədisi;
5. Hittə qapısı hədisi;
6. Kövsər hovuzu hədisi;
7. Qapıların bağlanması hadisəsi;
8. Kisa hədisi və “Təthir” ayəsi;
9. Mübahələ hadisəsi;
10. Peyğəmbərin (s) yazmaq istədiyi vəsiyyət hadisəsi.

Diqqətəlayiq haldır ki, bu hədislər fərqli yollarla və fərqli şəxslərdən on illərdən sonra həm əhli-sünnə, həm də əhli-şiə hədis və tarix kitablarında qeyd edilməyə başlanmışdır. Lakin bu kitablardan əsər olmadığı bir dövrdə həmin hadisələr incəliyi ilə Süleymin kitabında öz əksini tapmışdır.

Kitabda həmçinin İslam, iman, onun şərtləri və dərəcələri, Allahın höccətləri, Allahın kitabının təfsiri, xilafət və imamət barədə müsəlmanların əqidələri, vilayət, on iki İmamların şəxsiyyətləri, elmin bəyanı, digər səmavi kitablarda qeyd olunmuş bəzi məsələlər, cənnət və cəhənnəm kimi əhəmiyyətli etiqadi mövzular öz əksini tapmışdır.

Bununla yanaşı xüsusi əhəmiyyət kəs edən tarixi hadisələr, Peyğəmbərin (s) Bədr, Ühüd, Xeybər, Xəndək, Hüneyn, Təbuk kimi savaşlarından, Hüdeybiyyə sülhü və Məkkənin fəthi hadisələrindən, İmam Əlinin (ə) rəhbərliyi altında baş vermiş Siffin, Nəhrivan və Cəməl savaşlarından geniş bəhs edilir. Həmçinin İslam tarixinin xilafət məsələləri, səhabələrin şəxsiyyəti və s. məsələlər oxucuya həmin dövr barədə geniş təəssürat bəxş edir.

Bu və digər üstün xüsusiyyətlərin nəticəsində Uca Allah onun bu əməlini qorumuş, artırmış və bu günümüzə çatdırmışdır.

# KİTABIN ELMİ DƏYƏRİ

## İmamların (ə) Süleym və kitabı barədə sözləri

Bu kitabın üstünlüklərindən biri də altı Məsum İmama (ə) təqdim edilməsi, onların da kitabı və müəllifini təsdiq edib müəllifinin inanılan (siqə) şəxs olmasını bildirmələridir.

Süleym şəxsən özü bu kitabını Əmirəl-möminin Əliyə (ə), İmam Həsənə (ə), İmam Hüseynə (ə) və İmam Zeynəlabidinə (ə) təqdim edib.

Həmçinin Aban ibn Əbu Əyyaş bu kitabı İmam Zeynəlabidinə (ə) və İmam Baqirə (ə), Kitabın dördüncü ravisi Həmmad ibn İsa isə İmam Sadiqə (ə) təqdim edib.

## Möminlərin Əmirinin (ə) Süleymin kitabını təsdiqləyən sözləri

Süleymin öz kitabında nəql etdiyi onuncu hədis kitabın təsdiqi ilə bağlıdır.

Süleym İmam Əlidən (ə) soruşur: "Mən səndən, Salmandan, Əbu Zərdən və Miqdaddan hədislər eşidirəm. Amma camaatın əlində də bəzi hədislər var ki, sizin dediklərinizə ziddir. Bunun səbəbi nədir?

İmam (ə) buyurur: "Camaatın əlində olan hədislər haqq və batil, doğru və yalan var. Camaat Peyğəmbərə (s) yalan isnad edirlər və bununla zəlalət imamlarına yaxınlaşırlar. Bu səbəbdən onların söylədikləri hədislər Əhli-Beytin hədisləri ilə uyğun gəlmir. Bunun qarşılığında isə bizdən sənə çatan hər şey dinin həqiqətləridir və ona heç bir batil qarışmamışdır".

Bu hədisin Möminlərin əmiri (ə) tərəfindən Süleymin kitabda olan mövzuların doğruluğunun təsdiqi və iqrarıdır.

## İmam Səccadın (ə) Süleymin kitabını təsdiq edən sözləri

Aban deyir ki, Süleymin bu kitabını yanında Peyğəmbər (s) səhabələrindən Əbu Tufeyl və Ömər ibn Əbu Sələmə olduğu halda İmam Zeynəlabidinə (ə) təqdim etdim. İmam (ə) onlara kitabı oxumalarını buyurdu. Əbu Tufeyl və Ömər ibn Əbu Sələmə[1] üç gün boyunca səhərdən axşama qədər İmamın (ə) hüzurunda kitabı ona oxudular. İmam Zeynəlabidin kitabı dinlədikdən sonra onun haqqında belə buyurdu: *"Süleym doğru söyləmişdir. Allah ona rəhmət eləsin. Bunların hamısı bizim hədislərimizdir və bizim yanımızda mərufdur"*.

---

[1] Peyğəmbərin (s) zövcəsi Ümmü Sələmənin oğludur.

Peyğəmbərin (s) orada olan səhabələri Əbu Tufeyl və Ömər ibn Əbu Sələmə də dedilər: “Bu kitabdakı hədislərin hamısını Möminlərin əmirindən (ə), Salmandan, Əbu Zərdən və Miqdaddan eşitmişik”.

## İmam Cəfər Sadiqin (ə) kitabı təsdiq edən sözləri

İmam Cəfər Sadiq (ə) buyurur: *“Bizim şiələrimizdən və bizi sevənlərdən kimin yanında Süleymin kitabı yoxdursa, həqiqətdə bizim vilayətimizdən onun yanında heç bir şey yoxdur və bizimlə bağlı məsələlər haqqında heç bir şey bilmir. Bu kitab şiənin əlifbası və Muhəmməd ailəsinin sirlərindən bir sirdir”.*

## İmam Həsən (ə), İmam Hüseyn (ə), İmam Səccad (ə) və İmam Baqirin (ə) Süleymin kitabını təsdiqləyən sözləri

Süleymin kitabının onuncu hədisinin sonunda İmam Həsən (ə), İmam Hüseyn (ə), İmam Zeynəlabidin (ə) və İmam Muhəmməd Baqirdən (ə) kitabı təsdiq edən sözləri qeyd edilir. Xülasə olaraq onların sözləri belədir: “Birincisi, Süleymin nəql etdiyi bu sözlər həqiqətdir. İkincisi, biz onları atalarımızdan eynilə eşitmişik. Üçüncüsü, Süleym bu hədisləri dəqiqliklə, azaltmadan və artırmadan nəql etmişdir”.

## İmam Səccadın (ə) və İmam Muhəmməd Baqirin (ə) Süleymin kitabını təsdiqləyən sözləri

Süleymin İmam Əlinin (ə) vəsiyyətini İmam Muhəmməd Baqirdən (ə) nəql etdiyi hədisin sonunda deyilir: “Bu Möminlərin əmirinin vəsiyyətidir və bu Süleym ibn Qeys əl-Hilalinin Abana oxuduğu və əmanət etdiyi kitabıdır”. Aban dedi: “Mən kitabı İmam Səccadın (ə) hüzurunda oxudum və o buyurdu: “Süleym doğru söyləmişdir. Allah ona rəhmət eləsin”

Məsumlardan (ə) nəql etdiyimiz bu sözlər Süleymin kitabının dəyərini və əhəmiyyətini bəyan etməyə kifayət edir. Həmçinin bu kitabda qeyd edilən mövzular bir çox başqa kitablarda da qısa və ya geniş nəql edilmişdir. Amma ən əhəmiyyətli olanı, İmamların (ə) bu kitabı təsdiqləməsi və tövsiyə etməsidir.

## Müxtəlif əsrlərdə kitabın məşhur olması

Hicrətin birinci əsrindən bu günədək kitabın şöhrəti davam edir. Çox vaxt bu kitab qısaca olaraq “Kitabu Süleym” (“Süleymin kitabı”) kimi tanınıb.

Bu kitabın adını ilk dəfə İmam Sadiq (ə) çəkib. Sonradan İmamdan (ə) eşidilən bu ad Numani, Şeyx Müfid, Nəcaşi, Şeyx Tusi və İbn Şəhr Aşub

kimi qədim alimlərin də sözlərində istifadə edilmişdir. Eləcə də Əllamə Hilli, Şəhidus-Sani, Mir Damad, Qazi Tustəri, Şeyx Hürr Amili, Əllamə Məclisi, Şeyx Bəhrani və Əllamə Tehrani kimi sonrakı əsr alimlərinin də kitablarında zikr edildi.

Kitabın xüsusiyyətlərindən biri də budur ki, istər şiə, istər sünni alimlərinin nəzərində bu kitabın varlığı məşhur olub. Həmçinin şiənin nəzərində onun mötəbər olduğu da hər kəs tərəfindən qəbul edilib. On dörd əsrdir ki, bu kitaba istinad edilərək hədislər kitablarda nəql edilməsi də kitabın məşhurluğuna başqa bir dəlildir.

Burada kitab haqqında deyilmiş bəzi fikirləri sizə təqdim edirik. İlk olaraq qeyri-şiə alimlərinin fikirlərindən başlayaq:

1. İbn Nədim (h.385ci ildə vəfat edib): "Bu məşhur kitab "Kitabu Süleym ibn Qeys"dir.[1]

2. İbn Əbu Hədid (h.656): "Süleymin məzhəbi mərufdur. Onun kitabı öz aralarında "Kitabu Suleym" kimi tanınır".[2]

3. Qazi Bədrəddin Səbki (h.769) deyir: "Şiənin ilk qələmə alınmış kitabı "Kitabu Suleym ibn Qeys əl-Hilali"dir.[3]

4. Məhəmməd ibn Abdullah əd-Dəməşqi (h.796): "Şiələrin ortaya çıxan ilk kitabı "Kitabu Suleym ibn Qeys əl-Hilali"dir. Bu məşhur kitabdır".[4]

Şiələrdən:

Numani, İbn Ğəzair, Şeyx Hürr Amili, Seyid Haşim Bəhrani, Əllamə Məclisi, Muhəddis Nuri, Muhəddis Qumi, Əllamə Tehrani, Seyid Əmin Amuli, Əllamə Əmini və Əllamə Mərəşi Nəcəfinin sözlərinə əsasən bu kitab şiələr arasında məşhur, qədim əsrlərdən əlimizə çatmış və mühəddislərin ondan hədislər nəql etdiyi bir kitabdır.

## Süleymin öz kitabı barədə sözləri

Müəllif öz kitabının girişində qələmə aldığı əsərin üzərində xüsusi diqqət və incəliklə çalışdığını qeyd edir:

"Məndə bir kitab vardır ki, onu inanılan şəxslərdən eşitmişəm və şəxsi dəsti-xəttimlə yazmışam. Orada bəzi hədislər də var ki, onları camaat üçün bəyan etmək istəmədim. Çünki camaat bunları ya inkar edəcək, ya da oldu-

---

[1] "İbn Nədim "əl-Fehrist", səh.275.
[2] "Şərhu Nəhcul-Bəlağə", c.12, səh.216.
[3] Bu sözləri "Məhasinul-vəsail fi mərifətil-əvail" kitabında qeyd edilib (c.2, 153).
[4] "Məhasinul-vəsail fi mərifətil-əvail", səh.359.

ğundan böyük görəcəkdilər. Bunlar haqq, fiqh, sidq və xeyir əhlindən – Əli ibn Əbu Talibdən (Allahaın salavatı ona olsun!), Salman Farisidən, Əbu Zərr əl-Ğəffaridən, Miqdad ibn Əsvəddən aldığım həqiqətlərdir. Onlardan və başqalarından eşitdiyim hər bir hədisi onların digərinə də söylədim və onların hamısı bu hədislərin doğruluğunda icma etdilər".

## Süleymin kitabını bizə çatdıran istinadlar

Süleymin kitabını ilk dəfə nəşr edən şəxs İbn Üzeynədir (Allah ona rəhmət eləsin!). Bu kitabın nüsxələrini ondan köçürən yeddi nəfərin adı bizə çatmışdır, onlar: İbn Əbu Ümeyr, Həmmad ibn İsa, Osman ibn İsa, Muəmmər ibn Raşid əl-Bəsri, İbrahim ibn Ömər əl-Yəmani, Həmmam ibn Nafi Sənani, Əbdürrəzzaq ibn Həmmam Sənanidir.

Bu kitabı bizə çatdıran digər yeddi istinad yolu da var ki, bunlardan üçü Şeyx Tusidə, biri Muhəmməd ibn Səbihdə (və ya Subeyh), bir də İbn Uqdədə, biri Kəşşidə, biri də Həsən ibn Əbu Yəqub Deynuridə bitir.

Bu istinadlar üç böyük hədis və rical aliminə söykənir: İbn Əbu Umeyr, Həmmad ibn İsa və Əbdürrəzzaq ibn Həmmam. Süleymin kitabının bir nüsxəsi bu şəxslərdə olub, sonrada onların vasitəsilə yayılmağa başlayıb.

## Süleym ibn Qeys Hilalinin həyatı

Əbu Sadiq Süleym ibn Qeys əl-Hilali əl-Amiri əl-Kufi.

İmam Əli (ə), İmam Həsən (ə), İmam Hüseyn (ə) və İmam Əli ibn Hüseyn Səccadın (ə) xas səhabələrindən və yaxın dostlarından olub. İmam Muhəmməd Baqiri (ə) də görmüşdür. Bunu Bərqi, Tusi və İbn Nədim də qeyd etmişdir.

Dörd İmamın (ə) yaxın dostlarından və inandıqları şəxslərdəndir. İmamların (ə) yanında xüsusi bir məqamı vardır.

Süleym İbrahim peyğəmbərin (ə) oğlu İsmayılın (ə) nəslindən olan Bəni-Hilal ibn Amiri qəbiləsindəndir. Onlar Hicazda yaşayan Ədnanilərdəndirlər. Onlardan bir qismi bu günədək orada yaşayır. Sonradan Qeysin babaları Şama və İraqa köçmüşlər.

Süleym hicrətdən iki il əvvəl Kufədə dünyaya göz açıb. Peyğəmbər (s) vəfat edərkən onun iki yaşı vardı. Nə Peyğəmbərin (s) və nə də Əbu Bəkrin dövründə Mədinədə olmayıb. O, on beş yaşında bir gənc ikən Ömərin hakimiyyətinin ilk dövrlərində, hicrətin 16-cı ilinin əvvəllərində Mədinəyə gəlib. Bu səbəbdən Səqifə hadisəsi və Xanım Fatimənin (ə) şəhadəti əsnasında olan hadisələrə

şəxsən şahid olmadı. O səbəbdən də Səqifə hadisəsini İmam Əlidən (ə), Salmandan, Miqdaddan, Əbu Zərdən, İbn Abbasdan və Bərra ibn Azibdən nəql edib.

Mədinəyə gəlməsiylə birlikdə o zamanın abu-havası, mədəni və elmi şərtləri Süleymin diqqətini çəkdi. Camaat Peyğəmbərin (s) Əhli-Beytini (ə) tərk etmiş və elm şəhərinin qapısı olan Əlini (ə) evdə oturmaga məcbur eləmişdilər. Savadsızlığı üstün tutub cahiliyyə dövrünə geri qayıdırdılar.

Digər tərəfdən hakimiyyəti qəsb edən rəhbərlər camaatın dindən uzaqlaşması və dini təlimlərin unudulması üçün Peyğəmbərin (s) sözlərini və hərəkətlərini yazıb toplamağı və başqalarına nəql etməyi qadağan etmişdilər. Müsəlman cəmiyyətində İslamdan geriyə yalnız quru adının qalması üçün əllərindən gələni əsirgəmirdilər.

Ətiqin (Yaşlı səhabənin) hakimiyyəti zamanı yaranan bu vəziyyətə Səhhakın oğlunun dövründə daha da şiddətləndi. Bu dövrdə dini təlimləri yazıb çoxaltmaq istəyənlər həbsə atılır, döyülür və yazdıqları yandırıldı. Süleym ibn Qeys gənc yaşlarında belə qaranlıq və narahat bir mühitə daxil olmuşdu.

Süleym bu zalım mühiti görüb qollarını çırmaladı və gizlicə İslam təlimlərini, tarixini toplamağa və yazmağa başladı. Onun məqsədi gələcək nəsillərin Əhli-Beytdən (ə) və dinin maarifindən xəbərdar olmaları və xilafəti qəsb edənlərin xəyanət və zəlalətlərinin cəmiyyətə sirayət etməsinə mane olmaq idi. Süleym bu məqsədinə çatmaq üçün həqiqəti tapdıqdan sonra Möminlərin əmiri Əli (ə) və onun dəyərli dostları Salman, Əbu Zərr, Miqdad və digərləri ilə əlaqəsini gücləndirdi, Əhli-Beytin (ə) bol sulu çeşməsindən özünü sirab etdi.

Həmin dövrün başçılarının gözlərindən uzaq düşmüş Peyğəmbərin səhabələrindən eşitdiklərini yazır və tarixi hadisələrin incəliklərini xəbər alırdı. Eyni zamanda Peyğəmbərin (s) digər səhabələrilə də əlaqə yaradır və onların məlumatlarından da faydalanırdı.

Hicrətin XXIII ilində Osman hakimiyyətə gəldi. Bu zamanda Süleym İmam Əlinin (ə) yaxın dostlarından sayılırdı. Əvvəlki qadağaların eynilə davam etməsinə və daha da şiddətlənməsinə baxmayaraq gizlicə tarix və hədis yazmağa davam edirdi.

Osmanın dövründə də Süleymin Əbu Zərr və Miqdadla güclü əlaqəsi vardı.

Bu illərdə Süleym Əbu Zərlə birlikdə həccə getmiş, onun söylədiklərini qeyd eləmiş və onunla Mədinəyə qayıtmışdı. Həmçinin Əbu Zərr Rəbəzəyə sürgün edildikdə Süleym onu orada ziyarətə getmişdi.

İyirmi beş illik ictimai, mədəni və düşüncələrə istiqamətlənmiş təzyiqlərin ardından hicrətin XXXV ilində İmam Əli (ə) haqqı olan xilafətə çatdı. İmkan

tapa bildiyi qədərilə dinə gətirilən bidətləri aradan qaldırmağa və cəhalətin zülmətlərini İslam cəmiyyətindən təmizləməyə çalışdı.

Süleym həmin vaxtlarda qələmilə haqqın yardımçısı olduğu kimi qılıncı ilə də haqqa yardım edirdi. Şəxsən döyüşlərdə iştirak edir, ordunun ən ön sıralarında dayanır və İmam Əlinin (ə) beş fədaisindən biri kimi döyüşə atılırdı. O halda da döyüş meydanlarında gördüklərini kitabına qeyd edirdi. Həmin zamanlarda 38 yaşı vardı.

Süleym ibn Qeys Möminlərin əmiri (ə) ilə birlikdə Mədinədən Bəsrəyə gəldi. Cəməl döyüşünün əvvəlindən sonunadək İmam Əlinin (ə) beş min fədaisindən biri olaraq döyüş meydanının ən ön sırasında vuruşdu. O, Cəməl döyüşünə qatılan əsgərlərin sayını, şəxslərin xüsusiyyətlərini, döyüşün gedişi və ondan sonra Bəsrədə olanları, hətta İmam Əlinin (ə) döyüşdən sonrakı xütbələrini belə kitabında qeyd etdi.

Hicri 36-cı ilinin ortalarında Möminlərin əmiri (ə) ilə birlikdə Bəsrədən Kufəyə gəldi və oradan da İmamın (ə) ordusunun başçılarından biri kimi Siffinə hərəkət etdi. Hicri 38-ci ilə qədər on yeddi ay davam edən bu döyüşdə iştirak elədi. Eyni zamanda döyüşün ən şiddətli və son günləri olan, 70 min nəfərin öldürüldüyü Hərir gecəsində də şəxsən hazır oldu. O zaman təxminən ömrünün qırxıncı ilində idi.

O, kitabında İmam Əlinin (ə) Müaviyə ilə yazışmalarını diqqətlə qeyd elədi və İmamın (ə) döyüşdəki xütbələrini yazdı. Həmçinin Hərir döyüşünün səbəblərini, "İki hakim" hadisəsini və Quran səhifələrinin mizraqlara keçirilməsini də kitabında yazdı.

Siffin döyüşündə bir rahibin müsəlman olmasını və İsa peyğəmbərin (ə) kitablarını İmam Əliyə (ə) təhvil verməsinin də şahidi oldu və hadisənin bütünlüklə kitabda qeyd elədi.

Hicrətin 40-cı ilində Nəhrivan döyüşündə Süleym də iştirak elədi və bu döyüşdə baş verənləri qeyd etdi. Sonra Süleym Möminlərin əmiri (ə) ilə birlikdə Müaviyəyə qarşı yeni döyüşə hazırlaşarkən Ramazan ayında İmam Əli (ə) şəhid oldu.

O, Möminlərin əmirinin (ə) yaxın dostlarından idi. Həzrətin son üç günündə yanından ayrılmadı və vəsiyyətnaməsini İmamın (ə) mübarək ağzından şəxsən eşitdi.

Süleym Möminlərin əmirinin (ə) şəhadətindən sonra İmam Həsənin (ə) ən yaxın və vəfalı dostlarından oldu. Müaviyə sülh adı altında Kufəyə girdikdə Süleym orada olmuş və İmam Həsənin (ə) Müaviyəyə qarşı söylədiyi xütbəni qeyd etmişdir.

Müaviyənin hökumətdə olduğu müddətdə Süleym elmi fəaliyyətlərinə davam etdi. Müaviyənin dinə gətirdiyi bidətləri və işlədiyi cinayətləri, hədis təhriflərini və uydurulmasını, Müaviyənin zülmlərini kitabda yazdı.

İmam Həsənin (ə) şəhadətindən sonra Süleym İmam Hüseynin (ə) yaxın və sadiq dostlarından biri oldu. Bu dövrdə yaşı əlliyə yaxınlaşmışdı.

Ziyad hicri 49-cu ildə Müaviyə tərəfindən Kufəyə vali təyin edildikdə Süleym gizlənərək canını qorumağı bacarmışdı. Hətta Ziyadın katibi ilə qurduğu gizli əlaqə sayəsində Müaviyənin göndərdiyi gizli məktubunu ələ keçirmiş və əhəmiyyətli bir tarixi sənəd olaraq gələcək nəsillərə ötürmüşdür. Bu məktubu Süleymdən başqa heç kim şahid olmamışdır.

Hicrətin 50-ci ilində Müaviyə həcc bəhanəsi ilə Mədinəyə gəldikdə Süleym də Kufədən Mədinəyə gəldi. Orada Müaviyənin Məkkə və Mədinə səfərləri, İmam Əli (ə) şiələrinə qarşı etdikləri barədə məlumatlar topladı.

Hicrətin 58-ci ilində, Müaviyənin ölümündən iki il əvvəl İmam Hüseyn (ə) Minada yeddi yüzdən çox Peyğəmbər (s) səhabəsini və tabeini bir yerə topladı, Müaviyə əleyhinə bir xütbə söylədi. Süleym bu xütbədə iştirak etdi və İmam Hüseynin (ə) sözlərinin hamısını yazdı. O günlərdə ömrünün altmış ilindən çoxu keçmişdi.

Hicri 61-ci ildə Kərbəla hadisəsi baş verdi. Həmin dövrün tarix səhifələrində Süleym haqqında bir məlumata rast gəlinmir. Böyük ehtimalla o da İbn Ziyadın həbs etdiyi adamlardan biri idi ki, İmam Hüseynə (ə) də bu səbəbdən yardım edə bilmədi.

İmam Hüseynin (ə) şəhadətindən sonra Süleym İmam Səccadın (ə) yaxın dostlarından oldu və İmam Muhəmməd Baqirin (ə) xidmətində dayandı. İmam (ə) o zaman yeddi yaşında və ya daha böyük idi. Bu illərdə Hicazda Abdullah ibn Zübeyrin üsyanı və İraqda Muxtar Səqəfinin qiyamı davam edirdi. Amma Süleymin kitabında və onun həyatında bu hadisələr haqqında bir söz yoxdur.

Hicrətin 75-ci ilində Həccac ibn Yusif Səqəfi Əbdülməlik ibn Mərvan tərəfindən İraqa vali təyin edildi və Kufə şəhərinə gəldi. Həccacın təqib etdiyi ilk şəxslərdən biri də Süleym idi. Çünki onun Möminlərin əmiri İmam Əli (ə) ilə əlaqəsi və keçmişi hamıya məlum idi.

Bu səbəblə Həccac Kufəyə gəldikdə Süleym ibn Qeysin kitabını da götürüb şəhərdən qaçdı və İranda, Şiraz şəhəri yaxınlarında böyük bir şəhər olan Novbəndəcana məskunlaşdı. Süleym bu qaçışı zamanı yetmiş yeddi yaşında idi.

## Aban ilə tanışlığı və kitabı ona verməsi

Süleym gəldiyi bu şəhərdə Aban adında on dörd yaşlı bir gənclə tanış oldu. Əlbəttə Aban ilə aralarındakı bu tanışlığın səbəbi bizə məlum deyil. Qohumu, dostu və ya təsadüfü tanışı olduğunu bilmirik. Amma hər halda, sahib olduğumuz məlumat Süleymin Aban ibn Əbu Əyyaşın atasının evində qalmasıdır.

Süleym böyük əmanətini və ömrünün meyvəsini yaxşı qoruyacaq və onu sağlam şəkildə gələcək nəsillərə çatdıracaq etibarlı, qəlbi mətin və İmam Əlinin (ə) vilayətinə bağlı bir şəxs axtarırdı. Bu səbəblə Abanın tərbiyəsilə şəxsən məşğul olur və mövcud şərait haqqında onu məlumatlandırırdı. Aban Süleym haqqında belə deyir: "O, ibadət əhli yaşlı bir adam idi, nurlu üzü vardı. Çox çalışqan və böyük bir ruha sahib idi".

Süleym isə Aban haqqında belə deyir: "Mənim səninlə dostluğum var və mən səndə sevdiyim şeylərdən başqa bir şey görmədim".

Nəticədə Süleym kitabını təhvil verəcəyi adamın Aban olduğuna qərar verir və ölümündən əvvəl kitabı ona miras buraxır. Süleym kitabı verməzdən əvvəl Abanı əqidə və əmanətdarlıq baxımından imtahan edir. Abana üç şərt qoyur və bu şərtlər barədə ona Allahı şahid tutur: Süleym həyatda olduğu müddətdə kitabdan və onda yazılan mövzulardan heç kimə söz açmayacaq; Süleymin ölümündən sonra da kitabdan və onda yazılan mövzulardan Əhli-Beyt (ə) şiələrindən etibarlı şəxslərdən başqa heç kimə söz deməyəcək; öz ölümündən əvvəl kitabı Əhli-Beyt (ə) şiələrindən möhkəm əqidəyə və etibara sahib bir nəfərə təhvil verəcək.

Sonra kitabı qaranlıq mövzu qalmaması üçün Abana oxudu və Aban da diqqətlə dinlədi. Bu mərhələlərdən sonra Süleym kitabını Abana təslim etdi.

Süleym hicrətin 76-cı ilinin sonlarında 78 yaşında bir fars şəhəri olan Novbəndəcanda həyata vida etdi. Böyük ehtimalla həmin şəhərdə torpağa tapşırıldı.

O, ömrünün altmış ildən çoxunu Əhli-Beytin (ə) vilayətini yaşatmaq yolunda fəda etdiyi halda mövlalarına qovuşmaq üçün tələsirdi və bu kitabı böyük bir xatirə olaraq özündən sonra bizə qoydu.

# “KİTABU SÜLEYM İBN QEYS ƏL-HİLALİ”

# I HİSSƏ

# HƏDİS 1

## Peyğəmbərin (s) mübarək ömrünün son anlarında söylədikləri

Süleym deyir: Salman Farsinin belə dediyini eşitdim: “Peyğəmbərin (s) ölümü ilə nəticələnən xəstəliyi vaxtı onun yanında oturmuşdum. Fatimə (ə) içəri daxil oldu. Peyğəmbərdəki (s) zəifliyi gördükdə qəhərləndi və gözyaşları yanaqlarına axmağa başladı.

Peyğəmbər (s) buyurdu: “Ey qızım, niyə ağlayırsan?”

Dedi: “Ey Allahın elçisi! Səndən sonra özümün və övladlarımın həlak olacağından qorxuram”.

## Ali-Muhəmməd (s) Allahın yer üzündəki ən xeyirli məxluqlarıdır

Peyğəmbər (s) gözləri yaşla dolaraq dedi: “Ey Fatimə, biz o Əhli-Beytik ki, Allah bizim üçün axirəti dünya üzərinə seçib. O, ölümü bütün məxluqlarının dadacağına hökm verib. Həqiqətən, Uca Allah yer üzünə bir dəfə nəzər saldı və məni onların arasından seçdi və nəbi etdi. Sonra ikinci dəfə yer üzünə nəzər saldı, sənin ərini seçdi və səni onunla evləndirməyi, onu özümə qardaş, vəzir, vəsi seçməyimi, ümmətim arasında xəlifəm təyin etməyi mənə əmr etdi.

Sənin atan nəbi və rəsulların, ərin isə vəsi və vəzirlərin ən xeyirlisidir. Sən əhlimdən mənə qovuşacaq ilk şəxssən. Uca Allah üçüncü dəfə yer üzünə nəzər saldıqda səni, həmçinin sənin və qardaşım olan ərinin övladlarından on bir nəfəri seçdi.

## Peyğəmbərin (ə) on iki imam müjdəsi

Sən cənnət qadınlarının seyyidəsisən, iki oğlun Həsən və Hüseyn isə cənnət cavanlarının ağalarıdır. Mən, qardaşım və on bir imamlar qiyamət gününədək vəsilərik. Onlardan hər biri hidayət olunmuş hidayət edənlərdirlər.

Qardaşımdan sonra ilk vəsi Həsən, sonra Hüseyndir, sonra Hüseynin övladlarından doqquz nəfərdir ki, cənnətdə hamımız bir evdə olacağıq. Mənim mənzilimdən Allaha daha yaxın bir mənzil yoxdur. Məndən sonra İbrahim və Ali-İbrahimin mənzilidir.

## Allahın Fatiməyə (ə) ikramı

Ey qızım, məgər bilmirsən ki, ümmətimin və Əhli-Beytimin ən xeyirlisi ilə səni evləndirməyi Allahın sənə olan ikramıdır?! Qardaşım ümmətimin sülhdə ən öndə olanı, ən əzəmətli helm sahibi, ən elmlisi, ən möhtərəm nəfs sahibi, ən doğru danışanı, ən şücaətli qəlb maliki, ən səxavətlisi, dünyada ən zahidi və cihadda ən güclüsüdür".

Peyğəmbərin söylədiklərindən Fatimə (ə) sevindi.

## Əmirəl-mömininin (ə) üstün xüsusiyyətləri

Sonra Peyğəmbər (s) ona dedi: "Həqiqətən də, Əli ibn Əbu Talibin səkkiz üstün xüsusiyyəti vardır ki, insanlardan heç birində yoxdur:

Hər kəsdən öncə Allaha və rəsuluna iman gətirib, ümmətimdən heç kim bu işdə ondan önə keçməyib. Allahın kitabının və sünnətimin bütün elmini bilir, ərindən savayı ümmətimdən heç kim onların hamısının elminə sahib deyil. Çünki Allah mənə yalnız mənim və onun biləcəyi elmləri öyrətdi, hətta bu elmləri mələklərinə və rəsullarına belə öyrətməyib. Bu elmləri mənə öyrətdi və bunları Əliyə də öyrətməyimi mənə əmr etdi. Mən də bu əmri yerinə yetirdim. Ondan başqa ümmətim arasında bütün elmimi, fəhmimi və fiqhimi bilən yoxdur.

Ey qızım, sən onun zövcəsisən, onun iki övladı - nəvələrim Həsən və Hüseyn bu ümmətin nəvələridir. Əli ümməti yaxşılıqlara dəvət edən və pisliklərdən çəkindirəndir. Həqiqətən də Uca Allah ona hikmət və fəsahətli xitab bəxş edib.

## Əhli-Beytin (ə) məxsus üstünlüklər

Ey qızım, biz bir Əhli-Beytik ki, Uca Allah bizə yeddi xüsusiyyət bəxş etmişdir, nə əvvəldəkilər, nə də sonradakılar bu xüsusiyyətlərə sahib deyillər: mən nəbi və rəsulların ağası və ən xeyirlisi, vəsim isə vəsilərin ən yaxşısıdır, məndən sonrakı vəzirlər də vəzirlərin ən xeyirliləridir, şəhidimiz isə şəhidlərin ən xeyirlisidir, yəni əmim Həmzə.

Dedim: Ey Allahın elçisi! Sizinlə birgə savaşan şəhidlərin ağasıdır?

Dedi (s): Xeyr, nəbi və vəsi şəhidlərdən savayı, bütün şəhidlərin ağasıdır.

İki hicrətdə olmuş, iki qanlı qanadın qanad sahibi, cənnətdə mələklərlə birgə uçan Cəfər ibn Əbu Talib bizdəndir. iki oğlun Həsən və Hüseyn ümmətin nəvələri və cənnət cavanlarının ağalarıdır. Canım əlində olan Allaha and olsun ki, bu ümmətin Mehdisi də bizdəndir. Yer üzü zülm və günahla dolduğu zaman Allah onun vasitəsilə yer üzünü haqq və ədalətlə dolduracaq".

Fatimə (ə) dedi: “Ey Allahın elçisi! Bu adlarını çəkdiklərinizdən ən fəzilətlisi hansıdır?”

Peyğəmbər (s) buyurdu: “Qardaşım Əli ümmətin ən fəzilətlisidir. Həmzə və Cəfər isə Əlidən, səndən, iki övladın Həsən və Hüseyndən, bu oğlunun (əli ilə Hüseynə işarə etdi) sonuncusu Mehdi olacaq vəsi övladlarından sonra ümmətin ən fəzilətliləridir. Əvvəldə olan sonrakından daha fəzilətlidir. Çünki əvvəldəki sonrakının imamı və sonrakı isə əvvəlkinin vəsisidir. Biz bir Əhli-Beytik ki, Uca Allah bizim üçün axirəti dünyaya seçmişdir.

## Ondan sonra ümmətin Əliyə (ə) qarşı çıxması haqda Peyğəmbərin (s) xəbəri

Sonra Peyğəmbər (s) Fatiməyə, ərinə və iki oğluna baxıb dedi: “Ey Salman, Allahı şahid tuturam ki, bunlarla savaşanla savaşdayam, bunlarla sülhdə olanlarla sülhdəyəm. Həqiqətən də onlar mənimlə birgə cənnətdədirlər.

Sonra Peyğəmbər (s) üzünü Əliyə (ə) tutub dedi: “Ey Əli, məndən sonra Qüreyşdən şiddət görəcəksən, onlar sənə qarşı çıxacaq və zülm edəcəklər. Əgər onlara qarşı yardımın olsa, onlarla mübarizə apar və sənə qarşı çıxanlarla yardımçılarınla birgə savaş. Əgər yardımın olmasa, səbr elə, mübarizədən imtina et, özünü təhlükəyə atma. Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir. Harunda sənin üçün gözəl nümunə var. Həqiqətən də o qardaşı Musaya dedi: ***“Qövmüm məni zəiflətdi və az qaldı ki, məni öldürsünlər”.***

# HƏDİS 2

## Peyğəmbərdən (s) sonra ümmətin Əliyə (ə) qarşı çıxması

Süleym deyir ki, Əli ibn Əbu Talib (ə) ona dedi: Peyğəmbərlə birgə Mədinənin küçələri ilə gedirdik. Bir bağın yanından keçdik. Dedim: "Ey Allahın elçisi, nə gözəl bağdır!" Dedi: "Bəli, nə gözəldir! Sənin cənnətdəki bağçan daha gözəldir".

Sonra başqa bir bağın yanından keçdik. Dedim: "Ey Allahın elçisi, nə gözəl bağdır!" Dedi: "Bəli, nə gözəldir! Sənin cənnətdəki bağçan daha gözəldir".

Beləliklə yeddi bağın yanından keçdik, hər birinin də yanından keçərkən "Ey Allahın elçisi, nə gözəl bağdır!" dedim, o isə: "Bəli, nə gözəldir! Sənin cənnətdəki bağçan daha gözəldir" cavabını verdi.

## Yalqız və tənha şəhid İmam Əli (ə)

Yolun sonuna çatdıqda məni qucaqladı, gözləri yaşla dolmuş və hər an hönkür-hönkür ağlayacaq kimi bir halda dedi: "Tənha şəhidə atam fəda olsun!" Dedim: "Ey Allahın elçisi! Niyə ağlayırsan?" Dedi: "Bir dəstə insanın qəlbindəki sənə qarşı olan nifrət yalnız mənim ölümümdən sonra zahir olacaq. Onlarda Bədrin qəzəbi və Ühüdun heyfi var".

Dedim: "(Həmin vaxt) dinim salamatda olacaq?" Dedi: "Bəli, dinin salamatda olacaq".

## Peyğəmbərin (s) İmam Əliyə (ə) tapşırığı

Ey Əli, müjdələn! Həqiqətən də sənin həyatın da, ölümün də mənimlədir. Sən mənim qardaşım, vəsim, səfim, vəzirim, əhdlərimi yerinə yetirən, borclarımı ödəyən, boynumda olanları icra edən, əmanətlərimi qaytaran, ümmətin nakisinləri (beyəti pozanlar), qasitinlər (itaətdən boyun qaçıranlar) və mariqinlərlə (dindən çıxan Xəvariclə) sünnətim uğrunda savaşansan. Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbətindədir. Sənin üçün Harunda gözəl nümunə var. (Belə ki,) onu da qövmü zəiflətmiş və az qılırdı ki, öldürəcəkdilər".

Qüreyşin sənə olan zülmünə və sənə qarşı çıxmalarına səbr elə. Sən Harunun Musaya və ona tabe olanların nisbətindəsən, onlar (Qüreyş) isə buzovun

və ona tabe olanların nisbətindədir. Musa Harunu öz qövmünə xəlifə olaraq təyin etdikdə ona belə əmr etmişdi: Əgər azsalar və sənin də dəstəyin olsa, yardımçılarınla birgə onlara qarşı mübarizə apar. Əgər yardımın olmasa, özünü təhlükəyə atma, canını qoru və onlarla əlaqəni kəsmə.

## Ümmətin ixtilafı İlahi imtahandır

Ey Əli, Allah elə bir rəsul göndərmədi ki, ona qövmündən bir dəstə istəyərək, bir dəstə də istəmədən təslim olmasınlar. Sonra Allah, istəmədən təslim olanları istəyərək təslim olanların üzərinə müsəllət etdi və onlarla savaşdılar ki, mükafatları daha əzəmətli olsun.

Ey Əli, hər bir peyğəmbərdən sonra ümmətlər arasında çıxan ixtilaflarda batil əhli haqq əhlinə üstün gəlib. Uca Allah bu ümmət arasında da ixtilafların olacağına hökm edib. Əgər Allah istəsəydi onları hidayət üzərinə cəm edərdi, ta ki, məxluqlarından iki nəfər bir-birilə əsla ixtilaf eləməz, onun əmrləri barədə heç vaxt münaqişəyə düşməz və rəyət əhli əsla fəzilət sahibinin öz üzərindəki fəzilətini danmazdı. Əgər Allah istəsə intiqamını tezləşdirər, hökmünə dəyişiklik edər və nəticədə zalım inkar olunar, haqq bilinər və haqqın harada olduğu əyan olar. Lakin dünyanı əməl evi, axirəti isə qərar yeri etmişdir. Belə ki, ***"Allah pislik edənlərə əməllərinin cəzasını verəcək, yaxşılıq edənləri isə ən gözəl mükafatla mükafatlandıracaqdır!"***[1]

Həmd olsun Allah, şükür edirəm nemətlərinə, imtahanları qarşısında səbir edir və qəzalarına da təslim olub, razılıq göstəririm.

[1] "ən-Nəcm" surəsi, ayə 31.

# HƏDİS 3

## Bərra ibn Azibin dilindən Səqifə hadisəsi

Süleym deyir ki, Bərra ibn Azibin belə dediyini eşitdim: "Peyğəmbər (s) həyatda olarkən də, onun vəfatından sonra da Bəni-Haşimi olduqca çox sevirdim.

## Allahın elçisinə (s) qüsl verilməsi

Peyğəmbər (s) vəfat edərkən Əlidən (ə) başqasının ona qüsl verməməsini tapşırdı. Çünki ondan başqası onun övrətini əsla görməməli idi. Əgər bir şəxs onun övrətini görsəydi, mütləq gözləri kor olardı.

Əli (ə) dedi: "El Allahın rəsulu, səni qüsl edərkən mənə kim yardım edəcək?" Buyurdu: "Mələklərdən bir ordu ilə Cəbrail".

Əli (ə) Peyğəmbərə (s) qüsl verir, Fəzl ibn Abbas gözləri bağlı vəziyyətdə onun üçün su tökür mələklər isə onu lazım olan tərəfə çevirirdilər. Əli (ə) Peyğəmbərin (s) köynəyini çıxarmaq istədikdə bir səs ucadan səsləndi: "Ey Əli, Peyğəmbərinin köynəyini çıxarma". Əli əlini köynəyin altına salıb onu yudu, sonra hənut vurarkən və kəfənləyərkən köynəyini çıxardı.

## Səqifə əhlindən Əhli-Beyt (ə) üçün gözlənilməz addım

Bərra ibn Azib deyir: "Peyğəmbər (s) vəfat etdikdə Qüreyş bu işin Bəni-Haşimdən alınmasına qarşı çaxacaqlarından qorxdu.

Camaat yaşlı səhabəyə beyət etdikdə məni Peyğəmbərin (s) vəfatına görə övladını itirən şəxs kimi hüzn və kədər boğdu.

İnsanların üzünə tərəddüdlə baxmağa başladım. Haşimilər Peyğəmbərin (s) qüslü və hənutlanması ilə məşğul idilər. Bu zaman Səd ibn Ubadənin və onu cahillikdə izləyən yoldaşlarının sözləri mənə çatdı. Bundan sonra mən onlarla oturmadım və bu işin axırının yaxşı olmayacağını anladım.

Məscidlə onların arasında gedib-gəlir, Qüreyşin üzünə baxırdım. Sonra bir anda yaşlı səhabəni və Səhhakın oğlu gözdən itirdim. Bir müddət sonra iki şeyxi və Əbu Ubeydənin Yəmən geyimində gəldiklərini gördüm. Onlar bir topa şəklində dayanmış və yanlarından keçənlərə müraciət edirdilər. Onu tanıdıqları zaman həmin şəxsin istəyib-istəmədiyindən asılı olmayaraq əlini uzadıb yaşli səhabənin əlinə tərəf çəkir və yaşlı səhabənin əlinə sürtürdülər.

Ağlım bundan narahatlıq keçirib inkar etməyə başladı və bunlar Peyğəmbərin (s) müsibətilə bərabər baş verirdi. Tez çıxıb məscidə, sonra da Bəni-Haşimin yanına gəldim. Qapı içəridən bağlı idi. Qapını nəzakətlə döyüb dedim: "Ey Əhli-Beyt!". Fəzl ibn Abbas çıxdı, ona dedim: "Camaat yaşlı səhabəyə beyət edir". Abbas dedi: "Əlləriniz zamanın sonunadək bununla kirləndi. Amma mən sizə demişdim, siz isə mənə qarşı çıxdınız".

## Saleh səhabələr arasında Səqifə gecəsi baş verənlər

İçimdəkilərə güclə səbr edirdim. Gecə düşdükdə məscidə tərəf çıxdım. Ora çatdıqda Peyğəmbərin (s) Qurandan dodaqaltı oxuduqlarını xatırladım. Yerimdən qalxıb Bəni-Bəyazə tərəfə yollandım. Bir nəfərin minacat elədiyini gördüm. Onlara yaxınlaşdıqda susdular. Çevrilib getdim. Onlar məni tanıdılar, lakin mən onları tanımadım. Məni çağırdılar, onlara yaxınlaşdım. Bunlar Miqdad, Əbu Zərr, Salman, Əmmar ibn Yasir, Ubadə ibn Samit, Hüzeyfə ibn Yəmani və Zübeyr ibn Əvvam idilər. Hüzeyfə dedi: "And olsun Allaha, onlar mənim sizə xəbər verdiklərimi edəcəklər. Vallahi, yalan söyləmirəm".

Bir dəstə məsələni mühacir və ənsar arasında şuraya qaytarmaq istəyirlər. Hüzeyfə dedi: "Gəlin Ubey ibn Kəbin yanına gedək. O da mənim bildiklərimi bilir".

Ubey ibn Kəbin yanına getdik, qapısını döydük. Çıxıb qapının arxasında dayandı və dedi: "Siz kimsiniz?". Miqdad səsləndi. Ubey dedi: "Nə lazımdır?". Miqdad dedi: "Qapını aç, buraya bizi gətirən məsələ qapı arxasında danışılası deyil". Dedi: "Qapını açmayacağam. Nə üçün buraya gəldiyinizi bilirəm. Siz bu məsələ ilə bağlı mənim nəzərimi öyrənmək istəyirsiniz".

Dedik: "Bəli". Dedi: "Hüzeyfə də aranızdadır?" "Bəli" dedik. Ubey dedi: "Mənim sözlərim elə Hüzeyfənin sözləridir. Bütün bu baş verənlər bitmədikcə mən qapını heç kəsə açmayacağam. Ondan sonra olacaqlar isə bundan daha pisdir. Bütün şikayətlər Allahadır".

Biz qayıtdıq. Ubey ibn Kəb isə evinə girdi.

## Səqifə əhlinin Abbası xilafət məsələsində dilə tutmağa çalışmaları

Dedi: Xəbər iki şeyxə çatdı. Əbu Ubeydə ibn Cərrahın və Muğeyrə ibn Şöbənin yanına gəlib fikirlərini soruşdular. Muğeyrə ibn Şöbə dedi: "Fikrim budur ki, Abbas ibn Əbdül-müttəliblə görüşəsiniz, ona da bu məsələdə bir pay ayırasınız ki, həm özü, həm də ardınca gələnləri üçün nəsibi olsun. Bəlkə bu-

nunla onu Əli ibn Əbu Talibin yanında olmaqdan çəkindirəsiniz. Əgər Abbas ibn Əbdül-müttəlib sizinlə birgə olsa, bu, insanlara bir dəlil olacaq, işiniz asanlaşacaq və Əli ibn Əbu Talib tək qalacaq".

Peyğəmbərin (s) vəfatının ikinci gecəsində onların dördü də Abbas ibn Əbdül-müttəlibin yanına gəldilər.

Yaşlı səhabə sözə başlayıb Allaha həmd-sənalar söylədi. Sonra dedi: "Allah Muhəmmədi sizə peyğəmbər və möminlərə də mövla göndərmişdir. Onların arasında olmaqla Allah ehsan etmişdir. Sonra da Allah onu öz yanına çağırmış, insanlara isə özləri üçün məsləhətli, barəsində müttəfiq olub, ixtilafa düşməyəcəkləri bir şəxsi seçməyi tapşırmışdır. Onlar da məni vəli və öz işləri üçün başçı seçmişlər. Mən də bunu üzərimə götürməyə razılıq vermişəm. Allahın yardımı ilə nə zəifliyim, nə acizliyim və nə də ki, qorxaqlığım var. Bu işdəki uğurum yalnız Allahdan asılıdır.

Lakin hələ də bir narazı var ki, camaatın sözünün əksinə danışır, sizi özünə sığınacaq bilir, siz də ona və onun bu sözlərinə bir qoruyucu qala olursunuz. İndi siz, camaatın üzərinə müttəfiq olduqlarını qəbul edirsiniz, ya da onların meyl etdiklərinə arxa çevirirsiniz? Biz yanına gəlməklə bu işdə sənin və səndən sonra gələnlərin də bir payının olmasını istəyirik. Sən Peyğəmbərin (s) əmisisən. İnsanlar sənin və yoldaşlarının məqamını bildikləri üçün bu məsələni sənə ərz etməyi məsləhət bildilər".

Səhhakın oğlu: "Allaha and olsun, ey Bəni-Haşim, bu, ciddi məsələdir. Həqiqətən də Peyğəmbər bizdən və sizdəndir. Biz öz hacətimiz üçün sizin yanınıza gəlmədik. Lakin müsəlmanların barəsində icma etdikləri bir şəxs haqda narazılıq yaradılması bizi məcbur elədi. Sizin və onların üzərini alacaq bədbəxtlikdən çəkinsin. Özünüzü və camaatı düşünüb nəzər yürüdün" -deyib susdu.

## Abbasın Səqifə əshabı başçılarına cavabı

Abbas sözə başlayıb dedi: "Həqiqətən də Uca Allah vəsf etdiyiniz kimi, Muhəmmədi (s) peyğəmbər və möminlər üçün vəli göndərdi. Əgər bu iş peyğəmbərin (s) yanında olsa, bu məsələni ərz edib haqqımızı alardım, əgər möminlərin yanında olsa, elə biz də möminlərdənik. Bu məsələn barəsində nə təqdimatımız olub, nə məşvərət etmişik, nə kimisə vəzifələndirmişik. Bu məsələni sənin üçün bəyənməmişik. Əgər möminlərdən sayılırıqsa, möminlər olaraq bu işi sənin üçün bəyənmirik.

"...bu işdə sənin və səndən sonra gələnlərin də bir payının olmasını istəyirik" sözünə gəldikdə, əgər bu iş həqiqətən sənə məxsusdursa, onu saxla, bizim ona

ehtiyacımız yoxdur. Əgər bu işə əncam vermək möminlərin haqqıdırsa, onların yerinə qərar verməyə ixtiyarın yoxdur. Yox, əgər bizim haqqımızdırsa, bizə (öz haqqımızdan) pay ayırmağına əsla razı deyilik.

"Həqiqətən də Peyğəmbər (s) bizdən və sizdəndir" sözünə gəlincə, həqiqətən Peyğəmbər bir ağacdır ki, biz onun budaqları, siz isə qonşularısınız. Biz ona yaxınlıqda sizdən daha üstünük.

"Bizim üzərimizi alacaq bəlalar üçün qorxursunuz" sözünüz isə, bunu artıq siz birinci olaraq eləmisiniz. Allah ən gözəl yardımçıdır!"

Onlar Abbasın yanından çıxdılar. Abbas isə bu beyti oxudu ki, mənası belədir:

Bu işin Bəni-Haşimdən və sizdən asılı olduğunu düşünmürəm.
Məgər qiblənizə ilk namaz qılan, kitab və sünnə barədə insanların ən elmlisi
Peyğəmbərə ən yaxını Əbul-Həsən deyilmi?!
O kəs ki, Peyğəmbərin qüslu və kəfənlənməsi zamanı Cəbayıl ona yardım edirdi.
Onda heç bir insanda olmayan gözəlliklər vardı.
Sizi ondan uzaqlaşdıran şəxsi məgər tanımırıqmı?!
Həqiqətən də bu beyətiniz fitnənin başıdır!

# HƏDİS 4

## Səqifə hadisəsi Salman Farisinin dilindən

### 1. Ənsarın Səqifə əhlinə qarşı dəlil göstərmələri

Əban ibn Əbu Əyyaş Süleym ibn Qeysdən rəvayət edir ki, Salman Farisinin belə dediyini eşitdi: “Peyğəmbər (s) vəfat etdikdən sonra camaat elədiyini elədi. İki şeyx və Əbu Übeydə ibn Cərrah gəldilər, ənsar onlarla Əlinin (ə) höccəti barədə mübahisə etdi. Dedilər: “Ey ənsarlar! Bu məsələdə Qüreyş sizdən daha artıq haqq sahibidir. Çünki Peyğəmbər (s) Qüreyşdəndir. Mühacirlər sizdən daha xeyirlidirlər, çünki Uca Allah onları Öz kitabında bəyan etmiş və üstün bilmişdir. Peyğəmbər də (s) buyurub: “İmamlar Qüreyşdəndir”.

### Peyğəmbərə (s) qüsl verilməsi və namaz qılınması

Salman dedi: “Əlinin (ə) yanına gəldim, o, Peyğəmbərə (s) qüsl verirdi. Belə ki, Peyğəmbər (s) Əlidən başqasının ona qüsl verməməsini vəsiyyət eləmişdi. Əli (ə) demişdi: “Ey Allahın rəsulu, bəs mənə kim yardım edəcək?” Peyğəmbər (s): “Cəbrayıl” – deyə cavab vermişdi. Əli (ə) hansı üzvü yumaq istəyirdisə, Peyğəmbərin (s) bədəni həmin tərəfə çerilirdi.

Peyğəmbərin (s) qüsl, hənut və kəfən işləri başa çatdıqdan sonra məni, Əbu Zərri, Miqdadı, Fatiməni, Həsən və Hüseyni (onlara salam olsun!) içəri çağırdı, Əli (ə) önə keçdi, biz də arxasında səf tutub namaz qıldıq. Aişə otağında idi, bundan xəbər tutmadı, Allah onun bəsirətini almışdı.

Sonra mühacirlər on nəfər və ənsar da bir o qədər adam içəri daxil oldular. Onlar içəri keçir, dua edir və çıxırdılar. Mühacir və ənsardan hər biri ona salavat deyirdilər.

### Yaşlı səhabəyə beyət edən edənlər

Salman Farisi deyir: “İmam Əli (ə) Peyğəmbərə (s) qüsl verilərkən camaatın elədiklərini ona xəbər verdim. Dedim: “Yaşli səhabə bir saatdır Peyğəmbərin (s) minbərindədir, ona sağ və sol əllə beyət edirlər”.

Əli (ə) dedi: “Ey Salman, Peyğəmbərin (s) minbərində ona ilk beyət edəni tanıyırsanmı?” Dedim: “Xeyr, tanımadım, Bəni Səidədə ənsarla mübahisə

edərkən onu Səqifədə dayanan görmüşdüm. Ona ilk beyət edən Muğeyrə ibn Şöbə, sonra Bəşir ibn Səid, sonra Əbu Übeydə ibn Cərrah, sonra Səhhakın oğlu, sonra Əbu Hüzeyfənin köləsi Salim və Muaz ibn Cəbəl idi".

İmam Əli (ə) buyurdu: "Səndən onlar barəsində soruşmuram. O minbərə çıxarkən ona beyət edən ilk şəxsin kim olduğunu bilib-bilmədiyini soruşuram". Dedim: "Xeyr, bilmirəm. Lakin əsasına söykənmiş yaşlı bir qocanı gördüm, alnında səcdədən içəri batmış bir iz vardı. Hamıdan əvvəl minbərə qalxdı, baş əyib uca səslə dedi: "Həmd olsun Allaha ki, səni bu minbərdə görməyi mənə nəsib elədi. Uzat əlini". Yaşlı səhabə əlini uzatdı, o da beyət elədi. Sonra dedi: "Bu gün sanki Adəmin günü kimidir!". Sonra aşağı düşüb məsciddən çıxdı".

İmam Əli (ə) dedi: "Ey Salman, onun kim olduğunu bilirsən?" Dedim: "Yox, onun danışığı heç xoşuma gəlmədi, sanki Peyğəmbərin (s) ölümünə sevinirdi".

İmam Əli (ə) buyurdu: "Həqiqətən də o, lənətlənmiş İblisdir".

## İblis Səqifə vasitəsilə Qədir Xum günündən intiqam aldı

Peyğəmbər (s) mənə xəbər verdi ki, həqiqətən də İblis və əshabının başçıları Qədir Xum günündə Allahın əmrilə Peyğəmbərin (s) məni təyininin şahidi oldular. Peyğəmbər (s) orada toplaşan camaata mənim onlara canlarından övla (canlarının ixtiyar sahibi) olduğumu bildirdi, bu sözlərini burada olanların burada olmayanlara çatdırılmasını istədi.

Bunu eşidən Şeytanın əshab başçılarından biri dedi: "Bunlar mərhəmət olunmuş və məsum şəxslərdir, nə sənin, nə də bizim onlara bir yol tapmamız mümkün deyil. Cammat da peyğəmbərlərindən sonra öz himayədarlarını və imamlarını tanıdılar". Şeytan hüznlü və məyus vəziyyətdə oradan ayrıldı.

Əmirəl-möminin Əli (ə) dedi: "Bundan sonra Peyğəmbər (s) mənə xəbər verdi ki, insanlar Bəni-Səidənin himayəsində bizim haqqımız və höccətimiz barədə mübahisə etdikdən sonra yaşli səhabəyə beyət edəcəklər. Sonra məscidə gəlib mənim minbərimə çıxacaq, ona ilk beyət edən kəs yaşlı ağsaqqal surətində gələn İblis olacaq. Filan, filan sözləri danışacaq. Sonra Şeytan oradan çıxıb əshabını, şeytanları və başçılarını başına toplayacaq, onlar səcdəyə gedib deyəcəklər: "Ey ağamız, ey böyüyümüz, sən Adəmi cənnətdən çıxaran kəssən!" O isə deyəcək: "Hansı ümmət öz peyğəmbərindən sonra azmadı?! Xeyr!Güman edirdiniz ki, mənim onlar üzərində hakimiyyətim və onlara bir yolum yoxdur?! Peyğəmbərlərinin onlara itaətini əmr etdiyi şəxsi necə tərk etdiklərini, mənim onlarla nə etdiyimi görmürsünüz?! Bu, elə Allahın sözüdür:

***“İblisin onlar haqqındakı zənni düz çıxdı. (İçərilərindən) bir dəstə mömin istisna olmaqla, hamısı ona uydu”.***[1]

## 2. Əmirəl-möminin (ə) nəsillər (əsrlər) üzərinə dəlillər qoyur

Salman deyir: “Gecə olduqda Əli (ə) Fatiməni (ə) ulağın üzərində oturdub, övladları Həsən (ə) və Hüseynin (ə) əllərindən tutaraq evdən çıxdılar. Mühacir və ənsardan elə bir şəxs qalmadı ki, onun evinə getməsinlər. Onlara öz haqqını xatırladır, yardım etməyə dəvət edirdi. Onun bu dəvətinə yalnız qırx dörd nəfər müsbət cavab verdi. Onlara səhər tezdən başları qırxılmış və silahları ilə birgə ölüm üzərinə beyət etmələrini əmr elədi.

Səhər açıldıqda onlardan yalnız dördü əhdinə vəfa elədi.

Salmana dedim: “O dörd nəfər kimlər idi?” Dedi: “Mən, Əbu Zərr, Miqdad və Zübeyr ibn Əvvam”.

Sonra qarşıdakı gecədə Əli (ə) yenə də onların evlərinə gedib, onlarla söhbət elədi. Yenə onlar “Səhər tezdən sənin hüzurundayıq” dedilər. Bizdən başqa səhər heç biri gəlmədi. Üçüncü gecə də onlarla söhbət elədi, söz verdilər, ancaq yenə də bizdən başqası gəlmədi.

## İmam Əli (ə) Quranı toplayıb camaata təqdim edir

Onların vəfasızlıqlarını və ona verdikləri sözlərinə xilaf çıxdıqlarını görən Əli (ə) evinə qapandı, Quranı yazmağa və (kitab şəklində) toplamağa başladı. Toplayanadək evindən çölə çıxmadı. Həmin vaxt Quran səhifələri taxtaların, dərilərin və parçaların üzərində yazılırdı.

Nazil olma ardıcıllığını, təvilini, nasix və mənsuxunu öz əli ilə yazıb bütün hamısını bir yerə cəm etdiyi vaxt yaşlı səhabə onun yanına adam göndərib çıxıb beyət etməsini istədi. Əli (ə) ona bu xəbəri göndərdi: “Mən məşğulam, and içmişəm ki Quranı bir yerə toplamadıqca yalnız namaz üçün əbamı çiynimə atacağam”.

Bu cavabdan sonra bir neçə gün susdular. İmam (ə) Quranı bir qilaf içində toplayıb bitirdi. Sonra camaatın qarşısına çıxdı, onlar Peyğəmbərin (s) məscidində Yaşlı səhabənin ətrafında toplanmışdılar. Əli (ə) uca səslə səsləndi: “Ey camaat, Peyğəmbərin (s) vəfatından bəri mən onun qüslu, kəfənlənməsi və dəfini ilə, sonra da Quranın bir kitab şəklində cəm edilməsi ilə məşğul idim. Allahın Peyğəmbərə (s) nazil etdiyi bütün ayələri burada toplamışam. Elə bir ayə

---

[1] “Səba” suərsi, ayə 20.

yoxdur ki, burada olmasın, elə bir ayə yoxdur ki, Peyğəmbər (s) mənə oxudub və təvilini öyrətməsin".

Sonra dedi: "Sabah deməyin ki: "Biz bundan qafil idik".[1]

Ardınca buyurdu: "Sonra qiyamət günü deməyin ki, mən sizi yardımıma səsləmədim, haqqımı xatırlatmadım, sizi fatihədən ta sonuncusuna qədər olan Allahın kitabına dəvət etmədim!"

Yaşli səhabənin yoldaşi dedi: "Bizim yanımızda olan Quran bizə kifayət edir, sənin əlindəkinə ehtiyacımız yoxdur".

Əli (ə) qayıdıb evinə getdi.

## Yaşlı səhabənin iddia etdiyi ləqəblərə qarşı dəlillərin göstərilməsi

Səhhakın oğlu yaşlı səhabəyə  dedi: "Əlinin yanına adam göndər ki, beyət eləsin. O beyət eləmədikcə biz rahat ola bilmərik. Əgər beyət eləsə, amanda olacağıq.

Yaşlı səhabə adam göndərib dedi: "Peyğəmbər xəlifəsinə beyət et". Elçi gəlib bunu Əliyə (ə) dedi. Əli (ə) buyurdu: "Sübhanallah! Peyğəmbərin (s) adına nə tez yalan uydurdunuz! Həqiqətən də o və onun ətrafındakılar bilirlər ki, Allah və rəsulu məndən başqasını xəlifə təyin eləməyib". Elçi qayıdıb deyilənləri onlara söylədi.

Dedi: "Get və de: "Əmirəl-möminin olan yaşlı səhabəyə beyət et!" Elçi gəlib onun dediklərini xəbər verdikdə Əli (ə) belə buyurdu: "Sübhanallah! Əhdinizi nə tez unutdunuz?! Allaha and olsun ki, bu ünvan (Əmirəl-möminin) yalnız mənim barədə həqiqətdir. Peyğəmbər (s) ona əmr etmişdi ki, mənə Əmirəl-möminin deyib salam versinlər. O, həmin vaxt yeddi nəfərdən yeddincisi idi. O və yeddi nəfərin arasında olan dostu Səhhakın oğlu həmin zaman Peyğəmbərdən (s) soruşmuşdular: "Bu, Allahdan və rəsulundan gələn bir həqiqətdir?" Peyğəmbər də (s) onlara belə cavab vermişdi: "Bəli, həqiqətən, həqiqətən də Allahdan və rəsulundan gələn bir haqdır ki, o (Əli) möminlərin əmiri, müsəlmanların ağası, üzüağların bayraqdarıdır. Qiyamət günü Allah onu Siratın üzərində oturtacaq, dostlarını cənnətə, düşmənlərini isə cəhənnəmə daxil edəcək".

Elçi qayıdıb onun söylədiklərini xəbər verdi. Cavabı eşidib həmin günü artıq susdular.

---

[1] "Əraf" surəsi, 172-ci ayəyə işarədir.

### Ənsarın üzərinə höccətin tamamlanması və verdikləri əhdə vəfa göstərmələri tələbi

Gecə olduqda Əli (ə) Fatiməni (ə) ulağın üzərində oturdub, övladları Həsən (ə) və Hüseynin (ə) əllərindən tutaraq evdən çıxdılar. Peyğəmbər səhabələrindən elə bir şəxs qalmadı ki, onun evinə getməsinlər. Onlara Allahın haqqını xatırlatdı, yardım etməyə dəvət etdi. Onun bu dəvətinə yalnız bizim dördümüzdən savayı heç kim müsbət cavab vermədi. Biz saçımızı qırxıb onun yardımında hazır idik. Zübeyr bizim aramızda ona ən çox yardım edən şəxs idi.

## 3. Fatimeyi-Zəhranın (ə) şəhadəti

### Qüreyş qəbilələrinin vəhy evinə hücumu və onu yandırması

İmam Əli (ə) insanların ona qarşı rəzilliyini və yardımı tərk etmələrini, sözlərini yaşlı səhabə üçün cəm edib onun itaətində olduqlarını, ona təzim etdiklərini görüb evinə qapandı.

Səhhakın oğlu yaşlı səhabəyə dedi: "Bir adam göndərib onun beyətini almaqdan səni çəkindirən nədir? Ondan və onunla olan dörd nəfərdən savayı artıq hamı sənə beyət eləyib". Yaşlı səhabə qəlbinin dərinliklərində bar az yumşaq, mərhəmətli və düşüncəli adam idi. O biri isə daha çox səbirsiz, amansız və müstəbid idi.

Yaşlı səhabə dedi: "Onun yanına kimi göndərək?" Səhhakın oğlu dedi: "Qunfuzu göndər, o sərt, amansız və zalım biridir. Bəni-Üdey ibn Kəb qəbiləsindən olan Tüləqadır"[1].

Onu bir neçə nəfər yardımçı ilə Əlinin (ə) yanına göndərdilər. Əlidən (ə) izin istədilər, imam Əli (ə) isə izin vermədi. Qunfuz yanındakılarla o iki nəfərin yanına qayıtdılar. O ikisi məsciddə əyləşmiş, ətraflarına isə camaat toplaşmışdı. Dedilər: "Bizə izin vermədi". Səhhakın oğlu dedi: "Gedin, izin istəyin, izin verməsə iznsiz içəri daxil olun!!"

Onlar gəlib qapının qarşısında dayanıb izin istədilər. Fatimə (ə) dedi: "İzin verilmədən içəri daxil olmanız qadağandır". Gələnlər geri qayıtdılar, yalnız lənətlənmiş Qunfuzdan başqa. Dedilər: "Fatimə filan, filan sözləri dedi və izni olmadan evinə girməyimizi qadağa elədi". Səhhakın oğlu qəzəbləndi və dedi: "Bizim qadınla nə işimiz var?!"

---

[1] Tüləqa – Məkkə Peyğəmbər (s) tərəfindən fəth edilərkən (əsir götürülüb sonra) azad edilənlərə deyilir.

Sonra ətrafındakı camaata səslənərək odun gətirmələrini tələb elədi. O özü də odun daşıyırdı. Odunları Əlinin (ə) Fatimənin (ə) və iki övladının evinin ətrafına yığdılar. Sonra yaşlı səhabənin yoldaşı Əli (ə) və Fatimənin (ə) eşidəcəyi səviyyədə uca səslə dedi: “Ey Əli, Allaha and olsun ki, əgər çıxıb Peyğəmbərin (s) xəlifəsinə beyət eləməsən bu evi yandıracağam!”

Fatimə (ə) dedi: “Ey Səhhakın oğlu, bizim səninlə nə işimiz!” Yaşlı səhabənin yoldaşı dedi: “Qapını aç, yoxsa evinizi yandıracağam”. Fatimə (ə) dedi: “Ey Səhhakın oğlu, evimə daxil olmaqda Allahdan qorxmursanmı?!” O, buradan getməyəcəyini bildirdi.

Yaşlı səhabənin yoldaşı od gətirib qapını yandırdı, qapı yanmağa başladıqda onu sındırıb içəri daxil oldu. Fatimə (ə) onu qarşılayıb qışqırdı: “Ey atacan, ey Rəsulullah!” Yaşlı səhabənin yoldaşı qınında olan qılıncını qaldırıb ona böyründən zərbə endirdi. Fatimə (ə) “Ey atacan!” deyə fəryad etdi. Yaşlı səhabənin yoldaşı qamçını qaldırıb onun qoluna vurdu. Xanım “Ey Rəsulallah! Səndən sonra o iki nəfər necə pisliklər edirlər!”.

## İmam Əlinin (ə) Peyğəmbər (s) qızının müdafiəsinə qalxması

Əli (ə) atılıb onun yaxasından yapışdı və yerə yıxdı, burnuna və boğazına zərbə endirdi, öldürmək istədi. Bu zaman Peyğəmbərin (s) sözünü və ona olan nəsihətini xatırladı. Dedi: “Ey Səhhakın[1] oğlu! Muhəmmədi peyğəmbərliklə kəramətləndirən Allaha and olsun ki, Allahın əzəl yazısı və Peyğəmbərin (s) məndən aldığı əhd olmasaydı, sən mənim evimə heç vaxt daxil ola bilməzdin”.

* * *

Səhhakın oğlu yardım üçün adam göndərdi. Adamlar gəlib içəri girdilər, Əli (ə) qılıncına əl atdı, Qunfuz yaşlı səhabənin yanına qayıtdı, yaşlı səhabə Əlinin (ə) qılıncla onun qarşısına çıxacağından qorxurdu. Belə olduqda başına gələcəkləri bilirdi.

Yaşlı səhabə Qunfuza dedi: “Qayıt, əgər çıxmasa evinə hücum çəkin, yenə də çıxmaqdan imtina eləsə evini yandırın”. Lənətlənmiş Qunfuz qayıdıb yoldaşları ilə izinsiz içəri daxil oldular. Əli (ə) qılıncına sarıldı, onu qabaqladılar, onların sayı olduqca çox idi. Bəziləri qılınclarını çıxarıb onu əhatəyə aldılar, boynuna ip atdılar!!

[1] İkinci xəlifənin ata anasının adıdır.

Qapının qarşısında Fatimə (ə) Əli (ə) ilə onların arasına girdi. Qunfuz məlun onu qamçı ilə vurdu. Xanım vəfat edərkən həmin qamçının yeri bir qolbaq kimi onun biləyində idi. Allah Qunfuza və onu göndərənlərə lənət eləsin.

## 4. İmam Əlinin (ə) beyət eləməsi

Sonra Əlini (ə) yaşlı səhabənin və Səhhakin oğlunun yanına gətirdilər. Səhhakın oğlu əlində qılıncını Əlinin başı üzərində tutmuşdu. Xalid ibn Vəlid, Əbu Übeydə ibn Cərrah, Əbu Hüzeyfənin köləsi Salim, Muaz ibn Cəbəl, Muğeyrə ibn Şöbə, Üseyd ibn Həzir, Bəşir ibn Səid və digərləri yaşlı səhabənin yanında oturmuşdular. Hamısının üzərində silahlar vardı.

## Fatimənin (ə) evinə daxil olma

Salmana dedim: “Fatimənin (ə) evinə iznsiz daxil oldular?” Dedi: “Bəli, Allaha and olsun, o başını örtməyə də imkan tapmadı, “Atacan, vah Rəsulallah, gözlərinin üstü qəbrində hələ torpaqla örtülməmiş yaşlı səhabən və səhhakin oğlu necə də pisdir!” deyə yüksək səslə fəryad edirdi. Yaşlı səhabə və yanındakılar bu mənzərədən hönkürüb ağlayırdılar, Səhhakın oğlu, Xalid ibn Vəlid və Muğeyrə ibn Şöbədən başqa...! Səhhakın oğlu deyirdi: “Biz qadınlara və onların sözlərinə etina etmərik!”

## İmam Əli (ə) Qüreyşə dəlillər təqdim edir

İmam Əlini (ə) yaşlı səhabənin yanına gətirdilər. İmam Əli (ə) deyirdi: “Allaha and olsun ki, əgər qılıncım əlimdə olsaydı məni heç vaxt buraya gətirə bilməzdiniz. And olsun ki, sizinlə mübarizədən çəkinmirəm. Əgər qırx nəfər yardımçım olsaydı sizin bu camaatınızı pərəm-pərəm salardım. Lakin, Allah mənə beyət edib, sonra beyətindən üz döndərən camaata lənət eləsin!”.

Yaşlı səhabə Əlini görüb uca səslə dedi: “Onu buraxın getsin”. Əli (ə) dedi: “Ey yaşlı səhabə, nə tez Peyğəmbərə qarşı çıxdınız?! Hansı haqq və nəyə əsasən camaatı özünə beyətə çağırırsan?! Məgər dünən (Qədir Xum günü) Allahın və Peyğəmbərinin əmrilə mənə beyət eləmədinizmi?”

Qunfuz (l.ə.) onunla Əlinin (ə) arasına girməyə çalışan Fatiməyə (ə) qamçı ilə zərbə endirmişdi. Səhhakın oğlu onun yanına adam göndərmiş və demişdi: “Əgər Fatimə (ə) mane olmağa çalışsa, onu vur!”. Qunfuz evinin qapısı qarşısında onun qolunun altına zərbə endirmiş, bunun nəticəsində qabırğası sınmış və bətnindəki uşaq düşmüşdü. O xanım da bundan vəfat edərək şəhadətə qovuşmuşdu.

Yaşlı səhabə yanına gətirildikdən sonra Səhhakın oğlu Əliyə (ə) dedi: “Beyət elə, bu hadisələri özündən uzaqlaşdır!” Əli (ə) dedi: “Əgər etməsəm nə edəcəksiniz?” Dedilər: “Səni zəlil vəziyyətdə qətlə yetirəcəyik”. Dedi: “Demək Allah bəndəsini və Peyğəmbərin (s) qardaşını qətlə yetirəcəksiniz?!” Yaşlı səhabə dedi: “Allahın bəndəsini bəli, amma Peyğəmbərin qardaşı olduğunu təsdiq etmirik”. Əli (ə) dedi: “Peyğəmbərin mənimlə öz arasında qardaşlıq yaratdığını inkarmı edirsiniz?” Dedi: “Bəli, inkar edirik”. Bu sualı onlara üç dəfə verdi.

Sonra Əli (ə) onlara yaxınlaşıb dedi: “Ey müsəlmanlar, mühacirlər və ənsar! Sizi Allaha and verirərm, Qədir Xum günü Peyğəmbərin filan-filan, Təbuk günündə isə filan-filan sözləri dediyini eşitmədinizmi?! İmam (ə) onlara Peyğəmbərin (s) camaat arasında söylədiyi açıq-aydın sözlərini bir-bir xatırlatdı. Onlar da: “İlahi, bəli, elədir” dedilər.

* * *

İnsanların Əliyə (ə) kömək edəcəyindən qorxan yaşlı səhabə Əliyə (ə) dedi: “Sənin söylədiklərinin hamısı haqdır, bunları qulaqlarımızla eşitmiş, anlamış və qəlbimizdə qorumaqdayıq. Lakin bunlardan sonra Peyğəmbərin (s) belə söylədiyini eşitməmisən: “Biz Allahın seçdiyi Əhli-Beytik, Allah bizi seçmiş və axirəti bizim üçün dünyadan üstün tutmuşdur. Allah bizim üçün peyğəmbərliklə xilafəti bir yerdə (bu dünyada) cəm etmədi”.

İmam Əli (ə) buyurdu: “Buna səninlə birgə Peyğəmbər səhabələrindən kimsə şahid olubmu?” Səhhakın oğlu dedi: “Peyğəmbər xəlifəsi düz deyir, bunu söylədiyi kimi Peyğəmbərdən eşitmişəm. Əbu Übeydə, Əbu Hüzeyfənin köləsi Salim və Muaz ibn Cəbəl dedilər: “Düz deyir, bunu Peyğəmbərdən eşitmişik”.

## Əmirəl-möminin (ə) səhifəni ifşa edir

İmam Əli (ə) onlara dedi: “Siz Kəbədə imzaladığınız o lənətlənmiş kağıza vəfa göstərirsiniz. Orada yazmışdınız: “Əgər Allah Muhəmmədi öldürsə, yaxud ölsə bu işdə (xilafət məsələsində) Əhli-Beyti yaxına buraxmayacağıq”.

Yaşlı səhabə dedi: “Sən bunu haradan bilirsən? Sənə bu barədə məlumat verməmişdik!” Əli (ə) dedi: “Sən ey Zübeyr, Salman, Əbu Zərr və Miqdad! Allah və İslam haqqına sizdən soruşuram, bunu Peyğəmbərin (s) söyləyib və siz də eşitmədinizmi: “Filankəs, filankəs (o beş nəfərin hamısının adlarını sadaladı) öz aralarında bir yazı yazıblar, əgər ölsəm və ya öldürülsəm nə edəcəkləri barədə və əhdləşiblər”. Dedilər: “İlahi, elədir!” Bunu Peyğəmbərin (s) sənə

söylədiyini eşitmişik: "Ya Əli, onlar öz aralarında nə edəcəkləri barədə əhd bağlayıblar, bir yazı ilə bunu imzalayıblar ki, əgər (Muhəmməd (s)) ölsə və ya öldürülsə sənə qarşı çıxacaq və bu işdən kənarda tutacaqlar".

Sən də demişdin: "Atam və anam sənə fəda olsun, ey Rəsulallah! Bu baş verdikdə mən nə edim?" Peyğəmbər (s) cavabında sənə buyurmuşdu: "Əgər yardımın olsa onlara qarşı mübarizə apar, əgər yardımın olmazsa, beyət et və qanını qoru".

İmam Əli (ə) dedi: "Allaha and olsun ki, əgər mənə beyət edən qırx nəfər mənə vəfa göstərsəydilər, Allah yolunda sizinlə mübarizə aparardım. Lakin, Allaha and olsun, qiyamətə qədər ikinizin ardınca sizdən heç kim onu əldə edə bilməyəcək.

## Uydurulmuş hədisin Allahın kitabına əsasən rədd edilməsi

Sizin Peyğəmbərə atdığınız iftiranı Allahın kitabındakı bu sözü inkar edir: ***"Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeylərə görə insanlara həsəd aparırlar? Halbuki Biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk (hökmranlıq) bəxş etmişdik"***[1] Kitab nübuvvətdir, hikmət sünnətdir, mülk xilafətdir, biz isə Ali-İbrahimik.

## Miqdad, Salman və Əbu Zərrin Əlini (ə) müdafiə etməsi

Miqdad ayağa qalxıb dedi: "Ey Əli, mənə nə əmr edirsən? Allaha and olsun ki, əgər əmr etsən qılıncımı çıxarıb zərbə endirərəm, əgər istəsən onu qınında saxlayaram". Əli (ə) dedi: "Ey Miqdad, qınında saxla, Peyğəmbərin (s) əhdini və mənə tövsiyə etdiklərini xatırla".

Mən[2] də ayağa qalxıb dedim: "Canım əlində olana and olsun, əgər ədalətsizliyi dəf etməyimi, Allah üçün dini izzətli edəcəyimi bilsəm, qılıncımı boynuma salıb, sonra bir-bir qarşıma çıxanınızın boynunu vuraram. Peyğəmbərin qardaşı, vəsisi, ümməti arasında xəlifəsi və (Peyğəmbərin (s)) övladlarının atasının üzərinə atılmısınız?! Bəla ilə müjdələnin, artıq rahatlığınız bitəcək!".

Əbu Zərr ayağa qalxıb dedi: "Ey üsyanla kədərləndirdiyini Peyğəmbərdən sonra çaşqınlıqda qalmış ümmət! Həqiqətən Uca Allah buyurur: ***"Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini aləmlər (məxluqat, insanlar, bəşər***

---

[1] "Nisa" surəsi, ayə 54.

[2] Danışan Salman Farisidir.

***övladı) üzərində seçilmiş (üstün) etdi. Onlar biri digərindən törəmiş bir nəsil idilər. Allah eşidəndir, biləndir!”***[1]

Ali-Muhəmməd Nuhun və İbrahimin, Ali-İbrahimin, İsmailin seçilmiş nəslindəndirlər. Peyğəmbərin Əhli-beyti risalət məkanı və mələklərin gedib-gəldiyi evdir. Onlar ucaldılmış səma, hündür dağlar, örtülmüş Kəbə, saf və aydın göz, yol göstərən ulduzlar və mübarək ağac kimidirlər. Nuru işıq saçır, (çırağı yandıran) yağı bərəkətlidir. Muhəmməd peyğəmbərlərin sonuncusu, Adəm övladlarının ağası, Əli isə vəsilərin vəsisi, təqvalıların öndəri, alnı nurluların rəhbəridir. O Siddiqul-əkbər (ən böyük siddiq), Faruqul-əzəm (ən əzəmətli Faruq), Muhəmmədin vəsisi, elminin varisi, möminlərə canların ən çox ixtiyar sahibidir. Necə ki, Uca Allah buyurur: ***“Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır. (Möminlər peyğəmbəri özlərindən çox sevməli, onun hər bir əmrini sözsüz yerinə yetirməlidirlər). Onun övrətləri (möminlərin) analarıdır (heç kəs onlarla evlənə bilməz). Qohumlar Allahın Kitabında möminlərdən və mühacirlərdən daha yaxındırlar. Amma (qohum olmayan) dostlarınıza bir yaxşılıq edə bilərsiniz. Bu (hökm) kitabda yazılmışdır”.***[2] Allahın önə çəkdiyini önə çəkin, Allahın geridə saxladığını geridə saxlayın, vilayət və mirası Allahın qərar verdiyi şəxslərə təqdim edin”.

* * *

Yaşlı səhabə minbərdə oturmuş olduğu halda Səhhakın oğlu qalxıb ona dedi: “Minbərdə oturmusan, bu oturan adam isə savaş açır, hələ də sənə beyət etmir? Əmr elə boynunu vuraq! (Həsənlə Hüseyn də orada idilər) Səhhakın oğlunun bu sözlərini eşidən Həsən (ə) və Hüseyn (ə) ağlamağa başladılar. Əli (ə) onları bağrına basıb dedi: “Ağlamayın, Allaha and olsun ki, bu ikisinin atanı öldürməyə qüdrətləri çatmaz”.

## Ümmü Əymənin və Büreydənin imam Əlini (ə) müdafiə etməsi

Peyğəmbərin (s) tərbiyəçisi Ümmü Əymən gəlib dedi: “Ey Quhafənin oğlu, həsəd və nifaqınız nə tez zahir oldu?!” Səhhakın oğlu ona məsciddən çıxmağı əmr elədi və o da çıxdı. Səhhakın oğlu dedi: “Bizim qadınlarla nə işimiz var!”.

Büreydə Əsləmi qalxıb dedi: “Ey Səhhakın oğlu, Peyğəmbərin qardaşının, Peyğəmbər övladlarının atasının üzərinə atılırsan?! Sən isə Qüreyşin arasında hamının bildiyi şeylərlə tanınırsan! Məgər Peyğəmbər (s) sizin ikiniz barədə

[1] “Ali-İmran” surəsi, ayə 33-34.
[2] “Əhzab” surəsi, ayə 6.

belə deməyibmi: "Əlinin yanına gedin, onun Möminlərin əmiri olaraq salamlayın"? Siz isə demişdiniz: "Bu, Allahın və rəsulunun əmrilədir?" O da "Bəli, (Allahın və rəsulunun əmri olaraq)" cavab vermişdi.

Yaşlı səhabə dedi: "Bu olub, lakin Peyğəmbər bundan sonra deyib: "Əhli-Beytim üçün nübuvvət və xilafət əsla bir yerdə cəm olmayacaq". Büreydə dedi: "Allaha and olsun ki, Peyğəmbər (s) belə söz deməyib. And olsun ki, sənin əmir olduğun bir şəhərdə əsla qalmaram!".

Səhhakın oğlunun əmrilə onu vurub qovdular.

## İmam Əli (ə) necə beyət etdi

Sonra dedi: "Ey Əbu Talibin oğlu, qalx və beyət elə!" Əli (ə) dedi: "Əgər etməsəm?" Səhhakın oğlu dedi: "O zaman, Allaha and olsun ki, boynunu vuraram!" Əli (ə) onlara qarşı üç dəfə höccət tamamladı. sonra ovcunu açmadan əlini uzatdı, yaşlı səhabə onun əlinin üstündən vurdu və buna razı oldu.

Beyətdən əvvəl Əli (ə) boynunda kəndir olan vəziyyətdə belə nida elədi: "Ey qardaşım, ***həqiqətən də bu qövm məni zəiflətdi və az qalırdı ki, məni öldürsünlər".***[1]

## Zübeyr, Salman, Əbu Zərr və Miqdadın beyət etmələri

Zübeyrə deyildi: "Beyət et!", o isə imtina etdi. Səhhakın oğlu, Xalid ibn Vəlid, Müğeyrə ibn Şöbə yanındakı adamlarla onun üzərinə atıldılar. Qılıncını əlində aldılar, yerə vurub sındırdılar və onu yaxaladılar. sinəsində Səhhakın oğlu oturmuşdu. Zübeyr dedi: "Ey Səhhakın oğlu, Allaha and olsun, əgər qılıncım əlimdə olsaydı, indi mənim əlimlə qəbirdə idin". Sonra qalxıb beyət elədi.

Salman deyir: "Sonra məni tutdular boğazımı ilan sancar kimi sıxdılar, ardınca əli tutub burmağa başladılar. Mən də istəmədən beyət etdim".

Sonra da Əbu Zərr və Miqdadı zorla beyətə məcbur etdilər. Ümmət arasında Əlidən (ə) və bizim dördümüzdən başqa heç kim məcburən beyət etdirilmədi. Aramızda ən sərt danışan Zübeyr idi. O beyət edərkən dedi: "Ey Səhhakın oğlu, əgər sənə yardım edən bu tağutlar olmasaydı, əlimdə qılıncım olduğu təqdirdə mənə tərəf bir addım da ata bilməzdin, sənin qorxaq və alçaq olduğunu bilirəm. Lakin bu tağutları özünə köməkçi tutub onların arxasında gizlənmisən".

Səhhakın oğlu qəzəblənib dedi: "Səhhakı niyə yad edirsən!" Zübeyr dedi: "Səhhak kimdir ki, onu yad etməyi mənə nə qadağan edə bilər?! Səhhak zinakar

---

[1] "Əraf" surəsi, ayə 150-yə işarədir.

idi, yoxsa bunu inkar edirsən?! Məgər o babam Əbdül-müttəlibin həbəşlərdən olan bir köləsi deyildimi ki, baban Nüfeyl onunla zina etdi və bu zinadan atan Xəttabı doğdu. Bundan sonra Əbdül-Müttəlib onu babana bağışladı. O mənim babamın köləsi idi, doğduğu da vələdüzzina idi?!"

Yaşlı səhabə onları ayırdı və mübahisə bitdi.

## 5. İmam Əlinin (ə) səhabələr qarşısında dəlillər qoyur

### Beyətdən sonra Salmanın sözləri

Süleym ibn Qeys deyir ki, Salmana dedim: "Ey Salman, Quhafənin oğluna beyət edib heç bir söz demədin?"

Dedi: "Beyət etdikdən sonra dedim: "Sizə əvvəlki zamanları xəbər verim, görün özünüzə qarşı nə etdiniz, bu etdiklərinizin hansı düz, hansı yanlışdır! Özünüzdən əvvəlkilərin təfriqə və ixtilaf salmaq sünnətinə əməl etdiniz, Peyğəmbərinizin sünnətini əhlindən almaqla xətaya düşdünüz!"

Səhhakın oğlu dedi: "Ey Salman, sən və dostun beyət etdikdən sonra nə istəyirsiniz danışın".

Salman dedi: "Peyğəmbərin (s) belə dediyini eşitmişəm: "Qiyamət gününədək bütün ümmətin günahları sənin və dostunun üzərindədir, sizin əzabınız bütün azdırdıqlarınızın əzabına bərabər olacaq!" Dedi: Nə istəyirsən de, sən artıq beyət etmisən, məgər dostunla baş verənlər sənin gözlərinin önündə olmadımı?

Dedim: Şəhadət verirəm ki, həqiqətən də Allahın kitablarında sənin haqqında bəzi əlamətlər yazılıb, orada belə deyilir: "Həqiqətən sən (adın, nəsəbin və vəsflərinlə) cəhənnəm qapılarından bir qapısan. Yenə mənə dedilər: Nə istəyirsən danış! Məgər Allahı qoyub, bu ev əhlini dost tutarkən onların əllərindən necə alındığını görmürsən?

Şəhadət verirəm ki, Peyğəmbərdən (s) ***""O gün (Allahın) edəcəyi əzabı heç kəs edə bilməz! (Günahkarları) heç kəs Onun kimi zəncirləyə bilməz!"***[1] ayəsi haqqında soruşduqda mənə bu şəxsin sən olduğunu xəbər verdi.

Səhhakın oğlu dedi: "Sus, Allah sənin həyatını susdursun! Ey kölə, sünnətsizin oğlu!"

Əli (ə) dedi: "Səni and verirəm Salman ki, susasan".

Salman dedi: "Allaha and olsun ki, əgər Əli (ə) mənə susmağımı əmr etməsəydi onun barəsində nazil olanların, Peyğəmbərdən (s) onun və yoldaş-

[1] «Fəcr" surəsi, ayə 25-26.

larının barəsində eşitdiklərimin hamısını bir-bir sayacaqdım”. Səhhakın oğlu susduğumu görüb dedi: “Həqiqətən sən ona müti və təslimsən”.

## Beyətdən sonra Əbu Zərrin sözləri

Əbu Zərr və Miqdad beyət etdikdən sonra heç bir söz demədilər. Səhhakın oğlu dedi: “Ey Salman, yoldaşların ağzını yumduğu kimi sən niyə yummursan? Allaha and olsun ki, sən bu Əhli-Beyti onlardan çox sevmir, onların haqqına onlardan daha çox təzim etmirsən. Gördüyün kimi onlar sakit durub, beyət ediblər.

Əbu Zərr dedi: “Ey Səhhakın oğlu, Bizi Ali-Muhəmmədə olan sevgimiz və təzimimizləmi qıcıqlandırmaq istəyirsən? Allah onlara qarşı çıxan, onlara iftira atan, haqlarına zülm edən, insanları onlara qarşı çıxaran və bu ümməti onlardan çevirən kəsə lənət eləsin!”

Səhhakın oğlu dedi: “Amin! Allah onların haqqına zülm edənlərə lənət eləsin! Allaha and olsun ki, onların bu məsələdə heç bir haqları yoxdur. Ali-Muhəmməd bu məsələdə hamı ilə bərabər haqqa sahibdir”. Əbu Zərr dedi: “Məgər siz ənsarla onların haqqı barədə mübahisə etmədinizmi?”

## Beyətdən sonra İmam Əlinin (ə) sözləri

Əli (ə) Səhhakın oğluna dedi: “Ey Səhhakın oğlu! Bizim haqqımız yoxdur, amma səninlə bu milçəkyeyənin oğlunun haqqı var?!” Səhhakın oğlu dedi: “Dayan ey Əbəl-Həsən, sən artıq beyət eləmisən. Camaat mənim bu dostuma razılıqlarını bildiriblər, amma sənə razı olmayıblar. Mənim günahım nədir?!”.

İmam Əli (ə) dedi: “Ancaq Allah və Rəsulu yalnız mənə razı olublar. Sən, dostun, sizə tabe olanlar və vəzirləriniz Allahın qəzəbi, əzabı və rüsvayçılığı ilə müjdələnin! Vay olsun sənə ey Xəttabın oğlu! Kaş ki, özün üçün nə topladığını görəydin! Nədən çıxıb nəyə daxil olduğunu, özün və dostun üçün belinə nə yığdığını kaş ki, anlayaydın!”.

Əbu Bəkr dedi: “Ey Səhhakın oğlu, o artıq beyət edib, onun şərindən amandayıq, qoy nə istəyir danışsın”.

## Səhifə əhli cəhənnəmdəki tabutdadır

İmam Əli (ə) dedi: “Mən bir şeydən savayı heç nə demirəm: Ey dörd nəfər (mən, Əbu Zərr, Miqdad və Zübeyrə üzünü tutub), sizə Allahı xatırladıram. Peyğəmbərin (ə) belə dediyini eşitdim: Odda bir tabut var ki, içində on iki nəfər adam var, altısı əvvəlki ümmətlərdən, altısı isə bu ümmətdəndir. Onlar

cəhənnəmin dibindəki bir quyuda, qıfıllanmış bir tabutdadırlar. Bu quyunun üzərində də bir qaya parçası var. Uca Allah cəhənnəmi alovlanmasını istədikdə quyunun üzərindən daşın götürülməsini əmr edər, cəhənnəm alovlanar və şiddətindən həyəcana gələr.

Peyğəmbərdən (s) onların kimliyi barədə soruşdum, siz də buna şahid idiniz. Dedi: əvvəlkilərdən olanlar: qardaşını öldürən Adəmin oğlu (Qabil), Firon, İbrahimlə Rəbbi barədə mübahisə edən və Bəni-İsraildən kitabı və sünnəti dəyişən iki kişidir. Onlardan biri yəhudiləri yəhudiləşdirdi, digəri isə xristianları nəsrani elədi. Onların altıncısı isə İblisdir. Digər altıda isə: Dəccal və beş nəfər səhifə əhlidir. Onlar tağutlarla əhd bağlayıb , ey Əli sənə qarşı ədavətlərinə söz veriblər, məndən sonra sənin üzərinə qalxacaqlar. Bunlar filan, filan şəxslərdir deyib hər birinin adı ilə mənə bildirdi".

Salman dedi: "Biz dedik: Düz buyurdun ey Əli, şəhadət veririk ki, biz bunu Peyğəmbərdən (s) eşitmişik".

## Peyğəmbərin (s) bəzi səhabələr haqqında sözləri

Əffanın oğlu dedi: "Ey Əbəl-Həsən, səndə və dostlarında mənim barəmdə də hədis varmı?" Əli (ə) dedi: "Bəli, Peyğəmbərin (s) səni iki dəfə tənqid etdiyini eşitmişəm. Tənqiddən sonra isə sənin üçün Allahdan bağışlanma dilədiyini əsla eşitmədim".

Əffanın oğlu qəzəblənib dedi: "Mənim sizinlə nə işim. Heç vaxt məndən əl çəkmirsiniz, nə Peyğəmbərin vaxtında, nə də ondan sonra!"

İmam Əli (ə) dedi: "Elədir, Allah səni alçaldır!" Əffanın oğlu dedi: "Allaha and olsun ki, Peyğəmbərin (s) belə dediyini eşitmişəm: "Zübeyr İslamdan mürtəd olaraq öldürüləcək!".

Salman dedi: "Əli (ə) mənə yavaşcadan dedi: "Əffanın oğlu düz deyir. Əffanın oğlunu qətlə yetirildikdən sonra o (Zübeyr) mənə beyət edəcək, sonra beyətini qırıb mürtəd olaraq qətlə yetiriləcək.

## Peyğəmbərdən (s) sonra bəzi səhabələrin halı

Salman deyir ki, Əli (ə) buyurdu: "Dörd nəfərdən savayı camaatın hamısı Peyğəmbərdən (s) sonra dindən döndülər". Camaat Peyğəmbərdən (s) sonra Harunun müqabilində buzova ibadət edənlərin nisbətində idilər. Əli Harun, yaşlı səhabə buzov və Səhhakın oğlu da Samirinin qismində idilər.

Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Mənə yaxınlığı ilə tanınan səhabələrimdən bir dəstəsi Sirat üzərindən keçmək üçün gələcəklər. Bu zaman

onlar məni, mən də onları görəcək, onlar məni, mən də onları tanıyacağam. Həmin vaxt onlar məndən uzaqlaşdırılacaqlar. Mən deyəcəyəm: "Ey Rəbbim, səhabələrim, səhabələrim!" Mənə deyiləcək: Səndən sonra nələr etdiklərini bilmirsənmi! Sən onların arasından ayrıldıqdan sonra onlar dindən döndülər. Mən deyəcəyəm: "Uzaq olsun, uzaq olsunlar!"

Peyğəmbərin (s) belə dediyini eşitdim: "Ümmətim addımbaaddım, qarış-baqarış Bəni-İsrailin etdiklərini edəcəklər, hətta bir yerə daxil olduqda birlikdə daxil olacaqlar. Tövrat və Quranı bir mələk bir vərəqin üzərində və bir qələmlə yazıb. Onların bənzərliyi və tutduqları yol eynidir.

# HƏDİS 5

## Qiyamət günü İblis və Səqifə təsisçiləri

Aban ibn Əbu Əyyaş Süleym ibn Qeys Hilalidən belə dediyini nəql edir: “Salman Farisinin belə dediyini eşitdim: “Qiyamət günü olduqda İblisə oddan bir qayışla (kəmərlə) gətirilər, züfər[1] isə oddan iki kəmərlə gətiriləcək.

Həmin gün İblis züfərin yanına gedəcək və fəryad çəkib deyəcək: “Anan yasında ağlasın! Sən kimsən? Mən əvvəlkiləri və sonrakıları azdıranam. Buna baxmayaraq mən bir kəndirlə, sən isə iki kəndirlə bağlanmısan?!”

(Züfər deyər:) “Mən o kəsəm ki, əmr etdim və mənə itaət etdilər. Allah isə başqa bir şey əmr etmişdi, bu əmrimə görə ona üsyan etdilər”.

[1] Zufər – hiylə quran tülkü və onun yoldaşına deyilir.

# HƏDİS 6

## İmam Əlinin (ə) fəxr ediləcək xüsusiyyətləri

Süleym deyir ki, Əbu Zərrdən, Salmandan və Miqdaddan, sonra Əlinin (ə) özündən belə eşitmişəm: “Bir kişi Əli ibn Əbu Taliblə (ə) fəxr etdiyini dedi. Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Bəli, qardaşım ərəbin fəxridir. Ey Əli, onların ən hörmətlisi olan əmim oğlusan, həmçinin ata və qardaş cəhədən də onların ən möhtərəmisən, nəfs və nəsəb, zövcə, övlad və əmi baxımından da onların ən üstünüsən, nəfs və mal baxımından ən çox zəhmətə düşən sənsən, helmi kamil, asayiş və salamatlıqda onlardan öndə, eləcə də onların ən elmlisi sənsən.

Onların arasından Allahın kitabını ən çox oxuyan, Allahın sünnəsini ən yaxşı bilən, çətin günlərdə qəlbi ən şücaətli olan, ən səxavətliləri, dünyaya qarşı ən zahidləri, səy və cihadda ən möhkəmi, ən əxlaqlısı, ən doğru danışanı, Allaha və mənə ən çox sevimli olanısan.

## Ümmətin Əliyə (ə) zülm edəcəyi barədə Peyğəmbərin (s) xəbəri

Məndən sonra otuz il var olacaqsan (yaşayacaqsan). Allaha ibadət elə, Qüreyşin sənə edəcəyi zülmlərə səbr göstər. Sonra yardımın olsa onlarla Allah yolunda savaş. Quranın nazil olması ilə bağlı mənimlə savaşdıqları kimi, sən də bu ümmətin nakisinləri, qasitinləri və mariqinlərilə Quranın təvilləri barədə savaşacaqsan.

Sonra səni şəhid edib saqqalını başının qanına boyayacaqlar. Sənin qatilin Allaha üsyanda, Allaha və mənə uzaqlıqda Salehin dəvəsini boğazlayana bərabərdir. Həmçinin Yəhya ibn Zəkəriyyənin qatili və Fironun ordusu səviyyəsindədir.

## Həsən Bəsrinin Əlinin (ə) fəzilətləri barədə sözləri

Aban deyir: “Bu hədisi Həsən Bəsri Əbu Zərdən nəql edir. Süleymin və Əbu Zərin doğru söylədiyini bildirir. “Əli ibn Əbu Talib dində, elmdə, hikmətdə, fiqhdə, rəydə, yoldaşlıqda, fəzilətdə, əliaçıqlıqda, ailə cəhətdən və kürəkənlikdə hər kəsdən öndədir. Həmçinin savaşdakı şücaətində, mərhəmət, zəkat, hökm verməkdə, Peyğəmbərə (s) yaxınlıqda və İslamda ən gözəl imta-

hanlarda hamıdan irəlidədir. Əli hər bir işdə alidir. Allah Əliyə rəhm edib və salavat göndərsin". Sonra saqqalı yaşarana qədər ağladı.

Deyir: Ona dedim: "Ey Əbu Səid! Peyğəmbərdən (s) başqasına salavat göndərirsən?"

Dedi: "Müsəlmanları yad etdikdə rəhmət, Muhəmməd və Ali-Muhəmmədi yad etdikdə isə salavat göndərirəm. Əli isə Ali-Muhəmmədin ən xeyirlisidir".

Dedim: "Ey Əbu Səid! Həmzədən, Cəfərdən, Fatimədən, Həsən və Hüseyndən də?"

Dedi: "Bəli, Allaha and olsun ki, Əli onlardan daha xeyirlidir. Məgər kimsə onlardan xeyirli olmasına şəkk edir?" Dedim: "Nə ilə daha xeyirlidir?"

Dedi: "Əliyə əsla şirk, küfr, sənəmlərə (bütlərə) ibadət, şərab içən adı toxunmayıb. Əli onları İslamı qəbul etməkdə, Allahın kitabını və Peyğəmbərin (s) sünnəsini bilməkdə qabaqlayıb. Peyğəmbər (s) Fatiməyə buyurdu: "Səni ümmətimin ən xeyirlisi ilə evləndirdim". Əgər ümmətin içində ondan daha yaxşısı olsaydı, mütləq həmin şəxsin adını çəkib istisna edərdi. Peyğəmbər (s) səhabələri arasında qardaşlıq əhdi bağlayarkən yalnız Əlini özünə qardaş seçdi. Peyğəmbər (s) özünün olduğu kimi, qardaşı cəhətdən ümmətinin ən üstünüdür. Qədir Xum günü onu özünə nisbət verdi və özünə itaət edildiyi kimi onun da vilayətini insanların üzərinə vacib etdi: "Mən kimin mövlasıyamsa, bu Əli də onun mövlasıdır". Ona dedi: "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbətidir". Nə Əhli-Beytindən, nə də ki, ümmətindən heç bir kəs barəsində belə bir söz deməyib. Əli bir çox şeylərdə öncüldür, heç kimin sahib olmayacağı xüsusiyyətlərə sahibdir.

Dedim: "Əlidən (ə) sonra bu ümmətin ən yaxşısı kimdir?"

Dedi: "Zövcəsi və iki övladı". Dedim: "Bəs sonra?".

Dedi: "Sonra Cəfər ibn Əbu Talib və Həmzə. Həqiqətən də insanların ən xeyirliləri Kisa əhlidir ki, onlar barəsində "Təthir" ayəsi[1] nazil olub. Həmin vaxt Peyğəmbər (s) Əlini, Fatiməni, Həsəni və Hüseyni özünə tərəf çəkib (kisanın altında toplayaraq) "İlahi, mənim Əhli-Beytim bunlardır! Onlardan bütün növ pislikləri uzaqlaşdır və onları pak-pakizə qərar ver!" deyə dua etmişdi. Orada olan Ümmü Sələmə demişdi: "Məni də onlarla birgə kisanın altına al". Peyğəmbər (s) isə ona buyurmuşdu: "Ey Ümmü Sələmə, sən xeyirlisən və xeyrə doğrusan. Ancaq bu ayə mənim və bu kisanın altında olanlar barədə xüsusilə nazil olub".

---

[1] "Əhzab" surəsi, ayə 33.

## Həsən Bəsrinin nifaqına haqq qazandırması

Dedim: “Ey Əbu Səid! Bəs sən Əli barədə bunları niyə heç danışmırsan və səndən bunları eşitmirəm?”

Dedi: “Ey qardaşım, Bu, Allahın lənətinə gəlmiş zalımların əlindən öz canımı qoruyuram. Əgər belə etməsəydim çoxdan taxtadan sallanmışdım! Lakin mən eşitdiklərini danışıram ki, bəlkə bu sözlər onların qulaqlarına çatanda mənim Əliyə qarşı söylədiyim bəzi sözlər onların mənə qarşı tədbirlərinin qarşısını alsın. Onlar mənim dostları olduğumu hesab etsin. Uca Allah buyurur: ***“Sən pisliyi yaxşılıqla dəf et! Biz aid etdikləri sifətləri daha yaxşı bilirik!”***[1] Yəni təqiyyə ilə dəf et.

[1] “Muminun” surəsi, ayə 96.

# HƏDİS 7

## Ümmətin ixtilafı və bölünməsi

### Ümmətin yetmiş üç firqəyə bölünməsi

Aban Süleymdən nəql edir: "Əli ibn Əbu Talibin belə dediyini eşitdim: "Bu ümmət yetmiş üç firqəyə bölünəcək. Bunlardan yetmiş ikisi odda, biri isə cənnətdədir. Yetmiş üç firqədən on üçü biz Əhli-Beyti sevdiklərini iddia edəcəklər. Bunlardan da on ikisi odda, biri isə cənnətdədir.

### Nicat tapacaq firqənin müəyyən olunması

Nicat tapacaq firqə doğru yolu göstərər, cənnəti arzulayarlar, mömindirlər, (Allaha) təslim olmuşlar, uğurlu və doğru yol göstərənlərdir. Onlar mənə iman bəsləyir, əmrimə təslim olmuş və mənə itaət edənlərdir. Düşmənlərimdən uzaqlaşmış, məni sevənlər və düşmənlərimə nifrət bəsləyərlər. Onlar mənim haqqımı, imam olduğumu və mənə itaətin vacib buyurulduğunu Allahın kitabından və Peyğəmbərin sünnəsinə əsasən bilirlər. Onlar əqidələrindən əsla dönməz və şübhəyə düşməzlər. Allah onların ürəklərini bizim haqqımızı tanımaqla nurlandırmış, fəzilətimizi onlara bildirmiş və ilham etmiş, alınlarından yapışıb şiələrimizin arasına qatmışdır. Qəlbləri aramlıq tapmış və yəqinə çatmışdır. Onların imanlarına şəkk qarışmaz.

### Nicat tapacaq firqənin imamları

Mən və məndən sonra qiyamətə qədər gələcək vəsilərim doğru yola yönəldilmiş hidayət edənlərik. Allah bizi Qurandakı bir çox ayədə Özünə və Peyğəmbərinə yaxınlaşdırmışdır. Bizi pak, tərtəmiz, günahsız və məxluqlarına şahid, yer üzündə höccət, elminin xəzinədarı, hikmət mədənləri və vəhyinin təfsirçiləri etmişdir. Quranı bizimlə, bizi də Quranla birgə qərar vermişdir. Peyğəmbər (s) söylədiyi kimi, hovuzu başında onunla görüşənə qədər Quran bizdən, biz də Qurandan əsla ayrılmarıq.

Bu yetmiş üç firqədən yalnız biri oddan, bütün fitnələrdən, zəlalətdən və şübhələrdən nicat tapmışdır. Onlar doğurdan da cənnət əhlidirlər. Cənnətə sorğu-sualsız daxil olacaq bu firqənin sayı yetmiş min nəfərdir.

Qalan yetmiş iki firqənin hamısı haqdan kənar dinə yiyələnənlərdir və onlar Şeytanın dininin köməkçiləridirlər. (Elmlərini) İblisdən və dostlarından götürürlər. Allahın, elçisinin və möminlərin düşmənidirlər. Sorğu-sualsız oda girəcəklər. Allahdan və Peyğəmbərdən (s) uzaq düşmüş, Allahı və Peyğəmbərini (s) unutmuş, Allaha şərik qoşmuş və Ona küfr etmişlər. Bilmədikləri halda Allahdan başqasına ibadət etmişlər. Onlar gözəl və xeyirxah işlər gördüklərini zənn edirlər. Qiyamət günü belə deyəcəklər: ***"Rəbbimiz Allaha and olsun ki, biz müşrik deyildik!"***[1], ***"Onlar sizə and içdikləri kimi, Allaha da and içəcək və bir şey qazanacaqlarını zənn edəcəklər. Bilin ki, onlar əsl yalançıdırlar!"***[2]

Süleym dedi: "Ey Möminlərin Əmiri! Sizi imam bilməyən, lakin düşmənçilik etməyən, sizin düşmənçiliyi öz əqidəsinə çevirməyən, təəssüb çəkməyən, həmçinin sizin vilayətinizi qəbul etməyən və düşmənlərinizdən də uzaqlaşmayan şəxs haqqında rəyiniz nədir? O, bunları (imamətinizin haqq olmasını) bilmədiyini söyləyir və bu da həqiqətdir".

İmam Əli (ə) buyurdu: "Onlar yetmiş üç firqəyə daxil deyillər. Peyğəmbər (s) yalnız haqq olduqlarını iddia edərək özlərini tanıtmış və camaatı öz dinlərinə dəvət edən yetmiş üç firqəni nəzərdə tutmuşdur. Onlardan yalnız biri Rəhmanın dini üzərində, yetmiş ikisi isə Şeytanın dinindədir. Onu qəbul edənləri dost tutar və düşmənçilik edənlərdən uzaqlaşarlar.

Amma Allahı yeganə bilən və Peyğəmbərinə (s) iman gətirən, amma bizim vilayətimizi və düşmənlərimizin zəlalətini bilməyən, bizə qarşı düşmənçiliyi olmayan, bir şeyi halal, ya da haram etməyən, bilmədiyi halda barəsində ixtilaf olmayan Allah hökmlərinə əsaslanan şəxs nicat tapar.

## Cənnət, Cəhənnəm və Əraf əhli

Bunlar möminlərlə müşriklər arasındadırlar. Onlar camaatın əksəriyyətini təşkil edirlər. Hesab, Mizan və Əraf əhlidirlər, Peyğəmbərlərin, mələklərin və möminlərin şəfaət edəcəkləri kəslər isə cəhənnəmə getməli olan kəslərdir. Oddan çıxarılarlar və "Cəhənnəmliklər" deyə adlandırılarlar.

Amma möminlər nicat tapanlardır və sorğu-sualsız cənnətə girəcəklər. Müşriklər isə sorğu-sualsız Cəhənnəmə girəcəklər. Sorğu-sual möminlər ilə müşriklər arasındakı bu sifətlərə sahib olanlar, ürəyi İslama isidilən günahkarlar, yaxşı işi pis işlə qarışdıranlar üçündür. Həmçinin şirki və küfrü ayırmağı bacarmayan acizlər, düşmənçilik etməyə gücü olmayan və mərifət sahibi

---

[1] "Ənam" surəsi, ayə 23.

[2] "Mücadələ" surəsi, ayə 18.

möminlərdən olmağa bir yol tapa bilməyənlər üçündür. Bunlar Əraf əhlidirlər ki, Allahın onlar haqqında bir diləyi vardır. Əgər Allah onlardan birini oda daxil etsə, bu, onun günahına görədir və əgər onu bağışlasa, ona qarşı rəhmətilə rəftar etmişdir".

## Mömin, kafir və aciz

Süleym dedi: "Bəs, mərifətli və haqqa dəvət edən bir mömin oda girərmi?"

Buyurdu: "Xeyr!"

Dedim: "Bəs, imamını tanımayan kəs cənnətə daxil olar?"

Buyurdu: "Allah istəmədikcə, xeyr".

Dedim: "Bəs, kafir, ya da müşrik cənnətə girər?"

Buyurdu: "Allahın dilədiyi istisna olmaqla, kafirdən başqası oda girməyəcək".

Dedim: "Allahla mömin, imamını tanıyan və ona itaət edən halda görüşən şəxs cənnət əhlidirmi?"

Buyurdu: "Əgər Allahla kitabında buyurduğu kimi görüşərsə, bəli: ***"O kəslər ki, iman gətirmiş və saleh əməllər etmişlər"[1], "O kəslər ki, iman gətirmiş və təqvalı olmuşlar"[2]*** *və* ***"O kəslər ki, iman gətirmiş və imanlarına zülm qarışdırmamışlar"[3].***

Dedi: "Bəs onlardan üzərlərində böyük günahlar olduğu halda Allahla görüşənlər?"

Buyurdu: "O Allahın iradəsindədir. Əgər ona əzab etsə, bu, günahına görədir, əgər bağışlasa, onunla rəhmətilə davranmışdır".

Dedim: "Allah mömini oda salarmı?".

Buyurdu: "Bəli, günahlarına görə. Çünki o, Allahın nəzərdə tutduğu möminlərdən olmayıb. Uca Allah buyurur: ***"O, möminlərin vəlisidir". "O, onlara vəlidir", "Onların nə bir qorxusu, nə də qəmi olmaz".[4]*** Bunlar Allahın nəzərdə tutduğu möminlərdir.

## İmanla (möminlə) İslamın (müsəlmanın) arasındakı fərq

Dedim: "Ey Möminlərin əmiri! İman və İslam nədir?".

Buyurdu: "İman bildiyin şeyləri təsdiq etməkdir. İslam isə təsdiq etdiklərinə təslim olmaq və onlara itaət etməkdir".

---

[1] "Bəqərə" surəsi, ayə 82.
[2] "Yunus" surəsi, ayə 63.
[3] "Ənam" surəsi, ayə 82.
[4] "yunus" surəsi, ayə 62.

Dedim: “İman və təsdiq mərifətdən sonradır?”.

Buyurdu: “Allah kimə Özünü, peyğəmbərini və imamını tanıtsa və o da itaət etsə, mömindir”.

Dedim: “O zaman, mərifət Allahdan, təsdiq isə bəndədəndir?”.

Buyurdu: “Mərifət, dəvət, dəlil, minnət və nemət Allahdandır. Təsdiq isə bəndənin Allahdan qəbul etməsidir. Dilədiyi kimsəyə ehsan edər. Mərifət Allahın qəlbdə yaratdığı bir şeydir. Təsdiq isə Allah tərəfindən, ismətindən və rəhmətindən qəlbin hərəkətidir.

## Cahilə haqq təklifi

Elə isə Allah hər kimi mərifət sahibi etməsə, ona höccət yoxdur. O şəxs ehtiyatlı olmalı, bilmədiyi şeylərə əl atmamalıdır. Allahda onu cahilliyinə görə cəzalandırmaz. Yalnız itaətinə görə onu mükafatlandırar və etdiyi günahlara görə də cəzalandırar. Cahil itaət də edə bilər, günah da işləyə bilər. Amma mərifət qazanmaya və ya cahil qala bilərmi? Bu qeyri-mümkündür.

Bunlar yalnız məcburiyyət olmadan Allahdan, qəzasından, elmindən, kitabından hökmü olmadıqca baş verməz. Çünki, əgər məcbur edilsələr, o zaman üzrlü olarlar və şükr etmələri lazım gəlməz.

Hər kim cahil və xəbərsiz olsa, bilmədiyi şeyi bizə həvalə edə bilər. Hər kim Allahın nemətlərinə şükr etsə, günahlarından bağışlanma diləsə, itaətkarları sevsə və onları itaətlərinə görə tərifləsə, günahkarlara nifrət etsə və onları məzəmmət etsə bu miqdar ona kifayət edər”.

Bu hədisin kitabın qədim “cim” nüsxəsində əlavəsi də var:

## Hesab və şəfaət əhli

Buyurdu: “Onlardan bəziləri iqrar və tövhidlərinə görə bağışlanar və cənnətə daxil olarlar. Bəziləri isə cəhənnəmdə əzab görərlər. Sonra mələklər, peyğəmbərlər və möminlər onlar üçün şəfaət edərlər. Oddan çıxar və Cənnətə girərlər. Orada “Cəhənnəmliklər” deyə adlandırılarlar.

Bəziləri də təsdiq əhlidir. Mizan (tərəzi) və hesab yalnız onlar üçündür. Çünki yalnız Allahın, Peyğəmbərinin (s), yer üzündəki höccətinin dostları, onları tanıyanlar, məxluqlarının şahidləri və itaət edənlər sorğu-sualsız cənnətə girəcəklər.

Onların inadçıları xəbərdar edilənlər, haqqı qəbul etməyənlər və düşmənçilik edənlərdir. Allahın düşmənləri sorğu-sualsız cəhənnəmə atılacaqlar. Lakin bu

iki dəstənin arasındakılar insanların böyük bir əksəriyyətini təşkil edir və bunlar mizan, hesab və şəfaət əhlidirlər".

Dedim: "İçimi rahatlatdın, mənim üçün məsələni aydınlaşdırdın və qəlbimə şəfa verdin. Allahdan məni dünyada və axirətdə sənin dostlarından qərar verməsini dilə".

Buyurdu: "İlahi, onu (Süleymi) onlardan qərar ver".

Sonra üzünü mənə tutub buyurdu: "Peyğəmbərdən eşitdiyim, Salmana, Əbu Zərrə və Miqdada öyrətdiyi bir şeyi sənə də öyrətməyimi istəyirsən?".

Dedim: "Bəli, ey Möminlərin-əmiri!".

Buyurdu: "Hər dəfə səhər və axşam de: "İlahi, Məni Sənə imana, peyğəmbərin Muhəmmədin və Əli ibn Əbu Talibnin vilayətini təsdiqə və Əhli-Beytdən olan imamlara bağlanmağa sövq eylə! Ya Rəbb, buna razı oldum".

Dedim: "Ey Möminlərin-əmiri! Salman, Əbu Zərr və Miqdad bu duanı mənə nəql etmiş, mən də bunu onlardan eşitdiyim vaxtdan bəri əsla tərk etməmişəm".

İmam (ə) buyurdu: "Bundan sonra da tərk etmə".

# HƏDİS 8

## İslam və imanın mənası

Aban ibn Əbu Əyyaş Süleym ibn Qeysdən nəql edir ki, bir nəfərin imam Əlidən (ə) iman barədə soruşduğunu eşitdi. Kişi dedi: “Ey Möminlərin-əmiri! Mənə iman haqqında elə məlumat ver ki, səndə sonra heç kimdən bir daha soruşmayım”.

İmam Əli (ə) buyurdu: “Bir nəfər Peyğəmbərin (s) yanına gəlib sənin məndən soruşduğunu ondan soruşdu və ardınca sənin dediyin sözləri də dedi. Peyğəmbər (s) onunla söhbətə başladı. Sonra buyurdu: “Əyləş”. Kişi dedi: “Baş üstə”.

Sonra Əli (ə) kişiyə yaxınlaşıb dedi: “Bilmirsənmi, Cəbrail Peyğəmbərin (s) yanına insan surətində gəlmiş və “İslam nədir?” deyə soruşmuşdu. Peyğəmbər (s) buyurmuşdu: “Allahdan başqa ilahın olmadığına və Muhəmmədin Allahın elçisi olduğuna şəhadət verməк, namaz qılmaq, zəkat vermək, Allah Evini həcc etmək, Ramazan ayında oruc tutmaq və cənabət qüslu vermək”. Cəbrail demişdi: “İman nədir?” Buyurmuşdu: “Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, ölümdən sonra həyata, bütünlüklə qədərə - xeyrə və şərə, şirininə və acısına iman gətirməkdir”.

Kişi ayağa qalxdıqda Peyğəmbər (ə) buyurmuşdu: “Bu Cəbrayıldır. Sizə dininizi öyrətmək üçün gəlmişdi”. Hər dəfə Peyğəmbər (s) ona bir söz dedikdə, o da “doğru söylədin” deyərək təsdiq edirdi. Dedi: “Qiyamət saatı nə vaxtdır?” Peyğəmbər (s) buyurdu: “Bu barədə soruşulan soruşandan daha artıq məlumata sahib deyil”. Cəbrail dedi: “Düz buyurdun”.

## İmanın sütunları

İmam Əli (ə) Cəbrailin sözlərini nəql edib bitirdikdən sonra buyurdu: «Bilin ki, iman dörd sütun üzərindədir: yəqin, səbr, ədalət və cihad.

Yəqinin dörd qismi var: şövq, qorxu, zöhd və gözləmə.

Cənnəti diləyən şəxs şəhvətləri tərk edər, atəşdən qorxan şəxs haramlardan çəkinər, dünyaya qarşı zahid olan üçün bəlalar asanlaşar və ölümü gözləyən şəxs də yaxşılıq etməkdə tələsər.

Səbr də dörd qisimdir: fitnələr qarşısında bəsirət, hikmətli təvil, ibrətlərə qarşı mərifət və özündən əvvəlkilərin tutduğu yol. Fitnələrə qarşı bəsirətli olan

şəxsə hikmət bəyan olar, hikmət bəyan olan şəxs ibrətləri tanıyar, ibrətləri tanıyan şəxs isə hikməti təvil edər, hikməti təvil edən ibrəti görər və ibrəti görən şəxs əvvəlkilərlə birlikdə yaşamış kimidir.

Ədalət dörd qisimdir: göz yumulmuş anlayışlar, elm örtüyü, hikmətlərin gözəlliyi, helm bağçası. Anlayan şəxs elm cümlələrini təfsir edər, elm sahibi olan şəxsə hikmət qanunları verilər, helmli olan şəxs isə işlərində həddini aşmaz və bu xüsusiyyətilə camaat arasında tərifləşərək yaşayar.

Cihad da dörd qisimdir: yaxşılığı əmr etmək və pislikdən çəkindirmək, hər yerdə doğru danışmaq, Allah üçün qəzəblənmək və fasiqlərə nifrət etmək.

Yaxşılığı tövsiyə edən mömini gücləndirər, pislikdən çəkindirən fasiqin burnunu yerə sürtər, hər yerdə doğru danışan şəxs üzərinə düşəni yerinə yetirmiş olar və kim fasiqlərə nifrət etsə və Allah üçün qəzəblənsə, Allah da onun üçün qəzəblənər. Bunlar iman, sütunları və qisimləridir".

## İmanın, küfrün və zəlalətin ən aşağı dərəcələri

Kişi dedi: "Ey Möminlərin-əmiri! İnsanı mömin edəcək, yaxud kafir edəcək və ya zəlalətə salacaq ən kiçik şey nədir?"

Buyurdu: "Sual verdin, elə isə cavabını dinlə. İnsanın mömin sayılacağı ən kiçik şey Allahın ona özünü tanıtması və həmin şəxsin də bu mərifətdən sonra Onun Rəbliyini və birliyinə təsdiq etməsi; Allahın öz elçisini ona tanıtması, onun peyğəmbərliyin iqrar etməsi; Allahın yer üzündəki höccətini və məxluqları üzərindəki şahidini ona tanıtması, həmin şəxsin də onlara itaət edəcəyinə qərar verməsidir".

Kişi dedi: «Ey Möminlərin-əmiri! Bəs, sənin qeyd etdiklərindən başqa məsələlər barədə məlumatsız olsa?"

İmam Əli (ə) buyurdu: "Bəli, nə vaxt ona əmr edilsə itaət etməli və nə vaxt qadağan edilsə çəkinməlidir.

İnsanı kafir edən ən kiçik şey isə: Allahın (qadağan etdiyi halda) ona icrasını əmr etdiyini düşünüb həmin məsələni dininə nisbət verməsi; bundan sonra Allahın əmr etdiyini sanıb həmin əməllə dindarlıq etməsi, o şeyi din qərar edib nədənsə uzaqlaşıb və ya yaxınlaşmasıdır. Halbuki bütün bu hallarda o, Allaha qulluq etdiyini zənn edirdi.

İnsanı zəlalətə salan ən kiçik şey isə: Allahın itaətini əmr etdiyi və vilayətini vacib buyurduğu yer üzündəki höccətini və məxluqları üzərindəki şahidini tanımamasıdır".

## Peyğəmbərin (s) on iki imam haqqında aydın sözləri

Kişi dedi: "Ey Möminlərin-Əmiri! Onların adlarını mənə de!" İmam Əli (ə) buyurdu: "Onlar Allahın Özünə və peyğəmbərinə yaxınlaşdırdığı şəxslərdir. Uca Allah buyurur: ***"Allaha, rəsuluna və sizdən olan əmr sahiblərinə itaət edin".***[1]

Kişi dedi: "Onları mənə bəyan et!"

İmam Əli (ə) buyurdu: "Onlar Allah Peyğəmbərinin (s) dünyadan köçdüyü gün söylədiyi xütbəsində barələrində belə buyurduğu kəslərdir: "Sizin aranızda iki şey qoyuram. Onlara sarıldığınız müddətdə yoldan əsla azmayacaqsınız: Allahın kitabı və Əhli-Beytim! Lətif və hər şeydən xəbəri olan (Allah) mənə söz verib ki, bu ikisi Hovuzun başında mənə qovuşanadək əsla bir-birlərindən ayrılmazlar. İki işarə barmağını yan-yana tutub göstərərək: "Bu ikisi kimi!" buyurdu. Ardınca orta və işarə barmağını bir-birinə yaxınlaşdırıb "Bu ikisi kimi demirəm. Çünki bu ikisindən biri digərindən öndədir. Elə isə onlara möhkəm sarılın ki, yoldan azmayasınız. Onlardan önə keçməyin yoxsa həlak olarsınız, onlardan geridə qalmayın yoxsa bölünüb parçalanarsınız. Onlara bir şey öyrətməyin, həqiqətən onlar sizdən daha elmlidirlər" söylədi.

Kişi dedi: "Ey Möminlərin-əmiri! Onun adını mənə söylə!"

İmam Əli (ə) buyurdu: "O, Qədir Xumda Peyğəmbərin (s) təyin etdiyi şəxsdir. Qədir Xumda camaata "O sizə öz canınızdan daha övladır (ixtiyar sahibidir)" deyə bəyan etdi. Sonra oradakılara bunları orada olmayanlara söyləmələrini əmr etdi".

Kişi dedi: "Ey Möminlərin-əmiri, o şəxs sənsən?"

İmam Əli (ə) buyurdu: "Mən onların birincisi və ən fəzilətlisiyəm. Məndən sonra oğlum Həsən möminlərə öz canlarından daha övladır. Ondan sonra oğlum Hüseyn möminlərə öz canlarından daha övladır. Ondan sonra Hovuzun başında Peyğəmbərə qovuşanadək bir-birinin ardınca Peyğəmbər vəsiləridir".

Kişi ayağa qalxdı, Əliyə yaxınlaşdı və onun başından öpdü. Sonra dedi: "Məni agah elədin, rahatlatdın və ürəyimdə olan hər şeyi aradan qaldırdın".

[1] "Nisa" surəsi, ayə 59.

# HƏDİS 9

## İslamın xüsusiyyətləri və təsirləri

Aban ibn Əbu Əyyaş Süleymdən nəql edir: Bir kişi[1] Əmirəl-mömininin (ə) yanına gəlib ondan İslam barəsində soruşdu. İmam (ə) buyurdu: "Uca Allah İslamı qanuniləşdirmiş, ona daxil olan şəxslər üçün şəriətini asanlaşdırmış, onunla savaşanlara qarşı rüknlərini (sütunlarını) izzətli etmiş, onda olan şəxslər üçün izzət, daxil olanlar üçün asayiş, onu rəhbər tutana öndər, bəzənmək istəyənə zinət, qəbul edən şəxsə təchizat, yapışmaq istəyən üçün kəndir və sarılmaq istəyən üçün möhkəm ip, öyrənən şəxs üçün dəlil, aydınlıq istəyən üçün nur, mübahisə edənlər üçün bir şahid, onu hakim edənlər üçün uğur, onu qoruyanlar üçün elm, söhbət edənlər üçün hədis, həll axtaranlar üçün hakim, səbr edənlər üçün təcrübə, düşünənlər üçün zəka və şəfa, anlamaq istəyənlər üçün fəhm, ağıl sahibləri üçün yəqin, qərar verənlər üçün bəsirət, diqqətli olanlar üçün əlamət, moizə alanlar üçün ibrət, doğru danışan üçün nicat, islah olan üçün sevgi, yaxınlaşan üçün sevinc, təvəkkül edən üçün inam, işlərini həvalə edən üçün ümid, ehsan edənlər üçün irəliləmə, tələsənlər üçün xeyir, səbr edənlər üçün örtük, təqvalılar üçün libas, düz yolda olanlar üçün yardım, iman edənlər üçün sığınacaq mağara, təslim olanlar üçün aman, sadiqlər üçün ləzzət, müttəqilər üçün moizə və uğur qazananlar üçün nicat qərar vermişdir.

Bu haqdır, yolu hidayətdir, vəsfi gözəllik, təsiri ciddi səy etməkdir. Yolların ən aydınıdır, bütün nurlardan daha parlaqdır, nur saçan çıraq və ali hədəfdir. Cıdırı asan, hər bir tərəfdən iştirakçıları toplanmışdır, nəticəsi üçün yarışırlar. İntiqamı ağrıdıcı, neməti qədim, faydada hamıdan qabaqdır, iştirakçıları möhtərəmdir.

Yolu imandır, saleh əməllər nur saçan işıqlarıdır, anlamaq çırağıdır, ölüm qayəsidir, dünya rəqabət yeridir, qiyamət yarışın sonudur, Cənnət mükafatı, od cəzası, təqva tədarükü və salehlər atlılarıdır.

İmanla saleh əməllərin dəlilini tapırlar, saleh əməllərlə anlayışı əldə edirlər, anlayışla ölümdən qorxurlar, ölümlə dünyanı bitirirlər, dünyanın bitməsilə qiyamətə addım atırlar, qiyamətlə cənnətə nail olurlar, cənnət isə od əhlinin həsrət çəkdiyi yerdir. Od təqva sahibləri üçün bir moizədir. Təqva isə təməli və əsasıdır.

İslam budur!

[1] Bu kişi "Kafi"də qeyd edildiyinə görə, İbn Kəvvadır.

# HƏDİS 10

## 1 Hədislər arasındakı fərqin səbəbləri

Aban Süleymdən nəql edir ki, o, Əmirəl-mömininə (ə) dedi: "Ey Möminlərin əmiri! Mən Salman, Miqdad və Əbu Zərdən Quranın təfsiri və Peyğəmbərin (s) hədisləri ilə bağlı nə eşitdimsə, sonra onlardan eşitdiklərimi sən də təsdiq etdin. Ancaq camaatın əlində Quran təfsirilə və Peyğəmbərdən (s) nəql edilən hədislərlə bağlı sizin sözlərinə zidd olan mövzular var. Siz onların batil olduğunu iddia edirsiniz. Məgər camaat bilərəkdən Peyğəmbərin (s) adından yalan uydurur və öz rəylərilə Quran təfsir edirlər?"

Süleym deyir: "Əli (ə) üzünü mənə tutub dedi: "Ey Süleym! Sual verdin, indi cavabını anlamağa çalış! Camaatın əlində olanlarda haqq-batil, doğru-yalan, nasix-mənsux, xüsusi-ümumi, möhkəm-mütəşabeh, əzbərlədikləri və xəyal etdikləri var. Peyğəmbər (s) həyatda ikən onun adından yalan uydurdular. Bu səbəbdən Peyğəmbər (s) qalxıb onların arasında xütbə söylədi və buyurdu: "Ey camaat! Mənim adımdan uydurulan yalanlar çoxaldı. Hər kim bilərəkdən mənim adımdan yalan uydursa cəhənnəmdəki yerini hazır bilsin". Bundan sonra da vəfatı əsnasında onun adından yalan uydurdular. Allahın mərhəməti və salavatı rəhmət peyğəmbərinin və ailəsinin üzərinə olsun!

## Hədis söyləyənlər dörd cürdür

Hədis sənə dörd cür insan tərəfindən yetişək, onlardan beşincisi yoxdur:

Münafiq bir kəsdən – o, zahirdə imanlı olduğunu göstərər, İslamla zinətlənər. Qəsdən Peyğəmbərin (s) adından yalan uydurmaqdan qorxmaz və çəkinməz. Müsəlmanlar onun münafiq və yalançı olduğunu bilsəydilər, ondan hədis qəbul etməz və onu təsdiqləməzdilər. Lakin onlar belə deyirlər: "Bu Peyğəmbərin (s) səhabəsidir. Onu görüb və ondan eşidib. Nə yalan danışar və nə də Peyğəmbərə yalan isnad etməyi halal bilər". Uca Allah münafiqlər barəsində xəbər vermiş və xüsusiyyətlərini açıqlamışdır. Onlar haqqında buyurur: ***"Sən onları gördükdə cüssələri (boy-buxunları, gözəllikləri) xoşuna gəlir, danışanda sözlərinə qulaq asırsan".***[1]

---

[1] "Munafiqun" surəsi, ayə 4.

Bu kəslər Peyğəmbərdən (s) sonra da ümmətin içində qaldılar, yalan, günah, nifaq və böhtanla zəlalət imamlarına və oda çağıranlara yaxınlaşdılar. Onlara vəzifələr verildi, camaatın boynuna mindirdilər və onlar sayəsində dünyadan faydalandılar. Həqiqətən Allahın qoruduğu kimsələrdən başqa, insanların hamısı dünyada padşahlarla birlikdədirlər. Bu, dörd nəfərdən birincisi idi.

İkincisi Peyğəmbərdən (s) bir şey eşitmişdi, amma onu olduğu kimi əzbərləməmişdi, bəzi şeyləri də xəyal etmişdi. Ancaq qəsdən yalan danışmaz. O, əlindəki hədisi söyləyir və özü də ona əməl edir. Deyir: "Mən bunu Peyğəmbərdən (s) eşitdim". Əgər müsəlmanlar onun söylədiyi hədisin xəyalının məhsulu olduğunu bilsəydilər, onu əsla qəbul etməzdilər. Həmçinin o da söylədiyinin xəyal məhsulu olduğunu bilsəydi, onu tərk edərdi.

Üçüncü şəxs Peyğəmbərin (s) əmr etdiyi bir şeyi eşitmişdi. Amma sonra Peyğəmbər (s) onu qadağan etmişdi. Lakin həmin şəxs qadağan edildiyini bilməmişdi. Yaxud Peyğəmbərin (s) bir şeyi qadağan etdiyini eşitmiş, amma sonra Peyğəmbər (s) onu yerinə yetirməyi buyurmuşdu. Lakin həmin şəxs bu əmrdən xəbərsizdir. Eləcə də, mənsuxu (hökmü ləğv ediləni) əzbərləməmiş, lakin nasixi (hökmü ləğv edəni) unutmuşdur. Əgər onun hökmünün ləğv edildiyini bilsəydi mütləq onu tərk edərdi. Həmçinin müsəlmanlar da hökmün ləğv edildiyini bilsəydilər bunu eşitdikləri zaman tərk edər və əsla qəbul eləməzdilər.

Dördüncü şəxs Allaha və Peyğəmbərə (s) yalan isnad etməz. Çünki yalana nifrət edir, Allahdan qorxur və Peyğəmbəri (s) də əzəmətli tutur. Xəyalını söylədiyinə qarışdırmaz. Eşitdiklərini olduğu kimi əzbərləmiş və eynilə eşitdiyi kimi də onu nəql edər. Ona bir şey artırmaz və ondan bir şey azaltmaz. Nasixi də, mənsuxu da əzbər bilir. Nasixə əməl edər və mənsuxu isə tərk edər.

Peyğəmbərin (s) hədislərindəki əmr və qadağalarda da eynilə Quran kimi nasix və mənsux, xüsusi və ümumi, möhkəm və mütəşabeh vardır. Bəzən Peyğəmbərin (s) söylədiyi sözün iki tərəfi olur: ümumi və xüsusi. Eynilə Quranda olduğu kimi. Onu eşidənlər Allahın və Peyğəmbərin (s) bu sözündəki məqsədin nə olduğunu bilməzlər.

Peyğəmbərin səhabələrinin hamısı ona sual verdiklərində aldıqları cavabı tam anlamazdılar. Onlardan bəziləri sual verər və izahını gözləməzdilər. Onlar bir kəsin və ya bir bədəvi ərəbin gəlib Peyğəmbərə (s) sual verməsini və Peyğəmbərin də (s) verəcəyi cavabı dinləməyi sevərdilər.

Amma mən hər gündüz bir dəfə və hər gecə bir dəfə olmaqla hər gün Peyğəmbərin (s) yanında olardım. O, mənimlə tək qalardı. O hansı tərəfə çevrilsə mən də onunla birlikdə çevrilərdim. Peyğəmbərin səhabələri də onun məndən başqa heç kəslə belə rəftar etmədiyini bilirdilər. Bu görüş bəzən mənim

evimdə olurdu. (Həmin vaxt) Peyğəmbər mənim yanıma gəlirdi. Mən nə vaxt onun evlərindən birinə getsəm zövcəsini otaqdan çıxarar, məndən və ondan başqa heç kimsə qalmazdı. Amma mənim evimə gəldikdə Fatimə və iki oğlumdan heç biri yanımızdan ayrılmazdı.

Mən soruşduqda cavab verirdi. Mən susduqda, ya da suallarım bitdikdə isə o danışmağa başlayardı. Ona nazil olub mənə oxumadığı və mənim də təkrarən ona oxumadığım bir dənə belə ayə yoxdur. Onları mənə imla etdi və mən də öz xəttimlə yazdım. Bütün bunları anlamağım və əzbərləməyim üçün də Allaha dua etdi.

Allahın kitabından əzbərlədiyim, təfsirini mənə öyrətdiyi və yazdığım heç bir ayəni unutmadım. Peyğəmbər (s) halal və haramlardan, əmr və qadağanlardan, itaət və günahlardan, qiyamətə qədər olan və olacaqlardan Allahın ona öyrətdiyi heç bir şeyi tərk etmədən hamısını mənə öyrətdi. Mən də əzbərlədim və onlardan bir hərfini belə unutmadım. Sonra əlini sinəmə qoyaraq Allahın sinəmi elm, fəhm, fiqh, hikmət və nur ilə doldurmasını, əsla cahil olmayacağım şəkildə öyrətməsi, unutmayacağım şəkildə əzbərlətməsi üçün dua etdi.

Bir gün ona dedim: "Ey Allahın peyğəmbəri! Mənim üçün dua etdiyin gündən bəri mənə öyrətdiklərindən heç bir şeyi unutmadım. Elə isə niyə mənə imla edirsən və mənim onları yazmağımı buyurursan? Mənim unudacağımdan qorxursan?" Buyurdu: "Ey qardaşım! Sənin cahil olacağın və unudacağın barədə əsla qorxum yoxdur. Sənin və səndən sonra gələcək şəriklərinin barəsində etdiyim duanı Allah qəbul etdiyini mənə bildirib".

## On bir imam (ə) Əmirəl-mömininin (ə) şərikləridir

Dedim: "Ey Allahın peyğəmbəri! Mənim şəriklərim kimlərdir?" Buyurdu: "Onlar Allahın özünə və mənə yaxınlaşdırdığı, barələrində belə buyurduğu şəxslərdir: ***"Allaha, rəsuluna və sizdən olan əmr sahiblərinə itaət edin".***[1]

Əgər bir şey barəsində aranızda münaqişə yaransa onu Allaha, rəsuluna və özünüzdən olan əmr sahiblərinə təqdim edin.

Dedim: "Ey Allahın peyğəmbəri! Onlar kimlərdir?" Buyurdu: "Mənimlə hovuzun başında görüşənə qədər gələcək vəsilərdirlər. Onların hamısı hidayət edən və hidayət olunmuşlardır. Onlara hiyləgərin hiyləsi və alçaltmaq istəyənin alçaltması zərər yetirməz. Onlar Quranla, Quran da onlarladır. Onlar Qurandan, Quran da onlardan ayrılmaz. Allah onların vasitəsilə ümmətimə yardım edər, onların varlığı səbəbilə yağış yağdırar və dualarıyla bəlaları uzaqlaşdırar".

[1] "Nisa" surəsi, ayə 59.

Dedim: "Ey Allahın peyğəmbəri! Onların adlarını söylə". Buyurdu: "Bu oğlum (əlini Həsənin başına qoydu), sonra bu oğlum (əlini Hüseynin başına qoydu), sonra bu oğlumun oğlu (yenidən əlini Hüseynin başına qoydu), sonra onun oğlu. Onun adı mənim adımdan – Muhəmməd olacaq. O, mənim elmimi yarandır (Baqirdir) və Allahın vəhyinin xəzinədarıdır. Ey qardaşım, Əli (İmam Səccad (ə)) sən həyatda ikən doğulacaq. Məndən ona salam söyləyərsən! Sonra Hüseynə tərəf üzünü tutub dedi: Əlinin oğlu Muhəmməd (İmam Baqir (ə)) sən həyatda ikən doğulacaq, sən də məndən ona salam söyləyərsən! On iki imamların qalanları sənin oğlundan gələcək, qardaşım".

Dedim: "Ey Allahın peyğəmbəri! Onların adlarını mənə söylə!". Onların adlarını bir-bir mənə dedi. Ey Bəni-Hilalın qardaşı! Allaha and olsun, bu ümmətin Mehdisi onlardandır. O yer üzünü günah və zülmlə dolduğu kimi haqq və ədalətlə dolduracaq. Allaha and olsun, rükn ilə məqam arasında ona beyət edənlərin hamısını tanıyıram, adlarını və hansı qəbilədən olduqlarını da bilirəm".

## 2. Süleymin bu hədisi nəql etməsinə İmamların (ə) təsdiqi

Süleym deyir: "Atalarının şəhid edilməsindən bir müddət sonra Mədinədə Həsən (ə) və Hüseyni (ə) gördüm. Atalarından eşitdiyim bu hədisi onlara söylədim. Dedilər: "Doğru söylədin! Atamız Əli (ə) bu hədisi sənə söylədi və biz də həmin vaxt orada oturmuşduq. Atamın sənə söylədiyi şəkildə bunu eynilə Peyğəmbərdən (s) eşitmiş və əzbərləmişdik. Ona bir şey artırıb və azaltmamışdır".

Süleym deyir: "Sonra Hüseynin oğlu Əli (ə) ilə görüşdüm. Oğlu Muhəmməd də yanında idi. Atasından, əmisindən və Əlidən (ə) eşitdiklərimi ona da söylədim.

Əli ibn Hüseyn (ə) buyurdu: "Möminlərin əmiri (ə) Peyğəmbərin (s) salamını mənə çatdırdı. Həmin vaxt o xəstə idi və mən də kiçik idim".

Sonra Muhəmməd Baqir (ə) mənə bunları söyləmişdi: "Cəddim imam Hüseyn (ə) Peyğəmbərin (s) əhdini mənə çatdırdı. Bu, salam idi. Həmin vaxt o xəstə idi".

Aban deyir: "Əli ibn Hüseynə (ə) bu hədisi Süleymdən eşitdiyim kimi nəql etdim. Buyurdu: "Süleym doğru deyib. Cabir ibn Abdullah oğlumun yanına gəldi. Həmin vaxt təlim yaşlarında olan bir uşaq idi. Onu öpdü və Peyğəmbərin (s) salamını ona çatdırdı.

Aban deyir: "Əli ibn Hüseynin (ə) vəfatından sonra həccə getmişdim. Əbu Cəfər Muhəmməd ibn Əli (İmam Baqiri (ə)) ilə rastlaşdım. Bu hədisin bir hərfini belə azaltmadan ona da söylədim. Gözləri yaşayardı. Sonra buyurdu: "Süleym doğru demişdir. Cəddim Hüseynin (ə) qətlindən sonra yanıma gəlmişdi. Həmin vaxt atamın yanında oturmuşdum. Bu hədisi eynilə mənə söylədi.

Atam ona dedi: "Doğru söylədin. Atam bu hədisi olduğu kimi Möminlərin əmirindən (ə) sənə nəql etdi və biz buna şahid idik. Sonra Həsən və Hüseyn (ə) Peyğəmbərdən (s) eşitdiklərini ona danışdılar".

*Həmmad ibn İsa deyir: "Bu hədisi mövlam İmam Cəfər Sadiqin (ə) yanında söylədim. Ağladı və dedi: "Süleym doğru demişdir. Bu hədisi atam atası Əli ibn Hüseyndən, o da atası Hüseyn ibn Əlidən rəvayət edib. Babam Hüseyn ibn Əli (ə) demişdi: "Mən bu hədisi Süleymin sualına cavab verdiyi zaman Möminlərin əmirindən (ə) eşitdim".*

## 3. Ümmətin Peyğəmbərin (s) Əhli-Beytinə (ə) xəyanəti

Aban deyir: "Sonra İmam Əbu Cəfər Baqir (ə) mənə dedi: "Biz Əhli-Beyt Qüreyşin zülmündən və bizə qarşı əlbirliyi səbəbindən nələrlə qarşılaşdıq, bizi qətlə yetirdilər!!! Bizim şiələrimiz, bizi sevənlər camaatın əlindən nələr çəkdilər!!! Peyğəmbər (s) vəfatı əsnasında bizim haqqımızı bəyan etmiş, bizə itaəti əmr eləmiş, bizim vilayətimizin və sevgimizin vacib olduğunu bildirmişdi. Bizim onlara öz canlarından övla olduğumuzu söyləmiş, bunu orada hazır olmayanlara da söyləmələrini əmr etmişdi.

### Səqifə

Əliyə (ə) qarşı əlbir oldular. O da Peyğəmbərin (s) onun barəsində söylədiyi və hamının eşitdiyi sözlərlə dəlillər göstərdi. Dedilər: "Doğru deyirsən. Peyğəmbər (s) belə buyurmuşdu, lakin sonradan bunları ləğv etdi və belə dedi: "Biz elə bir Əhli-Beytik ki, Allah bizi seçmiş, bizim üçün dünyaya razı olmamış, peyğəmbərliklə xəlifəliyi bizim üçün bir yerdə cəm etməmişdir".

Buna da dörd nəfər şahidlik elədi: Səhhakın oğlu, Əbu Ubeydə, Muaz ibn Cəbəl və Əbu Hüzeyfənin köləsi Salim. Camaatı şübhəyə saldılar və təsdiq elədilər, onları keçmişə qaytardılar. Xilafəti mədənindən və Allahın qərar verdiyi yerdən çıxardılar.

Bizim haqqımız və dəlillərimizlə ənsarın qarşısında dəlil qoydular, nəticədə xilafəti yaşlı səhabəyə verdilər. Yaşlı səhabə də etdikləri qarşılığında onları mükafatlandırmaq üçün onu Səhhakın oğluna qaytardı.

Sonra Səhhakın oğlu xilafəti altı nəfərə həvalə elədi. Onlar da Əbdürrəhman ibn Ovfa səlahiyyət verdilər. Sonra İbn Ovf onu Əffanın oğluna verdi ki, Əffanın oğlu da sonda ona qaytarsın. Amma Əffanın oğlu ona qaytarmadı. Bu zaman İbn Ovf küfrünü və cahilliyini zahir etdi. Həyatda ikən Əffanın oğlunu təhqir edərək barəsində pis sözlər danışdı. Övladları Əffanın oğlunu onu zəhərlədiyini və bu səbəbdən öldüyünü güman etdilər.

## Cəməl, Siffin və Nəhrivan müharibələri

Sonra Təlhə və Zübeyr öz istəklərilə və məcbur edilmədən Əliyə (ə) beyət elədilər. Bir müddətdən sonra isə beyətlərini pozub xəyanət etdilər. Ardınca Əffanın oğlu qisasının tələbkarı kimi Humeyranı özlərilə Bəsrəyə apardılar. Bir müddətdən sonra da Müaviyə Əffanın oğlunun qisası tələbilə şamlıların üsyanını hazırladı və bizimlə savaşa çıxdı. Sonra da Hərurə əhli[1] "Allahın kitabı və Peyğəmbərin sünnəsilə hökm et" şüarı ilə Möminlərin əmirinə (ə) qarşı çıxdılar. Əgər şərt kimi irəli sürdükləri həmin iki şeylə hökm etsəydilər Allahın kitabında və Peyğəmbərin sünnəsində Əlinin Möminlərin əmiri olduğunu bilərdilər. Nəhrivan əhli ona qarşı çıxdılar və onunla savaşdılar.

## İmam Həsən (ə) və İmam Hüseynin (ə) beyətindən dönmək və onlara xəyanət

Atasından sonra imam Həsənə (ə) beyət etdilər və onunla əhdləşdilər. Amma əhdlərini pozdular və onu yalnız qoydular. Onun üzərinə elə atıldılar ki, hətta xəncərlə ayağını deşdilər. Ordudakı çadırına göz dikib və zövcələrinin ayaq bilərziklərini oğurladılar.

Yardımı olmadığı üçün Müaviyə ilə sülh bağladı. Beləcə özünün, Əhli-Beytinin və şiələrinin canını qorudu. Onlar həqiqətən çox az idilər.

Sonra on səkkiz min kufəli imam Hüseynə (ə) beyət etdi. Amma xəyanət edib, ona qarşı çıxıb qətlə yetirənədək onunla savaşdılar.

## Ziyad, İbn Ziyad və Həccac dövründə şiələrin məzlumiyyəti

Peyğəmbərin (s) vəfatından bəri biz Əhli-Beyti zillətə salır, hörmətdən düşürür, məhrum qoyur, qətlə yetirir və sürgün edirlər. Özümüzün və bizi sevənlərin qanlarının tökülməsindən qorxuruq. Yalançılar isə yalanları sayəsində məqam əldə elədilər, şəhərlərin rəhbərliyinə, hakimlərinə və məmurlara yaxınlaşdılar.

[1] Xəvariclərin toplandıqları yer Hərurə idi. Bu səbəbdən onlara Hərurə əhli də deyilir.

Düşmənlərimiz özlərindən əvvəlki rəhbərləri barədə yalan və batil hədislər nəql edirlər. Məmurlara və hakimlərə yaxınlaşmaq üçün bizə yalan və böhtan atmaqla gözdən salır, söyləmədiyimiz sözləri adımızdan nəql edirlər.

Bunların ən böyüyü və ən çoxu imam Həsənin (ə) ölümündən sonra Müaviyənin zamanında oldu. Hər yerdə şiələr öldürülür, əlləri və ayaqları kəsilirdi. Bizim məhəbbətimiz və bizə bağlılıq səbəbilə hər cür böhtan və zənnlə onları dara çəkirdilər.

Bu bəlalar imam Hüseynin (ə) qətlindən sonra İbn Ziyadın zamanına qədər getdikcə şiddətləndi və artdı. Sonra Həccac gəldi, şiələrimizi hər cür cinayət, hər cür zən və böhtanla qətlə yetirdi. Belə ki, əgər bir kəs üçün kafir və ya məcusi deyilməsi onun üçün "Hüseynin şiəsi" deyilməsindən daha xoş idi!!!

## 4. Cəməlin tarixi və hədislərdəki təhriflər

Bəzən xeyirlə xatırlanan bir şəxsi görürsən, bəlkə də həqiqətdə də təqvalı və doğru danışandır. O keçmiş rəhbərlərin fəzilətləri barədə azdırıcı və təəccüb doğuran hədislər nəql edir. Lakin Allah onlardan heç birini qəti olaraq buyurmamışdır. O belə hədislərin ravilərinin çoxluğu, onların yalançı və təqvasız şəxs kimi tanınmamaları səbəbindən bu sözlərin doğru olduğunu zənn edir. Onlar Əli (ə), Həsən (ə) və Hüseyn (ə) barədə qəbih şeylər nəql edirlər. Allah bilir ki, onlar bu barədə nə qədər yalan, batil və böhtanlar nəql etmişlər!".

## Uydurma hədislərdən nümunələr

Aban ona belə dediyini söyləyir: "Allah sənə xeyir nəsib eləsin! Onlardan bir neçəsini mənə söylə". Buyurdu: "Rəvayət edirlər: "O ikisi cənnət qocalarının ağalarıdır"; "Səhhakın oğluna ilham olur"; "Mələklər ona təlqin edirlər"; "Aramlıq Səhhakın oğlunun dililə danışır"; "Mələklər Əffanın oğlundan utanır"; "Mənim səma əhlindən bir və yer əhlindən bir vəzirim var"[1]; "Məndən sonra gələnlərə itaət edin"; "Sakit ol, Hira! Üzərində Peyğəmbər, Siddiq və Şəhiddən başqası yoxdur!". Ta ki, İmam Baqir (ə) onların haqq zənn etdikləri yüzdən çox hədis söylədi. Sonra buyurdu: "Allaha and olsun ki, bunların hamısı yalan və böhtandır!".

Aban dedi: "Allah sənə xeyirlər nəsib etsin! Bunlardan heç bir şey doğru deyil?" Buyurdu: "Bəziləri uydurulmuş, bəziləri də təhrif edilmişdir. Təhrif

[1] "Ğədir"də bu kitaba (c.5, səh.318) istinadən nəql olunana əsasən isə: "Mənim səma əhlindən iki və yer əhlindən də iki vəzirim var. Bunlar Cəbrail və Mikail, yer əhlindən isə Əbu Bəkr və Ömərdir".

olanlardan: "Ey Hira! Sənin üzərində Peyğəmbər, Siddiq və şəhid olan Əli var!". Peyğəmbərin (s) sözündə məqsəd bu idi. Dağ da bunu qəbul etdi.[1] Bunun bənzəri də var: "Peyğəmbər, Siddiq və Şəhid sənin üzərində olduqları halda necə mübarək olmayasan?!". Bu sözdə məqsəd yenə Əlidir (ə). Qeyd etdiyimiz digər hədislərin hamısı isə yalan, böhtan və batildir.

İlahi, Muhəmməd ümmətinin ondan sonra Mehdinin zühuruna qədər ixtilaf etdikləri məsələlərdə sözümü Peyğəmbərin (s) və Əlinin (ə) sözü qərar ver!"

[1] Buradakı təhrif məna təhrifidir.

# HƏDİS 11

## 1. İmam Əli (ə) insanlara dəlillər göstərir

Aban ibn Əbu Əyyaş Süleymdən nəql edir ki, Əffanın oğlunun xəlifəliyi dövründə Peyğəmbərin (s) məscidində imam Əli (ə) və bir dəstə insanın bir-birlərilə söhbət edib elm və fiqh barədə müzakirə etdiklərini gördüm.

Qüreyşin fəzilətlərini, üstünlüklərini, hicrətini və Peyğəmbərin (s) onlar barəsində söylədiyi "İmamlar Qüreyşdəndir"; "İnsanlar Qüreyşə tabedirlər"; "Qüreyş ərəblərin imamıdır"; "Qüreyşi söyməyin"; "Hər bir Qüreyşli digər insanlardan iki dəfə güclüdür"; "Qüreyşə kin bəsləyənə Allah kin bəsləyər"; "Qüreyşi alçaltmaq istəyəni Allah alçaldar" kimi fəzilətləri zikr edirdilər.

Sonra ənsarın fəzilətlərini, üstünlüklərini, yardımlarını, Allahın kitabında onlar barəsindəki təriflərini və Peyğəmbərin (s) onların fəzilətləri haqda söylədiklərini qeyd etdilər.

Həmçinin Səd ibn Muazın cənazəsi[1], qüslünü mələklərin verdiyi Hənzələ ibn Rahib[2] və eləcə də bədənini arıların qoruduğu şəxs[3] barəsində Peyğəmbərin (s) söylədiklərini yad etdilər və onların fəzilətlərindən heç bir şeyi nəzərdən qaçırmadılar. Onlardan hər biri "Filan şəxs bizdəndir, filan şəxs bizdəndir" söyləyirdi.

Qüreyş dedi: "Peyğəmbər bizdəndir, Həmzə ibn Əbdül-müttəlib, Cəfər, Ubeydə ibn Haris, Zeyd ibn Harisə[4], Əbu Bəkr, Ömər, Osman, Səd, Əbu Übeydə, Salim və İbn Ovf da bizdəndir. Ərəbin müxtəlif qəbilələrindən öz

---

[1] Peyğəmbərdən (s) Sədin cənazəsi haqqında bəzi sözlər nəql edilmişdir. Onlardan biri belədir: "Ərş onun ölümünə görə titrədi" ("İhticac") Həmçinin bax: "Biharul-ənvar", c.10, səh.43 və c.20, səh.236.

[2] Uhud döyüşündə şəhid oldu və həmin vaxt Peyğəmbər (s) belə buyurdu: "Mələkləri İbn Əbu Amirə (Hənzələyə) qüsl verərkən gördüm". "Biharul-ənvar", c. 20, s. 47 və 58.

[3] Məqsəd Asim ibn Sabit Ənsaridir. "Arının qoruduğu" şəxs kimi tanınmış və Uhud döyüşündə şəhid olmuşdur. Müşriklər onun başını kafirlərin qadınlarından olan Səlafə bint Sədə satmaq istədilər. Həmin qadın onun başında şərab içməyi nəzir etmişdi. Belə ki, Sabit Uhuddə onun iki oğlunu öldürmüşdü. Amma Allah arıları göndərdi. Arılar düşmənin yaxınlaşmaması üçün onun bədənini bütünlüklə əhatə etdilər. Bu səbəbdən də o "Arıların qoruduğu" şəxs kimi məşhurlaşdı. "Biharul-ənvar", c. 20, s. 152.

[4] Əbul-Haris Ubeydə ibn Haris ibn Əbdülmüttəlib səhabə idi, Peyğəmbərdən (s) on yaş böyükdü. Bədrdə şəhid oldu.

nəzərlərində fəzilətləri olan hər kəsi və onların adlarını bir dənəsini belə buraxmadan saydılar.

Toplanmış insanların sayə iki yüzdən çox idi. Bəziləri kürəklərini qibləyə çevirmiş və bəziləri də camaatın içinə girmişdilər. Yadımda qaldığı qədər Qüreyşdən olanlar bunlar idilər: Əli ibn Əbu Talib, Sad ibn Əbu Vaqqas, Əbdürrəhman ibn Ovf, Zübeyr, Təlhə, Əmmar, Miqdad, Əbu Zərr, Haşim ibn Ütbə, Abdullah ibn Ömər, Həsən (ə), Hüseyn (ə), İbn Abbas, Muhəmməd ibn Əbu Bəkr, Abdullah ibn Cəfər və Übeydullah ibn Abbas. Ənsardan olanlar isə bunlar idilər: Übey ibn Kəb, Zeyd ibn Sabit, Əbu Əyyub Ənsari, Əbu Heysəm ibn Teyhan, Muhəmməd ibn Məsləmə, Qeys ibn Sad ibn Übadə, Cabir ibn Abdullah, Əbu Məryəm, Ənəs ibn Malik, Xeyd ibn Ərqəm, Abdullah ibn Əbu Əvfa, Əbu Leyla və onunla birgə yanında dayanmış, saqqalı yeni tərləmiş ağ üzlü bir gənc olan oğlu Əbdürrəhman.

Sonra Həsən Bəsri oğlu Həsənlə birgə gəldilər. O da saqqal yeri yenicə tərləmiş, ağ üzlü və orta boylu bir gəncdi.

Süleym deyir: “Mən ona və Əbu Leylanın oğlu Əbdürrəhmana baxdım. Hansının daha gözəl olduğuna qərar verə bilmədim. Amma Bəsrinin oğlu Həsən daha cüssəli və daha uzun boylu idi.

Camaat artırdı, söhbət isə səhərdən günortaya qədər sürdü. Əffanın oğlu evində idi və bu söhbətdən xəbəri yoxdu. Əli ibn Əbu Talib (ə) sakit dayanmış, özü və Əhli-Beytindən heç kəs bir söz demirdilər.

## 2. Əmirəl-mömininin (ə) dəlilləri

Bir dəstə adam Əliyə (ə) üzlərini tutub dedilər: “Danışmağına nə mane our?” Əli (ə) dedi: “Hər iki dəstə üstünlüklərini qeyd etdilər və haqqı söylədilər”.

Sonra buyurdu: “Ey Qüreyş camaatı! Ey ənsarlar! Allah bu üstünlüyü sizə kimin sayəsində vermişdir? Görəsən sizin özünüzün, tayfanızın, ailənizin, ya sizdən başqasının xatirinə?”

Dedilər: “Allah Peyğəmbəri (s) sayəsində bizə üstünlük və fəzilətlər bəxş etmiş və minnət qoymuşdur. Bunların hamısını onun sayəsində nail olduq. Dünyada və ya dində əldə etdiyimiz hər üstünlük və fəzilət nə özümüzün, nə tayfamızın və nə də ailəmizin sayəsində deyil, yalnız Peyğəmbərin (s) sayəsindədir!”

İmam Əli (ə) buyurdu: “Ey Qüreyş və ənsar, doğru söylədiniz! Dünya və axirətdən əldə etdiyiniz bütün xeyirlərin hamısının xüsusilə biz Əhli-Beytdən sizə çatdığını və özünüzdən heç kimin sayəsində olmadığını təsdiq edirsinizmi? Peyğəmbərin (s) “Mən və qardaşım Əli ibn Əbu Talib Adəmə qədər vahid bir

torpaqdan xəlq olunmuşuq" dediyini eşitməmisiniz?" Bədr və Uhud əhli, islamı ilk vaxtlarda qəbul edənlər və öndə gedənlər "Bəli, bunu Peyğəmbərdən (s) eşitmişik" dedilər.

İmam Əli (ə) buyurdu: "Görəsən əmim oğlu Peyğəmbərin (s) "Allah Adəmi yaratmazdan on dörd min il əvvəl mən və Əhli-Beytim Allahın hüzurunda ibadət edən bir nur idik. Allah Adəmi yaratdıqda nuru onun sülbünə (belinə) yerləşdirdi və yer üzünə endirdi. Sonra Nuhun sülbündə gəmidə daşıdı. Sonra İbrahimin sülbündə oda atdı. Ardından Allah bizi analar və atalar arasında seçilmiş və şərəfli sülblərdən pak rəhmlərə, pak rəhmlərdən seçilmiş və şərəfli sülblərə köçürdü ki, onlardan heç biri əsla zinadan törəmədi" dediyini təsdiq edirsiniz?" Bədr və Uhud əhli, islamı ilk vaxtlarda qəbul edənlər və öndə gedənlər "Bəli, bunu Peyğəmbərdən (s) eşitmişik" dedilər.

İmam Əli (ə) buyurdu: "Allahı sizə şahid tuturam! Peyğəmbər (ə) səhabələri arasında qardaşlıq yaradarkən onların hər biri üçün bir qardaş seçdi. Məni də özü üçün qardaş seçib "Dünya da və axirətdə sən mənim və mən də sənin qardaşınam" dediyini təsdiq edirsinizmi?". Dedilər: "Allaha and olsun ki, bəli".

İmam Əli (ə) dedi: "Peyğəmbər (s) məscidinin torpağını satın alıb məscid tikdi, sonra (məscidin ətrafında) doqquzu xanımları və onların da ortasında biri də mənim üçün olmaqla on ev tikdi. Bir müddət sonra mənim evimin qapısı istisna olmaqla məscidə açılan bütün qapıları bağlatdırdı. Bəzilərinin bu barədə söz-söhbət salmağa başladıqda Peyğəmbər (s) buyurdu: "Sizin evlərinizin qapısını bağlayıb və onun qapısını açıq saxlayan mən deyiləm. Bunu mənə Allah əmr etdi". Həmçinin Peyğəmbər (s) məndən başqa hər kəsə məsciddə yatmağı qadağan etmişdi. Peyğəmbərin (s) evilə mənim evim məsciddə olduğu üçün orada cünub gəzə bilir, Peyğəmbərin (s) və mənim övladlarım orada dünyaya gəlmişdir. Bunu təsdiq edirsinizmi?" Onlar dedilər: "İlahi, bəli, elədir".

İmam Əli (s) buyurdu: "Səhhakın oğlu öz evindən məscidə kiçik bir dəlik açmaq üçün israr etmişdi. O zaman Peyğəmbər (s) buyurmuşdu: "Allah Musaya pak və təmiz bir məscid tikməsini, orada yalnız özünün, Harunun və iki oğlunun yaşaya biləcəyini buyurmuşdu. Allah mənə də pak və təmiz bir məscid tikməyi, orada yalnız mənim, qardaşımın və iki oğlunun yaşaya biləcəyini əmr etdi". Bunu təsdiq edirsiniz?».

Dedilər: "Allaha and olsun, bəli".

İmam Əli (ə) buyurdu: "Peyğəmbərin (s) Qədir Xum günü məni yanına çağırıb vilayətimi elan etdiyini və "Burada olanlar olmayanlara çatdırsın" dediyini təsdiq edirsinizmi?" «İlahi, bəli, elədir" dedilər.

İmam Əli (ə) dedi: “Peyğəmbər (s) Təbuk döyüşü günü buyurdu: “Sənin mənə olan nisbətin Harunun Musa nisbəti kimidir. Sən məndən sonra bütün möminlərin vəlisisən”. Bunu təsdiq edirsinizmi?»

Onlar: “Allaha and olsun ki, bəli” dedilər.

İmam Əli (ə) sözünə belə davam etdi: “Peyğəmbər (s) Nəcranlı xristianları mübahələyə dəvət etdi. Bu zaman özü ilə mübahələyə məndən, zövcəm və iki oğlumdan başqa heç kəsi aparmadığını da təsdiq edirsinizmi?”. Dedilər: “Allaha and olsun, elədir”.

İmam Əli (ə) buyurdu: “Peyğəmbər (s) Xeybər bayrağını mənə verərək “Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, o, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir. Qorxaq deyil və döyüşdən əsla qaçmaz. Allah Xeybəri onun əlilə fəth edəcək” buyurdu. Bunu bilirsiniz?” Dedilər: “İlahi, şahidik”.

İmam Əli (ə) dedi: “Peyğəmbər (s) “Bəraət”[1] surəsini təbliğ üçün məni göndərdi, məndən əvvəl göndərdiyi şəxsi[2] geri çağırdı və bunu Allahın vəhyinə əsasən etdi. Uca Allah buyurdu: “Sən və sənin özündən olan şəxsdən (Əlidən) başqası bunu təbliğ edə bilməz”. Bunu təsdiq edirsinizmi?” Oradakılar dedilər: “Allaha and olsun ki, bəli”.

İmam Əli (ə) buyurdu: “Peyğəmbər (s) bir çətinliklə qarşılaşdıqda mənə olan etibarına görə öndən məni göndərər, məni heç vaxt adımla çağırmaz, “Ey qardaşım” və ya “Qardaşımı yanıma çağırın” deyərdi. Bunu təsdiq edirsiniz?” Dedilər: “Bəli, Allaha and olsun ki, elədir”.

İmam Əli (ə) buyurdu: “Təsdiq edirsiniz ki, Həmzənin qızı haqqında mən, Cəfər və Zeyd arasında Peyğəmbər (s) hakimlik edərkən “Ya Əli! Sən məndən, mən də səndənəm. Sən məndən sonra bütün möminlərin vəlisisən” dedi?” Dedilər: “İlahi, bəli!”.

İmam Əli (ə) dedi: “Mən hər gün və hər gecə Peyğəmbərin (s) yanına gedir və onunla tək qalır, mən soruşur, o isə cavab verirdi. Susduğum vaxtda isə o (izah etməyə) başlayırdı”. Bunu da təsdiq edirsinizmi?” Onlar “Allaha and olsun, bəli” dedilər.

İmam Əli (ə) buyurdu: “Peyğəmbər (s) məni Cəfər və Həmzədən üstün tutmuş, Fatiməyə: “Səni əhlimin ən xeyirlisi, ümmətimin ən yaxşısı, ilk müsəlman, helm və elmdə ümmətimin ən üstünü ilə evləndirdim” demişdi?”. Dedilər: “Bəli, Allaha and olsun!”.

---

[1] “Tövbə” surəsidir.

[2] Rəvayətlərdə “Tövbə (Bəraət)” surəsinin Məkkədəki müşriklərə təbliğ edilməsi üçün Peyğəmbərin (s) əvvəlcə yaşlı səhabəni göndərdiyi, ancaq Allahın vəhy nazil edərək bu işdən razı olmadığını bildirməsindən sonra yaşlı səhabəni yoldan qaytarıb İmam Əlini göndərdiyi nəql edilir. Bax: “Biharul-ənvar”, c.35, səh.295.

İmam Əli (ə) dedi: "Peyğəmbərin belə buyurduğunu təsdiq edirsiniz? "Mən Adəm övladlarının seyidi, qardaşım Əli ərəblərin ağası, qızım Fatimə cənnət qadınlarının seyyidəsi və iki oğlum Həsənlə Hüseyn isə cənnət cavanlarının ağalarıdır". Dedilər: "İlahi, bəli, elədir".

İmam Əli (ə) buyurdu: "Təsdiq edirsiniz ki, Peyğəmbər (s) ona qüsl verməyimi, onu yuyarkən Cəbrayılın mənə yardım edəcəyini əvvəlcədən bildirmişdi?". Dedilər: "Allaha and olsun, elədir".

İmam Əli (ə) dedi; «Allahı sizə şahid tuturam! Peyğəmbər (s) sizə söylədiyi son xütbəsində "Ey camaat! Mən sizin aranızda (özümdən sonra) iki şey qoydum, onlardan tutduğunuz müddətcə yoldan əsla azmayacaqsınız: Allahın kitabı və Əhli-Beytim." dəmədimi?" Dedilər: "Allaha and olsun ki, bəli".

İmam Əli (ə) buyurdu: "Allahı sizə şahid tuturam! Allah kitabında yüzdən çox ayədə önə keçənin geridə qalandan fəzilətli olduğunu və bu ümmətdən bir nəfərin belə Allaha və Peyğəmbərinə (s) nisbətlə məndən önə keçmədiyini bilirsiniz?" Dedilər: "Allaha and olsun, bəli, bilirik".

İmam Əli (ə) buyurdu: "Allahı sizə şahid tuturam! ***"(İslamı) ilk əvvəl qəbul edib (bu işdə başqalarından) irəli düşən mühacirlərə və ənsara..."***[1] ayəsilə ***"Və öndə olanlar. Onlar öndədirlər! Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış kimsələrdir"***[2] ayəsinin kimin barəsində nazil olduğunu bilmirsiniz? Peyğəmbərdən bu barədə soruşulduqda belə cavab vermədimi: "Allah bu ayəni peyğəmbərlər və vəsilər haqqında nazil edib. Mən peyğəmbərlərin, Əli ibn Əbu Talib isə vəsilərin ən fəzilətlisidir". Onlar hamılıqla: "Allaha and olsun ki, elədir" dedilər.

İmam Əli (ə) dedi: "Allahı sizə şahid tuturam! ***"Ey iman edənlər! Allaha, rəsuluna və sizdən olan əmr sahiblərinə itaət edin"***[3]***; "Sizin vəliniz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və rükuda olduqları halda zəkat verirlər";***[4] ***"Yoxsa elə güman edirsiniz ki, Allah içərinizdən cihad edənləri, Allahdan, Onun Peyğəmbərindən və möminlərdən başqasını özlərinə vəli edənləri ayırd etməmiş siz sərbəst buraxılacaqsınız?"***[5] ayələri nazil olduqda camaat: "Ey Allahın elçisi! Bu ayələr bəzi möminlər haqqındadır, yoxsa bütün möminlərə şamildir? deyə soruşdular.

---

[1] "Tövbə" surəsi, ayə 100.
[2] "Vaqiə" surəsi, ayə 10-11.
[3] "Nisa" surəsi, ayə 59.
[4] "Maidə" surəsi, ayə 55.
[5] "Tövbə" surəsi, ayə 16.

Allah da Peyğəmbərə (s) əmr sahibi olan vəlilərini onlara tanıtmasını və namaz, zəkat, oruc və həcc kimi ibadətləri izah etdiyi kimi vilayəti də onlar üçün təfsir etməsini buyurdu. Peyğəmbər də (s) Qədir Xumda məni xəlifə olaraq təyin etdi və xütbəsində dedi: "Ey insanlar! Allah mənə elə bir tapşırıq verib ki, ondan sinəm daraldı və camaatın məni inkar edəcəyindən qorxdum. Amma Allah təbliğ etməyim üçün təhdid etdi və əks təqdirdə mənə əzab verəcəyini bildirdi".

Sonra insanların namaza toplanması üçün əmr verdi və namazın ardınca xütbə söyləyərək buyurdu: "Ey insanlar! Allahın mənim vəlim olduğunu, mənim də möminlərin vəlisi olduğumu və onlara öz canlarından övla olduğumu bilirsiniz?" Toplaşanlar dedilər: "Bəli, Ey Allahın elçisi!"

Peyğəmbər (s): "Əli, ayağa qalx" dedi. Sonra buyurdu: "Mən kimin mövlasıyamsa, Əlidə onun mövlasıdır. İlahi, ona dost olanla dost ol və ona düşmən olanla düşmən ol" dedi.

Salman ayağa qalxdı və dedi: "Ya Peyğəmbər! Bu necə vilayətdir?" Peyğəmbər (s) buyurdu: "Mənim vilayətim kimidir. Mən kimə öz canından övla (ixtiyar sahibiydimsə) idimsə, Əlidə ona öz canından övladır". Elə oradaca Uca Allah bu ayəni endirdi: ***"Bu gün dininizi kamala çatdırdım, sizə nemətimi tamamladım və sizin üçün din olaraq İslama razı oldum".[1]*** Peyğəmbər (s) təkbir söyləyib dedi: "Allahu Əkbər! Mənim peyğəmbərliyim və Allahın dini məndən sonra Əlinin vilayətilə tamamlanır".

Həmin vaxt Əbu Bəkr və Ömər ayağa qalxıb dedilər: "Ya Peyğəmbər! Bu ayələr xüsusi olaraq Əli haqqındadır?" Peyğəmbər (s) buyurdu: "Bəli, onun və qiyamətə qədər olacaq qəyyumlarım haqqındadır". O ikisi dedilər: "Ya Peyğəmbər! Onları bizə bəyan et!" Peyğəmbər (s) buyurdu: "Qardaşım, vəzirim, varisim, ümmətim üzərində xəlifəm və məndən sonra bütün möminlərin mövlası Əlidir, sonra oğlum Həsən və ondan sonra oğlum Hüseyndir. Sonra bir-birinin ardınca oğlum Hüseynin doqquz övladıdır. Quran onlarla və onlar da Quranladırlar. Hovuzumun başında mənə qovuşana qədər onlar Qurandan və Quran da onlardan ayrılmayacaq".

(Oradakıların) hamısı dedilər: "Bəli, Allaha and olsun, bunları eşitdik və söylədiklərinə eynilə şahid olduq". Bəziləri isə dedilər: "Söylədiklərinin hamısını yox, amma böyük bir qismini əzbərləmişdik. Bunların hamısını əzbərləyənlər bizim ən xeyirli və fəzilətli olanlarımızdır".

İmam Əli (ə) buyurdu: "Doğru söyləyirsiniz! İnsanların hamısının əzbərləməkdə bərabər deyillər. Allahı sizə şahid tuturam, bunları Peyğəmbərdən (s) eynilə eşidib əzbərləyənlər ayağa qalxıb və eşitdiklərini xəbər versinlər".

---

[1] "Maidə" surəsi, ayə 4.

Zeyd ibn Ərqəm, Bərra ibn Azib, Əbu Zərr, Miqdad və Əmmar ayağa qalxıb dedilər: "Biz şahidlik edirik ki, Peyğəmbərin (s) sözlərini əzbərlədik. O, minbərin üzərində ayaq üstə dayanmışdı və sən də yanında idin. Belə deyirdi: "Ey insanlar! Allah mənə imamınızı, məndən sonra ümmətim arasındakı Qaimi, vəsimi və xəlifəmi təyin etməyimi əmr etdi. O, Allahın kitabında itaəti vacib, itaətinin Allahla və mənim itaətimlə bərabər tutulduğu və sizlərə vilayətini qəbul etməyiniz əmr olunan şəxsdir. Mən nifaq əhlinin tənələrindən və inkarlarından qorxaraq Rəbbimə üz tutdum. O da bunları təbliğ etmədiyim halda mənə əzab verəcəyini bildirdi.

Ey insanlar! Allah kitabında sizə namazı əmr etdi və mən onu sizə açıqladım. Zəkatı, orucu və həcci əmr etdi və mən onları da sizə açıqlayıb təfsir etdim. Sonra da sizə vilayəti əmr etdi. Mən sizi şahid edirəm ki, vilayət - əlini Əlinin (ə) sinəsinə qoyaraq - buna aiddir, bundan sonra iki oğluna və sonra onların nəslindən gələcək vəsilərə məxsusdur. Hovuzumun yanında mənə qovuşanadək onlar Qurandan və Quran da onlardan ayrılmayacaq.

Ey insanlar! Məndən sonra sığınacağınızı, imamınızı, vəlinizi və hidayətçinizi sizə bəyan etdim. O, qardaşım Əli ibn Əbu Talibdir. Onun sizin aranızdakı məqamı mənim sizin aranızdakı məqamım kimidir. Dininizdə onu izləyin və bütün işlərinizdə ona itaət edin. Çünki Allahın mənə öyrətdiyi bütün elm və hikmətlər onun yanındadır. Ondan və özündən sonrakı vəsilərdən soruşun və öyrənin. Onlara bir şey öyrətməyə çalışmayın, onlardan önə keçməyin və onlardan geridə qalmayın. Onlar haqq ilə, haqq da onlarladır. Nə haqq onlardan, nə də onlar haqdan ayrılarlar". Sonra əyləşdilər.[1]

Süleym deyir: Sonra Əli (ə) buyurdu: "Ey insanlar! Məgər bilmirsiniz ki, Allah kitabında ***"Ey Əhli-Beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[2] ayəsini endirdi?! O zaman Peyğəmbər (s) məni, Fatiməni və iki oğlum Həsən və Hüseyni bir yerə toplayıb üzərimizə kisasını örtərək "İlahi, bunlar mənim Əhli-Beytim və qohumlarımdır. Onlara acı verən şeylər mənə də acı verir, onlara əziyyət edən şeylər mənə də əziyyət edir və onları sıxan şeylər məni də sıxır. Pislikləri onlardan uzaqlaşdır və onları pak et!" deyə dua etdi. Ümmü Sələmə: "Ya Peyğəmbər! Mən də gəlimmi?" deyə soruşduğunda, Allahın Elçisi (s): "Sən xeyir üzrəsən! Amma bu ayə xüsusi olaraq yalnız mənim, qardaşımın, qızım Fatimənin, iki

---

[1] Yəni Zeyd ibn Ərqəm, Bərra, Əbu Zərr, Miqdad və Əmmar ibn Yasir şahidlik etdikdən sonra oturdular.

[2] "Əhzab" surəsi, ayə 33.

oğlumun və oğlum Hüseynin nəslindən gələcək doqquz nəfərin haqqındadır. Onlardan başqa heç kim bizimlə birlikdə deyil" buyurdu.

Orada olanlar dedilər: "Şəhadət veririk ki, Ümmü Sələmə bu hadisəni bizə şəxsən danışıb. Biz də Peyğəmbərdən (s) soruşduq. O da Ümmü Sələmənin nəql etdiyi kimi hadisəni eynilə bizə danışdı".

Sonra İmam Əli (ə) dedi: "Allahı sizə şahid tuturam! Əli (ə) buyurdu: "Uca Allahın öz kitabında belə buyurduğunu bilmirsiniz: ***"Ey iman gətirənlər! Allahdan qorxun və doğru olanlarla (sadiqlərlə) birgə olun!"***[1] Salman dedi: "Ya Peyğəmbər, bunlar ümumi və ya xüsusi insanlardır?". Peyğəmbər (s) buyurdu: "Əmr olunanlar ümumidir. Çünki möminlər buna əmr olunublar. Sadiqlər isə xüsusi olaraq qardaşım Əli ibn Əbu Talib və qiyamət gününədək ondan sonrakı vəsilərdirlər". Onlar: "Bəli, şahidik!" dedilər.

İmam Əli (ə) dedi: "Allahı sizə şahid tuturam! Təbuk savaşında Peyğəmbərə (s) demədimmi: "Ya Peyğəmbər, məni niyə burada qoyursan (özünlə döyüşə aparmırsan)?" Buyurdu: "Ey Əli, mən və ya sən olmasan Mədinə asayişdə olmaz. Sənin mənə nisbətin Harunun Musaya nisbətidir, sadəcə məndən sonra peyğəmbər yoxdur". Dedilər: "İlahi, şahidik!"

Sonra buyurdu: "Allahı sizə şahid tuturam, Allah "Həcc" surəsində: ***"Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın; Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız! Allah yolunda layiqincə cihad edin. O (Öz dini üçün) sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı - atanız İbrahimin dini kimi. Allah bundan (Quran nazil olmamışdan) əvvəl də, bunda (Quranda) da sizə müsəlman adını verdi ki, (qiyamət günü) Peyğəmbər sizə, siz də insanlara şahid olasınız. Elə isə namaz qılın, zəkat verin və Allaha sığının. (Allah) sizin ixtiyar sahibinizdir. O nə yaxşı ixtiyar sahibi, necə də gözəl imdada yetəndir!"***[2] buyurmurmu?! Həmin vaxt Salman qalxıb demişdi: "Ya Peyğəmbər, sənin onlara, onların da insanlara şahid olduğu, Allahın seçdiyi və Allahın, ataları İbrahimin dinində olduğu kimi onlar üçün dində heç bir çətinlik yeri qoymadığı bu şəxslər kimlərdir?"

Peyğəmbər (s) buyurdu: "Bu ayədə Allahın məqsədi bütün ümmət deyil, xüsusi on üç nəfərdir". Salman dedi: "Ya Peyğəmbər! Onları bizə açıqla". Peyğəmbər (s) buyurdu: "Mən, qardaşım Əli ibn Əbu Talib və onun övladlarından on bir nəfər". Orada toplaşanlar dedilər: "İlahi, bəli, elədir".

---

[1] "Tövbə" surəsi, ayə 119.
[2] "Həcc" surəsi, ayə 77-78.

Ardınca İmam Əli (ə) buyurdu: "Allah xatirinə söyləyin! Bilmirsinizmi Peyğəmbər (s) ən son xütbəsində nə buyurdu?! "Ey camaat! Sizin aranızda iki şeyi əmanət qoyuram: Uca Allahın kitabı və itrətim olan Əhli-Beytim. Əgər onlara sarılsanız əsla azmayacaqsınız. Lütf sahibi və hər şeydən xəbərdar olan Allah mənə xəbər verib ki, bu ikisi hovuzun başında mənə qovuşanadək bir-birlərindən əsla ayrılmayacaqlar". Səhhakın oğlu sanki qəzəbli bir halda ayağa qalxaraq demişdi: "Ey Peyğəmbər! Onların hamısı Əhli-Beytindir?" Peyğəmbər (s) buyurdu: "Xeyr, vəsilərimdir. Onlardan Əli qardaşım, vəzirim, varisim, ümmətimdə xəlifəm, məndən sonra hər möminin vəlisidir. O, vəsilərin birincisidir. Sonra oğlum Həsən və sonra Hüseyn, sonra oğlum Hüseynin bir-birinin ardınca gələcək doqquz övladı. Hovuzun başında mənə qovuşacaqlar. Allahın yer üzündəki şahidləri, məxluqları üzərindəki höccətləri, elminin xəzinədarları və hikmətinin mədənidirlər. Kim onlara itaət etsə Allaha itaət etmiş, onlara qarşı çıxan isə Allaha qarşı çıxmışdır".

Onların hamısı dedilər: "Peyğəmbərin (s) bunları söylədiyinə şahidik".

## Şahidlik məclisinin vəsfi

Sonra Əli (ə) suallarına davam etdi, Allahı oradakılara şahid tutdu və hər bir şeyə and içdirdi. Sonadək bütün üstünlük və fəzilətlərini saydı, Peyğəmbərin (s) söylədiklərinin çoxunu onlardan soruşdu. Onlar da bütün bunları təsdiqlədilər və həqiqət olduğuna şahidlik etdilər.

Süleym deyir: "Allahın məxsusi olaraq onun və Əhli-Beyti haqqında Quranda nazil etdiyi, Peyğəmbərin (s) dilindən söyləndiyi nə varsa, hamısına Allahı onlara şahid tutdu. Oradakılardan bəziləri bir ağızdan "Bəli" deyir, bəziləri susur və bir dəstə də "Allaha and olsun, elədir" deyirdilər. Susanlar təsdiq edənlərə: "Siz bizim nəzərimizdə etibarlı şəxslərsiniz və sizdən başqa inandığımız digər şəxslər də bunları Peyğəmbərdən (s) eşitdiklərini bizə bildiriblər" deyirdilər.

İmam Əli (s) dedi: "Peyğəmbərin əlini başımın üzərinə qoyaraq: "Məni sevdiyini zənn edən və Əliyə kin bəsləyən şəxs həqiqətən yalançıdır və məni sevməmişdir" demədimi?. Həmin vaxt bir nəfər: "Bu necə ola bilər ki, Ya Peyğəmbər?" deyə soruşmuşdu. Peyğəmbər (s) cavabında buyurdu: "Çünki o, məndəndir və mən də ondanam. Onu sevən məni və məni sevən də Allahı sevmişdir. Ona kin bəsləyən mənə kin bəsləmiş və mənə kin bəsləyən də Allaha kin bəsləmişdir". Bunu təsdiq edirsiniz?"

Fəzilət sahiblərindən iyirmiyə yaxın şəxs: “Allaha and olsun, bəli!” dedilər. Digərləri susdular.

İmam Əli (ə) susanlardan soruşdu: “Niyə susursunuz?” Onlar dedilər: “Şahidlik edənlər bizim nəzərimizdə inanılan şəxslərdirlər. Düzgünlüklərində, fəzilətlərinə və üstünlüklərinə şübhəmiz yoxdur”. İmam Əli (ə) buyurdu: “İlahi, onlara şahid ol!” Dedilər: “İlahi, biz Peyğəmbərdən (s) eşitdiklərimizdən, bunlar və bunlardan savayı digər inandığımız şəxslərdən bu sözləri Peyğəmbərdən (s) eşidib bizə nəql etdiklərinə şahidlik edirik”.

## 3. Əmirəl-mömininlə (ə) Təlhə arasındakı söhbət

### Xilafət barəsində Əbu Bəkrin “hədisi”nə yeddi cavab

Təlhə ibn Ubeydullah (ona “Qüreyşin dahisi” deyirdilər) dedi: “Çox təəssüf ki, o gün səni zorla, boynunda ip olduğu halda gətirib “beyət et” dedikləri vaxt Yaşlı səhabənin, Səhhakın oğlunun və dostlarının iddia etdiklərini də təsdiqlədilər və onların sözlərinə şahidlik etdilər. Sən həmin vaxt da onlar qarşısında öz fəzilət və üstünlüklərinə dəlil göstərdin. Oradakıların hamısı da səni təsdiqlədilər. Amma sonra yaşlı səhabə Peyğəmbərin (s): “Allah bizim üçün peyğəmbərliklə xilafəti bir yerdə (bu dünyada) cəm etmədi” söylədiyini eşitdiyini iddia etdi. Ömər, Əbu Übeydə ibn Cərrah, Salim və Muaz ibn Cəbəl də onu təsdiqlədilər”.

Sonra Təlhə irəli gəlib dedi: “(Ya Əli!) Söylədiyin və iddia etdiyin hər şey haqdır. Dəlil göstərdiyin fəzilət və üstünlüklərin də haqdır. Biz bunları təsdiq və qəbul edirik. Amma xilafətə gəldikdə, o beş nəfər də eşitdiyin şeyə şahid olublar”.

### Birinci cavab: Səhifə üzərində əhdləşmənin ifşası

Bu vaxt İmam Əli (ə) Təlhənin sözünə əsəbiləşib ayağa qalxdı. Gizlətdiyi bir şeyi açıqlayıb hamıya bəyan etdi. Bu sözü Səhhakın oğlu öldüyü gün demişdi. Amma nə demək istədiyini başa düşməmişdilər.

Təlhəyə yaxınlaşdı, camaat onu dinləyirdi. Dedi: “Ey Təlhə! Allaha and olsun ki, qiyamət günü Allahla görüşəcəyim vaxt heç bir əhdnamə mənə o beş nəfərin Vida həccində Kəbənin içində üzərinə əhd bağladıqları bu müqavilədən sevimli deyil. O müqaviləyə görə, əgər Allah Muhəmmədi öldürsə və ya öldürülsə məni əsla xilafətə yaxın buraxmayacaqlar, bu məsələdə bir-birlərinə yardım edəcəkdilər.

## İkinci cavab: Qədir Xum hədisi

İmam Əli (ə) buyurdu: "Ey Təlhə! Şahidlik etdikləri sözün yalan olduğunun dəlili Peyğəmbərin (s) Qədir Xumda dediyi bu sözdür: "Mən kimə öz canından övlayamsa, Əlidə ona öz canından övladır". Onlar[1] mənim üzərində hakim və əmirlər olduqları halda mən necə onlara öz canlarından övla ola bilərəm?!"

## Üçüncü cavab: "Mənzilət" hədisi

Həmçinin Peyğəmbərin (s) bu sözü: "Sən peyğəmbərlikdən başqa mənə Harunun Musaya olan nisbətindəsən". Məgər xəlifəliyin peyğəmbərlikdən ayrı olduğunu bilmirsinizmi? Əgər peyğəmbərliklə bərabər başqa şeylər də olsaydı, Peyğəmbər (s) onu da istisna edərdi.

## Dördüncü cavab: "Səqəleyn" hədisi

Eləcə də Peyğəmbərin (s) bu sözləri: "Mən sizin aranızda iki şey buraxdım. O ikisinə sarılsanız əsla yoldan çıxmazsınız. Allahın Kitabı və itrətim. Onlardan önə keçməyin  və geridə də qalmayın! Onlara bir şey öyrətməyin, çünki onlar sizdən daha elmlidirlər". Allahın Kitabını və Peyğəmbərin (s) sünnəsini ən yaxşı bilən şəxsdən başqası ümmətin xəlifəsi ola bilməz. Uca Allah buyurur: ***"De: "Belə olduqda doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?".***[2] Həmçinin, ***"Allah sizdən ötrü onu seçmiş, elm və bədəncə ona üstünlük vermişdir".***[3]***; "Əgər doğru deyirsinizsə, mənə bundan əvvəl bir kitab, yaxud elmdən qalan bir şey (əsər) gətirin!"***[4] Peyğəmbər (s) belə buyurmuşdur: "Aralarında daha elmli bir şəxs olduğu halda heç bir ümmət rəhbərliyini başqasına həvalə etməz. Əks halda tərk etdikləri şeyə qayıdanadək başçıları anbaan alçalmağa doğru gedər". Elə isə, vilayət ümmət üzərində rəhbərlikdən başqa bir şeydir?!

## Beşinci cavab: "İmam Əliyə (ə) "Möminlərin əmiri" ünvanı ilə salam verilməsi" hədisi

Onların yalan, batil və fasiq iddialarının digər bir dəlili, onların məhz Peyğəmbərin (s) əmrilə mənə "Möminlərin əmiri" ünvanıyla salam

---

[1] İki səhabə.
[2] "Yunus" surəsi, ayə 35.
[3] "Bəqərə" surəsi, ayə 247.
[4] "Əhqaf" surəsi, ayə 4.

verməlәridir. Bu onlara (həmin beş nəfərə), xüsusilə sənə, səninlə birlikdə olan kəsə (Zübeyrə), bütün ümmətə, bu ikisinə (əlilə Əbdürrəhman ibn Ovfa və Sad ibn Əbu Vaqqasa işarə etdi) və bu zalım xəlifənizə (Əffanın oğluna) bir höccət və dəlildir.

### Altıncı cavab: Şura

Altı nəfər şura üzvləri olaraq hamımız həyatdayıq. Əgər Səhhakın oğlu və dostları Peyğəmbəri (s) təsdiq edirdilərsə niyə məni şuraya üzvü elədilər? Bizi şuraya xilafət üçün, yoxsa başqa bir şey üçün toplamışdılar? Əgər xəlifəlikdən başqa bir şey üçün topladığını güman edirsinizsə, o zaman Əffanın oğlu bizim üzərimizdə xəlifə deyil və bizim şurada başqa bir mövzuda müzakirə aparmağımız lazım olacaqdı. Çünki bizə xilafətdən başqa bir mövzuda fikir bildirməyimizi əmr etmişdi. Amma, əgər şura xilafət mövzusunda qurulmuşdusa, bəs niyə məni sizinlə oraya daxil etdi? Peyğəmbər (s) ki, (sizə görə) Əhli-Beytini xilafətdən uzaq tutmuş və onların xilafətdə haqlarının olmadığını demişdi?! Əgər bu hədis doğru idisə, o zaman niyə məni şuradan çıxarmadınız?

### Yeddinci cavab: Ölərkən Səhhakın oğlunun söylədikləri

Niyə Səhhakın oğlu bizi (şuradakıları) bir-bir çağırdığı zaman oğlu Abdullaha belə dedi? Ömərin oğluna işarə edərək: budur, Abdullah da burdadır. Allahı sənə şahid tuturam, biz çölə çıxdığımız zaman atan sənə nə dedi?

(Abdullah ibn Ömər) dedi: "Madam ki, mənə Allahı şahid tutursan, atam mənə belə dedi: "Əgər Bəni-Haşimin əsəlinə[1] beyət etsələr, onları aydınlığa çıxarar, Allahın kitabı və Peyğəmbərin (s) sünnəsinə əsaslanıb ayağa qaldırar".

İmam Əli (ə) dedi: "Ey Ömərin oğlu! Bəs sən o zaman nə dedin?" Abdullah dedi: "Ona dedim: "Ey ata! Sənin onu xəlifə təyin etməyinə nə mane olur?" Əli (ə) soruşdu: "Səhhakın oğlu sənə nə cavab verdi?" Abdullah dedi: "Mənə bir şey söylədi. Mən onu gizli saxlayıb söyləməyəcəyəm". İmam Əli (ə) buyurdu: "Onun sənə və sənin də ona söylədiyin hər şeyi Peyğəmbər (s) mənə xəbər vermişdi". Dedi: "Nə vaxt xəbər verib?" İmam Əli (ə) buyurdu: "Həyatda ikən və sonra da atanın öldüyü gecə yuxuda mənə xəbər verdi. Hər kim Peyğəmbəri (s) yuxusunda görsə, onu elə həqiqətdə görmüşdür".

Ömərin oğlu dedi: "Sənə nə dedi?" Əli (ə) buyurdu: "Ey Ömərin oğlu! Onları doğru söylədiyim zaman məni təsdiqləməyin üçün Allahı sənə şahid tuturam".

[1] Başının təpəsində saçı az olan adam. Bununla İmam Əlini (ə) qəsd edir.

Abdullah dedi: “Ya da ki, susacağam”. İmam Əli (ə) dedi: “Mənə buyurdu: “Sən ona “Sənin onu xəlifə təyin etməyinə nə mane olur?” dedikdə, o sənə: “Mənə mane olan şey öz aramızda yazdığımız və Kəbənin içində Vida həccində barəsində əhd bağladığımız müqavilədir”. Ömərin oğlu susdu və sonra “Peyğəmbərin haqqına xatir, məndən əl çəkməyini istəyirəm!” dedi.

Süleym deyir: “O məclisdə Ömərin oğlunu boğazı qurumuş və gözlərindən yaşlar axdığı halda gördüm.

## Səhhak oğlunun yaratdığı şura

Sonra İmam Əli (ə) üzünü Təlhəyə, Zübeyrə, Əbdürrəhman ibn Ovfa və Sad ibn Əbu Vaqqasa tutub dedi: “Allaha and olsun, əgər o beş nəfər Peyğəmbərə yalan isnad etdilərsə, vilayət və itaətləri sizə halal deyil. Əgər doğru söylədilərsə, məni özünüzlə birgə şuraya layıq bilməniz halal deyil. Çünki bu halda məni şuraya layıq bilmək Peyğəmbərin (s) sözünə qarşı çıxmaqdır”.

## Xilafət və imamət yalnız on iki (ə) nəfərə məxsusdur

İmam Əli (ə) üzünü camaata tutub dedi: “Aranızdakı məqamım və barəmdə bildiklərinizi söyləyin! Mən sizin nəzərinizdə doğru danışan, yoxsa yalançı bir şəxsəm?” Dedilər: “Xeyr! Sən düzgün və hər vaxt doğru danışan şəxssən. Allaha and olsun, sənin nə cahiliyyət dövründə, nə də İslamdan sonra bir dəfə olsun yalan danışdığını görmədik”. İmam Əli (ə) buyurdu: “Biz Əhli-Beytə peyğəmbərlik lütf edən, Muhəmmədi bizdən qərar verən və ondan sonra bizə kəramət göstərib möminlərə imam edən Allaha and olsun ki, bizdən başqası onun adından təbliğ edə bilməz, xəlifəlik və imamlıq bizdən başqasına layiq olmaz. Allah biz Əhli-Beytlə bərabər heç kim üçün xilafətdə bir haqq və nəsib qoymamışdır.

Allahın rəsulu (s) peyğəmbərlərin sonuncusudur. Ondan sonra nə bir peyğəmbər və nə də bir rəsul yoxdur. Peyğəmbərlik onunla və səmavi kitablar isə Quranla qiyamətə qədər xətm olunmuşdur. Allah bizi Muhəmməddən (s) sonra yer üzündə xəlifələri, məxluqları üzərində şahidləri qərar vermiş və bizə itaət etməyi kitabında vacib buyurmuşdur. Bir çox ayələrdə bizi Özünə və Peyğəmbərinə yaxınlaşdırıb. Allaha and olsun ki, O, Muhəmmədi peyğəmbər, bizi də ondan sonra məxluqları arasında xəlifələr və şahidlər etmişdir. Endirdiyi kitabda bizə itaəti vacib buyurmuşdur. Sonra Allah bunları ümmətinə təbliğ etməyi Peyğəmbərə (s) əmr etmiş və o da Allahın əmr etdiyi kimi onlara çatdırmışdır.

## Peyğəmbərin (s) məqamına ən çox haqq sahibi kimdir?

Bu ikisindən Peyğəmbərin (s) yerində və məqamında oturmağa daha çox hansı layiqdir? Peyğəmbər (s) "Tövbə" surəsinin təbliği üçün şəxs təyin etdiyi zaman belə dediyini eşitdiniz: "Mənim adımdan təbliğ etməyə məndən və ya məndən olan şəxsdən başqası layiq deyildir". Allahı sizə şahid tuturam! Siz bunu Peyğəmbərdən (s) eşitmədiniz?" Dedilər: "Bəli! Allaha and olsun! Biz "Tövbə" surəsinin təbliği üçün səni təyin etdiyini Peyğəmbərdən (s) eşitdiyimizə şahidlik edirik".

İmam Əli (ə) dedi: "Sizin yoldaşınız (Yaşlı səhabə) Peyğəmbər (s) adından dörd barmaq uzunluğunda bir yazını təbliğ etməyə səlahiyyəti çatmadı. İndi sizcə, hansımız onun (Peyğəmbərin (s)) yerində və məqamında olmağa daha layiqik? Peyğəmbərin (s) öz adından danışması üçün xüsusi təyin etdiyi şəxs, yoxsa bu ümmətin özünün təyin etdiyi və Peyğəmbərdən (s) olmayan kimsə?!"

## Məgər Peyğəmbər (s) burada olanlar olmayanlara təbliğ etsinlər buyurmadımı?!

Təlhə dedi: "Bunu Peyğəmbərdən (s) eşitdik. De görək, niyə heç kimin Peyğəmbərin (s) adından təbliğ edə bilməz? Halbuki o bizə belə demişdi: "Burada olanlar olmayanlara təbliğ etsinlər (çatdırsınlar)? Yenə də, Ərəfat çölündə Vida həccində buyurmuşdu: "Allah sözlərimi dinləyib qoruyan və (başqalarına) çatdıran şəxsə rəhm eləsin. Nə qədər insan var ki, elmi daşıyır, amma onu anlamır; nə qədər insan var ki, elmi özündən daha yaxşı anlayanlar üçün daşıyır. Müsəlmanın qəlbi üç şeyə xəyanət etməz: Allah üçün xalis əməl etməyə; əmr sahibini dinləməyə, itaət etməyə və nəsihətlərinə qulaq asmağı; cəmiyyətindən ayrılmağa. Onların dəvəti hamını əhatə edir". Və yenə Peyğəmbər (s) başqa bir dəfə də ayağa qalxıb dedi: "Burada olanlar olmayanlara təbliğ etsinlər".

İmam Əli (ə) dedi: "Peyğəmbər bunları Qədir Xum günü, Ərəfə günü Vida həccində və vəfat etdiyi gün söyləmişdir. Etdiyi ən son xütbəsinə diqqət yetir! Belə buyurmuşdu: "Mən sizin aranızda iki şey buraxdım. Bunlara sarıldığınız müddətdə əsla yoldan azmazsınız: Allahın kitabı və Əhli-Beytim. Uca Allah bu ikisinin hovuzun başında mənimlə görüşənə qədər bir-birlərindən ayrılmayacaqlarına vəd verib. Bu iki barmaq kimi (işarə və orta barmağını göstərdi) biri digərindən öndədir. Bu ikisinə sarılın ki, yoldan zəlalətə düşməyəsiz və səhvə yol verməyəsiz. Onlardan önə keçməyin və geridə də qalmayın. Onlara bir şey öyrətməyə çalışmayın, çünki onlar sizdən daha elmlidirlər".

Peyğəmbər (s) Ali-Muhəmməd imamlarına (ə) itaətin və onların haqlarına riayət olunmağın vacibliyini bütün insanlara çatdırmağı ümumi camaata əmr etdi. Təbliğ üçün Ali Muhəmmədin (ə) haqqından başqa heç bir mövzuda şahidlərin qaiblərə çatdırmasını buyurmadı. Peyğəmbər (s) məhz öz adından yalnız özünün təyin etdiyi şəxslərdən başqasının danışa bilməyəcəklərini bütün insanlara bildirməyi ümumi camaata əmr etdi.

Ey Təlhə! Sizin eşitdiyiniz halda Peyğəmbər (s) mənə belə demədimi: “Ey qardaşım! Səndən başqası mənim borcumu ödəyə bilməz və səndən başqası boynumda olanı əda etməz. Mənim boynumda olanları ödəyən, əmanətimi yerinə yetirən və sünnətimə görə döyüşəcək olan sənsən!” Yaşlı səhabə rəhbərliyi ələ keçirdiyi zaman Peyğəmbərin (s) borclarını ödəyib vədlərini yerinə yetirdimi? Onların hamısını mən təsbit etdim, borclarını ödədim və vədlərini yerinə yetirdim. Peyğəmbər məndən başqasının borclarını ödəməyəcəyini və vədlərini yerinə yetirməyəcəyini onlara xəbər vermişdi. Yaşlı səhabənin onlara Peyğəmbərin (s) borclarını və vədlərini vermədi. Yalnız mən borclarını ödədim, vədlərini yerinə yetirdim və əmanətini qaytardım.

### Təbliğçilər və Allahın insanlar üzərindəki əmirləri İmamlardır (ə)

Peyğəmbərin (s) adından Allahdan gələn şeylərin hamısını yalnız Allahın kitabında itaətlərini vacib və vilayətlərini əmr etdiyi imamlar təbliğ edə bilərlər. O şəxslər ki, onlara itaət Allaha itaətdir və onlara qarşı üsyan Allaha üsyandır”.

Təlhə dedi: “Məni rahatlaşdırdın. Sən bunu mənə açıqlayana qədər Peyğəmbərin (s) nə demək istədiyini anlamamışdım. Ya Əbul-Həsən! Allah sənə bütün ümmətdən xeyir bəxş eləsin!

## 4. Quranın toplanması barədə söhbət

### Əmirəl-mömininin (ə) Quranı toplaması

Ya Əbul-Həsən! Səndən bir şey soruşmaq istəyirəm. Sənin möhürlənilmiş bir parça ilə çıxdığını gördüm. Belə demişdin: “Ey insanlar! Mən Peyğəmbərin (s) qüslu, kəfənləməsi və dəfnilə məşğuldum. Sonra Allahın kitabının bir yerə toplanması ilə məşğul oldum. Bu (parçanın içindəki), Allahın toplanmış kitabıdır. Ondan bir hərf belə azalmamışdır”. Amma mən yazdığın və topladığın həmin kitabı görmədim.

## Səhabənin Quranı toplaması

Səhhakın oğlu xilafətdə olduğu zaman kitabı ona göndərməyin üçün yanına adam göndərdiyini gördüm. Sən imtina etdin. Sonra Səhhakın oğlu camaatı çağırdı. Əgər iki nəfər bir ayənin Qurandan olduğuna şahidlik etsəydilər onu kitaba yazırdı. Əgər bir nəfər şahidlik etsə, tərk edir və onu yazmırdı. Səhhakın oğlunun belə dediyini eşitdim: "Yəmamə günündə Quran oxuyan adamlar öldürüldülər. Onların oxuduğunu başqaları oxumurdu. (Oxuduqları ayələr və ya həmin Quran) artıq yoxdur". Həmçinin Səhhakın oğlunun katibləri kitabı yazarkən bir qoyun gəlmiş və o kitabın səhifələrindən birini yemişdi. Onda yazılanlar da yox oldu və həmin gün katib Osman idi. Bu barədə nə deyirsən?

Səhhakın oğlu və Osmanın zamanında Quran katibləri belə deyirdilər: "Əhzab" surəsi "Bəqərə" surəsi qədər idi. "Nur" surəsi yüz altmış ayə idi və "Hucurat" surəsi doxsan isə ayə idi". Bu necə işdir? Allah sənə rəhm eləsin, topladığını (Quranı) camaatın qarşısına çıxarmağa nə mane oldu?

Osman Səhhakın oğlunun topladıqlarını cəm edib kitab halına gətirdikdə buna şahid oldum. Camaatı yalnız bir qiraətlə oxumağa məcbur etdi. Ubey ibn Kəbin və Abdullah ibn Məsudun kitablarını cırıb atəşə atdı. Bu nə məsələ idi?"

## Peyğəmbərin (s) Quranı İmam Əliyə (ə) imla etməsi

Əmirəl-möminin (ə) buyurdu: "Ey Təlhə! Allah kitabında Muhəmmədə nazil etdiyi hər ayəni Peyğəmbər (s) imlası və mənim də əl yazımla yanımdadır. Həmçinin, Muhəmmədə enən hər ayənin şərhi, bütün halal, haram, hədd, hökm və qiyamət gününə qədər ümmətin ehtiyac duyacağı hər bir şey, hətta atılmış cırmağın diyəsi belə Peyğəmbərin imlası və öz əlimlə yazılı olaraq mənim yanımdadır".

Təlhə dedi: "Kiçik, böyük, xüsusi və ümumi bütün hər şeyin hökmü, olan və qiyamətə qədər olacaq şeylər yazılı olaraq səndədir?"

İmam Əli (ə) buyurdu: "Bəli! Bununla bərabər, Peyğəmbər (s) xəstələndiyi zaman gizlicə mənə elmdən min qapı açdı ki, hər bir qapıdan da min qapı açılır. Əgər bu ümmət Peyğəmbərin (s) vəfatından bəri mənə tabe olub itaət etsəydi qiyamət gününə qədər başlarının üstündən və ayaqlarının altından bol-bol nemət yeyərdilər.

## Peyğəmbərin (s) imlası ilə yazdığı kağız

Ey Təlhə! Peyğəmbər (s) ümmətinin yoldan azmaması və ixtilafa düşməməsi üçün üzərində yazacaq bir parça kağız istədikdə sən orada deyildin? O za-

man yoldaşın (Səhhakın oğlu) ona dedi: “Peyğəmbər sayıqlayır!”. Peyğəmbər (s) isə bundan qəzəblənib yazmaqdan imtina etdi”. Təlhə dedi: “Bəli, bunun şahidiyəm” dedi.

İmam Əli (ə) buyurdu: “Siz Peyğəmbərin hüzurundan ayrıldıqda o mənə həmin kağıza yazmaq istədiklərini və bütün camaatı da şahid tutmaq istədiyini mənə söylədi. Cəbrayıl ona xəbər vermişdi ki, Allah bu ümmətin bölünüb ixtilafa düşəcəklərini bilir. Sonra kağız istədi və yazmaq istədiklərini mənə imla etdi. Üç nəfəri də buna şahid tutdu. Onlar: “Salman, Əbu Zərr və Miqdaddır. Bu kağıza Allahın qiyamət gününə qədər itaətlərini əmr etdiyi hidayət imamlarının adlarını yazdı. Birinci mənim adımı yazdı. Sonra (əlini Həsənə uzatdı) bu oğlumun adını yazdı. Ondan sonra Hüseyn və Hüseyndən bu oğlumun (yəni Hüseynin) övladlarından doqquz nəfərin adını yazdı. Ey Əbu Zərr, belə olmadımı? Ya sən, ey Miqdad?” Əbu Zərr və Miqdad ayağa qalxaraq dedilər: “Biz Peyğəmbərin (s) bunları söylədiyinə şahidlik edirik”.

Təlhə dedi: “Allaha and olsun, Peyğəmbərin (s) Əbu Zərr haqqında belə buyurub: “Əbu Zərdən daha doğru danışan və daha xeyirli bir şəxsin üzərinə səma kölgə salmamış və yer üzərində daşımamışdır”. Mən də bu ikisinin həqiqətdən başqasına şahidlik etmədiklərinə şəhadət verirəm. (Ey Əli!) Sən mənim nəzərimdə bu ikisindən daha üstün və daha doğru danışansan!

Sonra Əli (ə) üzünü Təlhəyə tutub dedi: “Allahdan qorx, ey Təlhə, ey Zübeyr, ey Sad və sən ey Əbdürrəhman ibn Ovf! Allahdan qorxun! Onun razılığını üstün tutun və yanında olanları seçin! Allah yolunda danlayanın danlağından qorxmayın!”

## Quran indiki zamanda da mövcuddur

Təlhə dedi: “Ya Əbul-Həsən! Mənim Quran haqqındakı sualımı cavablandırmadın. (öz Quranını) camaata göstərməyəcəksən?” Əli (ə) buyurdu: “Ey Təlhə! Bilərəkdən sənə cavab verməkdən yayındım!”

Təlhə dedi: “Elə isə, mənə Ömər və Osmanın yazdıqlarından xəbər ver. Həmin kitablar Quranın hamısıdır, yoxsa onda Qurandan bəzi şeylər yoxdur?” Əli (ə) dedi: “Bəli, kitabın hamısı Qurandır. Əgər onda olanlara sarılsanız nicat tapar və Cənnətə girərsiniz. Həqiqətən də orada bizim dəlilimiz, işimizin bəyanı, haqqımız və bizə itaətin zəruriliyi vardır”. Təlhə dedi: “Hazırda bütün Quran budursa, cavab mənə yetərlidir!”

Sonra Təlhə dedi: “Mənə yazdığın Quran, onun təvili, halal və haramların elmi haqqında xəbər ver. Özündən sonra onu kimə verəcəksən və sahibi

kim olacaq?” Əli (ə) dedi: “Peyğəmbərin (s) miras qoymağımı əmr etdiyi şəxsə verəcəyəm”. Təlhə dedi: “O kimdir?” Əli (ə) buyurdu: “Mənim vəsim və məndən sonra insanların övlası (üstünü) bu oğlum Həsəndir. Oğlum Həsən vəfat edərkən onu oğlum Hüseynə ötürəcək. Sonra bir-biri ardınca Hüseynin övladlarına keçəcək və onların sonuncusu hovuzunun kənarında Peyğəmbərlə (s) görüşənə qədər belə olacaq. Onlar Quranla və Quran da onlarladır. Onlar Qurandan və Quran da onlardan ayrılmaz.

## Qüreyş qəbilələrindən olan on iki zəlalət imamı

Amma Müaviyə və oğlu Əffanın oğlundan sonra hakimiyyətə gələcəklər. Bu ikisinin ardından Həkəm ibn Asın övladlarından yeddi nəfər bir-birinin ardınca hakimiyyətə gələcəklər və zəlalət imamları on iki nəfərlə tamamlanacaq. Onlar Peyğəmbərin (s) öz minbəri üzərində gördüyü kəslərdir. Onun ümmətini yenidən cahiliyyət dövrünə geri qaytaracaqlar. Onlardan on nəfəri Bəni-Üməyyədəndir. Digər ikisi isə onlar üçün zəmin hazırlayacaqlar. Bu ümmətin günahlarının bir qatı onların üzərindədir”.

Oradakılar dedilər: “Ya Əbul-Həsən! Allah sənə rəhm eləsin, bağışlasın! Nəsihətinə və sözünün gözəlliyinə görə mükafatların ən üstünü ilə bizim tərəfimizdən səni mükafatlandırasın!”

# HƏDİS 12

## İmam Əlinin (ə) mübarək ömrünün son ilində söylədiyi xütbəsi

Aban Süleymdən nəql edir: "Möminlərin əmirinin (ə) ətrafında oturmuşduq. Bir dəstə səhabəsi də yanında idi. Onlardan biri dedi: "Ey Möminlərin əmiri! Kaş ki, camaatı döyüşə çağırardın!"

Əli (ə) ayağa qalxdı və xütbə söylədi: "Bilin ki, mən sizi döyüşə dəvət etdikdə siz qaçdınız. Sizə nəsihət verdim, amma siz qəbul etmədiniz. Sizi dəvət etdim, amma dinləmədiniz. Siz qaib olan şahidlər, yaşayan ölülər və qulaqları olan karlar kimisiniz. Sizə hikmət söyləyir, şəfa verən və kifayət edən moizələrlə nəsihətlər verir və zülm əhli ilə döyüşməyə təşviq edirəm. Lakin sözümün sonuna çatmadan sizi pərakəndə halqalar kimi dağıldığınızı görürəm. Bir-birinizə şeir oxuyur, məsəllər çəkir və xurmanın, südün qiymətini soruşursunuz!

Əlləriniz qurusun! Döyüşdən və hazırlıqdan düşmüsünüz. Qəlbinizi döyüşü yad etməkdən təmizləyib rahatlaşmısınız. Onu yalanlarla, azdırıcı şeylərlə və boş işlərlə məşğul etdiniz. Vay olsun sizə! Onlar sizinlə döyüşmədən əvvəl siz onlarla döyüşün! Allaha and olsun, elə bir qövm yoxdur ki, evlərinin ortasında hücuma məruz qalıb zəlil olmasın. Allaha and olsun, düşmənlər bunu edənə qədər (sizin mənim söylədiklərimi) edəcəyinizi zənn etmirəm. Onları görmək istərdim. Ardından bəsirət və yəqinimlə Allaha qovuşar, dərdlərinizin mənə çəkdirdiklərindən və sizinlə məşğul olmaqdan rahatlıq tapardım. Siz çobanı itmiş dəvə sürüsü kimisiniz. Bir tərəfi toplansa digər tərəfdən dağılar. Allaha and olsun, əgər döyüş qızışsa və ölüm qorxusu yaxınlaşsa başın yarılıb açılması və qadının doğum əsnasında uşağından ayrılması kimi Əli ibn Əbu Talibdən ayrılacağınızı görən kimiyəm".

## Niyə görə İmam Əli (ə) Əffanın oğlu kimi sükut etməyi seçmədi?

Əşəs ibn Qeys əl-Kindi dedi: "Sən də Əffanın oğlu kimi edə bilməzdin?!"

Əli (ə) dedi: "Ey atəş qoxusu![1] Mənim Əffanın oğlu kimi rəftar edəcəyimi zənn edirsiniz? Ey Qeysin oğlu! Mən, söylədiyinin şərindən Allaha pənah apa-

[1] Bu xitabla Əşəs ibn Qeysə müraciət edir. Rəvayətə əsasən, Əş`əsin ölümü vaxtı baş verən hadisəyə işarədir.

rıram. Allaha and olsun ki, Osmanın etdiyi dinsiz və haqq əlində olmayan şəxs üçün belə alçaqlıqdır. Rəbbimdən açıq dəlil üzərində olduğum, höccəti əlimdə və haqqı mənimlə ikən bunu necə edə bilərəm?!

Allaha and olsun, bir kəs qarşısını almağa gücü olduğu təqdirdə düşmənin ətini parçalamasına, dərisini üzməsinə, sümüklərini qırmasına və qanını tökməsinə icazə versə günahı çox böyükdür və sinəsində yer verdikləri olduqca zəifdir. Ey Qeysin oğlu, sən belə ol! Amma mənə gəlincə, öz əlimlə onlara bir qılınc zərbəsi vuraram ki, başları havaya uçar, o zərbəylə bu əl və yumruqlar məhv olar. Bundan azına razı olmaram. Sonra da Allah nə diləsə onu edər!

Vay olsun sənə, ey Qeysin oğlu! Mömin hər cür ölümlə ölər. Amma özünü əsla öldürməz. Hər kim canını qorumağa qüdrəti olduğu halda qatililə öz arasını boş buraxsa, özünü öldürmüşdür.

Vay olsun sənə, ey Qeysin oğlu! Bu ümmət yetmiş üç firqəyə bölünəcək. Onlardan biri Cənnətdə, yetmiş ikisi oddadır. Onların ən pisi, Allah yanında ən çox nifrət ediləni və Ondan ən uzağı gecə vaxtı öz aralarında sövdələşib "heç bir savaş olmayacaq" deyənlərdir. Onlar yalan danışırlar. Halbuki, Uca Allah kitabında və Peyğəmbər sünnəsində həddi aşan zalım kəslərlə və yoldan azanlarla savaşmağı əmr etmişdir".

## Nə üçün İmam Əli (ə) Səqifə hadisəsində qılıncına əl atmadı?

Əşəs ibn Qeys bu sözlərdən qəzəbli halda dedi: "Ey Əbu Talibin oğlu! Teym ibn Mərrənin və Udey ibn Kəbin qəbilələrinin qardaşlarına (Yaşlı səhabə və Səhhakın oğlu) və o ikisindən sonrada Bəni-Üməyyənin övladına (Əffanın oğlu) beyət edildikdə savaşıb qılıncınla zərbə endirməyinə nə mane oldu? Sən İraqdan qayıtdığından bəri bizə xütbə söyləmədin. Minbərindən düşərkən belə dedin: "Allaha and olsun, mən camaata öz canlarından daha övlayam. Allah Muhəmmədi yanına apardığı gündən bəri zülmə məruz qalıb, alçaldıldım". Öz məzlumluğun üçün qılınca əl atmağına nə mane oldu?!"

Əli (ə) dedi: "Ey Qeysin oğlu! Sözünü söylədin. Elə isə cavabını dinlə! Rəbbimə qovuşmaqdan məni çəkindirən səbəb nə qorxu, nə də bu görüşü bəyənməməkdir. Həmçinin Allahın qatındakıların mənim üçün dünya və axirətdə olanlardan daha xeyirli olduğunu bilməmiş də deyiləm. Mənə mane olan şey Peyğəmbərin (s) əmri və mənimlə olan əhdidir.

Peyğəmbər (s) ondan sonra ümmətin mənə edəcəklərini xəbər verdi. Onların etdiklərini gördükdə nə əvvəlki elmim, nə də yəqinim artmadı. Əksinə,

mənim Peyğəmbərin (s) sözlərinə yəqinim gözlərimlə gördüklərimdən və müşahidə etdiklərindən daha çox idi. Peyğəmbərə (s) dedim: "Ya Peyğəmbər! Bunlar baş verdikdə mən nə edim?" Buyurdu: "Əgər yardımın olsa onlara qarşı çıx və savaş. Əgər yardım tapa bilməsən Allahın dinini, kitabını və mənim sünnəmi ayağa qaldırmaq üçün yardım tapana qədər əlini dinc saxla və canını qoru.

Peyğəmbər (s) mənə ümmətin məni alçaldacağını, başqasına beyət edib məndən başqasına itaət edəcəyini xəbər verib.

Peyğəmbər (s) mənə ona nisbətimin Harunun Musaya olan nisbəti kimi olduğunu, ondan dərhal sonra bu ümmətin bir dəstəsinin Harunla tərəfdarlarına və bir hissəsinin də buzovun tərəfdarlarına çevriləcəklərini bildirdi. Musa qardaşına dedi: ***"Ya Harun! Onların azdıqlarını gördüyün zaman sənə nə mane oldu ki, məni izləmədin? Əmrimə asimi oldun?" (Harun) belə cavab verdi: "Ey anam oğlu! Bu tayfa məni zəif bilib az qaldı ki, öldürə". "Ey anam oğlu! Saçımdan, saqqalımdan tutma. Doğrusu, sənin: "İsrail oğulları arasına ayrılıq saldın, sözümə baxmadın!" -deyəcəyindən qorxdum".***[1]

Peyğəmbərin (s) sözlərində məqsədi bu idi: "Musa Harunu onlar arasında öz yerinə xəlifə qoyub getdiyi zaman ona əmr etmişdi: əgər yoldan azsalar və yardımın olsa, onlarla savaş. Əgər yardımın olmasa əlini dinc saxla, canını qoru və onlar arasında ayrılıq yaranmasına imkan vermə". Mən də qardaşım Peyğəmbərin (s) eyni sözü mənə söyləməsindən qorxdum: "Niyə ümmət arasında ayrılıq yaratdın və mənim sözümü dinləmədin?! Halbuki səndən, yardım tapa bilməsən əl saxla, özünün, Əhli-Beytinin və tərəfdarlarının canını qoru" deyə əhd almışdım".

## İmam Əlinin (ə) savaşa qalxması

Peyğəmbər (s) dünyadan köçdükdə camaat yaşlı səhabəyə beyət edərkən mən onun qüslü, kəfənləməsi və dəfnilə məşğul idim. Sonra Quranla məşğul oldum. Quranın hamısını bir kitabda toplayana qədər namazdan başqa bir şey üçün kürəyimə əba atmayacağıma öz-özümə and içdim və bunu etdim.

Sonra Fatiməni (bir ulağa) mindirib, iki oğlum – Həsən və Hüseynin əllərindən tutdum. Bədr döyüşündə iştirak edənlərdən, ənsar və mühacirlərdən bir nəfəri belə unutmadım. Öz haqqım barəsində onların hər birinə Allahı şahid tutdum və onları yardıma çağırdım. Amma bütün camaatdan yalnız dörd nəfər mənim dəvətimə müsbət cavab verdilər. Onlar: Salman, Əbu Zərr, Miqdad və Zübeyr idi. Ev əhlimdən də mənimlə birlikdə çiyin-çiyinə dayanacaq,

[1] "Əraf" surəsi, ayə 150, "Taha" surəsi, ayə 92-93.

ondan yardım və güc alacağım bir kəs yox idi. Həmzə Bədrdə, Cəfər də Mütə döyüşündə öldürülmüşdülər. Mən kobud, pis xasiyyətli, həqir və aciz iki nəfərin - Abbasla Əqilin arasında qaldım. Onlar küfrə əhdlərindən daha yaxın idilər.

Məni məğlubiyyətlə razılaşmağa məcbur qoydular və yalnız buraxdılar. Mən də Harunun qardaşına söylədiyi bu sözü söylədim: ***"Ey anam oğlu! Bu tayfa məni zəiflətdi, az qaldı ki, öldürə".*** Mənim üçün Harundan gözəl bir nümunə və Peyğəmbərin (s) əhdilə də güclü bir dəlilim var".

Süleym deyir: "Əş`əs dedi: Əffanın oğlu da belə etdi. Camaatdan pənah istədi. Onları köməyə çağırdı. Əlini dinc saxladı və məzlum halda öldürüldü".

Əli (ə) dedi: "Vay olsun sənə, ey Qeysin oğlu! Bu qövm mənə qalib gəlib, məni zəiflətdikdə, öldürmək üzrə olduqları zaman mənə: "Səni mütləq öldürəcəyik" desəydilər, tək olmağıma baxmayaraq məni öldürmələrinə mane olardım. Amma mənə: "Əgər beyət etsən səndən əl çəkər, ehtiram göstərər, özümüzə yaxınlaşdırar, fəzilətini qoruyarıq. Əgər beyət etməsən, o zaman səni öldürərik!" dedilər. Bir yardım tapa bilmədiyim üçün onlara beyət etdim. Mənim beyətim onların batilliyinə haqq qazandırmaz və onlara heç bir haqq verməz.

Əgər camaat Əffanın oğluna "Xəlifəlikdən get!" dedikləri zaman getsəydi onu öldürməyəcəkdilər. Amma o: "Getmirəm" dedi. Camatt da: "(O zaman) səni öldürəcəyik" dedilər. Camaat onu öldürənə qədər əlini tərpətmədi (özünü müdafiə etmədi). Canıma and olsun, əgər xəlifəlikdən imtina etsəydi onun üçün daha yaxşı olardı. Çünki onu (xilafəti) haqsız olaraq əldə etmişdi. Xəlifəlikdən heç bir payı yox idi. Haqqı olmayan şeyi iddia edir və başqalarının haqqını yeyirdi.

Vay olsun sənə, ey Qeysin oğlu! Əffanın oğlu vəziyyəti iki nəfərdən birinin vəziyyətindən fərqli deyil: "Biri, camaatı yardıma çağırmış, amma camaat yardım etməmiş, digəri də camaat ona yardım etmək istəmiş, amma o yardımdan imtina etmişdir". Hidayət edən və özü hidayət olmuş, (dində) heç bidət çıxarmamış və heç bir bidətə göz yummamış bir rəhbərə (əgər Əffanın oğlu özü belə idisə) yardım etməkdən müsəlmanları çəkindirmək ona halal deyil. Onları məhrum etməklə nə pis iş görmüşdür! Camaat da ona itaət etməklə nə pis iş görmüşlər! Ya da ona qarşı üsyana onun öz zülmü və gizlində verdiyi pis qərarları, Allahın kitabına və Peyğəmbərin (s) sünnəsinə zidd verdiyi hökmlərə və etdiyi zülmlərinə görə camaatın onu yardıma layiq bilməməsi qətlinə səbəb olmuşdur.

Osmanın ailəsindən, dostlarından və yoldaşlarından dörd mindən çox adam onunla birlikdə idi. İstəsəydi onların vasitəsilə özünü qoruyardı. Bəs nə üçün onları özünə yardım etməkdən məhrum etdi. Əgər Bəni-Teymin qardaşına

(Yaşlı səhabəyə) beyət edildiyi gün mənə müti olacaq qırx nəfəri tapsaydım onlarla döyüşərdim. Amma Səhhakın oğlu və Əffanın oğlu ilə beyət edildiyi gün belə etməzdim. Çünki artıq beyət etmişdim və mənim kimi bir şəxs beyətini əsla pozmaz.

## İmam Əlinin (ə) müharibələrdəki mövqeyi

Vay olsun sənə, ey Qeysin oğlu! Əffanın oğlu öldürüldüyü zaman yardımım olunca nə etdiyimi gördünmü? Bəsrə (Cəməl) döyüşündə onlar dəvələrinin ətrafında ikən məndə bir zəiflik, gecikmə, qorxu və ya qüsur gördünmü?! Onunla olanlar lənətlənmişlər, o dəvənin ətrafında öldürülənlər lənətlənmişlər! Tövbə etmədən və bağışlanma diləmədən geri dönənlər də lənətlənmişlər! Onlar mənim yardımçılarımı öldürdülər, mənimlə olan beyətlərini pozdular, idarəçiliyi parça-parça etdilər və mənə qarşı çıxdılar.

Mən on iki min adamla onların üzərinə getdim. Onların sayı yüz iyirmi mindən çox idi. Allah bizi onlara qalib etdi, bizim əlimizlə onları öldürdü və möminlərin qəlblərinə şəfa verdi.

Ey Qeysin oğlu! Siffin savaşımızı necə gördün? Allah bizim əlimizlə onlardan əlli min adamı öldürdü. Ayrı-seçkilik etmədən hamısını oda atdı.

Nəhrivan günü Mariqinlərlə qarşılaşdığımızda bizi necə gördün? Onlar həmin gün dünya həyatında səyləri puç olmuş kəslərin dininə bağlanmış və əməllərinin gözəl olduğunu zənn edirdilər. Allah onları bizim əllərimizlə öldürdü və ayrı-seçkilik etmədən hamısını oda atdı. Onlardan on nəfər sağ qalmadı və möminlərdən on nəfəri belə öldürə bilmədilər.

Vay olsun sənə, ey Qeysin oğlu! Heç mənim və ya mənimlə bayrağın geriyə qaçdığını görmüsənmi? Sənmi məni qınayırsan, ey Qeysin oğlu? Halbuki mən olduğum hər bir yerdə Peyğəmbərə (s) yoldaş idim. Onu izləyir və çətinliklər qarşısında ən öndə dayanırdım. Nə qaçdım, nə də gözündən itdim, nə acizlik göstərdim, nə yerimi tərk etdim və nə düşmənə arxamı çevirdim. Çünki nə bir peyğəmbərə və nə də vəsiyə döyüş libasını geydikdən və düşmən üzərinə hərəkət etdikdən sonra ölənə və ya Allah ona zəfər bəxş edənə qədər geri qayıtmaq yaraşmaz.

## Əgər o dörd nəfər kimi qırx nəfəri tapsaydım!!!

Ey Qeysin oğlu! Heç mənim qaçdığımı və ya geri çəkildiyimi eşitdinmi?

Ey Qeysin oğlu! Məni Əbu Bəkrə beyət etməklə qınayırsan. Toxumu yarana və küləyi yaradana and olsun, həmin gün mənə yardım etməyə hazır olan

o dörd nəfərin bəsirətinə sahib qırx nəfər tapsaydım onlarla döyüşməkdən çəkinməzdim. Amma beşincini tapa bilmədim və susdum”.

Əşəs dedi: “O dörd nəfər kimlərdir, ey Möminlərin əmiri?”

Əli (ə) dedi: “Salman, Əbu Zərr, Miqdad və mənə etdiyi beyəti o vaxt hələ pozmamış Zübeyr. O mənə iki dəfə beyət etdi - ilk beyəti camaatın yaşlı səhabəyə beyət etdiyi zaman idi və ona sadiq qaldı. Zübeyrin də aralarında olduğu mühacir və ənsardan qırx nəfər gəlib mənə beyət etdilər. Mən onlara səhər başlarını qırxılmış halda və silahları ilə birgə qapımın önünə gəlmələrini əmr etdim. Amma bu dörd nəfərdən başqa heç biri əhdinə vəfa edib məni təsdiq etmədi.

Mənimlə ikinci beyətinə gəlincə, o və Təlhə Əffanın oğlunun öldürülməsindən sonra yanıma gəlib məcbur edilmədən və öz istəklərilə beyət etdilər. Sonra mürtəd olub, təkəbbürlə beyəti pozub, inadkarcasına dinlərindən döndülər və zərərə uğradılar. Allahda onları öldürüb oda saldı. Amma digər üç nəfər – Salman, Miqdad və Əbu Zərr Allaha qovuşana qədər Muhəmmədin və İbrahimin yolu üzərində sabit qaldılar. Allah onlara rəhm eləsin!

Ey Qeysin oğlu! Toxumu yarana və küləyi yaradana and olsun ki, mənə beyət edən o qırx nəfər əhdlərinə vəfa etsəydilər və səhər başlarını qırxmış halda yanıma gəlsəydilər beyəti üzərimə götürmədən Əbu Bəkrlə döyüşərdim və Allahın hüzurunda onu mühakimə edərdim. Əgər Əffanın oğlu beyət etməzdən əvvəl yardımım olsaydı onlarla savaşar və Allahın hüzurunda onları mühakimə edərdim. Əbdürrəhman ibn Ovf xilafəti Əffanın oğluna verdi və ölərkən xilafəti ona verəcəyi barədə öz aralarında şərt kəsdilər. Amma onlara beyət etdikdən sonra artıq onlarla savaşa bilməzdim”.

## Şiə, nasibi, müstəzəf

Əşəs dedi: “Allaha and olsun, əgər məsələ sənin dediyin kimidirsə sən və şiələrindən savayı bütün Muhəmməd ümməti həlak olmuşdur”.

İmam Əli (ə) ona dedi: “Ey Qeysin oğlu! Allaha and olsun, söylədiyim kimi, haqq mənimlədir. Amma bu ümmətdən nasibilər, beyətini pozanlar, təkəbbürlənənlər, inkar edənlər və inadçılardan başqası həlak olmayacaq. Hər kim tövhidə yapışsa, Muhəmmədi və İslamı təsdiq etsə, dindən çıxmaz. Bizə qarşı zülm edənlərə kömək etməyən və ürəyində bizə kin bəsləməyən, amma xəlifəlik mövzusunda şəkk edən, onun əhlini və dostlarını tanımayan, bizim vilayətimizi qəbul etməyən müstəzəfə[1] müsəlmandır. Allahın ona mərhəmət edəcəyinə ümid var, amma günahlarına görə də pis aqibətindən qorxular”.

[1] Aciz və zəiflədilmiş.

Aban Süleymin belə dediyini söyləyir: “O gün, Əlinin sözlərinə görə üzü nurlanmayan və fərəhlənməyən heç bir tərəfdarı qalmadı. Çünki Möminlərin əmiri (ə) məsələni bəyan etdi, haqqı aşkar elədi, pərdələri qaldırdı və təqiyyə etmədi. Keçmişdəkilər barəsində şübhə edən, onlar haqqında (mənfi danışmaqdan çəkinən), təqvaları və günahdan uzaq durmaq məqsədilə onlardan uzaqlaşmayan Quran qariləri də yəqin əldə etdilər. Düşüncəli və müəyyən istiqamətdə fikirləri olmayanlar da həmin gün şübhəni və tərəddüdü tərk etdilər.

Osmana və ondan əvvəlkilərə beyət etmədikləri səbəblərlə (Əliyə (ə)) beyət etməyənlərdən başqa ətrafdakıların hamısı ona beyət etdi. Beyət etməyənlərin üzlərindən narahatlıq oxunur, sıxıldıqları bilinir və Əlinin sözlərinə ikrah hiss etdikləri görünürdü.

Gözlərimizi nurlandıran bu gündən əvvəl üzərimizə doğan belə bir günə şahidlik etməmişdim. Çünki həmin gün Möminlərin əmiri (ə) camaatın gözündəki pərdələri qaldırdı, haqqı ortaya çıxardı, məsələni açıqladı və təqiyyə etmədi.

O gündən və həmin məclisdən sonra (Əlinin (ə)) tərəfdarları çoxaldı və danışmağa başladılar. Halbuki bundan əvvəl ordunun ən az bir hissəsini təşkil edirdilər. Qalan camaat isə Allaha və Peyğəmbərə nisbətdə Əlinin məqamı barədə məlumatları olmadığı üçün onunla birlikdə döyüşürdülər. O məclisdən sonra şiələr cəmiyyətin əksəriyyətini və ən böyük hissəsini təşkil etdilər.

## İmam Əlinin (ə) şəhid olması

Bu hadisə Nəhrivan savaşından sonra olmuşdu. Müaviyə ilə döyüş üçün hazırlıq və səfərbərlik əmri vermişdi. Amma az bir müddətdən sonra Əli (ə) şəhid oldu. İbn Mülcəm (Allah ona lənət eləsin!) onu xaincəsinə sui-qəsd təşkil edərək öldürdü. Qılıncı zəhərli idi. Qılıncını ora gəlməzdən əvvəl zəhərləmişdi. Allahın salavat və salamı olsun Möminlərin əmirinin üzərinə!”

# HƏDİS 13

## Səhhakın oğlunun zamanında beytul-mal

Aban Süleymdən nəql edir: "Əbul-Muxtar adında bir nəfər Səhhakın oğluna aşağıdakı məzmunda bir şeir oxudu:

Məgər möminlərin əmirinə məktub gəlib çatmadımı
Belə ki, sən mal və əmrdə Allahın əminisən!
Sən bizim üzərimizdə Allahın əminisən!
Kim insanların Rəbbinin əmini olsa, qəlbim ona təslimdir.
Kəndli və şəhərlilərə izn vermə ki,
Allahın malını qırmızı yeməklərə xərcləyərək xəyanət etsinlər.
Onların zənginlərinə elçi göndər
mallarını paylaş (yarısını onlardan götür).
*(Bir çox zəngin tayfa və şəxslərin adlarını çəkir)*
Onların anbarlarında olduqca çox mal saxlanır.
Bizdə onlar kimi döyüşürük.
Halbuki onların malları var,
Amma bizim heç nəyimiz yoxdur".

Ğəllab Misri cavabında dedi:
Əbul-Muxtara çatmadımı ki, mən yanına gəldim
Nə qohumuyam, nə də kürəkəni
Mənim yanımda miras da yoxdur ki, onu vərəsə edim.
Nə sədəqəm, nə də çox pulum var.
Lakin hər mağaraya tərəf dayanmadan qaçmışam.
Qaranlıqların arxasında ölümədək səbrim var.
İmkanlar sinəmi örtər, getməsi isə
məni möhnətə salıb kasıblığa düçar edər.

## İşçilərinin pulunun yarısını müsadirə edilməsi

Süleym deyir: "Səhhakın oğlu o il Əbul-Muxtarın şeirinə görə bütün valilərdən mallarının yarısını müsadirə etdi. Amma vali olmasına baxmayaraq

ondan Qunfuz Ədvidən heç bir şey almadı. Ondan alınan iyirmi min dinarı da geri göndərdi. Hətta 1/10 və ya 1/10 yarısını belə ondan müsadirə etmədi!

Mallarının yarısı alınanlardan biri də Bəhreyndə vali olan Əbu Hüreyrə idi. Onun mallarının saydırmış, iyirmi dörd min dirhəm mala sahib olduğu məlum olmuş və həmin malların yarısını müsadirə etmişdi".

## Qunfuzun malının müsadirə edilməməsinin səbəbi

Aban Süleymin belə dediyini nəql edir: "Əli (ə) ilə görüşdüm və Səhhakın oğlunun əncam verdiyi bu işlər barəsində soruşdum. Əli (ə) buyurdu: "Səhhakın oğlunun niyə Qunfuza çatdıqda malını götürmədiyini bilirsən?" Mən "Xeyr" dedim. Buyurdu: "Çünki mənimlə və onun arasına girdikdə Fatiməni qamçı ilə vuran o idi. Fatimə qolunda qolbaq şəklində qamçı izi olduğu halda dünyadan köçdü".

# HƏDİS 14

## Dinə gətirilən bidətlər və etirazlar

Aban Süleymdən nəql edir: "Peyğəmbər (s) məscidində bir dəstə insan dairəvi şəklində oturmuşdular. Salman, Əbu Zərr, Miqdad, Məhəmməd ibn Əbu Bəkr, Ömər ibn Əbu Sələmə və Qeys ibn Səd ibn Übadədən başqa hamı Bəni-Haşimdən idi.

## 1. Bidətlər

### İşçilərin cərimələnməsi

Abbas Əliyə (ə) dedi: "Səhhakın oğlunun bütün işçilərini cərimələdiyi halda Qunfuzu cərimələməməsi barədə rəyin nədir?" İmam Əli (ə) ətrafındakılara baxdı, gözləri yaşla doldu və dedi: "Səhhakın oğlu bununla Fatiməyə vurduğu qamçı zərbəsinə görə ona təşəkkür etdi. Öldükdə qolunda həmin qamçının bilərzik kimi izi qalmışdı".

Bunun və ondan əvvəlki dostunun sevgisinin bu ümmətin qəlbinə yerləşməsi və dinə gətirdiyi bidətlərdə onlara təslim olmaları təccüb doğurur! Əgər Səhhakın oğlunun məmurları xəyanətkar idilərsə və əllərindəki malları xəyanət nəticəsində toplamışdılarsa, bu zaman onları sərbəst buraxması halal deyildi. Müsəlmanların qəniməti olduğu üçün hamısı əllərindən alınmalı idi. Bəs niyə yarısını aldı və digər yarısını onların ixtiyarında qoydu? Əgər xəyanətkar deyildilərsə, bu zaman onların mallarından az, ya da çox bir şey götürməyə haqqı yox idi. Bəs niyə onların mallarının yarısını əllərindən aldı? Əgər onların malları xəyanətlə əldə olunsa belə onlar bunu inkar etdikləri halda əleyhlərinə şahid gətirilmədiyi üçün onların mallarından az, ya da çox bir şey götürülməsi halal deyildi. Bundan daha təəccüblüsü isə yenidən onları öz vəzifələrində saxlamasıdır. Əgər onlar xəyanət etmişdilərsə, bu zaman onları öz vəzifələrində saxlamağa haqqı yox idi, əgər xain deyildilərsə, onlardan aldığı mallar əsla halal olmaz".

## Əmirəl-möminin (ə) insanların bidətlərə meyl etməsinə təəccüb edir

Sonra Əli (ə) üzünü oradakılara tutub dedi: "Bu qövmə təəccüb edilməlidir ki, Peyğəmbərlərinin (s) sünnəsinin bir-bir və fəsil-fəsil dəyişdirildiyini gördükləri halda buna razı olurlar və inkar etmirlər. Nəinki, hətta dinə sonradan gətirilən bidətləri müdafiə edərkən qəzəblənirlər, onları məzəmmət və inkar edənləri isə qınayırlar. Bizdən sonra bir qövm gələcək və dinə sonradan gətirikləri bidətlərə, zülmlərə və uydurulmuş şeylərə itaət edəcəklər. Dinə gətirdikləri yenilikləri sünnə hesab edəcək və onlarla Allaha yaxınlaşmaq istəyəcəklər.

## İbrahim məqamının cahiliyyə dövründəki yerinə qaytarılması

Necə ki, İbrahim məqamını Peyğəmbərin (s) qoyduğu yerdən götürüb cahiliyyə dövründəki yerə qaytardılar.[1]

## Peyğəmbərin (s) sa` və mudd ölçülərinin dəyişdirilməsi

Həmçinin onun etdiyi dəyişiklərdən biri də Peyğəmbərin (s) sa' və mudd ölçü vahidlərinin dəyişdirməsidir. Vacib və sünnələr buna əsasən ölçülürdü. Səhhakın oğlunun ölçü vahidlərini artırması yalnız pis nəticələr verdi. Çünki and və ziharın kəffarəsi olan taxılın vacib olan miqdarı miskinlərə verilirdi. Peyğəmbər də (s) buyurmuşdu: "İlahi, sa` və muddumuzu bizə bərəkət et!" Camaat isə buna qarşı çıxmadılar, əksinə razı olub, qəbul etdilər.

## Fədəyin qəsbi

Həmçinin yoldaşı ilə birlikdə Fədəyi qəsb etmələri. Fədək Fatimənin əlində idi. Peyğəmbərin (s) sağlığında onun məhsullarından istifadə edirdi. Fatimənin əlində olduğu halda mülkiyyət hüququ üçün ondan şahid gətirməsini istədi, nə

---

[1] "Biharul-ənvar" kitabında (c.8, səh.287 (köhnə çap)) İmam Hüseyndən (ə) nəql edilir: "İbrahim peyğəmbərin (ə) məqamı Kəbə divarının yanında idi. Cahilliyə dövründə onu hazırda durduğu yerə köçürdülər. Peyğəmbər (s) Məkkəni fəth etdikdə onu İbrahimin (ə) qoyduğu yerə qaytardı. Məqam orada Səhhakın oğlu xəlifəliyi gələnə qədər qaldı. Bir gün camaatdan soruşdu: "Kim İbrahim məqamının əvvəlki yerini bilir?" Bir nəfər dedi: "Mən bir iplə onun məsafəsini ölçmüşdüm. O ip indi də yanımdadır". Səhhakın oğlu dedi: "Onu mənə ver". İpi gətirdi və məsafəni ölçüb yenidən cahiliyyə dövründəki yerinə qaytardılar!"
Yəqubi özünün "Tarix" kitabında bunu qeyd edib (c.2, səh.149, bu hicrətin 17-ci ilində baş vermişdir).

Fatimənin və nə də Ümmü Əymənin sözünü təsdiq etmədi. Halbuki Fədəyin Fatiməyə məxsus olduğunu (bizim bildiyimiz kimi) o da yəqin olaraq bilirdi. Sahib olduğu halda ondan şahid gətirməyi tələb etməsi və onu bu məsələdə ittiham əsla caiz deyildi. Camaat onun bu işindən məmnun oldular və onu tərifləyilər. Dedilər: "Onu bu işi görməyə təqva və fəzilət məcbur etmişdir".

Sonra pis işlərini gözəl göstərmək üçün sözlərindən dönüb dedilər: "Fatimənin heç vaxt haqdan başqa bir şey söyləmədiyini düşünürük və Əli də daim haqq olaraq şahidlik etmişdir. Əgər Ümmü Əymənlə birlikdə başqa bir qadın da şahid olsaydı Fədəyi ona verərdik". Bununla cahillərin yanında hörmət qazandılar. Onlar kimdirlər və kim onlara əmr edib ki, hakim olub insanlara nəyisə verib və ya məhrum etsinlər?! Amma ümmət bu iki nəfərə mübtəla oldu. Onlar da özlərini haqları və savadları çatmayan bir işə daxil etdilər. Fatimənin (s.ə.) əlində olduğu halda yaşlı səhabə Fədəyi onun əlindən almaq istədikdə Fatimə (s.ə.) dedi: "Məgər bu (hazırda) mənim əlimdə deyil? Əlimdə olarkən heç vəkilim də yox idi! Həmçinin Peyğəmbər (s) sağ ikən onun məhsulundan mən istifadə etmirdimmi?! Onlar dedilər: "Bəli". Fatimə (s.ə.) dedi: "Bəs niyə mənim əlimdə olan bir şey üçün məndən şahid və dəlil istəyirsiniz?" Dedilər: "Çünki müsəlmanların qənimətidir. Əgər şahid gətirsən sənə verəcəyik. Əks halda təsdiqləməyəcəyik!"

Camaat onların ətrafında dayanıb eşitdiyi halda Fatimə (s.ə.) dedi: "Peyğəmbərin (s) verdiklərini geri qaytarmaqla bu işi yalnız bizə aid edirsiniz, yoxsa bütün müsəlmanlardan tətbiq edəcəksiniz? Ey camaat! Bu ikisinin görmək istədiyi işi eşidin. Əgər mən müsəlmanların əlində olan malların mənim olduğunu iddia etsəm, fikriniz necə olar? Bu zaman məndən şahid istəyəcəksiniz, yoxsa onlardan?" Onlar dedilər: "Əlbəttə ki, səndən istəyəcəyik".

Fatimə (s.ə.) dedi: "Bəs müsəlmanlar mənim əlimdə olan bir şeyin onlara məxsus olduğunu iddia etsələr necə, onlardan dəlil və şahid istəyəcəksiniz, yoxsa məndən?" Səhhakın oğlu bunu eşidib qəzəbli halda dedi: "Bu müsəlmanların qəniməti və torpağıdır. Fatimənin əlindədir və onun məhsulunu yeyir. Əgər Peyğəmbərin bu qəniməti və onun hüququnu müsəlmanların arasından yalnız ona bağışladığına dəlil gətirsə, o zaman baxarıq!"

Fatimə (s.ə.) dedi: "Mənə yetər! Ey camaat, Allahı sizə şahid tuturam! Peyğəmbərin (s) "Qızım Fatimə Cənnət qadınlarının seyyidəsidir" dediyini eşitməmisiniz?! Dedilər: "Allaha and olsun, bunu Peyğəmbərdən (s) eşitmişik". Fatimə (s.ə.) dedi: "Məgər Cənnət qadınlarının seyyidəsi yalandan iddia irəli sürüb haqqı olmayan şeyi alarmı?! Məgər dörd nəfər mənim əxlaqsızlıq

etdiyimə və ya iki nəfər oğurluq etdiyimə şahidlik etsə onların mənim əleyhimə olan sözlərini qəbul edəcəksiniz?"

Bu zaman yaşlı səhabə susurdu. Lakin Səhhakın oğlu dedi: "Bəli, sənə hədd cəzası da tətbiq edərik!"

Fatimə (s.ə.) dedi: "Muhəmmədin (s) dinində olmadığını təsdiq edirsənsə, o zaman yalan danışdın və rəzil oldun! Cənnət qadınlarının seyyidəsinin əleyhinə şahidliyi qəbul edən və ya ona hədd tətbiq edən lənətlənmişdir, Allahın Muhəmmədə (s) nazil etdiyinə qarşı kafir olmuşdur. Çünki ***"Allahın bütün pisliklərdən təmizlədiyi və pak etdiyi"***[1] şəxslər əleyhinə şahidliyin qəbul edilməsi əsla caiz deyil. Belə ki, onlar hər bir pislikdən məsumdurlar və hər bir əxlaqsızlıqdan paklanmışlar. Ey Səhhakın oğlu! Mənə həmin ayənin əhlindən danış! Əgər bir dəstə insan onlara və ya onlardan birinə şirk, küfr və ya əxlaqsızlıq nisbət versə, müsəlmanlar onlardan uzaqlaşmalı və onlara hədd tətbiq etməlidirlər?" Səhhakın oğlu dedi: "Bəli! Onlar bu barədə digər insanlarla eyni səviyyədədirlər!"

Fatimə (s.ə.) dedi: "Yalan danışdın və küfr etdin! Onlar bu barədə digər insanlarla bərabər deyillər! Çünki Allah onları qorumuş, onların məsumluğu və paklığı haqqında ayə nazil etmiş, onları bütün pisliklərdən uzaq tutmuşdur. Kim onların əleyhinə bir şeyi təsdiq etsə Allahı və Peyğəmbərini inkar etmiş olar". Yaşlı səhabə dedi: "Ey Səhhakın oğlu! Səni and verirəm, sus!"

Axşam olduqda o ikisi Xalid ibn Vəlidin ardınca adam göndərdilər və dedilər: "Biz səninlə bir sirr bölüşmək və etibar etdiyimizə görə o işi sənə həvalə etmək istəyirik".

Xalid dedi: "İstədiyiniz işi mənə tapşırın. Mən sizin qarşınızda mütiyəm!" Dedilər: "Nə qədər Əli sağdır, bu hakimiyyət və səltənətin bizə faydası olmayacaq. Bizə nələr söylədiyini və bizimlə necə rəftar etdiyini sən görmədin? Biz əmin deyilik ki, o gizlində bir dəstə insanı özünə tərəf dəvət etməyəcək və həmin insanlar da onun dəvətini qəbul edib bizə qarşı qiyam qaldırmayacaq. O, ərəbin ən şücaətlisidir. Biz ona qarşı gördüyün işlərə əl bulaşdırdıq və haqqımız olmadığı halda əmisi oğlunun hakimiyyətini əlindən aldıq. Həmçinin zövcəsini də Fədəkdən məhrum etmişik". Səhər namaz qılarkən onun yanında dayan. Qılıncın yanında olsun. Mən namazı bitirib salam verdikdə onun boyunu vur!"

Əli (ə) dedi: "Xalid ibn Vəlid qılıncını belində yanımda namaza başladı. Yaşlı səhabə namaza başlaşdı, ancaq qərarında tərəddüdə idi. Sanki peşman olmuşdu və nə edəcəyini bilmirdi. Günəş parlamağa az qalırdı. Birdən salam-

---

[1] "Əhzab" surəsinin 33-cü ayəsinə işarə edilir.

dan əvvəl "Sənə əmr etdiyim eləmə!" dedi və sonra namazı bitirdi. Xalidə dedim: "Nə məsələdir?" Dedi: "Namazı bitirdikdə sənin boyunu vurmağı mənə əmr eləmişdi!" Dedim: "Sən bunu edərdin?" Dedi: "Allaha and olsun, bəli! Edəcəkdim!"

## Xümsün dayandırılması

Süleym deyir: "Sonra Möminlərin əmiri (ə) üzünü Abbasa və ətrafındakılara tutub dedi: "Görəsən onun və yoldaşının Allahın Quranda bizə ayırıb vacib buyurduğu yaxın qohumların (zil-qurbanın) payını verilməsini dayandırmasına niyə təəccüb etmirsiniz? Uca Allah da onların yaxın vaxtlarda bizə zülm edəcəklərini və onu əlimizdən alacaqlarını bilirdi. Uca Allah buyurmuşdu: ***"Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün iki dəstənin bir-birilə qarşılaşdığı gün bəndəmizə nazil etdiyimizə iman gətirmisinizsə..."***[1]

## Qardaşım Cəfərin evini məscidə qatması

Təəccüb edilməli işlərdən biri də Səhhakın oğlunun qardaşım Cəfərin evini söküb onu məscidə qatması və bu zərərin qarşılığında onun övladlarına az, ya da çox heç bir əvəz verməməsidir. Camaat bunu ona ayıb tutmadı və vəziyyətə müdaxilə edib dəyişmədi.[2] Sanki Deyləmdən olan bir nəfərin evini almış kimi rəftar etdilər.

## Cənabət qüslundakı bidət

Səhhakın oğlunun və ümmətin cahilliyi təəccüb doğurur! O, bütün valilərinə belə yazdı: "Əgər cünub şəxs su tapa bilməsə, namaz qılmaq ona vacib deyil. Su tapana qədər təyəmmüm etməsi də lazım deyil. Hətta su tapana qədər Allaha qovuşsa belə! Camaat da bunu qəbul edib razı qaldılar. Halbuki Peyğəmbərin (s) Əmmara və Əbu Zərrə cünub olduqları vaxt təyəmmüm edərək namaz qılmağı əmr etdiyini o da, camaat da yaxşı bilirdilər. Bu ikisi (Əmmar və Əbu

---

[1] "Ənfal" surəsi, ayə 41. Ayənin ardı belədir ***"Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün iki dəstənin bir-birilə qarşılaşdığı gün (Bədr günü) bəndəmizə (Muhəmmədə) nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri (xümsü) Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərinin, yoxsullarının və müsafirinindir (pulu qurtarıb yolda qalan yolçularınındır). Allah hər şeyə qadirdir!"***

[2] "Əl-Ğədir" kitabında (c.6, səh.262) İbn Sədin "Təbəqat"ından rəvayət olunur: "Səhhakın oğlunun dövründə müsəlmanların sayı Mədinədə çoxaldığı üçün onlar məscidə sığmırdılar. Səhhakın oğlu məscidin ətrafındakı evləri (Abbas ibn Əbdülmüttəlibin və Peyğəmbərin zövcələrinin evlərindən savayı) pul verib alaraq məscidə qatdı".

Zərr) və digərləri buna şahidlik etsələr də Səhhakın oğlu qəbul etmədi və başını belə tərpətmədi.

## Babanın mirasındakı bidət

Bu ikisi babanın mirası barədə elmsiz, cahilanə və etinasızcasına fərqli hökmlər vermələri də təəccüb doğurur. Allahdan çəkinmədən və (günaha) cürətlə bilmədikləri şeyi iddia etdilər. Peyğəmbərin (s) babanın mirası haqqında heç bir hökm vermədən vəfat etdiyini iddia elədilər. Heç kəs də babanın mirası barədə bir şey bildiyini iddia etmədi! Sonra camaat bu məsələdə onlara tabe olub təsdiq etdilər.

## Ümmi-vələdlərin[1] azad edilməsi bidəti

Ümmi-vələdlərin azad edilməsi də Səhhakın oğlunun dində etdiyi bidətlərdəndir. Camaat onun sözünə tabe olub Peyğəmbərin (s) əmrini tərk etdilər.

## Üç nəfər barəsində batil hökmlər

Onun Nəsr ibn Həccac, Bəni-Süleym tayfasından Cudə və İbn Vəbrəyə etdikləri...[2]

---

[1] Sahibindən övlad dünyaya gətirən kölə qadın.

[2] Heç bir günahları olmadığı halda onların Mədinədən sürgün edilməsi hadisəsinə işarədir. "Biharul-ənvar"da (c.8, səh.286 (köhnə çapı)) nəql edilir: "Bir gün Səhhakın oğlu Mədinə küçələrində gəzirdi. Bir qadının evində aşiqanə bir şeir oxuduğunu eşitdi:
*Şərab içməyə bir (şəri) yol varmı ki, içim,*
*yaxud Nəsr ibn Həccaca bir yol varmı ki, ona qovuşum!*
Ömər Nəsri gətirmələrini əmr etdi. Onu gətirdiklərində üz, göz və saç cəhətdən camaatın ən gözəli olduğunu gördü. Əvvəl saçlarının qırxılmasını əmr elədi. Nəticədə onun gözəl üzü ay kimi parlamağa başladı. Başına əmmamə qoymalarını əmr etdi. Bu vaxt da gözlərinin gözəlliyi önə çıxdı. Səhhakın oğlu dedi: "Allaha and olsun ki, mənim yaşadığım şəhərdə qalmamalısan!" Nəsr dedi: "Ey möminlərin əmiri, nə üçün?" Səhhakın oğlu dedi: "Sənə dedimsə, elə də olmalıdır!" Onu Bəsrəyə sürgün etdi. Səhhakın oğlu bu hökmün bənzərini Nəsrin əmisi oğlu barədə də verdi". İbn Sədin "Təbəqat" kitabına müraciət edə bilərsiniz (c.3; səh.385).
Cudə məsələsinə gəldikdə, onun səbəbsiz yerə qamçılanmasına işarə etmişdir. İbn Sədin "Təbəqat" kitabında (c.3, s.285) rəvayət edilir: "Səhhakın oğlunun əlinə şeirlər olan bir məktub düşdü. Məktubun xülasəsi belə idi: "Bir nəfərə Cudədən şikayət etmişdir. Səbəb isə əri səfərdə və ya itkin olan qadınların evinə gedib onlarla əlaqə yaratmağa çalışması idi. Səhhakın oğlu Cudəni çağırdı və ayaqlarını bağlayıb yüz qamçı vurmalarını əmr etdi. Ona ərləri yanlarında olmayan qadınlara yaxınlaşmağı qadağan etdi".
İbn Vəbrənin hadisəsi barədə isə bizə mənbələrdən heç nə çatmayıb.
Bu məqamlarda Səhhakın oğlu verdiyi hökmlərə gətiriləcək işkal sabit olmayan bir məsələ barəsində hökm verməsidir. Nəsr ibn Həccacın yalnız üz gözəlliyi onun şəhərdən sürgün

## Talaqdakı bidəti

Bunlardan daha təəccüblüsü isə budur ki, Əbu Kənf Əbdi Səhhakın oğlunun yanına gəlib: "Mən qaib olduğum vaxt zövcəmi (rici talağı ilə) boşadım və boşama xəbərim ona çatdı. Sonra o iddə saxlayarkən ona rücu etdim (kəbini geri qaytardım) və məktub yazıb bunu ona bildirdim. Ancaq mənim bu məktubum ona çatmadan o evləndi" deməsidir. Səhhakın oğlu isə ona cavabında yazdı: "Əgər evləndiyi kişi ilə yaxınlıq edibsə onun, əgər hələ etməyibsə sənin zövcəndir!"

Bunu yazdığı zaman mən də şahid idim. Amma mənimlə məşvərət etmədi və məndən bu məsələ barədə heç bir fikir soruşmadı. Yanındakı "elminə" görə mənə ehtiyacı olmadığını düşünürdü. Onu çəkindirmək istədim. Amma öz-özümə dedim: "Allahın onu rəzil etməsindən heç bir qorxum yoxdur!" Amma camaat bunu da ona eyib tutmadı, əksinə, xoş qarşılayıb sünnəyə çevirdilər, qəbul etdilər və bunu doğru hesab elədilər. Halbuki, əgər dəyərsiz və ağılsız bir dəli bu barədə hökm etsəydi bundan artığını deməzdi!

## Azanın bəzi hissələrinin çıxarılması

Həmçinin azandakı "Həyyə əla xeyril-əməl" cümləsini çıxardı. Camaat da bunu sünnə elədilər və bu barədə ona tabe oldular.[1]

## Əri itkin düşmüş qadın barəsində hökmdə bidəti

Əri itkin düşmüş şəxs haqqında belə hökm verdi: "Arvadının (gözləmə) müddəti dörd ildir. Dörd ildən sonra evlənər. Əgər həyat yoldaşı qayıtsa, arvadı ilə mehriyyəni verib azad etmək barədə seçməkdə ixtiyar sahibidir". Camaat onun bu hökmünü də bəyəndi və bir sünnəyə çevirdi. Allahın kitabı və Peyğəmbərin (s) sünnəsi barədə cəhalət və savadsızlıqları bunu qəbul etməyə səbəb oldu.[2]

---

edilməsinə əsla səbəb sayılmaz. Həmçinin ələ keçmiş bir şeir heç bir dəlil və sübut olmadan bir şəxsin yüz qamçı cəza almasına səbəb ola bilməz.

[1] Əllamə Əmini "əl-Ğədir" kitabında (c.6, səh.213) Təbəridən Səhhakın oğlunun belə dediyini yazır: "Peyğəmbərin dövründə üç şey vardı ki, mən onları qadağan edir və bunları edəcək şəxsi cəzalandıracağam: "Həcc mütəsini, qadın mütəsini və azanda "Həyyə əla xeyril-əməl" deməyi". "İsbatul-Hudat" kitabında rəvayət olunur ki (c.2, səh.371, hədis 232) Səhhakın oğlunun "Həyyə əla xeyril-əməl" sözünü tərk etdi və dedi: "Qorxuram ki, insanlar buna daha çox əhəmiyyət verib digərlərini tərk edərlər". Halbuki əhli-sünnə mənbələri də Peyğəmbərin (s) azanda bu sözləri dediyini rəvayət edirlər.

[2] Əllamə Əmini "əl-Ğədir" kitabında (c.8, səh.200) Malikdən Səhhakın oğlunun belə dediyini rəvayət edir: "Bir qadın ərini itirsə və onun harada olduğunu bilməsə, dörd il gözləyəcək.

## Əcəmilər barəsində bidəti

Eləcə də əcəmiləri Mədinədən qovması da bidətlərindən biri idi.[1]

Həmçinin Bəsrədəki məmurlarına beş qarış uzunluğunda bir ip göndərmiş və demişdi: "Əcəmilərdən boyu bu ip qədər olan hər kəsi tapsanız, boynunu vurun!"

Tustər döyüşündə əsir götürülüb kölə edilən və sonradan hamilə qalan qadınları azad etdi.

Bəsrədə oğurluq edən uşaqlar barəsində bir ip göndərib belə dedi: "Kim bu ip uzunluğuna yetişsə əlini kəsin!"[2]

Bundan daha təəccüblüsü isə bir yalançının (kəzzabın) Səhhakın oğlu barədə hədis uydurması xəbəridir. Özü və cahillər bunu qəbul etdilər. Onlar zənn etdilər ki, "Mələklər Səhhakın oğlu dililə danışır və ona təlqin edirlər".[3]

Yenə Yəmənli (hamilə) qadınları azad etdi.[4]

## 2. Peyğəmbərə (s) qarşı çıxmalar və ona etirazları

Peyğəmbərin (s) Üsaməyə tabe olmağı əmr etməsinə baxmayaraq Səhhakın oğlu və dostu (Yaşlı səhabə) Üsamə ibn Zeydin ordusundan ayrıldılar.[5]

Bundan daha təəccüblüsü: Allah da, insanlar da bilirlər ki, o Peyğəmbərin (s) kağıza (vəsiyyət) yazmasını mane oldu. Lakin etdiyi bu əməl camaatın nəzərində ona bir zərər yetirmədi və onun üçün nöqsan sayılmadı.[6]

---

Ardınca dörd ay on gün də gözlədikdən sonra azaddır". Əgər əri gəlib onun başqa bir kişi ilə evləndiyini görsə, qadınla mehriyyəsi arasında seçim etməkdə azaddır. Əgər mehriyyəni seçsə, onu ödəmək yeni ərin boynundadır. Əgər zövcəsinin geri qayıtmasını tələb etsə, qadın iddə saxlayıb azad olmalı və birinci ərinə qayıtmalıdır. Digər əri qadından istifadə etdiyi üçün qadının mehriyəsini verməlidir.

[1] Məsudi "Murucuz-zəhəb" əsərində (c.2, səh.320) qeyd edir ki, Səhhakın oğlu Mədinəyə daxil olan heç bir əcəmini rahat buraxmırdı.

[2] Əllamə Əmini "əl-Ğədir" kitabında (c.6, səh.171) İbn Əbu Məlikədən rəvayət edir ki, "Səhhakın oğlu oğurluq etmiş iraqlı bir gənc barədə belə bir məktub yazdı: "Ölçün, ölçü altı şibrə yetişsə, əlini kəsin". Ölçdülər, altı şibrdən bir barmaq ucu qədər qısa gəldiyi üçün kəsmədilər".

[3] "əl-Ğədir" kitabına (c.6, səh.331) və bu kitabdakı 10-cu hədisə müraciət et.

[4] Fəzl ibn Şazan "əl-İzah" kitabında (səh.463) rəvayət edir ki, Səhhakın oğlu yəmənli əsir qadınları müsəlmanlardan hamilə olduqları halda maliklərilə aralarındakı uşaq məsələsini həll etmədən azad etdi.

[5] "Biharul-ənvar"da (c.8, səh.245 (köhnə çap)) rəvayət edilir: "Peyğəmbər hicrətin 11-ci ilinin Səfər ayının 26-ı rumlularla döyüşə hazırlaşmağı əmr etdi. Usamə ibn Zeydi çağıraraq onu ordu başçısı təyin elədi və bayrağı ona verdi. Ardınca da onun ordusundan ayrılanları lənətlədi. Başda yaşlı səhabə və Səhhakın oğlu olmaqla bəziləri Peyğəmbərin (s) vəfat etdiyi gecə Mədinəyə qayıtdılar. O ikisi Səqifədə baş verəcək xilafət qəsbi üçün hazırlığa başladılar. Peyğəmbər (s) həmin gecə haqda buyurur: "Bu gecə Mədinəyə böyük bir şər daxil olmuşdur".

[6] 11 və 49-cu hədislərə müraciət et.

Həmçinin o, Səfiyyəyə bəzi sözlər söyləmiş, buna görə Peyğəmbər (s) qəzəblənmiş və məlum sözləri demişdi.[1]

O və yoldaşı Peyğəmbərin (s) bir nəfəri öldürməyi əmr etməsinə baxmayaraq onu öldürməkdən çəkinən kəslərdir. Peyğəmbər (s) onlardan sonra mənə əmr etdi və bəzi sözlər danışdı.[2]

Peyğəmbər (s) yaşlı səhabəyə yüksək səslə camaata bunu elan etməsini tapşırdı: "Kim tövhid üzrə olduğu halda Allaha qovuşsa və heç bir şeyi Ona şərik qoşmasa Cənnətə daxil olacaq". Səhhakın oğlu yaşlı səhabəni bu işdən çəkindirdi. Yaşlı səhabə də Səhhakın oğlu sözünə itaət edib[3] Peyğəmbərə (s) qarşı çıxdı və onun əmrini yerinə yetirmədi. Peyğəmbər (s) də bundan sonra bu barədə bəzi şeylər söylədi".

Səhhakın oğlu və yaşlı səhabənin pislikləri sayıla bilməyəcək qədər çoxdur. Bu pisliklər cahillərin və avam camaatın yanında onların etibarlarından heç nəyi azaltmadı. Hətta o ikisini atalarından, analarından və özlərindən daha çox sevdilər. Camaat bu ikisi nəyə görə Peyğəmbər (s) üçün qəzəblənmədikləri qədər qəzəblənirlər.

---

[1] "Biharul-ənvar"da (c.8, s.200 (köhnə çap)) İmam Muhəmməd Baqirdən (ə) nəql edilir: "Əbdülmüttəlibin qızı Səfiyyənin oğlu vəfat etmişdi. Səhhakın oğlu onunla qarşılaşdı və dedi: "Sırğalarını gizlət! Peyğəmbərə olan qohumluğun sənə fayda verməyəcək!" Səfiyyə ona dedi: "Sən mənim sırğalarımı gördün, ey zinazadə?!" Sonra Səfiyyə Peyğəmbərin (s) yanına gəldi və hadisəni ona danışıb ağladı. Peyğəmbər (s) çölə çıxdı və camaatın toplanması üçün səsləndi. Sonra buyurdu: "Nə baş verir ki, bir dəstə adam mənimlə qohumluğun faydasız olduğunu zənn edir?!..." Buna bənzər sözlərlə "Məcməuz-zəvaid" kitabında da (c.8, səh.216) hədis varid olub.

[2] "əl-Ğədir" kitabında (c.7, s.216) Əbu Səid Xudridən nəql edilir: "Yaşlı səhabə Peyğəmbərin (s) yanına gəldi və dedi: "Ey Allahın Peyğəmbəri! Mən filan yerdən keçirdim. Bir gözəl görünüşlü şəxs xuşu ilə namaz qılırdı". Peyğəmbər (s) buyurdu: "Get onu öldür!" Yaşlı səhabə getdi və onu eyni vəziyyətdə gördü. Öldürmək istəmədi və Peyğəmbərin (s) yanına qayıtdı. Peyğəmbər (s) Səhhakın oğluna dedi: "Get onu öldür!" Səhhakın oğlu də həmin adamın yanına gəldi, onu yaşlı səhabənin gördüyü vəziyyətdə görüb öldürmədən geri qayıtdı və dedi: "Mən onu xuşu halında gördüm və öldürmək istəmədim". Peyğəmbər (s) buyurdu: "Ey Əli! Get və onu öldür!" Əli (ə) getdi, amma onu tapa bilmədi. Geri qayıdıb dedi: "Ey Allahın Peyğəmbəri! Onu görmədim". Peyğəmbər (s) buyurdu: "O və yoldaşları Quran oxuyurlar, amma oxuduqları boğazlarından aşağı keçmir. Oxun yaydan çıxdığı kimi onlar dindən çıxırlar və ox yaya geri dönmədiyi kimi bir daha dinə qayıtmazlar. Onları öldürün! Çünki onlar yaradılmışların ən pisləridirlər". Buna oxşar bir hədis "Biharul-ənvar"da da nəql olunur (c.8, səh. 229 və 270 (köhnə çap)).

[3] Səhhakın oğlu Peyğəmbərin (s) sözünü rədd etdi, yaşlı səhabə də bu məsələdə Səhhakın oğluna tabe oldu.

## Peyğəmbərə (s) xəyanət

Əli (ə) dedi: “Bir gün Səhhakinin yanından keçirdim. Mənə dedi: “Muhəmmədin misalı zibillikdə yetişən xurma ağacının misalıdır”. Mən Peyğəmbərin (s) yanına gəldim və bu hadisəni ona danışdım. Peyğəmbər əsəbiləşdi və qəzəblə minbərə qalxdı. Ənsar Peyğəmbərin (s) qəzəbli olduğunu görüb qorxuya düşdülər və qılınclarına sarıldılar.

Peyğəmbər (s) buyurdu: “Nə olub ki, bəziləri mənim qohumlarım barədə sözlərimdən qıcıqlanırlar! Halbuki onların fəzilətləri, Allahın onlara üstünlük bəxş etməsi və onları pisliklərdən pakladığı barədə sözləri məndən eşitmisiniz. Eləcə də Əhli-Beytimin ən fəzilətlisi barədə, onların ən xeyirlisinə Allahın bəxş etdikləri, kəramət verdiyi, İslamda ilk şəxs olması ilə üstün tutduğu, imtahanları, mənə olan yaxınlığını və mənim yanımdakı məqamının Harunun Musanın yanındakı məqamı kimi olduğu sözlərimi şəxsən mənim özümdən eşitdiniz. Bütün bunlardan sonra mənim misalımın zibillikdə bitən bir xurma ağacı misalı olduğunu zənn edirsiniz?!

Bilin və agah olun ki, Allah məxluqları yaratdı və onları iki hissəyə ayırdı. Məni bu iki dəstənin ən yaxşılarından qərar verdi. Sonra bu hissələri xalq-xalq, tayfa-tayfa və ev-ev üç dəstəyə ayırdı. Məni onların ən xeyirli xalqında və ən xeyirli qəbiləsində qərar verdi. Sonra onları ev-ev böldü və məni o evlərin ən yaxşısında qərarlaşdırdı. Bu elə Allahın sözüdür: ***“Ey Əhli-Beyt! Həqiqətən, Allah sizdən (hər cur) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!”***[1] Bu ayə Əhli-Beytim, itrətim, mən və qardaşım Əli ibn Əbu Talib haqqında nazil olmuşdur.

Bilin və agah olun ki, Allah yer əhlinə nəzər saldı və onların arasından məni seçdi. Sonra bir daha nəzər salıb qardaşım, vəzirim, vəsim, ümmətim üzərində xəlifəm və məndən sonra hər mömінin mövlası olan Əlini seçdi. Məni rəsul, nəbi və dəlil təyin etdi. Sonra mənə vəhy edərək Əlini özümə qardaş qərar verməyimi, özümdən sonra ümmətim üzərində vəli, vəsi və xəlifə təyin etməmi buyurdu.

Bilin və agah olun ki, o məndən sonra bütün möminlərin vəlisidir. Ona yardım edənə Allah yardım edər. Ona düşmən olana Allah da düşmən olar. Onu sevəni Allah da sevər. Ona kin bəsləyənə qarşı Allah da kin bəsləyər. Onu mömindən başqası sevməz və kafirdən başqası nifrət eləməz. O məndən sonra yer üzünün idarəçisi, onu aramlaşdıran, Allahın təqva kəlməsi (nümunəsi) və möhkəm ipidir.

---

[1] “Əhzab” surəsi, ayə 33.

Allahın nurunu ağızlarınızla söndürmək istəyirsiniz? Müşriklərin xoşuna gəlməsə belə Allah Öz nurunu tamamlayacaq. Allah düşmənləri qardaşımın nurunu söndürmək istəyirlər, amma Allah nurunun sönməsinə izin verməz.

Ey insanlar! Burada olanlar sözlərimi olmayanlara çatdırsın. İlahi, onlara şahid ol!

Ey insanlar! Allah üçüncü dəfə nəzər salıb məndən sonra Əhli-Beytimdən olan on iki xəlifə seçdi ki, onlar ümmətimin seçilmiş şəxsləridir. Qardaşımdan sonra bir-birinin ardınca on bir imam var. Onlardan biri ölsə özündən sonrakı onun yerinə keçəcək. Onlar göydəki ulduzlar kimidirlər. Bir ulduz batsa başqa bir ulduz doğar. Çünki onlar hidayət olmuş və hidayət edən imamlardır. Hiyləgərlərin hiyləsi və onları alçatmaq istəyənlərin alçaqlıqları onlara əsla zərər verməz. Əksinə onlara qarşı hiylə və alçaltmaların zərərini Allah hiyləgər və alçaqların özlərinə qarşı çevirər.

Onlar Allahın yer üzündəki höccətləri və məxluqları üzərindəki şahidləridir. Onlara itaət edən Allaha itaət etmiş və onlara qarşı çıxan Allaha qarşı çıxmışdır. Onlar Quranla və Quran da onlarladır. Kövsər hovuzunda mənə qovuşanadək nə onlar Qurandan və nə də Quran onlardan ayrılmaz.

İmamların birincisi onların ən yaxşısı olan qardaşım Əlidir. Sonra oğlum Həsən və ondan sonra oğlum Hüseyndir. Sonra Hüseynin övladlarından doqquz nəfərdir. Onların anası qızım Fatimədir. Allahın salavatı onlara olsun. Onlardan sonra ən yaxşılar əmim oğlu və qardaşımın qardaşı Cəfər ibn Əbu Talib və əmim Həmzə ibn Əbdül-müttəlibdir.

Bilin və agah olun ki, mən Muhəmməd ibn Abdullaham. Rəsul və nəbilərin ən yaxşısıyam. Qızım Fatimə Cənnət qadınlarının seyyidəsidir. Əli və vəsilər olan övladları vəsilərin ən yaxşılarıdırlar. Əhli-Beytim peyğəmbərlərin əhlibeytlərinin ən yaxşısıdır. Bu iki oğlum da Cənnət cavanlarının ağalarıdır.

"Ey insanlar! Siz mənim şəfaətimi dilədiyiniz halda Əhli-Beytim ondan məhrummu qalacaq?! Günahlarının sayı dənizdəki çınqıl və qum dənələri qədər olsa belə babam Əbdülmüttəlibin nəslindən olub, tövhidə inanaraq heç bir şərik qoşmadan Allahın hüzuruna gələn hər bir şəxsi Allah Cənnətə daxil edəcək".

Ey insanlar! Mən həyatda ikən və öldükdən sonra Əhli-Beytimi uca tutun, onlara hörmət edin və fəzilətli bilin. (Ehtiram olaraq) Əhli-Beytimdən başqa bir şəxs üçün oturduğu yerdən qalxmaq heç kimə halal deyil. Mən Cənnət qapısının halqasından tutsam, Allah Təbərak və Təala mənə təcəlla etsə, mən səcdəyə düşsəm və mənə şəfaət izni versə, heç kimi Əhli-Beytimdən önə keçirmərəm.

Ey insanlar! Mənim hansı nəsəbdən olduğumu söyləyin?" Ənsardan bir nəfər ayağa qalxıb dedi: "Allahın və Peyğəmbərinin qəzəbindən Allaha pənah

aparırıq. Ey Allahın peyğəmbəri! Əhli-Beytin barədə sənə kimin əziyyət etdiyini söylə, boynunu vuraq ki nəsli təmizlənsin!" Buyurdu: "Mənim nəsil şəcərəmi söyləyin. Mən Muhəmməd ibn Abdullah ibn Əbdülmüttəlib ibn Haşim..." Ta ki, Nizara qədər nəslini saydı və sonra İbrahim Xəlilullahın (ə) oğlu İsmayıla (ə) qədər davam etdi[1]. Sonra buyurdu: "Mən və Əhli-Beytim Ərşin altında pak torpaqdan xəlq olunmuşuq. Adəmə qədər nəslimiz nikahlıdır, əsla zinakar olmayıblar və cahiliyyə nikahı bizə bulaşmayıb.

## Peyğəmbərin (s) onların nəsil və aqibətləri barədə sözləri

Məndən soruşun, Allaha and olsun ki, elə bir kəs yoxdur ki, anasını, atasını və nəslini məndən soruşsun və mən cavab verməyim!"

Bir nəfər ayağa qalxıb dedi: "Mənim atam kimdir?" Peyğəmbər (s) buyurdu: "Sənin atan adı ilə çağırıldığın filan şəxsdir". Həmin şəxs Allaha həmd və səna edib dedi: "Əgər məni ondan başqasına nisbət versəydin, yenə razı və təslim olacaqdım". Başqa bir nəfər ayağa qalxıb dedi: "Mənim atam kimdir?" Peyğəmbər (s) buyurdu: "Sənin atan filan şəxsdir (indiyədək adı ilə çağırıldığından fərqli bir ad dedi). Həmin şəxs bunu eşidib mürtəd oldu (İslamdan döndü). Sonra başqa bir nəfər ayağa qalxıb dedi: "Mən Cənnət əhliyəm, yoxsa cəhənnəm?" Peyğəmbər (s) buyurdu: "Cənnət əhlisən". Digər bir nəfər də ayağa qalxdı və dedi: "Bəs mən, Cənnət ya cəhənnəm əhliyəm?" Peyğəmbər (s) buyurdu: "Cəhənnəm əhlisən".

## Peyğəmbərin (s) mübarək hüzurunda xəyanətdən imtina

Sonra Peyğəmbər (s) qəzəbli halda dedi: "Niyə Əhli-Beytimin ən yaxşısı, qardaşım, vəzirim, varisim, vəsim, ümmətim üzərində xəlifəm və məndən sonra hər bir möminin mövlasına (Əliyə) söz atan o adam ayağa qalxıb atasının kim olduğunu və yerini soruşmur? Cənnət, yoxsa cəhənnəm əhli olduğunu bilmək istəmir?"

Səhhakın oğlu ayağa qalxıb dedi: "Allahın və Peyğəmbərinin qəzəbindən Allaha pənah aparıram. Ey Allahın peyğəmbəri, bizi bağışla, Allah da səni bağışlasın. Bizim tövbəmizi qəbul et ki, Allah da sənin tövbəni qəbul etsin. Bizim əməllərimizin üstünü ört ki, Allah da sənin əməllərini örtsün. Bizdən xoşluqla əl çək ki, Allah sənə salamını göndərsin!"

Peyğəmbər (s) həya etdi və özünü saxladı.

---

[1] "Biharul-ənvar"da (c.15, səh.107) Peyğəmbərin (s) nəsil şəcərəsi Adəmə (ə) qədər zikr edilir.

## Abbasın malının zəkatında Peyğəmbərə (s) etiraz

Əli (ə) dedi: "Peyğəmbər Abbasın malından zəkatını almaq üçün Səhhakın oğlu göndərdikdə o qayıdıb dedi: "Abbas malının zəkatını vermir". Peyğəmbər (s) qəzəblənib buyurdu: "Allaha həmd olsun ki, biz Əhli-Beyti çirklətmək istədikləri şeylərin şərindən qorumuşdur! Abbas malının zəkatını götürməyə mane olmamışdı, əksinə sən onun haqqında hökm verməkdə tələsmisən. O bir neçə ilin zəkatını qabaqcadan ödəyib". Bu hadisədən sonra Səhhakın oğlu mənim yanıma gəldi və onunla birlikdə Peyğəmbərin (s) yanına gedərək ondan razı olması üçün şəfaətçi olmağımı istədi. Mən də bunu etdim".

## Münafiqin cənazəsinə namaz qılarkən Peyğəmbərə (s) etiraz

Abdullah ibn Ubey Səlulun cənazə namazını qılmaq üçün Peyğəmbər (s) qabağa keçərkən Səhhakın oğlu onun paltarından tutub özünə tərəf çəkdi və dedi: "Allah sənin ona namaz qılmağını qadağan edib. Onun üçün namaz qılmağın düzgün deyil!" Peyğəmbər (s) ona dedi: "Vay olsun sənə! Mənə əziyyət etdin! Mən onun oğluna olan ehtiramıma görə namaz qıldım. Bu namaza görə övladlarından və ailəsindən yetmiş nəfərin müsəlman olacağına ümid edirəm. Sən namazda nə dediyimi haradan bilirsən?! Mən ona bəddua edirdim!"[1]

## Hüdeybiyyə sülhündə Peyğəmbərə (s) etiraz

Səhhakın oğlu Hüdeybiyyə[2] sülhü imzalandığı gün Peyğəmbərə (s) etiraz etdi və Peyğəmbər (s) cavabında ona dedi: "Dinimizdə rəzalətə düşək?" Sonra

---

[1] "Biharul-ənvar"da (c.8, səh.200 (köhnə çap)) rəvayət edilir: Münafiqlərin başçılarından olan Abdullah ibn Ubey Mədinəyə qayıtdıqda xəstə idi. Oğlu Abdullah mömin şəxs idi. Atasının can verdiyini görüb Peyğəmbərin (s) yanına gəldi və dedi: "Ey Allahın Peyğəmbəri! Atam, anam sənə fəda olsun! Əgər sən atamın cənazəsinə gəlməsən bu bizim üçün böyük bir ar sayılacaq". Peyğəmbər (s) gəlib evə daxil oldu. Evdə münafiqlər də toplaşmışdılar. Abdullahın oğlu dedi: "Ya Peyğəmbər, atam üçün bağışlanma dilə!" Peyğəmbər (s) də onun üçün istiğfar etdi. Səhhakın oğlu buna etiraz etdi.

Daha sonra dəfni üçün Peyğəmbər (s) gəldikdə Səhhakın oğlu yenə etiraz etdi. Peyğəmbər (s) isə onun üçün bəddua elədiyini bildirib buyurdu: "Mən belə dua elədim: "İlahi, onun qəbrini və qarnını odla doldur, oda daxil elə!"

[2] "Biharul-ənvar"da (c.20, səh.334) Hüdeybiyyə sülhünün şərtlərində belə nəql olunur: "Əgər bizdən biri sənin dinində olduğu halda yanına gəlsə, onu bizə qaytaracaqsan. Əgər sizdən biri bizə gəlsə, onu qaytarmayacağıq". Müsəlmanlar dedilər: "Sübhanallah! Müsəlman bir şəxsi müşriklərə necə qaytaracağıq?!" Peyğəmbər (s) buyurdu: "Bizdən onların yanına gedən kəsi Allah uzaqlaşdırır, onlardan bizə gələni isə onlara qaytaracağıq. Əgər Allah onun qəlbində İslamı görsə, mütləq onun üçün bir yol açacaq...".

Peyğəmbərin əsgərlərinin arasında dolaşır, onları şübhəyə salır, əsəbiləşdirir və “dinimizdə rəzalətə düşək?” deyirdi. Peyğəmbər (s) buyurdu: “Məndən uzaqlaşın! Müqaviləmi pozmağımı istəyirsiniz? Mən onlarla imzaladığım əhdə vəfa edəcəyəm. Ey Suheyl! Əbu Cəndəlin əlini tut!” Süheyl onu tutub dəmir zəncirlə möhkəm bağladı. Sonra Uca Allah Peyğəmbərin (s) işini xeyirli aqibət, düzgünlük, hidayət, izzət və fəzilətlə başa vurdu.

## Qədir Xum günü etiraz

Qədir Xum günü Peyğəmbər məni vilayətimi bəyan etdikdə Səhhakın oğlu belə dedi: “Əmisi oğlunu ucaltmaqdan heç əl çəkmir!” O biri isə (Yaşlı səhabə) dedi: “Əmisi oğlunun biləyini qaldırmaqdan yorulmur!” Mən təyin olunduğum zaman dostuna dedi: “Bu həqiqətən ehtiramdır”. Dostu onun üzünə sərt nəzərlərlə baxıb dedi: “Xeyr, Allaha and olsun ki, heç vaxt onun sözünə qulaq asmayacağam və itaət etməyəcəyəm. Sonra ona söykəndi və qürurlu şəkildə yola düşüb getdilər. Allah onun haqqında bu ayəni nazil elədi: ***“Beləliklə, o nə (Quranı) təsdiq etdi, nə də namaz qıldı. Amma (Allah kəlamını) yalan saydı, (ondan) üz döndərdi. Sonra da özünü darta-darta ailəsinin yanına getdi. Vay sənin halına, vay! Yenə də vay sənin halına, vay!”***[1]

## İmam Əli (ə) xəstələnərkən etiraz

O, Peyğəmbər (s) və səhabələrlə birgə xəstələndiyim vaxt mənə baş çəkməyə gəlmişdilər. Yaşlı səhabə ona gözü ilə işarə etdi, yerindən qalxıb dedi: “Ey Allahın peyğəmbəri! Sən Əli barədə bizdən möhkəm bir əhd aldın. Amma görürəm ki, onun vəziyyəti yaxşı deyil. Əgər ölsə kimə müraciət edək?” Peyğəmbər (s) buyurdu: “Otur!” Bunu üç dəfə təkrarladı. Peyğəmbər (s) üzünü onlara tutub dedi: “Belə düşünün! Allaha and olsun ki, o, bu xəstəlikdən ölməyəcək. Allaha and olsun ki, siz onu qəzəbləndirib, zülm edib əhdinizi pozana, onu səbirli və dözümlü gördüyünüz müddətdə də ölməyəcək. Sizdən bir-birinin ardınca pisliklər görəndə də ölməyəcək. O, yalnız şəhid olaraq və qətl yetirilərək öləcək”.

## 3. İmam Əlinin (ə) xilafəti barədə höccətin tamamlanması

Və bunların hamısından daha böyüyü isə budur: Peyğəmbər (s) bir gün ərəblərdən qırx və əcəmilərdən də qırx nəfər olmaqla səksən nəfəri topladı. Bu ikisi də onların arasında idi. Onlar məni Möminlərin-əmiri olaraq salamladılar.

[1] “Qiyamə” surəsi, ayə 31-35.

Peyğəmbər (s) buyurdu: "Mən sizi Əlinin mənim qardaşım, vəzirim, varisim, ümmətim üzərində xəlifəm və məndən sonra hər bir möminin mövlası olduğuna şahid tuturam. Onun sözünü dinləyin və itaət edin. Onların arasında o üç nəfər, Təlhə, Zübeyr, Sad, Əbdürrəhman ibn Ovf, Əbu Ubeydə, Salim, Muaz ibn Cəbəl və ənsardan bir dəstə adam da vardı. Peyğəmbər (s) sonra buyurdu: "Allahı sizə şahid tuturam!"

## Seçki, təyinat yoxsa şura?

Sonra Əli (s) üzünü camaata tutub dedi: "Ümmətin qəlbində qərar tutmuş bu iki nəfərin bəla və fitnəsindən, buzov və Samirisindən Allah pak və münəzzəhdir. Onlar Peyğəmbərin (s) özündən sonra heç kimi xəlifə etmədiyini və işi şuraya həvalə etdiyini iddia və təsdiq etdilər. Onlardan bir dəstəsi dedi: "Peyğəmbər heç kimi xəlifə etmədi. Əksinə, belə dedi: "Allah biz Əhli-Beytdə xəlifəlik və peyğəmbərliyi bir yerdə cəm etməyəcək". Halbuki Peyğəmbər (s) bu səksən nəfərə: "Əliyə "Möminlərin əmiri" ünvanı ilə salam verin" demiş, sonra da onları öz sözlərinə şahid tutmuşdu.

Təəccüblüsü budur ki, onlar bunu təsdiq etdikdən sonra Peyğəmbərin (s) heç kimi xəlifə təyin etmədiyini və şuranı tövsiyə etdiyini söylədilər. Ardınca da yaşlı səhabə barədə məşvərət keçirmədən, ona beyətin ani və düşünülməmiş bir iş olduğunu özləri təsdiq etdilər. Ani və düşünülməmiş işə görə günah necə də böyükdür!

Sonra Yaşlı səhabə Səhhakın oğlunu öz yerinə xəlifə təyin etdi və burada Peyğəmbərə (s) itaət edib ümməti xəlifəsiz buraxmadı. Ona bu barədə deyilənlər deyildi. O (Yaşlı səhabə) isə belə cavab verdi: "Muhəmməd ümmətini köhnə bir ayaqqabı kimi qoyub gedim? Onlara bir xəlifə təyin etmədən ayrılım?" Bu sözü ilə Peyğəmbərə (s) tənə vurur və qınayırdı!!!

Sonra Səhhakın oğlu üçüncü yola əl atdı. Nə Peyğəmbərin (s) "öz yerinə xəlifə təyin etmədi" iddiasına itaət elədi, nə də yaşlı səhabə kimi özündən sonra xəlifə təyin etdi. Əksinə, üçüncü bir yol uydurdu. Xilafəti altı nəfərdən ibarət şuraya həvalə elədi və bütün ümməti bu işdən kənarda tutdu. Bununla özünü avam camaata daha çox sevdirdi. Qəlblərinə fitnə və zəlalət dolmuş o beş nəfəri mənə tay tutdu!

Sonra İbn Ovf Əffanın oğluna beyət etdi və ardınca digərləridə ona beyət elədilər. Halbuki Peyğəmbərin (s) bir neçə dəfə Əffanın oğluna nifrin etdiyini eşitmişdilər.

* * *

Əffanın oğlunun bu məsələdə vəziyyəti o ikisindən daha yaxşı idi.

Bir vaxtlar söylədiyi sözlərə görə ona qarşı yaxınlıq hiss etmişdim və həmin sözləri məni təəccübləndirmişdi. Bir gün mən Əffanın oğlunun evində, onun yanında oturmuşdum. Aişə və Həfsə gəlib Peyğəmbərin (s) Osmanın əlində olan mal və ərazilərindən öz paylarına düşən miraslarını istədilər. Əffanın oğlu dedi: "Allaha and olsun, xeyr! Nə mənim yanımda ehtiramınız var, nə Peyğəmbərdən sizə çatacaq bir şey var! Amma şahidliyinizi öz əleyhinizə qəbul edəcəyəm. Siz ikiniz atanızın yanında Peyğəmbərin (s) belə dediyini eşitdiyinizə şahidlik etdiniz: "Peyğəmbər miras buraxmaz. Hər nə qoyub getsə, sədəqədir". Sonra siz öz sidiyi ilə yuyunan Malik ibn Ovs ibn Hədsan adlı bir bədəvini tapıb şahidlik etməsi üçün ona təlqin etdiniz. Peyğəmbər səhabələrindən, mühacir və ənsardan siz və bu bədəvidən başqa bir nəfər belə buna şahidlik etmədi. Amma Allaha and olsun, onun Peyğəmbərə (s) yalan isnad etdiyinə şübhəm yoxdur və siz də onunla birlikdə Peyğəmbərin adından yalan uydurdunuz. Amma mən şahidliyinizi özünüzün əleyhinə qəbul edirəm. Gedin! Sizə çatacaq bir haqq yoxdur!"

Onlar Əffanın oğluna nifrin və təhqir edərək yanından ayrıldılar. Əffanın oğlu dedi: "Geri dönün! Siz Əbu Bəkrin yanında buna şahidlik etmədinizmi?" Onlar dedilər: "Bəli". Əffanın oğlu dedi: "Əgər şahidlik etdiyiniz məsələ doğrudursa, o zaman mənim yanımda sizə çatacaq heç bir haqq yoxdur. Əgər yalana və batilə şahidlik etmişsinizsə Allahın, Peyğəmbərin, mələklərin və bütün insanların lənəti sizə və bu Ev əhlinə qarşı sizin şahidliyinizi qəbul edənlərə olsun!"

İmam Əli (ə) dedi: "Sonra Əffanın oğlu mənə baxdı, gülümsədi və dedi: "Ey Əbul-Həsən! Bu ikisi barəsində dərdinə şəfa oldumu?" Dedim: "Allaha and olsun, bəli. Məsələni bəyan etdin və haqqı söylədin. Allah onlardan başqasının burnunu yerə sürtməsin!"

Bu vaxt Əffanın oğluna yaxınlıq hiss etdim. Bilirdim ki, o, bununla mənim razılığımı qazanmaq istəyirdi. Qohumluq baxımdan bizə o ikisindən daha yaxın idi və o ikisinə nisbətdə bizdən daha çox çəkinirdi. Hərçənd onun nə üzrü, nə bizim üzərimizdə hökm etmək üçün bir dəlili və nə də haqqımızı (xəlifəlik) iddia etməyə bir höccəti var!"

# HƏDİS 15

## Möminlərin əmirinin (ə) dəlilləri

### Müharibə adamlarının vəsfi

Aban Süleymdən nəql edir ki, Əli ibn Əbu Talibin (ə) Sıffin döyüşündən əvvəl belə buyurduğunu eşitdi:

"Bunlar (Müaviyənin əsgərləri) ard-arda gələn əsgərlərin hədəfi olmadıqca, ordular ard-arda sıralanmadıqca, şəhərlərinə bir ordunun ardınca başqa bir ordu daxil olmadıqca, dörd bir tərəfdən hücuma məruz qalmadıqca, Allah yolunda ölərək və ya öldürülərək dünyadan köçmələri Allaha itaətlərini daha da artıran doğru danışan və səbirli bir dəstə ilə qarşılaşmadan haqqa və aramızdakı ortaq bir sözə geri dönməzlər.

### Doğru danışanların Peyğəmbərlə (s) söhbəti

Bizi Peyğəmbərlə birlikdə görəydin! Allaha and olsun, atalarımızı, oğullarımızı, dayılarımızı, əmilərimizi və öz ailələrimizi öldürürdük. Bu bizə imanda, İslamda, Allaha itaətə səydə və savaşda daha çox güc verirdi. Bir nəfər bizdən və bir nəfər onlardan olmaqla iki güclü öküz kimi vuruşurduq. Hər biri digərinin öldürmək istəyir və rəqibinə ölüm kasasını içirməyə çalışırdı. Bəzən düşmənlərimiz bizdən və bəzən də biz düşmənlərimizdən öldürürdük! Allah bizi sadiq və səbirli gördü kitabında və haqqımızda gözəl təriflər nazil etdi, bizdən razı oldu və bizə yardım göndərdi.

* * *

Mən demirəm ki, Peyğəmbərlə (s) birlikdə olan hər kəs belə idi. Amma onların çoxu və böyük bir qismi belə idilər. Eyni zamanda bizimlə birlikdə bir dəstə adam da vardı ki, pis işlərdən çəkinməzdilər. Allah belə buyurur: ***"... Həqiqətən, onların sizə qarşı olan ədavəti ağızlarından çıxan sözlərdən aşkar olur. Amma ürəklərində gizlətdikləri (düşmənçilik) isə daha böyükdür".***[1]

Ey Qeysin oğlu, onlardan bəziləri sənin və yoldaşlarının üstün bildiyiniz kəslərdir! O (Səhhakın oğlu) hər vaxt qaçırdı. Nə ox və mizraq atırdı və nə

---

[1] "Ali-İmran" surəsi, ayə 118.

də qılınc zərbəsi vururdu. Savaş və ölüm vaxtı gəldikdə isə bir küncə çəkilib gizlənirdi. Üzrlər gətirir və qoyun kimi gözünü qaçırır, toxunan əlini dəf etmirdi. Nə vaxt düşmənlə qarşılaşsa qaçar, qorxudan və alçaqlıqdan düşmənə arxasını çevirərdi.[1] Ortalıq sakitləşib qənimət zamanı gəldikdə isə danışmağa başlayardı. Allahın bu ayədə buyurduğu kimi: ***"...Qorxu canlarından çıxınca qənimətdə xəsislik edib acı dilləri ilə sizi sancarlar..."***[2]

Amma Peyğəmbərin (s) öldürülmək istəmədiyi kəslərin boynunu vurmaq üçün tez izn istəyirdi. Peyğəmbər (s) isə icazə vermirdi.

Bir gün Səhhakın oğlu bütünlüklə silahla silahlanıb gəlmişdi. Peyğəmbər (s) ona baxıb güldü və kinayə ilə dedi: "Ey Filankəsin oğlu! Bu gün sənin günündür!"

Əşəs dedi: "Kimi qəsd etdiyini yaxşı bilirəm. O, Şeytanın uzaq qaçdığı şəxsdir".[3]

İmam Əli (ə) dedi: "Ey İbn Qeys! Danışdığı zaman Allah onu Şeytanın qorxusundan amanda etməsin!"[4]

## Əmirəl-mömininin (ə) bəzilərinin aqibətilə bağlı sözləri

Sonra dedi: "Peyğəmbərlə (s) birlikdə olduğumuz zaman bizə üz tutan əziyyətlər, çətinliklər və məşəqqətlərdə sizin bu gün etdiyiniz kimi davransaydıq Allahın dini ayağa qalxmaz və Allah İslamı izzətli etməzdi. Allaha and olsun, bu etdiklərinizə görə qan, peşmançılıq və təəssüf çəkəcəksiniz. Sizə dediklərimi əzbərləyin və yadda saxlayın. Pisləriniz, zinazadələriniz, kölələriniz, sürgünə göndərilənləriniz və münafiqləriniz sizə müsəllət olacaq və sizi öldürəcəklər. Allaha dua edəcəksiniz, amma qəbul edilməyəcək və tövbə edib qayıdana qədər bəlanı üzərinizdən götürməyəcək. Əgər tövbə edib qayıtsanız Allah sizi pis işlərinizdən və cahilliyinizdən xilas etdiyi kimi onların fitnə və zəlalətindən də qurtaracaq.

---

[1] "Biharul-ənvar"da (c.20, s.228) nəql edilir: Xəndək döyüşündə Peyğəmbər (s) Səhhakın oğluna Zirar ibn Xəttabla vuruşmağı əmr etdi. Zirar onunla qarşılaşınca Səhhakın oğlu bir ox hazırladı. Zirar dedi: "Vay sənə, ey Səhhakın oğlu! Təkbətək döyüşdə ox atırsan? Əgər mənə ox atsan Məkkədə tayfasından öldürmədiyim bir adam belə buraxmam". Bu sözlərdən sonra Səhhakın oğlu qaçmağa başladı, Zirar ardınca düşüb mizraqla onun başına vurdu və dedi: "Ey Səhhakın oğlu! Bu zərbəni unutma, mən Qüreyşdən bir kəsi öldürməyəcəyimə and içdim". Səhhakın oğlu xəlifəliyə gəldiyi zamana qədər o zərbəni unutmadı və sonradan onu şəhərlərdən birinə vali təyin etdi".

[2] "Əhzab" surəsi, ayə 19.

[3] Məqsəd Səhhakın oğludur. Onun barəsində hədis uydurulub ki, guya Şeytan onu gördükdə uzaq qaçır.

[4] Ehtimal ki, İmam (ə) bu sözü ilə Əşəsi nəzərdə tutur.

## Ümmətə xəlifə olma

Təəccüblüdür! Bu ümmətin cahilləri, azmışları, insanları oda aparan rəhbər və başçıları təəccüb doğurur! Çünki onlar Peyğəmbərin (s) dəfələrlə belə dediyini eşidiblər: "Heç bir ümmət aralarında daha elmli (ə`ləm) bir şəxs olduğu halda işlərini başqasına həvalə etməz. Əks təqdirdə tərk etdiklərinə qayıdanadək işləri rəzilliyə doğru gedər". Camaat məndən əvvəl işlərini üç nəfərin öhdəsinə qoydu. Onlardan heç biri Quranı toplamadı, heç biri Allahın kitabını və Peyğəmbərin sünnəsini bildiyini iddia etmədi. Halbuki Allahın kitabı və Peyğəmbərin sünnəsini bilməkdə mənim ən elmli, Allahın kitabını ən yaxşı oxuyan və ən yaxşı anlayan, Allahın hökmü ilə ən yaxşı hökm verən olduğumu qəti olaraq bilirdilər.

O üç nəfərdən heç birinin Peyğəmbərlə (s) bağlı keçmişləri yox idi və qarşılaşdığı çətinliklərə Peyğəmbərlə birgə sinə gərmədilər. Onlar qorxudan, tamahdan və dünyaya olan bağlılıqlarından nə bir ox və ya mizraq atdılar, nə də qılınc qaldırdılar.

Halbuki Peyğəmbərin (s) şəxsən döyüşdüyünü, Ubey ibn Xələflə Müsəccə ibn Ovfu öldürdüyünü[1], insanların ən şücaətlisi, çətinliklərdə və bəlalarda ən öndə olduğunu bilirdilər.

Onlar yəqin olaraq bilirdilər ki, aralarında yerimi dolduracaq heç kəs yoxdur. Heç kim mənim kimi igidlərlə döyüşə getmir və qalaları fəth etmirdi. Peyğəmbər (ə) üz verən hər bir çətinlik, narahatlıq və sıxıntıda: "Qardaşım, qılıncım, mizrağım, qəm və kədərimi üzümdən aparan Əli haradadır?" deyər və məni önə çəkərdi. Mən də irəli keçər və canımı ona fəda edərdim. Allah mənim əlimlə üzündəki narahatlığı və sıxıntını aradan aparardı. Mənə bu imtiyaz və tofiqi bəxş etdikləri üçün Allahın və Peyğəmbərinin (s) üzərimdə minnətləri var.

## Dində heç bir qabaqcıllığı olmayanlar

Adını çəkdiyin kəslərdən bəzisi nə çətinliyə düşdü, nə bir qabaqcıllığı var, nə bir igidlə vuruşdu və nə də bir dəfə istisna olmaqla başqa fəth və zəfər əldə etdi. Fərarilik edir, düşmənə arxa çevirir və yoldaşlarını qorxudurdu. Onlar da onu qorxudurdular. Dəfələrlə döyüşdən qaçdı. Asayiş və qənimət zamanı gəldikdə isə dili açılır, halı dəyişir, əmr verir və qadağa qoyurdu.

Xəndək günü Əmr ibn Əbdu Vədd onu adı ilə çağırdı. O da geriyə çəkildi və dostlarının arxasında gizləndi. Peyğəmbər onun ürkdüyünü görüb gülümsədi və buyurdu: "Həbibim Əli haradadır? İrəli gəl, ey həbibim! Ey Əli!"

---

[1] Bu hadisə Uhud döyüşündə baş vermişdir. "Buharul-ənvar" kitabının 18-ci cildinin 68, 69, 74 və 95-ci səhifələrdəki hədislərə müraciət edə bilərsiniz.

## İslamdan sonra da bəzilərinin bütə ibadət etməsi

Xəndək günü həmrəy olduğu və müqavilə imzaladığı dörd dostuna dedi: "Düşmən aşağımızdan və yuxarımızdan bizə hücum etdiyi zaman Muhəmmədi və yanındakıları onlara versək salamatda qalarıq". Necə ki, Uca Allah da buyurur: ***"O zaman onlar üstünüzə həm yuxarı, həm də aşağı tərəfdən hücum etmiş və (qorxudan) gözünüz hədəqəsindən çıxıb ürəyiniz ağzınıza gəlmişdi. Allah barəsində də müxtəlif fikirlərə düşmüşdünüz. Məhz onda (Xəndək savaşında) möminlər imtahana çəkilmiş (kimin həqiqi mömin, kimin münafiq olduğu bəlli olmuş) və möhkəm sarsılmışdılar. O zaman münafiqlər və qəlblərində mərəz (şəkk) olanlar: "Allah və Onun peyğəmbəri bizə yalan vəd etmişdir. (Biz qələbə çala bilməyəcəyik)" -deyirdilər".***[1] Dostu ona demişdi: "Xeyr! Amma böyük bütümüzü götürüb ona ibadət edərik. Bizlər İbn Əbu Kəbşənin[2] qalib gəlməsindən amanda deyilik. Birdən qalib gəlsə, məhv olarıq. Bu büt bizimlə olsun. Əgər Qüreyş qalib gəlirsə, o zaman bu bütə zahirdə ibadət edər, əvvəlki dinimizdən dönmədiyimizi onlara bildirərik. Əgər İbn Əbu Kəbşənin dövləti geri qayıtsa, gizlində bu bütə ibadət etməyə davam edərik".

Cəbrayıl yerə enib bunu Peyğəmbərə (s) xəbər verdi. Həmçinin mən Əmr ibn Əbdü Vəddi öldürdükdən sonra Peyğəmbər (s) bunu bildirdi, Yaşlı səhabə və Səhhakın oğlunu çağırıb dedi: "Cahiliyyə dövründə neçə bütə ibadət etdiniz?" Dedilər: "Ya Muhəmməd! Cahiliyyə dövründə baş verənlərə görə bizi qınama". Peyğəmbər (s) buyurdu: "Bəs bu gün neçə bütə ibadət etdiniz?" Dedilər: "Səni haqq peyğəmbər olaraq göndərənə and olsun ki, dinini aşkar qəbul etdiyimiz gündən bəri Allahdan başqasına ibadət etmədik".

Peyğəmbər (s) buyurdu: "Ya Əli! Qılıncını götür, filan və filan yerə get. Bunların ibadət etdikləri bütü çıxar və sındır. Əgər bir kəs səninlə büt arasına girmək istəsə, boynunu vur!"

Hər ikisi Peyğəmbərin (s) qarşısında yerə döşənib ayaqlarına sarıldılar və dedilər: "Bunun üstünü ört, Allah da səni örtsün!" Mən onlara dedim: "Allahın və Peyğəmbərinin qarşısında bir daha Allahdan başqasına ibadət etməyəcəyinizə və heç bir şeyi Ona şərik qoşmayacağınıza zəmanət verin!" Bunu etməyəcəklərinə dair Peyğəmbərə (s) söz verdilər.

Gedib bütü olduğu yerdən çıxardım, üzünü və əllərini parçaladım və ayaqlarını sındırdım. Sonra da Peyğəmbərin yanına qayıtdım. Allaha and olsun, öldükləri ana qədər bunu onların üzlərindən oxuyurdum!

---

[1] "Əhzab" surəsi, ayə 10-12.

[2] Məqsəd Peyğəmbərdir (s).

## Bəzilərinin imam Əli (ə) barədə olan dəlillərilə ənsara qarşı dəlil göstərməsi

Peyğəmbər (s) vəfat etdikdə Səhhakın oğlu və yoldaşları gedib ənsar qarşısında mənim haqqımda olanlarla dəlil göstərdilər. Əgər doğru söylədilərsə və iddialarında doğru idisə... Onların dəlili: özlərinin və Peyğəmbərin (s) Qüreyşdən olması, bu səbəbdən xəlifəliyə daha layiq olmaları idi. Deməkdir, kim Peyğəmbərə (s) daha yaxın idisə, xəlifə olmağa da o daha layiq idi. Elə isə mənə öz haqqımla zülm etdilər. Əgər batil dəlillərlə mübahisə etdilərsə, bu zaman ənsarın haqqı ilə onlara zülm ediblər. Allah bizim haqqımızla bizə zülm edənlər və camaatı boynumuza çıxaranlar arasında Özü hökm versin!

## Ümmətin onları azdıranlarla imtahanı

Təəccüblüdür ki, insanları Rəblərinin yolundan çıxaran və dinlərindən döndərən kəslərin məhəbbəti ümmətin qəlblərini sirab etdi!

Allaha and olsun, bu ümmət qiyamətə qədər torpaq üstündə dayanıb başlarına kül töküb Allah dərgahına yalvarıb-yaxarsa və qiyamətə qədər ümməti azdıran, Allahın yolundan çıxaran, cəhənnəmə aparan, onları Allahın qəzəbinə düçar edən və Allahın əzabını onlara vacib edən kəslərə lənət etsələr, yenə də bu işdə qüsurlu qalarlar.

## Həqiqətləri bəyan etməkdən Əmirəl-möminini (ə) nə çəkindirir?

Bu haqqı dilə gətirən, doğru danışan, Allahı və Peyğəmbəri tanıyan şəxs onların gətirdikləri bidətləri, qaydaları və yenilikləri camaatın artıq adətə çevirdiyi halda dəyişdirməsindən qorxur. Kim bunu etsə camaat ona qarşı müxalif çıxar, ondan uzaqlaşar, onu alçaldar və haqq olmasına baxmayaraq ətrafından dağılarlar. Lakin onların bidətlərinə əməl etsə, onları qəbul eləsə, bəzəsə və yaxınlaşsa onu sevərlər, şərəf və fəzilət bəxş edərlər.

Allaha and olsun, əgər bu ordunun arasında Allahın Peyğəmbərə nazil etdiyi həqiqəti uca səslə aşkar etsəm, camaatı ona çağırsam və Peyğəmbərdən (s) eşitdiyim kimi şərh və təfsir etsəm, azsaylı, bu haqqa görə alçalan və zəlil olanlardan başqa heç kəs qəbul etməz. Bundan (alçalmaqdan, zəlil və rəzil vəziyyətə düşməkdən) qorxuya düşənlər isə məndən ayrılarlar.

Əgər Peyğəmbərin (s) məndən aldığı söz və Peyğəmbərdən (s) eşitdiklərim olmasaydı, edəcəklərini əvvəlcədən mənə bildirməsəydi haqqı aşkar bəyan edərdim. Amma Peyğəmbər (s) buyurdu: “Ey qardaşım! Allah bir bəndəsinə

məcbur qaldığı təqdirdə hər şeyi halal etmiş və mübah qərar vermişdir”. Eləcə də belə dediyini eşitdim: “Təqiyyə Allahın dinindəndir və təqiyyəsi olmayanın dini də yoxdur””. Sonra İmam (ə) mənə üzünü tutub dedi:

*Onları özümdən uzaq tutmaqla rahat buraxıram,*
*Üçdə ikisi məntəqədən (dünyadan), üçdə biri məndəndir.*
*Rəbbim əvəzimi verib məni üzrlü bilər.*

## Əmirəl-mömininin (ə) ən xəbis insanlarla imtahanı

İmam Əli (ə) iki nəfəri[1] hakim təyin edib göndərərkən onlara dedi: “Nəticəsi mənim boğazımı kəsmək də olsa, Allahın kitabı və Peyğəmbərin sünnəsilə hökm verin! Çünki camaatın başına bunların gəlməsinə zəmin hazırlayanların niyyətləri pisdir”.

Ənsardan bir nəfər dedi: “Sənə görə yaranan bu parçalanma nədir? halbuki heç kimin işləri sənin qədər düzənli deyildi! Bəs bu ixtilaf və parçalanma nədir?!” Əli ibn Əbu Talib (ə) dedi: “Mən sənin tanıdığın həmin yoldaşınam! Amma Allahın məxluqlarının ən pislərinə mübtəla oldum. Onlardan bir şey istədiyimdə etiraz edirlər. Əgər onların istədikləri kimi rəftar etsəm, ətrafımdan dağılırlar”.

[1] Siffin savaşındakı hakimlərdən bəhs edir. Bu hadisə Müaviyə ordusunun Quranı nizələrin ucuna keçirdiyi vaxt baş vermiş və müzakirə üçün hər iki tərəfdən hakim təyin edilmişdi.

# HƏDİS 16

## Hz İsanın (ə) Peyğəmbər (s), Məsum İmamlar (ə) və zəlalət imamları barədə xəbərləri

Aban Süleymin belə dediyini nəql edir: "Möminlərin əmiri (ə) ilə birlikdə Siffindən gəlirdik. Ordu bir xristian monastırının yaxınında dayandı. Monastırdan əlində bir kitabla gözəl, yaraşıqlı və gözəl qamətli yaşlı bir kişi çıxıb bizə tərəf gəldi. Möminlərin əmirinin (ə) yanına çatıb ona Peyğəmbərin (s) xəlifəsi ünvanı ilə salam verdi. Əli (ə) ona dedi: "Xoş gördük, ey qardaşım Şəmun ibn Həmun! Allah sənə rəhm eləsin. Halın necədir?"

Kişi dedi: "Yaxşıyam, ey Möminlərin əmiri, müsəlmanların ağası və Aləmlərin Rəbbinin rəsulunun vəsisi! Mən İsa ibn Məryəmin vəsisi Şəmun ibn Yuhənnanın nəslindənəm. O, İsa ibn  Məryəmin on iki həvarisindən ən üstünü, ən çox sevdiyi və ən fəzilətlisi idi. İsa ibn Məryəm ona vəsiyyət etdi. Kitabını, elmini və hikmətini ona miras qoydu. Ailəsi də daim İsanın dininə sadiq qaldı. Ayinini icra etdilər, əsla kafir olmadılar və dəyişmədilər.

## Hz İsanın (ə) kitabında Peyğəmbər (s) və on iki İmam (ə)

Mənim yanımda bir kitab var. İsa ibn Məryəmin imlası və atalarımın əlyazması ilə yazılıb. Orada özündən sonra hər kəsin, edəcəkləri, hər bir hakimdən sonra kimin gələcəyi, onların nə qədər hakimiyyətdə olacaqları, onların hər birinin dövründə baş verəcəklər yazılıb. Ta ki, ərəblərdən və İbrahim Xəlilullahın oğlu İsmailin nəslindən Məkkə yaxınlığındakı Təhamə adlanan bir yerdən Allah bir şəxsi peyğəmbər göndərəcək. Onun adı Əhməd olacaq. O, açıq üzlü, gözəl gözlü və qaşları bitişikdir. Dəvəsi, eşşəyi, əsası, tacı (yəni əmmaməsi) və on iki adı vardır.

Sonra peyğəmbər seçildiyi zamanı, doğumunu, hicrətini, onunla döyüşən kəsləri, ona kömək edəcək şəxsləri, ona düşmən olanları, nə qədər ömür yaşayacağını, ümmətinin özündən sonra təfriqə və ixtilafa düşəcəkləri şeyləri o kitabda qeyd etmişlər.

Həmçinin orada Allahın İsa ibn Məryəmin (göydən) endirəcəyi günədək gələcək olan hidayət və zəlalət imamının adı da qeyd edilib.

O kitabda İbrahimin oğlu İsmailin nəslindən olan on üç nəfərin[1] adları da zikr edilmişdir. Onlar Allahın məxluqlarının ən yaxşıları və Onun ən çox sevdiyi şəxslərdir. Allah onların dostuna dost və düşmənlərinə düşmən olar. Onlara itaət edən doğru yolu tapar və onlara üsyan edən yoldan azar. Onlara itaət Allaha itaətdir və onlara qarşı çıxmaq Allaha qarşı çıxmaqdır.

Onların adları, nəsəbləri, vəsfləri, hər birinin nə qədər yaşayacağı, onlardan neçəsinin öz dinini qövmündən gizləyəcəyi, neçəsinin dinini izhar edəcəyi, kimin hökumət əldə edəcəyi və Allah (göydən) İsanı (ə) endirəcəyi zamana qədər onlara rəhbərlik edəcəyi orada yazılıdır. İsa (ə) onun arxasında namaz qılacaq və belə deyəcək: "Siz elə İmamlarsınız ki, sizin önünüzə keçmək heç kimə caiz deyil". (İmam) İsanın (ə) arxasından önə çıxıb namazı qıldıracaq. İsa (ə) isə birinci cərgədə dayanacaq. Onların birincisi ən üstünləridir. Sonuncularına isə onların və onlara itaət edərək hidayətləri ilə doğru yolu tapanların mükafatı qədər əcri vardır.

## Hz İsanın (ə) kitabında yazılanlar

"Rəhman və Rəhim olan Allahın adı ilə! Əhməd Allahın peyğəmbəridir. Onun adları Muhəmməd, Yasin, Taha, Nun, Fateh, Xatəm, Haşir, Aqib və Mahidir. O, Allahın peyğəmbəri, dostu, həbibi, seçdiyi, əmini və xeyirlisidir. Allah onun səcdə edənlərin belində (peyğəmbərlərin belində nəsildən-nəsilə) ötürüldüyünü görüb. Onunla rəhmətilə danışar. Allah nə vaxt zikr edilsə o da yad edilər. O Allahın yanında məxluqatın ən hörmətlisi və ən çox sevilənidir. İstər müqərrəb mələklər, istər Adəmdən bəri mürsəl peyğəmbərlər olsun, Allah ondan daha uca və daha sevimli bir şey yaratmamışdır. Allah qiyamət günü onu ərşinin üzərinə oturtacaq və hər kimə şəfaət etsə qəbul edəcək. Onun adı və zikrilə kitabların anasında – Lövhü-Məhfuzda qələm hərəkət etmişdir. Muhəmməd Allahın elçisidir.

Sonra onun qardaşı qiyamətdə - böyük məhşər (toplanma) günü bayrağın sahibidir. O, peyğəmbərin qardaşı, vəsisi, vəziri və ümməti arasında xəlifəsidir. Peyğəmbərdən sonra Allahın yanında məxluqların ən sevimlisi möminlərin vəlisi olan Əli ibn Əbu Talibdir.

Sonra on ikilərdən birincisinin övladları olan on bir imamlar gəlir. Onlardan ikisi Harunun iki oğlu Şəbər və Şübeyr ilə adaşdırlar. Doqquzu bunlardan kiçiyinin övladlarıdır və o (kiçiyi) Hüseyndir. Onlar biri digərinin ardınca gələcəklər. Onların sonuncusunun arxasında İsa ibn Məryəmin namaz qılacaq".[2]

---

[1] Yəni Peyğəmbərimiz (s) və on iki İmamlar (ə).

[2] Kitabda yazılanlar burada başa çatdı.

Bu kitabda onlardan hökumət əldə edənlərin, dinlərində təqiyyə və ya izhar edənlərin də adları yazılmışdır. Dinini ilk zahir edəcək şəxs Allahın bütün şəhərlərini ədalətlə dolduracaq və şərqlə qərb arasında hakimiyyət qurub Allah onu bütün dinlərə qalib edəcəyi şəxsdir.

(Muhəmməd (s)) Peyğəmbər göndərildiyi zaman atam həyatda idi. Onu təsdiqlədi, iman gətirdi və onun peyğəmbərliyinə şahidlik etdi. Atam ayağa qalxmağa gücü olmayan yaşlı bir kişi idi. O ölüm yatağında ikən mənə dedi: "Bu kitabda adı və xüsusiyyətləri qeyd edilən Peyğəmbərin vəsisi və xəlifəsi sənin (monastırının) yanından keçəcək. Bu zəlalət imamlarından və atəşə dəvət edənlərdən filankəs, filankəs və filankəs öldükdən sonra olacaq. Onların adları, qəbilələri, xüsusiyyətləri və hər birinin nə qədər hakimiyyətdə qalacaqları bu kitabda yazılıdır. (O vəsi) Sənin yanından keçdikdə yanına get, ona beyət elə və onunla birgə düşmənlərilə vuruş. Çünki onunla birlikdə cihad etmək Muhəmmədlə birlikdə cihad etmək kimidir. Ona dost olmaq Muhəmmədə dost olmaq və ona düşmən kəsilmək Muhəmmədə düşmən kəsilmək kimidir.

## Hz İsanın (ə) kitabında qəsbkar zəlalət imamları haqqında xəbər

Ey Möminlərin əmiri! Bu kitabda Peyğəmbərin qəbiləsi Qüreyşdən olan on iki zəlalət imamının onun Əhli-Beytinə düşmənçilik edəcəkləri, haqlarını qəsb edəcəkləri, sürgünə göndərəcəkləri, məhrum qoyacaqları, onlardan uzaqlaşacaqları və onları qorxudacaqları yazılmışdır. Onların bir-bir adları, vəsfləri, nə qədər zaman və necə hakimiyyətdə olacaqları, onların tərəfindən (Əhli-Beytin) övladlarının, dostlarının və şiələrinin nə qədər qorxudulacaqları, nə bəlalar görəcəkləri və məruz qalacaqları qırğınlar bu kitabda yazılıdır. Həmçinin Allahın sizinlə onların, dostlarının və köməkçilərinin vəziyyətlərini necə dəyişəcəyi, onların siz Əhli-Beyt tərəfindən qarşılaşacaqları rüsvayçılıq, savaş, bəla, qırğın və qorxuları bu kitabda yazılıdır".

Sonra dedi: "Ey Möminlərin əmiri! Əlini aç, sənə beyət edim. Mən Allahdan başqa ilahın olmadığına, Muhəmmədin Onun qulu və elçisi olduğuna, sənin Peyğəmbər arasında xəlifə, vəsi, Allahın məxluqları üzərində şahid və yer üzündə höccət olduğuna şahidlik edərəm. İslam Allahın dinidir və mən İslama müxalif olan hər bir dindən uzağam. Çünki İslam Allahın Özü üçün seçdiyi və dostları üçün razı olduğu dindir. Bu, İsa ibn Məryəmin və ondan əvvəlki nəbi və peyğəmbərlərin, həmçinin atalarımın dinidir. Mən sənin və onun dostlarını sevirəm, sənin düşmənlərindən uzaq olduğumu bildirirəm. Sənin övladların-

dan on bir imamı sevirəm və onların düşmənlərindən, müxaliflərindən, onlardan uzaqlaşanlardan, haqlarını qəsb edənlərdən və onlara zülm edənlərdən - birincisindən sonuncusunadək – uzaq olduğumu bildirirəm”. Sonra əlini uzatdı və Əlidə (ə) beyət etdi.

Ardınca Möminlərin əmiri (ə) ona dedi: “Kitabını mənə ver”. O da kitabı verdi. Əli (ə) səhabələrindən birinə buyurdu: “Bu adamla birlikdə get, sözlərini anlayacaq və kitabdakı məlumatları sənin üçün aydın bir ərəbcə ilə yazacaq tərcüməçi tap”.

Kitabı gətirdikdə Əli (ə) oğlu Həsənə (ə) dedi: “Oğlum! Sənə verdiyim kitabı gətir”. Həsən (ə) kitabı gətirdi. Əli (ə) dedi: “Oğlum sən bu kitabı oxu! Ey bu kitabdakılardan xəbərsiz filankəs! Sən də Peyğəmbərin (s) imlası və mənim öz xətimlə yazdığım bu kitaba bax!”

İmam Həsən (ə) kitabı oxudu. Bir hərfi belə ondan (kitab) fərqli deyildi. Sözlərdə önə keçmə və təxir yox idi (Sözlərin yerləri belə eyni idi). Sanki bir nəfər tərəfindən iki ayrı şəxsə imla edilmişdi!

Möminlərin əmiri (ə) Allaha həmd və səna edib dedi: “Allaha həmd olsun, əgər O istəsəydi ümmət ixtilafa düşməz və bölünməzdi. Həmd olsun o Allah ki, Şeytanın dostlarının və tərəfdarlarının sözlərini alçaltdığı və susdurduğu zamanda məni unutmadı və mənim məsələmi tərk etmədi, zikrimi Özünün və dostlarının yanında susdurmadı”.

Süleym deyir: “Bu hadisəyə görə imam Əlinin (ə) orada olan şiələri fərəh hissi keçirdilər və şükür etdilər. Həmçinin bu hadisə Əlinin (ə) ətrafında olan bəzi kəslərin narahatlığına səbəb oldu. Belə ki, narahatlıqları üzlərindən oxunur və rəngləri dəyişirdi”.

# HƏDİS 17

## İmam Əlinin (ə) fitnələrdən çəkinmək barədə xütbəsi

Aban Süleym ibn Qeysdən belə dediyini nəql edir: "Möminlərin əmiri (ə) minbərə qalxıb Allaha həmd və səna etdikdən sonra dedi:

Ey camaat! Mən fitnənin gözünü çıxaran şəxsəm və məndən başqasının buna cürəti çatmaz. Allaha and içirəm ki, əgər sizin aranızda olmasaydım Cəməl, Siffin və Nəhrivan əhli ilə əsla kimsə savaşmazdı. Allaha and içirəm ki, əgər əməli etməyi tərk edib yalnız danışmaqla kifayətlənməsəydiniz, döyüşdüyümüz kəslərin zəlalətdə olduqlarına və bizim də haqq üzərində olduğumuzu bildiklərinə Allahın Öz Peyğəmbərinin (s) dililə hökm verdiyini sizə xəbər verərdim.

Məni itirməzdən əvvəl istədiyinizi soruşun. Allaha and olsun, mən göylərin yollarını yer üzünün yollarından daha yaxşı tanıyıram. Möminlərin rəhbəri, öndə olanların birincisi, təqvalıların imamı, vəsilərin sonuncusu, peyğəmbərlərin varisi və aləmlərin Rəbbinin xəlifəsi mənəm. Qiyamət günü ümməti hesaba çəkən, Allah tərəfindən Cənnət və Cəhənnəm əhlini ayıran mənəm. Mənəm ən böyük Siddiq və haqla batili bir-birindən ayıran Faruq. Sülblərin, bəlaların (imtahanların) elmi və gözəl bəyan mənim yanımdadır. Nə haqqında, harada və kimə endiyini bilmədiyim heç bir ayə yoxdur.

Ey insanlar! Məni itirmənizə az qalıb. Mən sizdən ayrılacaq, ölüb və ya öldürüləcəyəm. Çox keçmədən bu ümmətin ən bədbəxti (saqqalına işarə edərək) bunu yuxarıdan qana bulayacaq. (Yəni saqqalını başının qanına boyayacaq).

Toxumu yaran və nəfəsi yaradana and olsun ki, qiyamət gününədək sayları üç yüz və ya daha artıq olan elə bir dəstə yoxdur ki, onların rəhbərini və başçılarını, carçılarını tanımayım. Həmçinin binaların dağılmasını, qiyamət gününə qədər nə vaxt sökülüb və nə vaxt yenidən tikiləcəklərini sizə xəbər verərəm.

Bir nəfər ayağa qalxıb dedi: "Ey Möminlərin əmiri! Bizə bəlalardan xəbər ver".

Əli (ə) dedi: "Sualı verən şəxs əvvəlcə düşünməli və soruşulan şəxs də cavabdan əvvəl bir az dayanmalıdır. Sizin ardınızdan narahat və şübhəli işlər, qorxulu və insanı aciz buraxan bəlalar olacaq.

Toxumu yaran və küləyi yaradana and olsun ki, əgər məni itirsəniz və bu işlər sizə üz versə sual soruşanların əksəriyyəti başlarını əyib susacaq və so-

ruşanların əksəriyyətinin başı qarışmış olacaq. O zaman müharibələriniz çıxar, dişlərini göstərər, ayaqları üzərinə qalxar, dünya başınıza bəla olar. Allah Bəqiyyətul-əbrar (Yaxşılardan qalmış) üçün fəthi və zəfəri gətirənə qədər belə davam edər".

Bir başqa şəxs ayağa qalxıb dedi: "Ey Möminlərin əmiri! Bizə fitnələrdən danış?"

Əli (ə) dedi: "Fitnələr insana üz tutduqda onu şübhəyə salar və aradan getdikdə şübhələrdən pərdələri qaldırar. Fitnələrin dəniz dalğaları kimi dalğaları və küləyin tufanı kimi tufanları vardır! Bir şəhərə üz tutub, digərindən yan keçərlər. Bədr günü bayraqlar olan dəstəyə baxın. Onlara yardım edin ki, yardım görəsiniz və mükafatlandırılıb üzrlü hesab ediləsiniz!

## Bəni-Üməyyənin fitnəsi fitnələrin ən qorxulusudur

Bilin və agah olun ki, məndən sonra qarşılaşacağınız fitnələrin ən qorxulusu Bəni-Üməyyənin fitnəsidir. Kor, kar və qaranlıq bir fitnədir. Onun fitnəsi ümumi, bəlası xüsusidir. Hər kim bəsirətli olsa fitnə ona toxunar və kim kor olsa, yanından keçib gedər. Onların batil əhli haqq əhlinə qalib gələr. Yer üzünü onların dinə gətirdikləri bidətlər, zülm və cinayətləri doldurar. Onun qəddarlığını birinci yıxan, təməllərini sarsıdan və sütunlarını parçalayan və zalımlara öldürücü zərbəni vuran aləmlərin Rəbbi olan Allahdır. Bilin ki, məndən sonra Bəni-Üməyyəni dişlərilə didib əziyyət verən, əllərilə vuran, ayaqlarıyla tapdayan və südünü sağmağa icazə verməyən itaətsiz bir dəvə kimi üstünüzdə rəhbər görəcəksiniz.

Allaha and içirəm ki, onların fitnəsi sizlərdən birinin özünə yardımı pis xasiyyətli kölənin sahibinə yardımı kimi olana qədər davam edəcək. Elə bir kölə ki, sahibi yox ikən onu söyər və yanında olduqda ona itaət edər. Allaha and içirəm ki, qaçıb ulduzların altına dağılsalar belə, Allah sizin üçün pis bir gündə onları bir yerə toplayacaq".

## Bəni-Üməyyədən sonrakı fitnə

Soruşan şəxs dedi: "Ey Möminlərin əmiri! Bundan sonra camaat arasında vəhdət olacaq?"

Əli (ə) dedi: "Yaxında dağınıq bir cəmiyyət halında olacaqsınız. Verdikləriniz, həcləriniz və səfərləriniz bir yerdə olacaq, amma ürəkləriniz bir-birindən ayrılacaq".

Bir nəfər dedi: "Ürəklər necə bir-birindən ayrı olacaq?" Əli (ə) barmaqlarını bir-birinə birləşdirib, "Bu şəkildə" dedi və buyurdu: "Hərc-mərclik yaradıb bu

onu, o da bunu öldürəcək. Yerdə cahilliyə dövrünün alçaqları qalacaq. O zamanda nə hidayət nuru və nə də elm görünməyəcək. Biz Əhli-Beyt həmin fitnədən nicat tapmışıq və müdafiə üçün insanları özümüzə tərəf dəvət etməyəcəyik".

Həmin kişi dedi: "Ey Möminlərin əmiri! Həmin zaman gəldikdə nə edim?" Əli (ə) buyurdu: "Peyğəmbərinizin Əhli-Beytinə baxın. Dayansalar sizdə dayanın, sizdən yardım istəsələr onlara yardım edin ki, özünüz də yardım görəsiniz və üzrlü olasınız. Çünki Əhli-Beyt sizi hidayətdən çıxarmaz və məhvə dəvət etməz. Önlərinə keçib onları geridə qoymayın, yoxsa bəlalar sizi yerin dibinə soxar və düşmənlər sizin bədbəxtliyinizə sevinər".

## Allah fitnələrin kökünü İmam Mehdi (ə) ilə kəsəcək

Kişi dedi: "Ey Möminlərin əmiri! Ondan sonra nələr olacaq?" Əli (ə) buyurdu: "Allah Əhli-Beytimdən bir nəfər vasitəsilə bəlanı uzaqlaşdıracaq. Sonra onları alçaldacaq, dolu qədəhi onlara içirəcək, heç bir imkan verməyəcək və qılıncdan başqa heç bir vasitə tanımayan bir şəxsə həvalə olunacaqlar. Hərcmərclik olacaq. Səkkiz ay boyunca qılıncını kürəyində daşıyacaq. Bu vəziyyət Qüreyşin dünya və dünyada olanlar qarşılığında mənə bir məqam vermələrini qəbul etməm, bizə çatmasına maneə yaratdıqları bəzi şeyləri geri almağım və onlarda olan bəzi şeyləri qəbul etməyim üçün bir dəfə də olsun bizi görməyi istəmələrinə qədər davam edəcək. Ta ki, belə deyəcəklər: "Bu (Mehdi) Qüreyşdən deyil. Əgər Qüreyşdən və Fatimənin övladlarından olsaydı, bizə acıyar və rəhm edərdi".

Allah onu Bəni-Üməyyəyə qarşı qaldıracaq. O da onları ayaqlarının altına alıb dəyirman daşı kimi əzəcək. ***"Lənətlənmişlər! Harada ələ keçsələr, mütləq tutulub öldürülərlər. Allahın öncə gəlib-getmişlər haqqında qayda-qanunu belədir. Sən Allahın qoyduğu qayda-qanunda əsla dəyişiklik görməzsən!".***[1]

## Əhli-Beyt (ə) fitnələrdən pənah yeridir

Zəlaləti üyüdən bir dəyirmanın olması labüddür. Onu üyütdüyü zaman mehvərində qərar tutar. Bilin ki, onun üyüdülməsi arınmasıdır. Arınması isə sonudur. Onun əzilməsi Allahın üzərinə düşər.

Bilin ki, mən nəslimin ən təmizi, soyumun ən pakıyam, kiçik ikən camaatın ən helmlisi və böyük ikən onların ən elmlisiyəm. Hidayət və haqq bayrağı bizimlədir. Ondan önə keçən dindən çıxar, onu alçaldan məhv olar və ona sarılan haqqa qovuşar.

---

[1] "Əhzab" surəsi, ayə 61-62.

Biz elə bir Əhli-Beytik ki, elmimiz Allahın elmidir, sözlərimiz Allahın doğru hökmündəndir və dinlədiklərimiz də doğru sözlərdir. Əgər bizə tabe olsanız bəsirətimizlə hidayət taparsınız. Bizdən üz çevirsəniz, Allah sizi bizim əllərimizlə və ya istədiyi şeylərlə cəzalandırar.

Biz islamın üfüqüyük. Aramla hərəkət edən bizə çatar və tövbəkar bizə qayıdar.

Allaha and olsun ki, əgər tələsməsəydiniz və haqq təxirə düşməsəydi ərəb və qeyri-ərəb gənclər barəsində sizə xəbərlər verərdim. Vaxtı yetişmədən Muhəmmədin Əhli-Beytindən elmi soruşmayın! Çətinlikdə olduqları halda onlardan pul diləyib, sonra da onları xəsislikdə ittiham etməyin. Belə ki, onlarda xəsislik əsla yoxdur.

Evə maraq yönəldən şəxslər kimi olun. Tələskən və ifşa edən olmayın. Haqq əhlindən olun, onunla tanının və bir-birinizi onunla tanıyın. Allah məxluqları öz qüdrəti ilə xəlq etdi və elmilə onlar arasında fəzilətlər yaratdı. Onların arasından insanlara höccəti tamamlamaq üçün Özünə bəndələr seçdi. İtaəti onların hörmətlilərinin, Özünə qarşı günah və üsyanı isə rəzillərinin əlaməti etdi. Əbədi əminlik evində itaət edənlərin savabını üzlərində bir nura çevirmişdir ki, əhlinə heç qorxu yoxdur. Özünə qarşı günah və üsyan edənlərin əzabını isə od olaraq qərar vermişdir ki, həmin od qəzəbilə alovlanar. **“Allah onlara zülm etməmişdir, əksinə, onlar özlərinə zülm etmişlər”.**[1]

Ey insanlar! Biz elə bir Əhli-Beytik ki, Allah bizim vasitəmizlə yalanı doğrudan ayırar, bizim vasitəmizlə çətin günlərə fərəc verər, bizim vasitəmizlə zillət boyunduruğunu boynunuzdan çıxarar. Allah (hər şeyi) bizimlə açar və bizimlə bitirər. Bizdən və düşmənlərimizdən, bizim və onların hidayətindən, bizim və onların rəftarından, bizim və onların ölümündən ibrət götürün! Onlar acgözlükdən, yara və şişdən ölürlər. Biz isə qarın ağrısı (zəhərlə), qətl və şəhidliklə ölürük”.

## Fitnələr vaxtı Ali-Muhəmmədin (ə) bəlaları

Sonra oğullarına baxıb dedi: “Ey oğullarım, kiçikləriniz böyüklərinizə hörmət eləsin və böyükləriniz kiçiklərinizə qarşı mərhəmətli olsun. Səfeh və cəfakar cahillər kimi olmayın, Onlar Allah barədə yəqinə çata bilməzlər. Şəkildəki yumurtaya bənzərlər. (Heç bir hərəkətləri olmaz).

Vah, hakimiyyətə gələcək xəlifədən Ali-Muhəmmədin çəkəcəyi bəlalara! O qəddar, qudurğan və əyyaşlardır! Məndən sonra xəlifəmi və xəlifəmin xəlifəsini öldürəcəklər.

---

[1] “Nəhl” surəsi, ayə 33.

Allaha and olsun ki, risalətin təbliğini, vədlərin yerinə yetirilməsini, sözlərin bitməsini bildim və səbəblər mənə aşkarlandı. Nəsəbləri bildim və buludlar mənim üçün yağdı. Mələkuta nəzər saldım, heç bir şey məndən gizlədilmədi. Əvvəlkilər mənə gizli qalmadı və heç kim bunda mənimlə şərik olmadı. Rəbbim şahidlərin qalxacağı gün məni şahid qərar verdi. Allah mənim vasitəmlə vədini icra edər və kəlmələrini kamala çatdırar. Mən Allahın məxluqlarına lütf etdiyi nemətiyəm. Mən Allahın Özü üçün razı olduğu İslamam. Bunların hamısı Allahın mənə ehsan etdiyi minnətlərdir və onlarla belimi bükmüşdür.

Öz vilayət əhlini tanımayan heç bir imam yoxdur. Bu Allahın ayəsindədir: ***"Sən yalnız qorxudansan. Hər bir qövmün bir hidayət edəni vardır".[1]"***

Bundan sonra minbərdən endi. Allahın salavat və salamı onun və Əhli-Beytinin üzərinə olsun!

[1] "Rəd" surəsi, ayə 7.

# HƏDİS 18

## Dünyaya meyl etməyin insanın elmində və dinində təsiri

Süleym ibn Qeys deyir: "Əbul-Həsən (ə) hədis söylədi və Peyğəmbərin (s) belə buyurduğunu bildirdi: "İki həris (acgöz) var ki, əsla doymazlar: Dünyaya qarşı həris olan dünyadan, elmə həris olan da elmdən doymaz. Hər kim dünyadan Allahın ona halal etdiyi miqdarla kifayətlənsə, salamat qalar. Hər kim də dünyanı halal olmayan yoldan əldə etsə, həlak olar. Ta ki, tövbə edib qayıtsın! Hər kim elmi əhlindən öyrənsə və öyrəndiklərini tətbiq etsə, nicat tapar. Hər kim də onunla dünyanı əldə etmək istəsə həlak olar və nail olduğu da yalnız dünya əldə etdikləridir (axirətdə heç bir nəsibi olmaz).

Alimlər iki qisimdir: bildiyinə əməl edən alim – o, nicat tapar. Digəri isə bildiyinə əməl etməyən alimdir ki, o da həlak olar. Cəhənnəmdəkilər elminə əməl etməyən alimin ətrafa yayılan pis qoxusundan əziyyət çəkərlər. Cəhənnəm əhlindən ən çox peşmançılıq çəkən və təəssüf edən kəs odur ki, bir bəndəni Allaha tərəf dəvət etsin və həmin bəndə dəvəti qəbul edərək cənnətə girmiş olsun. Halbuki özü Allaha qarşı üsyan əhli olmuş, bildiyinə əməl etməyi tərk eləmiş, istəklərinin arxansınca getmiş və Allaha qarşı işlədiyi günahlara görə nəticədə cəhənnəmə düşmüşdür.

Bunlar ikidir: Biri istəklərə tabe olmaq, digəri uzun arzulara dalmaq. İstəklərə tabe olmaq haqqa mane olar və uzun arzulara dalmaq da axirəti unutdurar.

Dünya üz çevirib getməkdə və axirət isə üzü bizə tərəf gəlməkdədir. Onların hər birinin övladları var. Əgər bacarsanız axirətin övladlarından olun, dünyanın övladına çevrilməyin! Bu gün əməl var, hesab yoxdur. Sabah isə hesab var, əməl yoxdur.

## Fitnələr necə meydana çıxır

Fitnələrin meydana gəlməsinin başlanğıcı istəklərə tabe olmaq və uydurma hökmlərdir. Bu ikisi ilə Allahın hökmlərinə qarşı çıxarlar. Bu hökmlərə görə bəziləri bəzilərini özünə rəhbər bilər və bəziləri də bəzilərindən uzaqlaşarlar. Bilin ki, əgər haqq xalis olsa onda ixtilaf olmaz, əgər batil xalis olsa ağıl sahibinə gizli qalmaz. Amma bir miqdar haqdan və bir miqdar da batildən

götürülüb qarışdırılar və onu birgə hesab edirlər. Bu zaman Şeytan dostlarına müsəllət olur və bizim tərəfimizdən barələrində yaxşılıq təqdir edilənlər nicat tapırlar.

Mən Peyğəmbərin (s) belə dediyini eşitdim: "Uşaqların böyüdüyü və böyüklərin qocaldığı bir fitnə sizi əhatə etdikdə vəziyyətiniz necə olacaq?! Camaat onu vərdişə çevirər və bir sünnə olaraq tətbiq edərlər. Belə ki, nə vaxt ondan bir şey dəyişdirilsə deyərlər: "Camaat çox pis bir iş tutdu".

Sonra bəlalar şiddətlənəcək, uşaqlar əsir düşəcək. Fitnələr, atəş odunu yediyi kimi onları yeyəcək, dəyirman buğdanı üyütdüyü kimi onları üyüdəcək. İnsanlar dindən başqa şeylər üçün fəqihləşəcək, əməl etməmək üçün elm öyrənəcək və axirət əməllərilə dünyanı qazanmağa çalışacaqlar".

## Bidətlər barədə İmamın (ə) sözləri

Sonra üzünü Əhli-Beytindən və tərəfdarlarından bir dəstə insana tutub dedi: "Allaha and olsun ki, məndən əvvəlki imamlar[1] Allahın Peyğəmbərinə (s) bilərəkdən müxalif olan böyük işlərə əl atdılar. Əgər camaatı o işləri tərk etməyə və indiki halından Peyğəmbərin zamanında tətbiq edildiyi şəklinə qaytarmağa məcbur etsəm, əsgərlərim ətrafımdan dağılar, ordumda mən və mənim fəzilət və vilayətimi bilən, buna da yalnız Quran və Peyğəmbərin (s) sünnəsindən dəlilləri olan bir qrup tərəfdarımdan başqa kimsə qalmaz.

Əgər əmr verib İbrahim məqamını Peyğəmbərin (s) qoyduğu yerə geri qaytarsam, Fədəyi Fatimənin varislərinə versəm, Peyğəmbərin (s) "sa'" və "mud" ölçü vahidlərini əvvəlki ölçülərinə çevirsəm, Peyğəmbərin (s) təyin etdiyi torpaqları sahiblərinə versəm, Cəfər ibn Əbu Talibin evini varislərinə qaytarsam və məsciddən ayırsam, məndən əvvəlki hakimlərin haqsız və zülmlə verdikləri hökmlərə yenidən baxsam, Xeybərin ərazilərindən paylananları geri alsam, bölüşdürmə divanını (Divanul-ətiyyəni) ləğv edib Peyğəmbərin (s) bölüşdürdüyü kimi sərvəti zənginlər arasında paylaşdırmasam[2], Bəni-Təğlib uşaqlarını əsir götürsəm[3], camaata Ramazan ayında ancaq vacib namazları cəm halda qılmağı

---

[1] İlk üç xəlifə.

[2] "Divanul-ətiyyə" Beytul-malın bölüşdürülməsi üçün Səhhakın oğlunun əmrilə yaradılmış və hər bir kəsə dərəcəsinə görə pay verilməsini nəzərdə tutan bir qurumdu. Bu cür bölüşdürülmə Peyğəmbərin (s) zamanındakı sünnəyə zidd idi. Peyğəmbər (s) Beytul-malı müsəlmanlar arasında bərabər bölüşdürürdü.

[3] İmam Cəfər Sadiq (s) buyurur: "Bəni-Təğlib xristian bir tayfa idi. Təkəbbür göstərib cizyə verməkdən imtina etdilər. Səhhakın oğlundan onlarda cizyə tələb etməməsi xahiş etdilər və qarşılığında müsəlmanların ödədiklərinin iki misli zəkat ödəyəcəklərini təklif etdilər. Səhhakın oğluda də onların bu təklifini qəbul etdi. "Biharul-ənvar", köhnə çap, c.8, s.287.

əmr eləsəm nə deyərsiniz?! Belə bir vəziyyətdə mənimlə çiyin-çiyinə savaşan ordumda bəziləri "Ey müsəlmanlar!" deyə fəryad qoparıb mənə "Səhhakın oğlunun sünnəsini dəyişdirirsən? Bizə Ramazan ayında könüllü olaraq cəm halda qıldığımız namazı qadağan edirsən?" deyəcəklər. Beləliklə ordumda üsyan çıxaracaqlarından çəkindim.

Peyğəmbərdən sonra ixtilaflar və oda dəvət edən zəlalət imamları tərəfindən bu ümmətdən çəkdiklərim mənə nə qədər də ağır gəlir!

Əgər Peyğəmbərin (s) yaxınlarının haqqını Allahın verilməsini əmr etdiyi şəxslərdən başqasına verməsəm necə?! Halbuki Allah buyurur: ***"Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün iki dəstənin bir-birilə qarşılaşdığı gün (Bədr günü) bəndəmizə (Muhəmmədə) nazil etdiyimizə iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərinin, yoxsullarının və müsafirlərinindir. Allah hər şeyə qadirdir!"***[1] Biz Allahın nəzərdə tutduğu Peyğəmbərin yaxınları, yetimlər, miskinlər və yolda qalmışlarıq. Bunların hamısı məxsusi olaraq bizdəndir. Çünki Allah bizə sədəqədən bir nəsib ayırmamışdır. Peyğəmbərini və bizi camaatın əlindəki çirki yeməkdən daha uca tutmuşdur".

---

Səhhakın oğlunun bu qərarı Peyğəmbərin (s) sünnəsinin ziddinə olaraq dinə daxil etdiyi bidət idi. Burada da Allahın əmrini öz istəyinə görə tapdalamışdı.

[1] "Ənfal" surəsi, ayə 41.

# HƏDİS 19

## Fitnələr barədə hədislər

Aban Süleymdən nəql edir: "Səhhakın oğlunun xəlifəliyi zamanı idi. Əbu Zərr xəstələnmişdi. Səhhakın oğlu xəstənin ziyarətinə gəldi. Möminlərin-əmiri, Salman və Miqdad da Əbu Zərrin yanında idilər. Əbu Zərr Əliyə vəsiyyət etmiş, yazdırmış və onu şahid tutmuşdu.

Səhhakın oğlu çıxdıqdan sonra Əbu Zərin ailəsindən, Bəni-Ğəffardan olan əmisi oğullarından bir nəfər kişi dedi: "Möminlərin-əmiri Səhhakın oğluna vəsiyyət etməyinə nə mane oldu?!"

Əbu Zərr dedi: "Mən möminlərin həqiqi əmirinə vəsiyyət etdim".

Biz qırx nəfər ərəbdən və qırx nəfər də əcəmdən bir yerə toplanmışdıq. Peyğəmbər (s) bizə Əliyə (ə) möminlərin-əmiri olaraq salam verməyimizi əmr etdi. Hazırda "Möminlərin-əmiri" dediyimiz kəs də aramızda idi. O və onu öz yerinə xəlifə edən dəyərsiz dostundan başqa ərəb və əcəmdən heç kəs bu barədə Peyğəmbərə (s) etiraz etmədi. Bu ikisi isə dedilər: "Allahın və Rəsulunun əmirdir?" Peyğəmbər (s) qəzəbləndi və dedi: "Allah şahiddir ki, bəli. Allahın və rəsulunun əmridir. Allah bunu mənə əmr etmiş, mən də sizə əmr edirəm".

Süleym Əlidən (ə) soruşdu: "Ey Əbul-Həsən, Salman və ey Miqdad! Əbu Zərrin sözlərini təsdiqləyirsiniz?" Dedilər: "Bəli, o doğru söyləyib". Dedim: "Dörd ədalətli (şəxs)! Əgər onlardan yalnız biri mənə bunları nəql etsəydi yenə də doğruluğuna şübhə etməzdim. Amma siz dördünüz birdən bəsirətim və nəfsimin rahatlığı üçün tam yetərlisiniz".

Süleym belə soruşduğunu deyir: "Allah sizə mərhəmət göstərsin! Ərəb və əcəmlərdən olan o səksən nəfərin adını mənim üçün saya bilərsinizmi?" Salman tək onların adlarını bir-bir saydı. Əli (ə), Əbu Zərr və Miqdad da: "Salman doğru söyləyir" dedilər.

Salmanın adlarını saydığı şəxslərdən bəziləri bunlardı: Yaşlı səhabə, Səhhakın oğlu, Əbu Übeydə, Muaz, Salim, beş nəfər şura əhli[1], Əmmar ibn Yasir, Səd ibn Übadə, Əqəbə əshabı,[2] Übey ibn Kəb, Əbu Zərr və Miqdad. Digərləri isə əksəriyyəti Bədr döyüşündə iştirak edənlər və ənsardan ibarət

[1] Təlhə, Zübeyr, Əbdür-rəhman ibn Ovf, Sad ibn Əbu Vaqqas.

[2] Kitabdakı 20-ci hədisə müraciət et.

idilər. Onlardan: Əbu Heysəm, Xalid ibn Zeyd, Əbu Əyyub, Üseyd ibn Hüzeyr və Bəşir ibn Səid.

Süleym deyir: "Demək olar ki, Salmanın adlarını çəkdiyi şəxslərin hamısı ilə görüşdüm və təklikdə onlardan bu barədə soruşdum. Onlardan bəziləri susmağı üstün tutub və mənə bir cavab verməyib həqiqəti gizlətdilər. Bəziləri isə hadisəni nəql edərək dedilər: "Bir fitnə bizə üz tutdu, qəlbimiz, gözlərimiz və qulaqlarımız bağlandı. Bu fitnə yaşlı səhabənin həmin hadisədən sonra Peyğəmbərin (s): "Biz elə bir Əhli-Beytik ki, Allah bizi kəramətləndirmiş, bizim üçün axirəti dünyadan üstün tutmuşdur. Allah xilafəti və nübuvvəti bizim üçün bir yerdə cəm olmasına icazə verməyib" buyurduğunu iddia etdiyi zaman baş verdi. Əlini (ə) beyət etmək üçün gətirdikləri zaman o bu sözü dəlil olaraq söylədi. Bizim nəzərimizdə xeyirxah və hər hansı pis bir işlə ittiham edilməmiş dörd nəfər onu təsdiqlədilər və şahidlik etdilər. Bunlar: Əbu Übeydə, Salim, Səhhakın oğlu və Muaz ibn Cəbəl idilər. Biz onların doğru söylədiklərini zənn etdik".

## Səhifə əhli və Kəbədə imzalama

Əli (ə) beyət etdikdə bizə Peyğəmbərin (s) söylədiklərini bizə xatırlatdı. Bu beş nəfərin öz aralarında bir müqavilə yazdıqlarını, bir-birlərilə əhd bağladıqlarını və Kəbənin yanında "Əgər Muhəmməd ölsə və ya öldürülsə, Əlinin əleyhinə qiyam qaldıracaqları və xilafəti onun əlindən alacaqlarını" bizə xəbər verdi. Əli də (ə) dörd nəfəri - Salmanı, Əbu Zərri, Miqdadı və Zübeyri şahid göstərdi. Onlar da şahidlik etdilər. Bu hadisə yaşlı səhabə lənətlənmiş və azdırıcı xəlifəliyi bizim boynumuza vacib olduqdan sonra baş verdi. Biz bilirdik ki, Əli (ə) Peyğəmbərin (s) adından əsla batil bir şey nəql etməzdi və Muhəmmədin (s) səhabələrindən ən yaxşıları da buna şəhadət verməzdilər".

## Əmirəl-mömininin (ə) haqqı barədə səhabələrin peşmanlığı

Süleym deyir: "Bu sözləri deyənlərin çoxu bunları da əlavə etdilər: "Ondan sonra biz bu məsələ haqqında düşündük. Peyğəmbərin (s) bu sözləri söylədiyini və bizim də onları eşitdiyimizi xatırladıq: "Allah mənim səhabələrimdən dörd nəfəri sevir və mənə də onları sevməyi əmr edir. Cənnət bu dörd nəfərə müştaqdır". Dedik: "Ya Peyğəmbər! Onlar kimlərdir?". Buyurdu: "Bunlar qardaşım, vəzirim, varisim, ümmətim arasında xəlifəm və məndən sonra möminlərin vəlisi olan Əli ibn Əbu Talib, Salman, Əbu Zərr və Miqdad ibn Əsvəddir".

Sonra dedilər: “Biz (bu çirkaba) bulaşdığımıza və etdiyimiz işlərə görə tövbə edərək Allahdan bağışlanma diləyirik”.

Biz Peyğəmbərin (s) bir söz söylədiyini eşitdik. Mənasının və təvilinin yalnız xeyir olduğunu bilirik. Belə buyurdu: “Yanımda məqam və dərəcə əldə etmiş bir dəstə səhabəm Hovuzun başında yanıma gələcəklər. Ancaq onlar dur-durulacaq və məni gördükləri zaman məndən uzaqlaşdırılıb sol tərəfə aparılacaqlar. Mən deyəcəyəm: “Ya Rəbbim! Səhabələrim! Səhabələrim!” Mənə belə cavab veriləcək: “Onların səndən sonra nələr etdiklərini sən bilmirsən. Onlardan ayrıldığın gündən bəri onlar mürtəd olub köhnə vəziyyətlərinə qayıtdılar”.

“Ömrümüzə and olsun ki, Peyğəmbər dünyadan köçdüyü gün xəlifəliyi Əliyə təslim etsəydik, ona tabe olub və beyət etsəydik doğru bir yolda olar, hidayət tapar və uğur qazanmış olardıq. Amma Allah ixtilaf, təfriqə, bəla və imtahanların olmasını təqdir etdi. Allahın elmində olanların, qəza və qədərinin baş verməsi isə labüddür”.

# HƏDİS 20

## Səhifə və Əqəbə əshabı

Süleym ibn Qeys deyir ki, Osman Əbu Zərri Rəbəzə çölünə[1] sürgün etdikdə Əbu Zərrin yanında idim. Ailəsi və malı barədə Əliyə (ə) vəsiyyət etdi. Bir nəfər Əbu Zərrə dedi: "Kaş ki, möminlərin-əmiri Osmana vəsiyyət etsəydin!"

Əbu Zər dedi: "Mən həqiqi Möminlərin-əmirinə - Əli ibn Əbu Talibə - vəsiyyət etdim. Peyğəmbər (s) zamanında Allahın əmrilə ona Möminlərin-əmiri deyə salam verdik. Peyğəmbər (s) bizə belə buyurmuşdu: "Qardaşım, vəzirim, varisim, ümmətim arasında xəlifəm və məndən sonra hər bir möminin vəlisi olan Əliyə Möminlərin-əmiri deyə səslənib salam verin! Çünki yer üzünü saxlayan odur, yer ona xatir rahatdır. Əgər onu itirsəniz yer üzü və üzərindəkilər gözünüzə çirkin görünər".

Bu ümmətin buzovunun və Samirisinin Peyğəmbərə etiraz etdiklərini gördüm. Belə dedilər: "Bu, həqiqətən Allahın və Peyğəmbərinin əmridir?" Peyğəmbər qəzəbləndi və dedi: "Həqiqətən Allahdan və Peyğəmbərindəndir. Bunu Allah mənə əmr edib".

Möminlərin-əmiri deyib Əliyə salam verdikdən sonra o ikisi evdən çıxarkən yoldaşları Muaz ibn Cəbələ, Salimə və Əbu Übeydəyə üzünü tutub dedilər: "Bu kişiyə nə olub, dayanmadan əmisi oğlunun məqamını yüksəldir". O ikisindən digəri dedi: "Əmisi oğlunun işi yaxşı olacaq!" Hamısı dedilər: "Əli yaşadıqca onun yanında bizim üçün heç bir xeyir olmayacaq".

---

[1] "Biharul-ənvar"ın qədim çapında (c.8, s.305) belə nəql edilir: "Əffanın oğlu Əbu Zərrə dedi: "Sənin mənə və dostlarıma qarşı verdiyin əziyyət artıb. Sənin yerin Şamdır! Sonra onu Mədinədən çıxarıb Şama göndərdi. Əbu Zərr Şamda Müaviyənin etdiklərinə etiraz edirdi. Buna görə Müaviyə Əffanın oğluna Əbu Zərr barədə bir məktub yazdı. Əffanın oğlu Müaviyəyə cavab olaraq məktubunda bunları dedi: "Cündəbi (Əbu Zərri) narahat bir miniyə mindir və göndər". Müaviyə Əbu Zərri üzərində yalnız çılpaq yəhəri olan yaşlı bir dəvəyə mindirdi və onu gecə gündüz dayanmadan aparan bir kəslə Mədinəyə göndərdi. Yoldakı bu məşəqqətdən ayaqlarının dərisi tökülmüş halda şəhərə çatdı.

Əbu Zərr Mədinəyə gəldikdə Əffanın oğlu ona hara istəyirsə gedə biləcəyini dedi. Əbu Zərr "Məkkəyə gedim" dedikdə, Əffanın oğlu "olmaz" dedi. Əbu Zərr "Elə isə Beytul-Müqəddəsə gedim" dedikdə, Əffanın oğlu yenə "olmaz" dedi. Əbu Zərr "İki şəhərdən birinə - Bəsrəyə, ya da Kufəyə gedim" dedikdə, Əffanın oğlu yenə "Olmaz. Səni Rəbəzəyə göndərəcəyəm" dedi. Əffanın oğlu Əbu Zərri oraya göndərdi və ölənə qədər orada qaldı".

Süleym deyir: “Əbu Zərdən soruşdum: “Bu salamlama Vida həccindən əvvəl olub, yoxsa sonra?” Dedi: “Birinci salamlama Vida həccindən əvvəl, ikinci salamlama isə Vida həccindən sonra idi”.

Dedim: “Bu beş nəfərin əhdləşməsi nə vaxt olub?” Dedi: “Vida həccində”.

Mən dedim: “Allah sənə mərhəmət etsin! Mənə üzlərini gizlədib Peyğəmbərin (s) dəvəsini ürkütməyə çalışan on nəfər Əqəbə əshabı haqda danış. Bu hadisə nə vaxt olub?” Dedi: “Qədir Xumda, Peyğəmbər vida həccindən dönərkən oldu”.

Dedim: “Allah sənə rəhm eləsin! Onları tanıyırsan?” Dedi: “Allaha and olsun ki, bəli, onların hamısını tanıyıram”.

Dedim: “Haradan bilirsən? Halbuki. Peyğəmbər (s) onları gizlicə ancaq Hüzeyfəyə tanıtmışdı”. Əbu Zərr dedi: “Əmmar ibn Yasir dəvənin yüyənini çəkir, Hüzeyfə isə dəvəni sürürdü. Peyğəmbər (s) Hüzeyfəyə bu hadisəni gizlətməyi əmr etdi, amma Əmmara bunu buyurmadı”. Dedim: “Onların adlarını mənə söylə”. Dedi: “Bunların beşi səhifə əshabı, beşi şura əhli, Əmr ibn As və Müaviyədir”.[1]

## Əmmar və Hüzeyfə Səqifə fitnəsi zamanı

Dedim: “Allah sənə rəhm eləsin! Əmmar və Hüzeyfə onları gördükləri halda Peyğəmbərdən (s) sonra onlara əmr etdiyi şeydə necə oldu ki, tərəddüd etdilər?”

Dedi: “Hüzeyfə və Əmmar sonradan peşman olub tövbə etdilər. Amma onların buzovu həmin məqama haqlı olduğunu iddia etdi (“Allah bizim üçün peyğəmbərliklə xilafəti bir yerdə (bu dünyada) cəm etmədi” hədisini uydurulmasına işarə edir – Tərc.). Samiri və onunla birlikdə olan üç nəfər[2] Peyğəmbərin (s) həmin sözləri söylədiyinə şəhadət verdilər”.

Əmmar və Hüzeyfə də belə düşündülər ki, bu hadisə əvvəlkindən sonra (Əlinin (ə) xilafət elanından sonra) baş vermiş ola bilər. Bu səbəbdən o ikisi də digərləri kimi şəkkə düşdülər. Amma sonradan tövbə etdilər, anladılar və təslim oldular”.

Süleym ibn Qeys deyir: “Əbu Zərr öldükdən sonra Əffanın oğlu xəlifəliyi zamanında Əmmar ilə görüşdüm və Əbu Zərrin dediklərini ona söylədim”.

Əmmar dedi: “Qardaşım Əbu Zərr doğru deyib. O Əmmardan eşitmədiyi bir şeyi nəql etməkdən uzaqdır və doğru danışan şəxs idi”.

---

[1] Səhifə əhlinin adları kitabın 4-cü hədisində qeyd edilir.

[2] Salim, Əbu Übeydə və Muaz ibn Cəbəl.

Mən dedim: “Allah sənə rəhm eləsin! Əbu Zərrin sözünü nəyə əsasən təsdiq edirsən?”

Dedi: “Şəhadət verirəm ki, Peyğəmbərin (s) belə dediyini eşitmişəm: “Yer üzü Əbu Zərdən daha doğru danışan bir kəsi üzərində daşımamış və səma üzərinə kölgə salmamışdır”. Mən dedim: “Ey Allahın Peyğəmbəri! Əhli-Beyt üzvlərindən də?” Buyrudu: “Mən Əhli-Beytdən savayı, digər insanları nəzərdə tuturam”.

Sonra Mədaində Hüzeyfə ilə görüşdüm. Oraya Kufədən gəlmişdi. Əbu Zərrin söylədiklərini ona da dedim. Dedi: “Allah pak və münəzzəhdir. O, Peyğəmbərə (s) aid bir sözü nəql etməkdə ən təmiz və ən doğru danışan bir şəxsdir”.

# HƏDİS 21

## Peyğəmbərin (s) Həsən (ə) və Hüseynə (ə) qarşı olan böyük sevgisi

### Peyğəmbərdən (s) su istəmələri

Aban Süleymin belə dediyini nəql edir: "Əli ibn Əbu Talib, Salman, Əbu Zərr və Miqdad şəxsən, həmçinin Əbul Həcaf Davud ibn Əbu Ovf Ovfi də Əbu Səid Xudridən mənə belə nəql elədilər:

"Peyğəmbər (s) qızı Fatimənin yanına gəldi. Fatimə qazanın altını yandırır və ailəsi üçün yemək bişirirdi. Əli (ə) evin bir küncündə yatmışdı. Həsən (ə) və Hüseyn (ə) də onun yanında yatmışdılar.

Peyğəmbər (s) qızını yanına oturtdu və onunla söhbət etməyə başladı. Fatimə qazanın altını yandırırdı və xidmətçisi yox idi. Bu vaxt Həsən (ə) yuxudan oyandı və üzünü Peyğəmbərə (s) tutub dedi: "Atacan, mənə su ver!" Peyğəmbər (s) ona sarıldı. Qalxıb özünün süd verən dəvəsinin yanına getdi və öz əlilə dəvəni sağdı. Sonra bir qabda Həsən (ə) üçün gətirdi. Südün üzü yağ bağlamışdı. Bu zaman Hüseyn də (ə) yuxudan oyandı və üzünü Peyğəmbərə (s) tutub dedi: "Atacan, mənə su ver!"

Peyğəmbər (s) buyurdu: "Oğlum, qardaşın səndən böyükdür və səndən əvvəl məndən su istədi". Hüseyn (ə) dedi: "Mənə ondan əvvəl su ver!" Peyğəmbər (s) həm ona şəfqətlə davranır, öpür və qardaşının daha əvvəl içməsi üçün ondan icazə istəyirdi. Amma Hüseyn (ə) razılaşmırdı.

Fatimə (ə) dedi: "Atacan, sanki Həsəni Hüseyndən daha çox sevirsən?" Peyğəmbər (s) dedi: "Həsəni ondan çox sevmirəm. Onların ikisi də mənim üçün bərabərdirlər. Amma əvvəl Həsən məndən su istədi. Mən, sən, bu ikisi və bu yatan Cənnətdə bir evdə və bir dərəcədə olacağıq".

Ravi deyir: "Əli (ə) hələ də yatmışdı və bunların heç birindən xəbəri yox idi.

### Peyğəmbərin (s) mübarək çiynində

Bir gün Həsən və Hüseyn oynayırdılar. Peyğəmbər (s) onların yanlarından keçirdi. Onları qucaqladı və hərəsini bir çiyninə alıb gəzdirməyə başladı. Bu

vaxt bir kişi onlarla qarşılaşdı və dedi: "Sən nə gözəl miniksən!" Peyğəmbər (s) buyurdu: "Bu ikisi də nə gözəl minicilərdir! Bu iki balam mənim dünyadakı reyhanlarımdır (ətirli güllərimdir)".

## Peyğəmbərin (s) yanında güləşmələri

Onları Fatimənin (ə) evinə gətirdikdə dedi: "Bir-birinizlə güləşin!" Onlar güləşməyə başladılar. Peyğəmbər (s) "Haydı Həsən! Haydı Həsən!" deyirdi. Fatimə (ə) soruşdu: "Ya Peyğəmbər! Hüseyndən böyük olduğu halda "haydı Həsən" deyirsən?" Peyğəmbər (s) buyurdu: "Cəbrayıl da "Haydı Hüseyn" deyir". Sonda Hüseyn Həsəni yerə yıxdı.

## Peyğəmbər (s) onlara imam deyə müraciət edir

Bir gün Həsən (ə) və Hüseyn (ə) qarşıdan gələrkən Peyğəmbər (s) onlara baxdı və dedi: "Allaha and olsun ki, bu ikisi Cənnət gənclərinin ağalarıdır, ataları isə onlardan daha xeyirlidir. Mənim nəzərimdə insanların ən yaxşısı, ən sevimlisi, ən hörmətlisi atanız və  sonra da ananızdır. Allahın nəzərində heç kim məndən və qardaşım, vəzirim, ümmətim arasında xəlifəm və məndən sonra hər bir möminin mövlası olan Əli ibn Əbu Talibdən üstün deyil. Bilin və agah olun ki, qardaşım, dostum, vəzirim, vəsim, məndən sonra xəlifəm və hər bir mömin kişi və qadının vəlisi Əli ibn Əbu Talibdir. O dünyadan köçdükdə yerinə oğlum Həsən keçəcək. O da vəfat etdikdə yerinə oğlum Hüseyn keçəcək. Daha sonra Hüseynin nəslindən onun ardınca doqquz imam gələcəkdir.

Onlar hidayət olmuş və hidayət edəndirlər. Onlar haqq ilə və haqq da onlarladır. Qiyamət gününə qədər nə onlar haqdan, nə də haqq onlardan ayrılar! Yer üzünü tutan onlardır, onlara xatir yer üzü sakitləşir. Onlar Allahın möhkəm ipi və qopmayan yapışmalı olduğunuz ipləridir. Allahın yer üzündəki höccətləri, məxluqları üzərində şahidləri, elminin xəzinədarları və hikmətinin mədənləridirlər.

Onlar Nuhun gəmisi kimidirlər. O gəmiyə minən xilas olar və onu tərk edən boğular. Onlar Bəni-İsrailin "Hittə" qapısına bənzəyirlər. O qapıdan girən mömin və çıxan isə kafirdir. Allah kitabında onlara itaəti vacib etmiş və onların vilayətini əmr etmişdir. Onlara itaət edən Allaha itaət etmiş, onlara qarşı çıxan isə Allaha qarşı çıxmışdır".

## Hüseyn (ə) məsciddə Peyğəmbərin kürəyinə qalxır

Peyğəmbər (s) məsciddə olduğu vaxt Hüseyn (ə) Peyğəmbərin (s) yanına gedərdi. O, cərgələri yarıb Peyğəmbərə (s) çatar və kürəyinə minərdi.

Peyğəmbər (s) bir əlilə Hüseynin (ə) belindən tutar, digər əlilə də dizinə söykənərək səcdədən qalxardı. Bu hal namazını bitirənə qədər davam edərdi.

### Peyğəmbər (s) minbərdə ikən Həsən (ə) boynunda oturur

Peyğəmbər (s) minbərdə xütbə oxuduğu zaman Həsən (ə) gəlib minbərə çıxar və onun çiyninə minərdi. Sonra da xalxalların (ayaq bilərziklərinin) parıltısı görünəcək şəkildə ayaqlarını sinəsindən sallardı. Bu, Peyğəmbər (s) xütbə oxuduğu zaman olur və xütbəsi bitənə qədər onu çiynindən endirmirdi".

# HƏDİS 22

## 1. Əmr ibn Asın Şamda İmam Əlinin (ə) əleyhinə xütbə söyləməsi

Aban Süleymdən nəql edir ki, Əmirəl-mömininə (ə) Şamda Əmr ibn Asın belə bir xütbə söylədiyi xəbəri çatdı:

"Peyğəmbər (s) məni ordusuna başçı təyin etdi. Həmin orduda yaşlı səhabə və Səhhakın oğlu vardı. Məni onun nəzdindəki hörmətimə görə başçı təyin etdiyini zənn etdim. Qayıtdıqdan sonra dedim: "Ya Peyğəmbər! Ən çox sevdiyin insan kimdir?" Buyurdu: "Aişə". "Bəs kişilərdən kimdir?" deyə soruşduğumda isə: "Onun atası" deyə cavab verdi.

"Ey camaat! Bu Əli yaşlı səhabə, Səhhakın oğlu və Əffanin oğlu haqqında pis sözlər danışır. Halbuki mən Peyğəmbərin (s) belə dediyini eşitmişəm: "Allah haqqı Səhhakın oğlunun dilinə və ürəyinə yazmışdır". Əffanın oğlu haqqında da belə buyurub: "Mələklər Əffanın oğlundan həya edirlər (utanırlar)!". Əgər yalan danışıramsa qulaqlarım kar olsun, Səhhakın oğlunun zamanında Əlinin özündən belə dediyini eşitmişəm: "Yaşlı səhabə və Səhhakın oğlu gələrkən Peyğəmbər (s) onlara baxdı və buyurdu: "Ey Əli! Bu ikisi nəbi və rəsullardan sonra Cənnət yaşlılarının ağalarıdırlar. Bunu onlara demə! Yoxsa həlak olarlar!!".

## 2. İmam Əlinin (ə) Bəsrədə Əmr ibn Asın söylədiklərini təkzib edən xütbəsi

Əli (ə) qalxıb dedi: "Əmr ibn Asın sözlərini qəbul edib təsdiqləmələrinə görə Şamın tağutlarına təəccüb edilir. Onun uydurmaları, yalanları və təqvasızlığı elə bir həddə çatıb ki, Peyğəmbərə (s) də yalan isnad edir. Halbuki Peyğəmbər (s) onu yetmiş dəfə lənətləmişdir. Həmçinin Əmr ibn Asın insanları dəvət etdiyi yoldaşını (Müaviyəni) da bir neçə yerdə lənətləmişdir. Bu hadisə Əmrin yetmiş beytlik qəsidəsilə Peyğəmbəri (s) təhqir etdiyi zaman baş vermişdi. Peyğəmbər (s) buyurmuşdu: "İlahi, mən şeir söyləmirəm və (bu cür) şeiri halal bilmirəm. İlahi, Sən və mələklərin onun oxuduğu qəsidənin hər beyti qədər qiyamətədək onun üzərinə lənət elə".

Peyğəmbərin oğlu İbrahim vəfat etdikdə (Əmr ibn As) belə dedi: "Muhəmmədin nəsli kəsildi. Nəslinin davamı olmayacaq. Mən onu hamıdan çox qınayacağam və haqqında ən pis sözləri danışacağam". Həmin vaxt Uca

Allah Əmr haqqında bu ayəni nazil elədi: ***“Sənin düşməninin özünün nəsli kəsikdir”.***[1] Yəni iman və hər cür xeyir baxımından davamsızdır.

Bu ümmətin yalançılarından və münafiqlərindən nələr gördüm! Sanki imanı zəif və çox çalışqan Quran oxuyanların Əmr ibn Asın “hədisini” nəql etdiklərini və təsdiqlədiklərini görürəm. Biz Əhli-Beytin qarşısında onun yalanlarını dəlil göstərirlər. Məgər biz bu ümmətin ən yaxşıları o ikisinin olduğunu deyirik?![2] Əgər istəsəm üçüncüsünün də adını çəkərəm. Allaha and olsun ki, Aişə və atası haqqındakı sözlərilə Müaviyənin razılığını qazanmaq istəyib. Onun razılığını Allahın qəzəbi qarşılığında qazanıb.

Onun məndən eşitdiyini iddia etdiyi hadisəyə gəlincə: Toxumu yaran və məxluqları yaradana and olsun ki, xeyr! O, həqiqətən də bilir ki, mənə yalan isnad edə bilməz. Uca Allah nə gizlində və nə də aşkarda məndən belə bir sözü eşitməmişdir.

İlahi, Sənin yolunu bağlamalarına, Kitabına və peyğəmbərinə yalan isnad etmələrinə, Peyğəmbərini hörmətdən salmalarına, ona və mənə nisbət verdikləri yalanlarına görə Əmr ibn Asa və Müaviyəyə lənət et!”

## 3. Müaviyə Şam əhlini Əffanın oğlunun qanının intiqamı üçün necə topladı

Süleym deyir: “Müaviyə şamlı qariləri (Quran hafizlərini) və hakimləri dəvət etdi. Onlara bir miqdar pul verib Şamın qəsəbə və şəhərlərinə göndərdi. Onlar da uydurma rəvayətləri nəql etdilər və batil əqidələrin təməllərini atdılar. Onlar insanlara belə deyirdilər: «Əli Osmanı öldürdü və o ikisindən uzaq olduğunu bildirir. Müaviyə isə Osmanın qanını tələb edir və Osmanın oğlu Aban və Osmanın digər qohumları da onunla birlikdədirlər. Beləcə şamlılar Müaviyəyə meyl etdilər və bütün Şam əhli bir sözdə birləşdilər”.

Müaviyə bu planını iyirmi il davam etdirdi və hakimiyyəti altında olan bölgələrdə tətbiq elədi. Şamın zalımları və batil yardımçıları gəlib onun süfrəsinə və şərabına ortaq olana qədər beləcə davam etdi. Müaviyə onlara pul və mal verir, aralarında əraziləri paylaşdırır və onları yedirib içirirdi. Uşaqlar bu planlarla böyüdülər və böyüklər də bu planlarla qocaldılar. Bədəvi çöl ərəbləri bu etiqadla şəhərlərə köçdülər. Şamlılar Şeytanı lənətləməyi tərk edib, Əliyə və Osmanın qatillərinə lənət edirdilər. Ümmətin cahilləri, zəlalət imamlarına tabe olanlar və atəşə dəvət edənlər bunun üzərində qərar tutdular. Allah bizə kifayət edər və O, nə gözəl vəkildir. Əgər Allah istəsəydi, onların hamısını doğru yola hidayət edərdi. Amma O, nəyi diləsə, onu da edər”.

---

[1] “Kovsər” surəsi, ayə 3.

[2] Belə bir sözü söyləmədiyini, Əmr ibn Asın növbəti yalanının olduğunu bildirir.

# HƏDİS 23

## Müaviyədən Ziyad ibn Əbihə (atasının oğlu) məktub

Aban Süleymdən nəql edir ki, Ziyad ibn Süməyyənin[1] bir katibi vardı. Şiə olmuşdu və mənimlə dost idi. O Müaviyənin Ziyada cavab olaraq yazdığı bir məktubu mənə göstərdi:

## Ərəb qəbilələrilə Müaviyənin rəftarı

"Mənə yazdığın məktubda ərəblər haqqında soruşursan, onlardan hansına ehtiram edib və hansına əhəmiyyət verməməyini bilmək istəyirsən. Onlardan hansını özünə yaxınlaşdırıb, hansını özündən uzaqlaşdırmalı, hansına güvənib və hansından çəkinməli olduğunu soruşursan?

Ey qardaşım! Ərəbləri ən yaxşı tanıyam mənəm. Yəmənli camaata nəzər sal, zahirdə onlara ehtiram göstər, xəlvətdə isə onlara dəyər vermə! Mən də onlarla belə rəftar edirəm. Məclislərində onları öz yanımda oturduram və onların mənə digərlərindən daha yaxın olduğu təəssüratını verirəm. Amma onlardan xəlvətdə digərlərinə üstünlük verir və hədiyyələr verirəm. Bunun səbəbi həmin camaatın böyük bir hissəsinin o adamla (Əli (ə) ilə) birlikdə mənə qarşı döyüşməsidir.

Rəbiyə ibn Nizar qəbiləsini nəzər sal, şərəflilərinə hörmət göstər və digərlərinə əhəmiyyət vermə. Çünki digərləri həmin şərəflilərə və ağalarına tabedirlər.

Muzar qəbiləsinə də nəzər sal, onları bir-birinə müsəllət elə. Çünki onlar çox kobud, təkəbbürlü, özünü bəyənmiş və qürurludurlar. Əgər onları bir-

---

[1] "Atasının oğlu Ziyad" mənasında "Ziyad ibn Əbihi" olaraq tanınmışdır. Anası Süməyyə tanınmış əxlaqsız qadınlarından biri idi. Ziyad ibn Süməyyə sonradan özünün Əbu Süfyanın zanakarlığı nəticəsində doğulduğunu iddia etmişdi. Ubeydullah ibn Ziyad Yezidin Kufə və Bəsrə valisi olaraq əvvəlcə İmam Hüseynin (ə) elçiləri Müslim və Qeysi öldürtmüş, sonra da Kərbəlada İmam Hüseyni (ə) susuz şəhid etmələri üçün Ömər Sədin başçılığı altında ordu göndərmişdi. Əhli-Beytin (ə) və xüsusilə İmam Əlinin (ə) tərəfdarlarını öldürmüşdü. Kərbəlada Yeziddən sonra ən böyük qatillərdən biridir. Ubeydullah İmam Əlinin (ə) sərkərdəsi Malik Əştərin oğlu İbrahim tərəfindən öldürülmüşdü.
Ziyad deyə tanınan bu kəsin atası məlum deyil. Müaviyə onun Əbu Süfyana nisbət verərək öz qardaşı olduğunu söyləyirdi. Ziyad əvvəllər Əli (ə) tərəfdarı görünsə də, sonradan Müaviyə tərəfinə keçmişdi. Əli tərəfdarlarını çox yaxşı tanıdığı üçün şiələri qətl etməkdə çətinlik çəkmirdi.

birlərinin üzərinə salsan bir qismi sənin üçün digərinə qarşı çıxacaq. Əməli icra etmədikcə sözlərinə, yəqinin olmadıqca zənlərinə razı olma.

### Kölə və əcəmilərə qarşı Müaviyənin alçaldıcı münasibəti

Kölə və İslamı yeni qəbul edən əcəmilərə diqqət yetir, onlarla Səhhakın oğlu kimi rəftar elə. Çünki alçaldılmaları və zəlil olmaları bundadır. Ərəblər onların qadınları ilə evlənsinlər, amma öz qadınlarını onlara verməsinlər. Ərəblər onlardan miras aparsınlar, amma onlara ərəblərdən miras verilməsin. Onların ərzaqlarını və bəxşişlərini azalt, döyüşdə ordunun ön cərgələrinə yerləşdir, yol açsınlar və ağacları kəssinlər. Heç bir əcəmi namazda ərəblərə pişnamazlıq etməsin. Namaz sıralarında ərəblər var ikən onlardan heç biri (cərgələri doldurmaq istisna olmaqla) ön cərgələrdə dayanmasın. Müsəlmanların heç bir sərhədini və şəhərini onlara etibar eləmə. Onlardan heç biri müsəlmanlar arasındakı iddia və məhkəmələrdə məsuliyyətini üzərinə götürməsin. Səhhakın oğlunun onlar haqqındakı rəftar tərzi budur. Allah Muhəmməd ümməti və xüsusilə Üməyyə oğulları tərəfindən ona (Səhhakın oğluna) gözəl mükafat versin!

### Müaviyə xilafətə necə tamah saldi və necə əldə etdi

Ömrümə and olsun ki, əgər onun və yoldaşının (yaşlı səhabənin) etdikləri olmasaydı, Allahın dinində güclü və möhkəm olmasaydılar biz və bu ümmət Bəni-Haşimin köləsi olardıq. Onlar Kisra və Qeysər əhli kimi xəlifəliyi bir-birinə ötürərdilər. Amma Allah xəlifəliyi o ikisinin əlilə Bəni-Haşimdən aldı və Bəni-Tey ibn Murra verdi. Sonra da Bəni-Udey ibn Kəbə xilafətə keçdi. Halbuki Qüreyş arasında onlardan daha zəlil, alçaq və rəzil bir qəbilə yox idi. O ikisi bizim xəlifəliyə tamah salmağımıza səbəb oldular. Biz isə (xəlifəliyə) onlardan və onların nəslindən daha layiq idik. Çünki sərvət və izzət bizdədir və biz qohumluq baxımından Peyğəmbərə daha yaxınıq. Bizdən əvvəl yoldaşımız Əffanın oğlu şura və xalqın razılığı ilə altı nəfərlik şuradan sonra xəlifə oldu. Onlar isə Əffanın oğlundan əvvəl şurasız xəlifə olmuşdular. Yoldaşımız Əffanın oğlu məzlum şəkildə qətlə yetirildikdə biz xəlifəliyə çatdıq. Çünki hər kim məzlum olaraq öldürülsə Allah onun vəlisinə səlahiyyət verər!

### Müaviyə əcəmilərin alçaldılması əmrini verir

Ömrümə and olsun, ey qardaşım! Əgər Səhhakın oğlu kölənin diyəsini ərəbin diyəsinin yarısı qədər etsəydi, bu təqvaya daha yaxın olardı. Əgər mən bunun bir yolunu tapa bilsəydim və camaatın əksəriyyətinin qəbul edəcəyinə

ümidim olsaydı, bunu edərdim. Amma mən yaxın zamanda döyüşə gedəcəyəm. Camaatın parçalanmasından və mənə qarşı çıxmalarından qorxuram. Amma Səhhakın oğlunun onlarla etdiyi rəftar nümunə olaraq sənə yetər. Bu, onların alçalması və zəlil olması üçün kifayətdir. Bu məktubum sənə çatdığı zaman əcəmiləri alçalt və onlara əhəmiyyət vermə. Onları sürgün elə və heç birindən kömək alma, hacətlərinə müsbət cavab vermə.

## Müaviyə Ziyadı Əbu Süfyana nisbət verir

Allaha and olsun, sən Əbu Süfyanın oğlusan, onun belindən çıxmısan. Ubeydə nəsil baxımında Adəmdən başqa bir nisbətin yoxdur. Ey qardaşım, sən mənim yanımda doğru danışan bir şəxssən. Mənə Bəsrədə olarkən Səhhakın oğlunun Əbu Musa Əşəriyə yazdığı məktubu oxuduğunu mənə bildirdin. Həmin vaxtlarda sən Əbu Musanın katibi idin və Əbu Musa da Bəsrə valisi idi. Sən onun yanında insanların ən rəzili vəziyyətində idin və amma Səqif qəbiləsinin müttəfiqlərindən olduğunu zənn edirdin. Əgər o gün də qəti olaraq (bu gün bildiyin kimi) Əbu Süfyanın oğlu olduğunu bilsəydin özünü əzəmət sahibi hiss edərdin və zinazadə əşərilərin katibi olduğuna görə utanmazdın. Sən də, mən də qəti olaraq bilirik ki, Əbu Süfyan babası Üməyyə ibn Əbdüş-şəmslə birlikdə ticarət üçün Şama getmişdi. Səfuriyyə şəhərindən keçdilər. Orada oğlu Abdullahla birlikdə kölə mahnı oxuyan qadını aldılar. Əbu Süfyan Üməyyə ibn Əbdüş-şəmsin yolunu gedirdi.

## Əcəmiləri alçaldılması və bunun səbəbi

İbn Əbu Muit mənə dedi ki, Səhhakın oğlunun beş qarışlıq bir ip ilə birlikdə Əbu Musa Əşəriyə göndərdiyi məktubu oxuduğunu ona bildirmisən. Səhhakın oğlu ona belə yazmışdı: “Bəsrəliləri yanına dəvət et! Kölələrdən və İslamı qəbul etmiş əcəmilərdən kimin boyu bu ipin uzunluğuna çatırsa, boynunu vur”. Əbu Musa bu barədə səninlə məsləhətləşdi və sən onu bu işdən çəkindirdin və Səhhakın oğlu ilə bu barədə danışmasını məsləhət verdin. Əbu Musa da bu barədə Ömərə müraciət etdi və sən məktubunu Səhhakın oğluna apardın. Sən bunu kölələrə olan bağlılığın səbəbindən etdin və həmin gün sən Ubeydin oğlu olduğunu güman edirdin. Səhhakın oğlunu bu fikrindən döndərənə qədər israr etdin. Onu camaatın parçalanacağı ilə qorxutdun və o da fikrindən daşındı. Ona dedin: “Sən bu xanədan (Əhli-Beytlə (ə)) ilə düşmənçilik etdin. Əcəmilərin Əlinin ətrafında toplanmayacağından və Əlinin də onların yardımı ilə qiyam qaldırıb sənin hökumətini ortadan qaldırmayacağına əminsən?!” Səhhakın oğlu də bu işdən əl çəkdi.

Qardaşım! Səhhakın oğlunu fikrindən daşındırdığın zaman Əbu Süfyan nəslində səndən daha bədbəxt bir kəsin doğulmadığını anladım!

Səhhakın oğlu mənə onları öldürmək qərarından əl çəkməsinin Əli ibn Əbu Talibdən eşitdiyin bir sözün səbəb olduğunu söylədi. O mənə dedi: "İlk vaxtlarda siz bu dinlə əcəmiləri məğlub edəcəksiniz, sonra da onlar sizi məğlub edəcəklər". Və belə demişdi: "Allah sizin əllərinizi əcəmilərlə dolduracaq, sonra onlar qarşınızdan qaçmayacaq dərəcədə güc əldə edəcək, boyunlarınızı vuracaq və qənimətlərinizi alacaqlar". Səhhakın oğlu sənə dedi: "Mən bunları Peyğəmbərdən eşitmişdim. Elə məhz bunlar məni sənin yoldaşına (Əbu Musaya) onların öldürülməsi barədə məktub yazmağa məcbur etdi. Digər şəhərlərdəki nümayəndələrimə də belə məktub yazmağa qərar vermişdim". Sən isə Səhhakın oğluna dedin: "Ey Möminlərin əmiri! Bunu etmə! Çünki Əlinin onları köməyə çağırmasından amanda deyilsən, onların sayı olduqca çoxdur. Sən Əlinin və Əhli-Beytinin şücaətindən, səninlə və yoldaşınla olan düşmənçiliyindən xəbərdarsan". Səhhakın oğlunu bu fikrindən yayındırdın və mənə onu bu işdən çəkindirdiyini bildirdin. Bunu (kölələrə olan) təəssübünə görə etdin, nəinki Əlinin rəvayətinin qorxusundan.

Həmçinin bunu Osmanın xəlifəliyi zamanında Əli ibn Əbu Talibə də söylədiyini mənə dedin. O sənə belə demişdi: "Əcəmilər - Xorasan tərəfindən gələcək qara bayraq sahibləridir. Onlar Bəni-Üməyyənin səltənətinə son qoyacaq və onları gördükləri hər yerdə öldürəcəklər".

Ey qardaşım! Əgər sən Səhhakın oğlunu bu işdən çəkindirməsəydin bu adətə çevrilərdi. Onları məhv edib köklərini qurudardı. Ondan sonrakı xəlifələr bir nümunə olaraq onu tətbiq edərdilər. Belə ki, onlardan geriyə nə bir tük, nə dırnaq və nə də bir od qığılcımı qalmazdı. Onlar dinin fəlakətidirlər!

### Müaviyənin dililə bidətlər

Bu ümmət içində Səhhakın oğlunun Peyğəmbərin (s) sünnəsinin əksinə etdiyi və camaatın da onları mənimsəyib icra etdikləri nə qədər məsələlər vardır. Bu da onlardan biri olacaqdı.

Məqami İbrahimin Peyğəmbərin (s) qoyduğu yerini dəyişməsi, Peyğəmbərin (s) sa` və mudd ölçü vahidlərinin çəkisini artırması, qüsulsuz şəxsi təyəmmümdən çəkindirməsi bunlardan bir neçəsidir. Səhhakın oğlunun sünnə qoyduğu şeylər sayılmayacaq qədər çoxdur. Onların ən böyüyü və bizim yanımızda ən sevimlisi ki, bu gözümüzə nur verir, xəlifəliyi Bəni-Haşimin əlindən alması idi. Halbuki xəlifəliyin əhli və mədənləri məhz onlar idilər. Xilafət onlardan başqasına layiq deyil və yer üzü yalnız onlarla sakitləşər.

## Süleym məktubun surətini köçürür

Bu məktubu oxuduqdan həmən sonra cır və yazdıqlarımı gizlət".

Süleym deyir: "Ziyadın katibi mənə dedi: "Ziyad məktubu oxuduğu zaman onu yerə çırpdı və üzünü mənə tutub dedi: "Vay olsun mənə, çıxdığım və daxil olduğum yerlərə! Allaha and olsun, Ali-Muhəmmədin tərəfdarlarından idim. Onlardan ayrıldım və şeytanın tərəfdarı oldum. Nəticədə belə bir məktub yazan bu adamın tərəfdarı oldum. Mənim misalım İblisin misalına bənzəyir, təkəbbür, həsəd və inkar səbəbindən Adəmə səcdə etmədi".

Süleym deyir: "Axşam olmadan məktubun bir surətini çıxardım. Gecə düşdükdə Ziyad məktubu istədi, onu cırdı və dedi: "Heç zaman heç kim bu məktubda yazılanlardan xəbərdar olmamalıdır!" Amma mənim məktubu yazdığımı bilmirdi".

# HƏDİS 24

## Peyğəmbər (s) İmam Əli (ə) barəsində Humeyranın qarşısında höccət qoyur

Aban Süleymdən Salman, Əbu Zərr və Miqdadın belə dediklərini eşitdiyini söyləyir və bu barədə imam Əlidən (ə) soruşduğunu, onun da "Düz deyirlər" söylədiyini bildirir. Onlar mənə dedilər: "İmam Əli (ə) Peyğəmbərin (s) yanına gəldi, Aişə arxa tərəfində oturmuşdu və Humeyranın üzərində bir əba (kisa) vardı. Ev adamla dolu idi. Onlardan beşi "kitab" əshabı, beşi isə şura əhli idi. Oturmağa yer tapmadıqda Peyğəmbər (s) işarə edərək: (arxa tərəfini göstərib) "Burada otur" dedi.

İmam Əli (ə) gəlib Peyğəmbərlə (ə) Humeyranın arasında ərəblərin əyləşdiyi kimi oturdu. Humeyra onu itələyib qəzəblə dedi: "Oturmağa qucağımdan başqa yer tapmadın?!".

Peyğəmbər (s) qəzəblənib dedi: "Sus, ey Hümeyrə! Qardaşım Əli barədə mənə əziyyət eləmə, Həqiqətən də o, möminlərin əmiri, müsəlmanların ağası, həmd bayrağının sahibi, qiyamət günü üzüağların rəhbəridir. Allah onu Sirat üzərində oturdub cənnətlə odu böləcək. Dostlarını cənnətə, düşmənlərini isə oda daxil edəcək.

# HƏDİS 25

## Siffin savaşı əsnasında Əmirəl-möminin Əli (ə) ilə Müaviyənin məktublaşması

Aban Süleymdən nəql edir ki, Əbu Harun Ədbi[1] ehtimal ki, Ömər ibn Əbu Sələmədən belə eşitdiyini deyir:

## 1. Müaviyənin Əliyə (ə) məktubu

Biz Siffində İmam Əlinin (ə) yanında ikən Müaviyə Əbu Dərdanı və Əbu Hüreyrəni çağırıb dedi: "Əlinin yanına gedib ona məndən salam söyləyin, sonra deyin:

Allaha and olsun ki, insanlar arasında sənin xilafətə ən layiqli şəxs və məndən daha çox haqq sahibi olduğunu hamıdan yaxşı bilirəm. Çünki sən ilk mühacirələrdənsən, mən isə Tüləqalardanam[2]. İslamda sənin malik olduqların və Peyğəmbərə olan yaxınlığın, Allahın kitabının və Peyğəmbərin sünnətinin elmi məndə yoxdur.

Mühacirlər və ənsar sənə beyət etməzdən üç günə əvvəl məşvərət etdilər, sonra heç bir şeyə məcbur edilmədən, müti vəziyyətdə gəlib beyət elədilər. Sənə beyət edənlərin ilki Təlhə və Zübeyrdir, lakin sonra beyətlərini pozdular, sənə zülm etdilər və haqları olmayan şeyləri tələb elədilər. Mən Əffanın oğlunun əmisinin oğluyam və onun qanının intiqamını tələb edirəm. Eşitmişəm ki, sən Əffanın oğlunun qatillərini üzrlü bilib qanının qisasını almaqdan çəkinmisən. Düşünürsən ki, o qətlə yetirilən vaxt sən evində olmusan (qətllə heç bir əlaqən yoxdur). O qətlə yetirilərkən sən: "Həqiqətən də biz Allahdanıq və Ona qayıdacağıq" deyib "İlahi, mən razı deyiləm, onlara kömək də etməmişəm" söyləmisən. Həmçinin Cəməl günündə də onlar "Ey Əffanın oğlu qatillər!" deyib nida etdikdə sən dedin: "Bu gün Əffanın oğlunun qatilləri üzüstə oda getdilər! Onu bizmi öldürmüşdük?! Onu həmin iki nəfər və qadın yoldaşları (Humeyra) öldürmüş, onun qətlinə fərman vermişdilər, mən isə həmin vaxt evimdə otururdum".

Mən Osmanın əmisi oğluyam, onun vəlisiyəm və onun qanının qisasını tələb edirəm. Əgər iş sənin dediyin kimidirsə, o zaman Əffanın oğlunun

[1] Bu, İmarə ibn Cüveyrədir (yaxud Cəvin).
[2] Məkkə fəth olunan vaxtı azad edilib iman gətirənlər.

qatillərini bizə verib onlardan əmimin qisasını almağıma imkan yarat. Sonra sənə beyət edib işi öhdənə buraxaq.

## İmam Əlinin (ə) nifrin etməsi və onlardan uzaq olduğunu bildirməsi

Bu birinci, ikincisi isə: gözlərim mənə xəbər vermiş, Əffanın oğlunun dostlarından (hazırda onlar səninlə birgə döyüşür və hesab edirsən ki, səninlə həmfikirdirlər, səndən razıdırlar, onların istəkləri və qəlbləri bizimlə, cisimləri isə səninlədir) gələn yazılar mənə şahidlik etmişdir ki, sən o ikisinin vilayətini zahirdə qəbul edib onlara rəhmət oxuyur, ancaq Əffanın oğlunun adını yad etmir, nə rəhmət, nə də ona lənət deyirsən.

Barəndə mənə xəbər çatıb ki, öz xəbis batinin, sənə məxsus azmış, yalançı və satqın şiələrinlə təklikdə qaldıqda o ikisindən və Əffanın oğlundan uzaq olduğunu bildirir, onlara lənət oxuyursan. Özünün ümmət arasında Peyğəmbər (s) xəlifəsi və onların arasında Peyğəmbərin (s) vəsisi olduğunu iddia edirsən. Allahın möminlərə sənin itaətini vacib buyurduğunu, kitabda və Peyğəmbərinin sünnətində sənin vilayətini əmr etdiyini deyirsən. Allahın Peyğəmbərə (s) bunu ümmətə bəyan etməsini əmr etdiyini, ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq..."*** ayəsinin nazil edib ona ümməti Qədir Xumda toplayıb Allahın sənin barəndə nazil etdiyini insanlara çatdırmasına, hazır olanların qaib olanlar xəbər verməsini göstəriş verdiyini, sənin möminlərə canlarından üstün olduğunu, Peyğəmbərə nisbətdə Harunun Musaya nisbəti kimi olduğunu söylədiyini deyirsən.

## Müaviyənin dilindən xilafət

Səndən mənə xəbər veriblər ki, sən insanlara elə bir xütbə söyləmirsən ki, minbərindən düşməmiş insanların ən üstünü olduğunu, Peyğəmbərin vəfatından bəri məzlumluğunun davam etdiyini söyləməyəsən.

Əgər səndən mənə çatan xəbərlər doğrudursa, o zaman o ikisinin sənə qarşı zülmü Əffanın oğlundan daha böyükdür. Peyğəmbər (s) vəfat edəndə biz şahid idik ki, o iki nəfərin yanına gedib ona beyət elədi, nə səninlə məsləhətləşdi, nə də fikrini soruşdu. İki kişi sənin haqqın, höccətin və peyğəmbərə yaxınlığın barədə mübahisə elədilər, əgər sənə təslim olub beyət etsəydilər, Əffanın oğlu onlardan öncə sənə olan yaxınlığına və üzərində olan haqqına görə beyət

edərdi. Çünki o, əminin və bibinin oğlu idi. Sonra ölüm vaxtı yaşlı səhabə səninlə məsləhətləşmədən və fikrini soruşmadan Səhhakın oğlunu xəlifə təyin edib ona beyət etdi.

Sonra Səhhakın oğlu səni altı nəfərlik şuraya daxil edib, bütün mühacir və ənasarı oradan kənarda tutdu. Üçüncü gündə camaatın qılınclarına sarılıb, əgər bu gecə aranızdan birini xəlifə seçməsəniz boyunlarınızı vuracaqlarına, bunun-la da Səhhakın oğlunun əmrini və vəsiyyətini icra edəcəklərinə and içdiklərini görüb İbn Ovfu aranızdan başçı təyin etdiniz. O da Əffanın oğlunun seçib beyət etdi, siz də onun ardınca beyət etdiniz.

Sonra Əffanın oğlu mühasirəyə alındı, sizdən yardım istədi, ona yardım etmədiniz, sizi çağırdı, ona cavab vermədiniz. Halbuki onun beyəti sizin boy-nunuzda idi. Siz, ey mühacir və ənsarlar, hazır olub şahidlik edənlər, işi Misir əhlinə buraxdığnız, sizdən bir dəstənin yardımı ilə onlar Əffanın oğlu qətlə yetirdilər. Dolayısı ilə siz onun qatillərindən, qətlinə fərman verənlərdən və onu tərk edənlərdən oldunuz.

Sonra insanlar sənə beyət etdilər, sən bu işdə məndən daha çox haqq sahibisən. Əffanın oğlunun qatillərini mənə ver ki, onları öldürüm, mən və tərəfimdə olan Şam əhli işi sənə həvalə edib beyət gətirək.

## 2. Əmirəl-möminin Əlinin (ə) Müaviyəyə məktubu

Müaviyənin Əbu Hüreyrə və Əbu Dərda ilə göndərdiyi məktubu İmam Əli (ə) oxuduqdan sonra Əbu Dərdaya dedi: Müaviyənin mənə göndərdiyi məktubu gətirdiniz. Eynilə onun sözünü mənə çatdırdığınız kimi mənim də sö-zümü dinləyin və ona çatdırın:

Osman ibn Əffan bu iki şəxsdən biridir: ya hidayət rəhbəri, qanı haram, yardımı vacib, özünə qarşı üsyanı halal olmayan və ümmətin onu tərk etməsi caiz olmayan bir imamdır, ya da azğınlıq rəhbəri, qanı halal, itaəti və yardımı caiz olmayan bir kəsdir. Bu iki xislətdən mütləq ki, biridir.

Allahın və Peyğəmbərinin (s) hökmünə əsasən insanlar imamları öldükdə və ya öldürüldükdə - istər azmış, istər doğru yolda olan olsun, istər məzlum, istər zalım olsun, istər qanı halal, istər haram olsun – özləri üçün iffətli, alim, təqvalı, hökm və sünnəni bilən, işlərini bir yerə toplayacaq, aralarında hökm edəcək, zalımdan məzlumun haqqını alacaq, onların birliyini təmin edəcək, on-ları qoruyacaq, cümə namazlarını qılacaq, sədəqələrini bölüşdürəcək, keçmişdə məzlum olaraq qətlə yetirilən rəhbərin barəsində hökm etmək üçün ona dəlillər təqdim edəcək, onun da ədalətlə hökm verəcəyi bir rəhbəri seçməmiş heç bir

iş görməməli, əllərini və ayaqlarını uzatmamalıdırlar. Həmin rəhbər, əgər keçmiş rəhbərləri məzlum olaraq qətlə yetirilibsə, onun qanının haqqını vəlilərinə təqdim edəcək, əgər zalım olaraq qətlə yetirilibsə, bu barədə necə hökm edəcəyini özü seçəcək.

Bu, onların etməli olduqlarının birincisidir: rəhbər seçməli, onlar üçün xeyirli olanda müttəfiq olmalı, ona beyət və itaət etməlidirlər.

Yox, əgər rəhbəri seçmək Allahın və Peyğəmbərinin ixtiyarındadırsa, o zaman Allah onları bu seçkidən azad etmişdir. Peyğəmbər (s) onlar üçün bir imam seçmiş, ondan razı olmuş, ona itaəti vacib bilmişdir. Osman öldürüldükdən sonra camaat mənə beyət etdi. Mühacir və ənsar barəmdə üç gün məşvərət etdikdən sonra beyət etdilər. Bunlar elə onlara beyət edənlər, onların rəhbərliyini qəbul edənlərdir. Bu işdə Bədr əhli, mühacirlər və ənsar öndə idilər. Halbuki onlar məndən əvvəl heç bir məşvərət keçirmədən beyət etmiş, lakin mənə beyətlərində bir yerə toplaşıb üç gün məşvərət etdilər.

Əgər Uca Allah bu işi ümətin öhdəsinə buraxmışdısa, onlar da özləri üçün baxıb münasib olanı seçmişlərsə və bu seçimlər Allahın və Rəsulunun seçimindən xeyirlidirsə, o zaman seçimləri, beyətləri hidayət beyətidir, rəhbərlərinə itaətləri və yardımları vacibdir. Eləcə mənim barəmdə müşavirə keçirib icma ilə mənə beyət etdilər. Əgər seçən Allahdırsa, o zaman nazil etdiyi kitabda və peyğəmbərinin sünnəsində məni ümmət üçün seçmiş, onlara xəlifə təyin etmiş, mənə itaəti və yardımı onlara əmr eləmişdir. Bu isə mənim höccət və haqlı olduğuma ən güclü dəlildir.

Əgər o üçünün zamanında öldürülsəydi, Müaviyə onlarla da savaşa qalxıb qanını tələb edəcəkdi?

Əbu Hüreyrə və Əbu Dərda “Xeyr” cavabını verdilər.

Əli (ə) dedi: “Mən də onlar kimi! Əgər Müaviyə “Bəli, savaşardım” desə, ona deyin: O zaman demək, bir zalım tərəfindən zülm edilən, yaxud qatil tərəfindən qətlə yetirilən hər bir şəxsə görə müsəlmanlar bir dəstənin tərəfini tutub savaşmalı, parça-parça olmalı, hər kəs özünə tərəf çağırmalıdır. Halbuki Əffanın oğlunun övladları atalarının qanlarının qisasını tələb etməkdə Müaviyədən daha çox haqq sahibidirlər.

Əbu Dərda və Əbu Hüreyrə susdular, sonra dedilər: “Sən insaflı danışdın”.

İmam Əli (ə) dedi: “Ömrümə and olsun ki, əgər Müaviyə dediklərini etsə və mənə verdiyi sözü tutsa, o da mənim insaflı rəftar etdiyimi görəcək. Əffanın oğlunun övladları hamısı həddi-buluğa çatmış şəxslərdir, uşaq deyillər ki, onların vəliyə ehtiyacları olsun. Gəlsinlər onlarla atalarının qatillərini bir yerə toplayım. Əgər onlar köməksiz və dəlil gətirməkdə acizdirlərsə, o zaman

Müaviyənin onların vəlisi, vəkili və davalarında savaşan tərəf kimi olduğuna şəhadət gətirsinlər.

Onlar və cavabdehlər gəlib bu məsələdə hökm verəcək hakimin qarşısında üz-üzə otursunlar, onlar və cavabdehlərin dəlillərinə qulaq asım. Əgər ataları zalım və qanı halal idisə, o zaman qisas tələbi batil olar. Yox, əgər ataları məzlum halda qətlə yetirilibsə və qanı haram idisə, qatillərini onlara verim, əgər istəsələr onu öldürsünlər, istəsələr əfv eləsinlər və yaxud da ondan diyəsini alsınlar.

Osmanın qatilləri mənim əsgərlərimin arasındadırlar, onu qətlə yetirdiklərini etiraf edir, mənim onlarla övladları arasında hakim olmağıma razıdırlar. Əffanın oğlunun övladları, yaxud vəliləridirsə və vəkilləridirsə Müaviyə ilə yanıma gəlsinlər, onun qətli barəsində müzakirə aparsınlar, Allahın kitabı və Peyğəmbərinin (s) sünnəsinə əsasən aralarında hökm verim.

Əgər Müaviyə etmədiyimiz bir işdə bizə böhtan atıb cinayətkar sayırsa, o zaman qoy nə danışır danışsın, Allah mənə ona qarşı yardımçı olacaq!

Əbu Dərda və Əbu Hüreyrə dedilər: "Allaha and olsun ki, sən doğru danışdın və tam insafla söylədin, onun səbəblərini puç edib dəlillərini batil çıxardın. Özün güclü dəlillər ortaya qoydun, üzərinə heç bir söz deyilməyəcək həqiqətləri dedin".

Bu zaman qarşılarında iyirmi minə yaxın insanın əllərində qılınclarla dayanıb "Əffanın oğlunun qatilləri bizik, biz Əlinin (ə) aramızda hökm etməsinə razıyıq. Əffanın oğlunun vəlilərini gətirin, atalarının qanı barəsində Əli (ə) aramızda hökm versin. Əgər üzərimizə qisas və ya diyə düşsə, o zaman hökmə səbr edib təslim olacağıq".

O ikisi dedi: "Doğru deyirsiniz, sizinlə Əffanın oğlunun vəliləri arasında üz-üzə görüş keçirib aranızda Allahın kitabına və Peyğəmbərin (s) sünnəsinə uyğun hökm vermədikcə, Əlinin (ə) sizi təslim etməsi və ya qətlə yetirməsi əsla halal olmaz.

## 3. Müaviyənin İmam Əlinin (ə) məktubuna əməl etmək imtinası

Onlar Müaviyənin yanına gəlib Əlinin (ə), Əffanın oğlunun qatillərinin və Əbu Numan ibn Zimanın[1] dediklərini ona çatdırdılar.

Müaviyə onlara dedi: "O iki səhabəyə aşkarda rəhmət diləyib, amma Əffanın oğlunun barəsində bunu etməməsi, ancaq gizlində onların hamısın-

---

[1] Bu şəxsin kimliyi barədə məlumat yoxdur. Ola bilsin ki, bu şəxs iyirmi minlik ordunun adından danışıb.

dan uzaq olduğunu söyləməsi, həmiçinin Peyğəmbərin (s) vəfatından bəri bu günədək məzlum olduğunu iddia etməsi barədə suala necə cavab verdi?

Dedilər: "O üçü bizim yanımızda rəhmət diləyib və biz də bunu eşitmişik. Sənin söylədiklərin barədə dedi: "Əgər seçməyi Allah ümmətin ixtiyarına qoyubsa, onlar üçün məsləhətli olanı əgər öz rəy və nəzərlərinə görə seçirlərsə (beləliklə, onların öz seçimləri Allahın və Peyğəmbərinin (s) seçimindən daha doğrudursa), o zaman məni seçib və beyət ediblər. Beləliklə mənə beyət hidayətdir, insanlar arasında itaəti və yardımı vacib rəhbərəm. Çünki onlar mənim barəmdə məşvərət edib və seçiblər.

Əgər Allahın və Peyğəmbərinin (s) seçimi onların özləri üçün seçimlərindən daha xeyirlidirsə, həqiqətən də Allah və Peyğəmbəri (s) məni seçmiş, bu ümmətə xəlifə təyin eləmiş, Allahın Peyğəmbərinə (s) nazil etdiyi kitabında da mənə itaəti və yardımı onlara əmr etmişdir. Bu isə mənim dəlilim və haqlı olmama ən güclü sübutdur.

## 4. Əmirəl-möminin Əlinin (ə) Siffində müsəlmanlara müraciəti

Sonra əskərləri arasında minbərə qalxdı, ətrafdan gələnlər, mühacirlər və ənsarlar da orada hazır idilər. Allaha həmd və səna deyib buyurdu:

"Ey camaat, həqiqətən də mənim fəzilətlərim sayılmaqdan və hesablamaqdan daha çoxdur. Bu fəzilətlərimə Allahın kitabı və Peyğəmbərinin (s) sözləri kifayət edər.

Məgər bilmirsiniz ki, Allah öz kitabında müsəlman olmaqda ilk şəxslərin digərlərindən üstün olduğunu bildirir? Bilmirsinizmi, İslamı qəbul etməkdə Peyğəmbərdən (s) savayı bir kəs məndən önə keçməyib?!"

Dedilər: "İlahi, elədir".

## İmam Əli (ə) vəsilərin ən fəzilətlisidir

"Allahı sizə şahid tuturam, Peyğəmbərdən (s) Allahın ***"Və öndə olanlar. Onlar öndədirlər! Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış kimsələrdir"***[1] ayəsi barədə soruşulduqda belə cavab verdi: "Allah bu ayəni peyğəmbərlər və vəsilər haqqında nazil edib. Mən peyğəmbərlərin, qardaşım Əli ibn Əbu Talib isə vəsilərin ən fəzilətlisidir".

Bədr savaşı əhlindən yetmişə yaxın adam ayağa qalxdı. Onların çoxu ənsardan, qalanları isə mühacirlərdən idilər. Onların arasında Əbu Heysəm ibn

[1] "Vaqiə" surəsi, ayə 10-11.

Teyhan, Xalid ibn Zeyd, Əbu Əyyub Ənsari, mühacirlərdən Əmmar ibn Yasir və digərləri vardı. Dedilər: “Şəhadət veririk ki, Peyğəmbər (s) bunu söyləmişdir!”.

## Qədir Xumda vilayətin elanı

Dedi: “Bu ayələr haqqında Allahı sizə şahid tuturam: ***“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!”***[1]***, “Sizin hamınız ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və rükuda olduqları halda zəkat verirlər”***[2]***, “Yoxsa elə güman edirsiniz ki, Allah içərinizdən cihad edənləri, Allahdan, Onun Peyğəmbərindən və möminlərdən başqasını özlərinə dost tutanları ayırd etməmiş siz sərbəst buraxılacaqsınız?”***[3] Səhabələr bu ayələr nazil olduqda dedilər: “Ya Peyğəmbər, bunlar bir neçə şəxsə aiddir, yoxsa bütün möminlərə şamildir?”

Uca Allah bu ayələrin kim barəsində nazil olduğunu, namaz, oruc, zəkat və həcci onlar üçün izah etdiyi kimi vilayəti də izah etməsini Peyğəmbərinə (s) əmr etdi.

Peyğəmbər (s) məni xəlifə təyin edərək belə buyurdu: “Allah məni elə bir vəzifə ilə (risalətlə) göndərdi ki, buna görə sinəm daraldı və camaatın məni inkar edəcəyini zənn etdim. Bunu təbliğ etməyəcəyim təqdirdə məni cəzalandıracağını buyurdu”. “Qalx, ey Əli!” deyə əmr edib yüksək səslə camaat namazının qılınmasına səslədi. Onlarla günorta namazı qıldıqdan sonra buyurdu: “Ey camaat! Allah mənim mövlamdır. Mən möminlərin mövlasıyam və onlara öz nəfslərindən daha övlayam (ixtiyar sahibiyəm). Agah olun ki, mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, onu sevəni sev, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et, onu yalnız buraxanı Sən də tərk et”.

Salman Farisi ayağa qalxaraq dedi: “Ya Peyğəmbər! Onun bu vəlayəti nədir?” Buyurdu: Onun vilayəti mənim vilayətim kimidir. Mən kimə öz canından daha övlayamsa (üstün, ixtiyar sahibiyəmsə), Əli də onun canına ondan daha çox ixtiyar sahibidir. Uca Allah da bu ayəni nazil etdi: ***“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim”.***[4]

Salman dedi: “Ya Peyğəmbər! Bu ayələr xüsusi olaraq Əli haqqında nazil olub?” Peyğəmbər (s) buyurdu: “Onun və qiyamətə qədər onun vəsilərinin haqqında nazil olub”.

---

[1] “Nisa” surəsi, ayə 59.

[2] “Maidə” surəsi, ayə 55.

[3] “Tövbə” surəsi, ayə 16.

[4] “Maidə” surəsi, ayə 3.

Sonra buyurdu: “Ey Salman, sən də və burada olanlar da şahid olun, bunu burada olmayanlara çatdırın”.

Salman Farsi dedi: “Ya Peyğəmbər! Onların kim olduğunu bizə açıqla”.

Buyurdu: “Qardaşım, vəzirim, varisim və ümmətim arasında xəlifəm, məndən sonra hər möminin vəlisi olan Əli və onun övladlarından gələcək on bir imam. Onlardan (on bir imamdan) birincisi oğulum Həsəndir, sonra oğulum Hüseyn, sonra Hüseynin övladlarından bir-birindən sonra doqquz imam. Onlar Quranla və Quran onlarladır. Hovuzda mənə çatana qədər onlar Qurandan, Quran da onlardan əsla ayrılmayacaq”.

Bədr əhlindən on iki nəfər ayağa qalxıb dedilər: “(Ey Əli,) Biz şəhadət veririk ki, sənin söylədiklərini bir hərf artırıb və azaltmadan Peyğəmbərdən (s) eynilə eşitmişik. Peyğəmbər (s) bizi buna şahid tutmuşdur”. Yetmiş nəfərdən qalanları dedilər: “Biz bunu eşitmişik, yalnız hamısını yadda saxlaya bilməmişik. Bu on iki nəfər bizim yaxşılarımız və fəzilətlilərimizdir”. İmam Əli (ə) buyurdu: “Düz dediniz, hər kəs əzbər yadda saxlaya bilməz, insanlardan birinin yaddaşı digərindən daha güclü olur”.

Bədr əhlindən olan on iki nəfərdən dördü: Əbu Heysəm ibn Teyhan, Əbu Əyyub Ənsari, Əmmar ibn Yasir və (iki şəhadət sahibi) Xuzeymə ibn Sabit ayağa qalxaraq dedilər: “Biz şahidlik edirik ki, Peyğəmbərin (s) o gün söylədiklərini eşidib eynilə əzbərlədik. O, həmin vaxt ayaq üstə dayanmış və Əli də yanında durmuşdu. Sonra Peyğəmbər (s) buyurdu: “Ey camaat! Allah mənə sizin üçün bir imam və vəsi təyin etməyimi əmr edib ki, sizin aranızda peyğəmbərinizin vəsisi, məndən sonra ümmətimə və Əhli-Beytimə xəlifəm olsun. O, Allahın Öz kitabında itaətini möminlərə vacib buyurduğu və vilayətlərini əmr etdiyi şəxsdir. Mən Rəbbimə müraciət edib dedim: “Ey Rəbbim! Nifaq əhlinin inkarından və atacaqları böhtanlarından qorxuram”. Allah da mənə ya təbliğ etməmi, ya da əzab göndərəcəyini vəd etdi. Ey camaat! Uca Allah kitabında sizə namazı əmr etdi. Mən də sizə açıqladım və tətbiq etdim. Zəkatı, orucu və həcci əmr etdi. Onları da sizə açıqlayıb təfsir etdim. Kitabında sizə vilayəti əmr etdi. Ey camaat, sizi şahid tuturam ki, bu vilayət yalnız Əli ibn Əbu Talibə, mənim və vəsim olan qardaşımın övladlarından olan vəsilərə məxsusdur. Onların birincisi Əli, sonra Həsən, sonra Hüseyn, sonra oğlum Hüseynin övladlarından doqquz nəfər. Hovuzun başında mənə qovuşana qədər onlar Qurandan, Quran da onlardan ayrılmazlar.

Ey camaat! Məndən sonra sığınacağınız şəxsi, imamınızı, vəlinizi və hidayətçinizi sizə tanıtdım. Bu, qardaşım Əli ibn Əbu Talibdir. O, aranızda mənim kimidir. Dininizdə ona boyun əyin və bütün işlərinizdə ona itaət edin.

Uca Allahın mənə öyrətdiyi hər bir şey ondadır. Uca Allah bunları yalnız ona öyrətməyimi, sizə də bunların onun yanında olduğunu bildirməyimi əmr etdi. Ondan soruşun, ondan və ondan sonrakı vəsilərindən öyrənin. Onlara bir şey öyrətməyə və ya onlardan önə keçməyə cəhd göstərməyin, onlardan ayrılmayın. Onlar haqq ilə, haqq da onlarladır. Onlar haqqı, haqq da onları zay etməzlər".

## Kisa[1] hədisi və "Təthir" ayəsi

Sonra Əli (ə) Əbu Dərdaya, Əbu Hüreyrəyə və ətrafındakılara belə dedi: "Ey camaat! Bilmirsinizmi ki, Uca Allah kitabında bu ayəni nazil edib: ***"Ey Əhli-Beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[2] Peyğəmbər (s) məni, Fatiməni, Həsən və Hüseyni bir kisanın altında yığaraq buyurdu: "İlahi, bunlar mənim itrətim, mənə aid olanlar və Əhli-Beytimdirlər. Onlardan bütün pislikləri uzaqlaşdır və onları pak-pakizə qərar ver". (Orada olan) Ümmü Sələmə dedi: "Ya Peyğəmbər, bəs mən?" Peyğəmbər (s) ona buyurdu: "Sən xeyir üzərindəsən. Amma bu ayə məxsusən yalnız mənim, qardaşım Əlinin, qızım Fatimənin, övladlarım Həsən ilə Hüseyn və Hüseynin doqquz övladı haqqında nazil olmuşdur. Bizdən başqa kimsə yoxdur".

Hamı ayağa qalxıb dedilər: "Biz şahidlik edirik ki, Ümmü Sələmə bizə bunu belə danışıb. Biz də Peyğəmbərdən (s) soruşduq, o da eynilə bizə Ümmü Sələmənin dediyi kimi danışdı.

## Qurandakı sadiqlər (doğruçular) imamlardır (ə)

Əli (ə) buyurdu: "Uca Allahın öz kitabında belə buyurduğunu bilmirsiniz: ***"Ey iman gətirənlər! Allahdan qorxun və doğru olanlarla (sadiqlərlə) birgə olun!"***[3] Salman dedi: "Ya Peyğəmbər, bunlar ümumi və ya xüsusi insanlardır?". Peyğəmbər (s) buyurdu: "Əmr olunanlar ümumidir. Çünki möminlər buna əmr olunublar. Sadiqlər isə xüsusi olaraq qardaşım Əli ibn Əbu Talib və qiyamət gününədək ondan sonrakı vəsilərdirlər".

Əli (ə) dedi: "Təbuk savaşında Peyğəmbərə (s) dedim: "Ya Peyğəmbər, məni niyə burada qoyursan (özünlə döyüşə aparmırsan)?" Buyurdu: "Ey Əli, mən və ya sən olmasan Mədinə asayişdə olmaz. Sənin mənə nisbətin Harunun Musaya nisbətidir, peyğəmbərlikdən savayı. Çünki məndən sonra peyğəmbər yoxdur".

---

[1] Kisa – çiyinə atılan bir növ əba.

[2] "Əhzab" surəsi, ayə 33.

[3] "Tövbə" surəsi, ayə 119.

Ənsar və mühacirlərdən orada olan bir dəstə ayağa qalxıb dedilər: "Təbuk savaşında biz bunu həqiqətən də Peyğəmbərdən (s) eşitmişik".

## Quranda insanlar arasındakı şahidlər imamlardır (ə)

Əli (ə) buyurdu: Allahı sizə şahid tuturam, Uca Allahın "Həcc" surəsində buyurur: ***"Ey iman gətirənlər! Rüku edin, səcdəyə qapanın; Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız! Allah yolunda layiqincə cihad edin. O (Öz dini üçün) sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı - atanız İbrahimin dini kimi. Allah bundan (Quran nazil olmamışdan) əvvəl də, bunda (Quranda) da sizə müsəlman adını verdi ki, (qiyamət günü) Peyğəmbər sizə, siz də insanlara şahid olasınız. Elə isə namaz qılın, zəkat verin və Allaha sığının. (Allah) sizin ixtiyar sahibinizdir. O nə yaxşı ixtiyar sahibi, necə də gözəl imdada yetəndir!"***[1] Həmin vaxt Salman qalxıb demişdi: "Ya Peyğəmbər, sənin onlara, onların da insanlar şahid olduğu, Allahın seçdiyi və Allahın, ataları İbrahimin dinində olduğu kimi onlar üçün dində heç bir çətinlik yeri qoymadığı bu şəxslər kimlərdir?"

Rəsulullah (s) buyurdu: "Allah bu ayədə on üç nəfəri qəsd edir: mən, qardaşım Əli ibn Əbu Talib və onun övladlarından bir-birinin ardınca on bir nəfər. Onların hamısı imamdırlar. Onlar Quranla, Quran onlarladır. Hovuz başında mənə quvuşanadək bir-birlərindən ayrılmazlar".

Dedilər: "İlahi, bəli, elədir".

## Səqəleyn hədisi və on iki imamın adının qeyd edilməsi

İmam Əli (ə) buyurdu: "Allah xatirinə söyləyin! Bilmirsinizmi Peyğəmbər (s) ən son xütbəsində nə buyurdu?! "Ey camaat! Sizin aranızda iki şeyi əmanət qoyuram. Əgər onlara sarılsanız əsla azmayacaqsınız: Uca Allahın kitabı və itrətim olan Əhli-Beytim. Lütf sahibi və hər şeydən xəbərdar olan Allah mənə xəbər verib ki, bu ikisi hovuzun başında mənə qovuşanadək bir-birlərindən əsla ayrılmayacaqlar".

Dedilər: "İlahi, bəli, Allah qarşısında biz bunların hamısını Peyğəmbərdən eşitdiyimizə şəhadət veririk".

Əli (ə) dedi: "Allah mənə kifayət edər!"

Bədr əhlindən on iki nəfər ayağa qalxaraq dedilər: "Biz şahidik ki, Peyğəmbər vəfat etdiyi gün bunları buyurarkən Səhhakın oğlu sanki qəzəbli bir halda demişdi: "Ey Peyğəmbər! Onların hamısı Əhli-Beytindir?"

---

[1] "Həcc" surəsi, ayə 77-78.

Buyurdu: “Xeyr, vəsilərimdir. Onlardan Əli qardaşım, vəzirim, varisim, ümmətimdə xəlifəm, məndən sonra hər möminin vəlisidir. Ondan sonra on bir vəsi var. O, vəsilərin birincisi və ən xeyirlisidir. Onun vəsisi bu iki oğlum (əlilə Həsənə və Hüseynə işarə etdi), sonra oğlum Hüseynin vəsisi, o, qardaşımın adaşıdır. Sonra onun övladı olan vəsisi, o da mənim adaşım Muhəmməddir. Sonra Cəfər ibn Muhəmməd, Musa ibn Cəfər, Əli ibn Musa, Muhəmməd ibn Əli, Əli ibn Muhəmməd, Həsən ibn Əli, sonra ümmətin Mehdisi olan Muhəmməd ibn Həsəndir. Adı adımdan, qanı qanımdandır, mənim əmrimlə əmr edəcək, qadağalarımla çəkindirəcək. Yer üzü günah və zülmlə dolduğu kimi onu haqq və ədalətlə dolduracaq. Biri digərinin ardınca gəlir. Hovuzun başında mənə qovuşacaqlar. Allahın yer üzündəki şahidləri və məxluqları üzərindəki höccətləridir. Hər kim onlara itaət etsə Allaha itaət etmiş, onlara qarşı çıxan isə Allaha qarşı çıxmışdır”.

Bədr əhlindən olan yetmiş nəfər və bir o qədər də mühacir ayağa qalxaraq dedilər: “Unutduğumuzu bizə xatırlatdın. Həqiqətən də biz bunların hamısını Peyğəmbərdən (s) eşitmişdik”.

Sonra digər suallara keçib Əffanın oğlunun[1] xilafəti barədə Peyğəmbər (s) məscidində ondan soruşulanların heç birini cavabsız buraxmadı, onları şahid tutaraq öz fəzilətləri və Peyğəmbərin (s) onun barəsində söylədiklərini sonunadək söylədi. Orada olan hər bir kəs onu təsdiqləyir, sözlərinin həqiqət olduğuna və onları Peyğəmbərdən (s) eşitdiklərinə şəhadət verirdilər.

## 5. Müaviyənin Əliyə (ə) yazdığı cavab

Əbu Dərda və Əbu Hüreyrə bütün bunları və camaatın ona verdiyi cavabları söylədikdə Müaviyə dedi: “Əgər bu söylədiklərinizin hamısı doğrudursa, o zaman özündən (Əlidən (ə)) və Əhli-Beytindən savayı, bütün mühacir və ənsar həlak olmuşdur demək”.

## Əmirəl-möminin Əlinin (ə) təqiyyəsi

Sonra Müaviyə Əliyə (ə) belə bir məktub yazdı: “Əgər söylədiklərin, iddia etdiklərin və səhabələrinin verdikləri şəhadət doğrudursa, demək səndən, Əhli-Beytindən və şiələrindən savayı, hamı bütün mühacir və ənsar məhv olmuşdur.

Ancaq sənin onlar üçün rəhmət dilədiyin və istiğfar etdiyin barədə mənə xəbərlər çatıb. Bunun iki tərəfi ola bilər, üçüncüsü yoxdur. Ya təqiyyə edirsən, onlardan uzaq olduğunu aşkar şəkildə söyləmirsən ki, mənimlə savaşa gətirdiyin insanların ətrafından dağılacağından qorxursan, ya da iddian batil və yalandır.

[1] Kitabdakı 11-ci hədisdə İmam Əlinin (ə) Əffanın oğlunun xilafəti ilə bağlı sözlərinə müraciət et.

Sənin etimad etdiyin şəxslərdən biri mənə çatdırıb ki, sən öz azmış və pisliklə dolu tərəfdarlarına belə deyirsən: "Mən üç oğluma Əbu Bəkr, Ömər və Osman adlarını qoydum. Nə zaman bu üç şəxsin adına rəhmət dilədiyimi eşitsəniz, bilin ki, məhz oğullarıma rəhmət diləyirəm".

## Səqifədə Müaviyənin müşahidələri

Mənə verilən xəbərlərin və xəbəri gətirənlərin doğruluğunun dəlili bunları səni öz gözlərimizlə görməmizdir. Bu məsələdə başqasından soruşmağa ehtiyacımız yoxdur. Əbu Bəkrə beyət olunduğu günlərdə səni öz xanımın Fatiməni ulaq üzərində, iki oğlun Həsən və Hüseynin əllərindən tutmuş vəziyyətdə Bədr əhlini və ilk iman gətirən şəxsləri yardıma çağırdığını, dörd nəfərdən: Salman, Əbu Zərr, Miqdad və Zübeyrdən başqa heç kəsi tapmadığını görmüşük. Ömrümə and olsun ki, əgər haqlı olsaydın onlar sənə müsbət cavab verər və yardım edərdilər. Lakin onların da təsdiq etmədiyi batil bir şeyi iddia edirdin.

Əbu Süfyanın sənə "Ey Əbu Talibin oğlu, səltənət məsələsində əmin oğluna məğlub oldun. Sənə qalib gələnlər Qüreyşin ən rəzil Təmim (Teym) və Üdey qəbilələrindən olanlardır" deyib yardım təklif etdiyini öz qulaqlarımla eşitmişəm. Sən isə: "Əgər mühacir və ənsardan qırx nəfər mənə yardım edən tapsaydım buna (Yaşlı səhabəyə) qarşı çıxardım" deyə cavab verdin. Bu dörd nəfərdən başqa köməkçin olmadığını görüb məcbur edilərək beyət etdin.

## 6. İmam Əlinin (ə) Müaviyəyə cavabı

Süleym deyir: "Əmirəl-möminin (ə) onun məktubuna belə cavab yazdı: "Rəhman və Rəhim olan Allahın adı ilə! Sənin məktubunu oxudum. Əlinlə yazdıqlarından, sözünün uzunluğundan, ümmətin başına gələn böyük bəladan və sənin kimi birisinin bu ümmətin camaatı və seçilmişləri adından danışıb, nəzər yürütməsi təəccübümü daha da artırdı. Sən kim olduğunu və kimin oğlu olduğunu, mənim də kim olduğumu və kimin oğlu olduğumu yaxşı bilirsən!

Yazdığın məktuba yaxında cavab verəcəyəm. Amma nə sənin, nə də sənin eyni fikirdə olan vəzirin Nabiğənin oğlu Əmrin anlayacağını düşünmürəm. Sənə bu məktubu yazmağı o əmr etdi və sözlərini sənin üçün bəzədi. İblislə səhabələri də bu işdə hazır idilər.

Allaha and olsun, Peyğəmbər (s) mənə xəbər verib və tanıdıb ki, minbərinin üzərində on iki nəfər Qüreyşdən olan azdırıcı rəhbərlərin, onların minbərinə dırmandığını və meymun sifətində oradan endiyini görmüşdür. Onlar ümmətini doğru yoldan azdıranlardır. Onların adlarını, hər birinin nə qədər şahlıq

edəcəyini bir-bir mənə bildirib. Onlardan on nəfər Bəni-Üməyyədən, ikisi isə Qüreyşin iki fərqli qəbiləsindəndirlər. Bütün ümmətin yükü və onların əzabları qədər yük və əzab bu iki kəsrin üzərindədir. Haqsız yerə axıdılan elə bir qan, haram olan elə bir namus və yanlış verilən elə bir hökm yoxdur ki, yükü bu ikisinin vəbalında olmasın.

Peyğəmbərin (s) belə dediyini eşitdim: "Əbul-As oğulları otuz nəfərə çatdıqda Allahın kitabını camaatı aldatmaq, Allah bəndələrini özlərinə kölə və vardövləti (beytul-malı) isə öz sərvətləri edərlər".

Peyğəmbər (s) mənə dedi: "Ey qardaşım, sən mənim kimi deyilsən. Uca Allah mənə haqqı aşkar bəyan etməyimi əmr etdi və məni insanlardan qoruyacağını bildirdi, mənə tək olsam belə savaşmağı əmr elədi və buyurdu: ***"Allah yolunda vuruş (cihad et). Sən yalnız özünə cavabdehsən,.."***[1] Sonra buyurdu: ***"...lakin möminləri də (cihada) təşviq et!"***[2]**.** Savaşanlar mən və sən idik. Məkkədə qaldığım müddətdə savaşmağa əmr olunmamışdım. Sonra Allah mənə vuruşmağı əmr elədi. Çünki din, şəriət, sünnə, əhkam, hədd, halal və haramlar yalnız mənimlə tanınacaqdı.

Məndən sonra camaat Allahı və mənim sənin barəndə onlara əmr etdiklərimizi, vilayətini və höccətini cəhalət üzündən deyil, heç bir şübhəyə düşmədən və bilərəkdən tərk edəcəklər. Xüsusilə də Allahın sənin barəndə nazil etdiklərinə əvvəllər göstərdikləri müxalifəti göstərəcəklər. Əgər onlara qarşı yardım tapsan, onlarla savaş, əgər yardımın olmasa canını qoru. Belə ki, əgər onlara qarşı çıxsan səni öldürəcəklər. Əgər sənə tabe olub itaət etsələr, onları haqqa tərəf çək, əks təqdirdə onları tərk et. Sənə müsbət cavab versələr və (sonra onlardan kimsə) sənə qarşı çıxsalar, onlara qarşı ayağa qalx və savaş. (Yenə də) yardımın olmazsa, əlini dinc saxlayıb qanını qoru. Bil ki, sən dəvət etdikdə onlar müsbət cavab verməyəcəklər. Amma sən bunu (dəvəti) tərk etmə ki, onlara qarşı höccətin tamamlansın.

Həqiqətən də, ey qardaşım, sən mənim kimi deyilsən. Mən onlara sənin barəndə olan dəlilləri təqdim etdim, Allahın sənin barəndə endirdiklərini bəyan etdim. Heç kimin mənim haqqı və itaəti vacib olan bir Allah elçisi olduğumu bilmədiyi vaxtda bunu sənə bildirdim. Eləcə də sənin dəlillərini və məsələni onlara bəyan etdim. Əgər onların barəsində sussan, günah etmiş olmazsan, əgər hökm verib haqqa dəvət etsən, yenə də günah etməmiş olacaqsan. Ancaq onlar qəbul etməsələr və sənə müsbət cavab verməsələr belə onları dəvət etməyini istəyirəm.

---

[1] "Nisa" surəsi, ayə 84.

[2] Həmin ayə.

Qüreyşin zalımları sənin üzərinə qalxacaqlar. Sənə yardım edəcək və qolunu qüvvətləndirəcək bir dəstən olmadan onlarla savaşsan səni öldürəcəklərindən qorxuram. Bununla da Allahın nurunu söndürərlər və yer üzündə Allaha ibadət edən bir nəfər belə qalmaz. Təqiyyə Allahın dinindəndir, təqiyyəsi olmayanın dini də olmaz.

Uca Allah bu ümmət arasında təfriqə və ixtilafların olacağına hökm verib. Əgər Allah istəsəydi onları hidayət üzərinə cəm edərdi, ta ki, məxluqlarından iki nəfər bir-birilə əsla ixtilaf eləməz, onun əmrləri barədə heç vaxt münaqişəyə düşməz və rəyət əhli əsla fəzilət sahibinin öz üzərindəki fəzilətini danmazdı. Əgər Allah istəsə intiqamını tezləşdirər və bu da Ondan Öz hökmünə bir dəyişiklik olar və nəticədə zalım inkar olunar, haqq bilinər və haqqın harada olduğu əyan olar. Lakin dünyanı əməl evi, axirəti isə savab yeri etmişdir. Belə ki, ***"Allah pislik edənlərə əməllərinin cəzasını verəcək, yaxşılıq edənləri isə ən gözəl mükafatla mükafatlandıracaqdır!"***[1]

Dedim: "Həmd olsun Allah, şükür edirəm nemətlərinə, imtahanları qarşısında səbir edir və qəzalarına da təslim olub, razılıq göstərirəm".

Sonra buyurdu: "Ey qardaşım, müjdələn! Həqiqətən də sənin həyatın da, ölümün də mənimlədir. Sən mənim qardaşım, vəsim, vəzirim, varisim, sünnətim uğrunda savaşansan. Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbətindədir. Sənin üçün Harunda gözəl nümunə var. (Belə ki,) onu da qövmü zəiflətmiş və az qalırdı ki, öldürəcəkdilər.

Qüreyşin sənə olan zülmünə və sənə qarşı çıxmalarına səbr elə. Bir dəstə insanın qəlbində sənə qarşı olan nifrət, Bədrin qəzəbi və Ühüdun qisas istəyi var.

Musa Harunu öz qövmünə xəlifə olaraq təyin etdikdə ona belə əmr etmişdi: "Əgər azsalar və sənin də dəstəyin olsa, yardımçılarınla birgə onlara qarşı mübarizə apar. Əgər yardımın olmasa, özünü təhlükəyə atma, canını qoru və onlarla əlaqəni kəsmə". Sən də belə et. Əgər dəstəyin olsa onlara qarşı mübarizə apar. Əgər yardımın olmasa, özünü təhlükəyə atma və canını qoru. Əgər onlara qarşı köməksiz çıxsan, səni öldürəcəklər. Əgər sənə tabe olub itaət etsələr, onları haqqa doğru çək.

Bil ki, əgər yardımın olmadan özünü təhlükəyə atıb canını qorumasan, insanların yenidən bütlərə ibadət etməyə qayıdacaqlarından və mənim peyğəmbərliyimi inkar edəcəklərindən qorxuram. Elə isə, onlara öz dəlillərini bəyan et, qoy sənə qarşı qəlbində nifrət və kin olanlar, sənə qarşı üsyan edənlər həlak olsunlar, camaat və tərəfdarların isə salamatda qalsınlar. Əgər bir gün

---

[1] "ən-Nəcm" surəsi, ayə 31.

kitab və sünnəni bərpa etməyə yardımın olsa, Quranın zahiri uğrunda mənim savaşdığım kimi sən də Quranın təvili uğrunda onlarla savaş. Ümmətdən sənə və sənin vəsilərindən birinə qarşı ədavəti olan, üsyan qaldıran və sizin dininizin xilafına özlərinə din yaradan kəslər mütləq həlak olacaqlar.

And olsun ömrümə, ey Müaviyə, əgər sənə, Təlhəyə və ya Zübeyrə rəhmət diləsəm və bağışlanma diləsəm, bu dualarım batili haqqa çevirməz. Əksinə, bu istiğfar və rəhmət diləklərimi Uca Allah sizin üçün lənət və əzab qərar verər. Sənin, Təlhənin və Zübeyrin günahlarınız, azğınlıqlarınız, bidətləriniz və yanlışlarınız sənə və qanını tələb etdiyin dostuna (Əffanın oğluna) zəmin hazırlayan, biz Əhli-Beytə zülm yolunu açan və sizi bizə müsəllət edən kəslərin günahından az deyil. Uca Allah buyurur: ***“(Ya Rəsulum!) Kitabdan bir pay (az bir şey) verilənləri görmürsənmi? Onlar bütə və tağuta inanır və kafirlər üçün də: “Bunlar möminlərdən daha doğru yoldadırlar”, -deyirlər. Onlar Allahın lənət etdiyi kimsələrdir. Allahın lənət etdiyi kimsəyə isə heç bir kömək edən tapa bilməzsən! Yoxsa onların (dünyada) mülkdən (hökmranlıqdan) bir payı vardır? Əgər elə olsaydı, onlar insanlara xurma çərdəyinin bir tumurcuğunu (zərrəsini) belə verməzdilər. Yoxsa onlar Allahın öz nemətindən bəxş etdiyi şeylərə görə insanlara həsəd aparırlar?”.***[1] Nemət bəxş edilən insanlar da və həsəd olunanlar da bizlərik.

Yenə də Uca Allah buyurur: ***“Halbuki Biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk (hökmranlıq) bəxş etmişdik. Onlardan kimisi ona iman gətirdi, kimisi də ondan üz döndərdi. (Üz döndərənlərə) Cəhənnəmin alovlanmış odu kifayət edər!”.***[2]

***“Böyük mülk (hökmranlıq)”*** Allahın onların arasında imamlar qərar verməsi, onlara itaətin Allaha itaət, onlara qarşı üsyanın Allaha, kitabına və Peyğəmbərinin hikmətlərinə qarşı üsyan olduğunu buyurmasıdır. Nə üçün bunu Ali-İbrahim haqqında təsdiq etdiyiniz halda Ali-Muhəmməd barəsində inkar edirsiniz?!

Ey Müaviyə, əgər sən, yoldaşların və sənin tərəfində olan şamlı, yəmənli, bədəvi ərəblər, Rəbiə və Müzərrin[3] üsyankar zalım və tağutları bunu inkar edirsinizsə, bilin ki, Uca Allah inkar etməyən bir camaatı buna vəkil eləmişdir!

Ey Müaviyə, həqiqətən də Quran haqq, nur, hidayət, rəhmət və möminlər üçün şəfadır. İman gətirməyənlərin qulaqlarında isə Quran bir ağırlıq və (qəlb) gözlərinə korluqdur.

---

[1] “Nisa” surəsi, ayə 51-54.
[2] “Nisa” surəsi, ayə 54-55.
[3] Əhalilərinin say çoxluğu ilə məşhur olan iki qəbilədir.

Ey Müaviyə, elə bir azmış insan dəstəsi, oda dəvət edən elə bir kəs yoxdur ki, Uca Allah Quranda onları inkar edib, əleyhlərinə dəlillər göstərib, camaatı onlara tabe olmaqdan çəkindirməsin. Onlar barəsində danışan və qəti Quran nazil etmişdir ki, bir dəstə onu bilir, bir dəstə isə xəbərsizdir. Mən Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Quranın elə bir ayəsi yoxdur ki, onun bir zahiri, bir də batini olmasın, elə bir hərfi yoxdur ki, onun təvili olmasın. ***"Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan və elmdə qüvvətli olanlardan başqa heç kəs bilməz".***[1] Elmdə qüvvətli olanlar biz Ali-Muhəmmədik.

Uca Allah ümmətin digər üzvlərinə belə deməyi əmr edib: ***"Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır"***[2]. Bizə təslim olmağı, onun elmini bizə buraxmağı əmr edib. Uca Allah buyurur: ***"Halbuki əgər bunu Peyğəmbərə və ya özlərindən olan əmr sahiblərinə demiş olsaydılar, əlbəttə, həmin xəbəri onun mahiyyətinə varmaq istəyənlər bilərdilər".***[3] Soruşanlar və öyrənmək istəyənlər onlardır (yəni ümmətin yerdə qalanları).

## Müaviyə barəsində nazil olmuş iki ayə

Ömrümə and olsun, əgər Peyğəmbər (s) vəfat etdikdən sonra camaat bizə tabe olub, itaət etsəydi, işlərində bizi nümunə götürsəydilər başları üzərindən və ayaqları altından bol-bol nemətlər əldə edərdilər. Sən də, ey Müaviyə, xilafətə göz dikməzdin! Bizim barəmizdə əldən verdikləri bizim onlardan itirdiklərimizdən olduqca çoxdur.

Allah Quranda mənim və sənin barəndə bir ayə endirmişdir ki, sən və sənin tayların onun zahirini oxuyur, təvilini və batinini isə bilmirsiniz. Bu, "Haqqə" surəsindəki ayədir: ***"Əməl dəftəri sağ əlinə verilən kimsə deyəcəkdir: "Alın, əməl dəftərimi oxuyun!"*** ayəsindən ***"Əməl dəftəri sol əlinə verilən isə deyəcəkdir: "Kaş əməl dəftərim mənə verilməyəydi! Hesabımın nə olduğunu bilməyəydim!"***[4]ayələrinin sonunadək. Həmin gün həm azğınlıq, həm də hidayət imamları çağrılacaq. Onlarla birgə onlara beyət etmiş əshabları da olacaqlar. Mən də, sən də çağrılacağıq.

Ey Müaviyə, sən bu sözlərin sahibisən: ***"Kaş əməl dəftərim mənə verilməyəydi! Hesabımın nə olduğunu bilməyəydim! Kaş o (ölüm) qəti (əbədi) olaydı! (Bir daha dirilib bu əzabı görməyəydim!) Mal-dövlətim mənə heç bir fayda vermədi (Allahın əzabını məndən dəf edə bilmədi). Mülküm (səltənətim)***

[1] "Ali-İmran" surəsi, ayə 7.
[2] "Ali-İmran" surəsi, ayə 7.
[3] "Nisa" surəsi, ayə 83.
[4] "Haqqə" surəsi, ayə 19-37.

***də məhv olub getdi!"***[1] bunu Peyğəmbərdən (s) sənin, həmçinin bütün səndən əvvəlki və sonrakı zəlalət imamları barəsində, onların Allah tərəfindən rüsvay ediləcəyini və əzaba düçar olacaqlarını söyləyərkən eşitmişəm.

## Bəni-Ümməyə barəsində nazil olan ayə

Sizin barənizdə Allahın bu ayəsi nazil olub: ***"Sənə göstərdiyimiz röyanı və Quranda lənətlənmiş ağacı (şəcərəni) insanlar üçün yalnız bir imtahan etdik"***[2]**.** Bu ayə Peyğəmbərin (s) özündən sonra on iki zəlalət başçısının meymunlar şəklində minbərinə daraşdığını gördüyü zaman nazil olub. Onlar ümməti köhnə hallarına qaytarırdılar. Onlardan ikisi Qüreyşin iki fərqli qəbiləsindən, onu isə Bəni-Üməyyədəndir. On nəfərdən ilki qanını tələb etdiyin dostun, sonra sən, oğlun, yeddi nəfəri də Həkəm ibn Əbul-Asın[3] övladlarıdır. Onlardan birincisi Mərvandır. Həqiqətən də o (Həkəm) Peyğəmbərin (s) qadınlarının söhbətlərinə qulaq asarkən yaxalanmış və Peyğəmbər (s) onu lənətləyərək yanından qovmuşdu.

Ey Müaviyə, Biz o Əhli-Beytik ki, Allah bizim üçün axirəti dünyadan üstün tutmuşdur. Bizim üçün dünyanın mükafat olmasına razı olmamışdır. Sən, vəzirin də dəyərsiz yoldaşın Peyğəmbərin (s) belə buyurduğunu eşitmisiniz: "Əbul-As oğulları otuz nəfərə çatdıqda Allahın kitabını camaatı aldatmaq, Allah bəndələrini özlərinə kölə və var-dövləti (beytul-malı) isə öz sərvətləri edərlər".

Ey Müaviyə, Allahın peyğəmbəri Zəkəriyyə (ə) mişar ilə doğrandı, Yəhyanın (ə) başı kəsildi, o, insanları Allaha tərəf dəvət etdiyi halda qövmü onu öldürdü. Bunlar Allahın dünyaya dəyər verməməsinin dəlilidir. Ta qədimdən bəri Şeytanın dostları Allah övliyaları ilə savaşdılar. Uca Allah buyurur: ***"Allahın hökmlərini inkar edənlərə, peyğəmbərləri haqsız yerə öldürənlərə, insanları ədalətə çağıranların canına qəsd edənlərə şiddətli əzab veriləcəyini xəbər ver!"***[4]

---

[1] "Haqqə" surəsi, ayə 25-29.
[2] "İsra" surəsi, ayə 60.
[3] Əllamə Əmini "Ğədir" kitabında rəvayət edir ki, Həkəm cahiliyyə vaxtlarında Peyğəmbərin (s) qonşusu olub və ona çox əziyyətlər verib. Məkkə fəth olunduqdan sonra isə Mədinəyə köçüb. Din barəsində şübhədə idi. Peyğəmbər yol gedərkən onun ardınca gedir, ətrafdakılara göz vurur, ağız-burnunu oynadırdı.
Bir gün Peyğəmbər (s) xanımı ilə birgə evdə olarkən Həkəm başını icazəsiz pəncərədən içəri salmış və söhbəti dinləmişdi. Bundan sonra Peyğəmbər "Həkəm və oğullarının Mədinədə yaşamaq haqları yoxdur" deyərək, onları lənətləmiş və Taifə sürgün etmişdi.
[4] "Ali-İmran" surəsi, ayə 21.

Ey Müaviyə, Peyğəmbər (s) mənə xəbər verib ki, ümməti mənim saqqalımı başımın qanına bulayacaq. Mən şəhid olacağam. Məndən sonra sən xilafəti ələ keçirəcəksən, sonra oğlum Həsəni namərdcəsinə zəhərləyib öldürəcək; oğlun, zinakar qadının balası Yezid (lənətullah) oğlum Hüseyni şəhid edəcək.

## Bəni-Üməyyənin ümmətə müsəllət olması

Səndən sonra ümmətin başına Əbul-As və Həkəm ibn Mərvanın oğullarından yeddi nəfərin əlinə keçəcək. Onlardan beşi Mərvanın övladlarıdır. Bununla da on iki zəlalət imamının saylarını tamamlanacaq. Peyğəmbər (s) onların meymun kimi öz minbərində tullandıqlarını, bu ümməti Allahın dinindən köhnə dinlərinə çevirdiklərini görüb. Onlar qiyamət günü insanlardan ən çox əzab görəcək kəslərdir. Həqiqətən Allah şərqdən gələcək qara bayraqlarla onları xilafətdən düşürəcək, onları zəlil edəcək, gördükləri hər yerdə onları öldürəcəklər.

## İmam Əlinin (ə) Mehdinin (ə) zühuru barədə xəbəri

Sanki sənin övladlarından bədbəxt, lənətlənmiş, axmaq, daş ürəkli və kobud bir nəfəri görürəm. Allah onun qəlbindən şəfqət və mərhəməti çıxarmışdır. Dayıları Kəlb qəbiləsindəndir (və ya itdir). Sanki mən ona baxıram, əgər istəsəm onun adını, vəsflərini və neçə yaşı olduğunu da deyə bilərəm.

Mədinəyə bir ordu göndərəcək, oraya daxil olub qətl və iyrənc işlər görməkdə həddi aşacaqlar. Övladlarımdan pak və saf biri bu vaxt yer üzünü zülm və fəsadla dolduğu kimi haqq və ədalətlə dolduracaq. Mən onun adını, həmin vaxt neçə yaşı olduğunu və əlamətlərini bilirəm. O, sənin oğlun Yezidin qətlə yetirəcəyi oğlum Hüseynin övladlarındandır. O, atasının qanının intiqamı üçün ayağa qalxacaq. O Məkkəyə gedəcək. Ordunun sahibi mənim övladlarımdan pak və təmiz bir şəxsi zeytun ağaclarının altında qətlə yetirəcək.

Sonra ordusu Məkkəyə tərəf hərəkət edəcək. Mən onların başçılarının adını, saylarını, əsgərlərinin və hətta atlarının xüsusiyyətlərini də bilirəm. Beydaya daxil olduqda Allah onları yerin dibinə batıracaq. Uca Allah buyurur: ***“Sən onları bir qorxduqları zaman görəydin! Artıq qaçıb can qurtarmağa heç bir imkan yox, özləri də yaxın bir yerdə yaxalanmışlar”.***[1] Yəni, ayaqlarınızın altından. Bu ordudan yalnız bir nəfər sağ qalacaq ki, onun da üzünü Allah arxasına çevirəcək.

[1] “Səba” surəsi, ayə 51.

Allah Mehdinin ordusunu payız buludları toplandığı kimi dünyanın dörd bir tərəfindən toplayacaq. Allaha and olsun, mən onların adlarını, başçılarının adını və miniklərinin dayanacaqlarını da bilirəm. Mehdi Kəbəyə daxil olacaq, yalvarıb ağlayacaq. Uca Allah buyurur: ***"Yaxud əli hər yerdən üzülüb darda qalan birisi Ona dua etdiyi zaman onun duasını qəbul buyuran, şəri sovuşduran, sizi yer üzünün xəlifələri edən kimsə?"***[1] Buradakı xəlifələr biz Əhli-Beytik.

## Müaviyə ilə yazışmaqda İmam Əlinin (ə) hədəfi

Ancaq, ey Müaviyə, bu məktublarımın sənə faydasının olmayacağını bilirəm. Bəlkə də məndən sonra sənin və oğlunun ümmətə başçı olacağı xəbərinə sevinirsən. Axirətdən sənin heç bir payın yoxdur. Çünki sən axirəti inkar edənlərdənsən. Amma yaxın zamanda sənin üçün bu işin təməlini hazırlayanlar peşman olduğu kimi sən də peşman olacaqsan. Sonrakı peşmançılığın isə faydası yoxdur.

Məni sənə məktub yazmağa vadar edən amilə gəldikdə isə: mən katiblərimə şiələrim və səhabələrimin başçıları üçün bu məktubların nüsxələrini çıxarmaq göstərişini vermişəm. Ola bilsin ki, bu onlara fayda verər, yaxud da sənin tərəfində olanlardan biri oxuyar, bunun vasitəsilə Allah onu zəlalətdən, sənin və əshabının zülm və fitnələrindən hidayətə yönəldər. Məqsədim sənə höccəti tamamlamaq idi.

## 7. Müaviyənin Əmirəl-möminin Əliyə (ə) son sözü

Müaviyə cavabında yazdı: "Ey Əbəl-Həsən, axirətə malik olacağına görə sənin, dünyaya sahib olacağımızı görə də xoş bizim halımıza!"

[1] "Nəml" surəsi, ayə 62.

# HƏDİS 26

## 1. Qeys ibn Səd ibn Übadənin Müaviyə ilə mübahisəsi

Aban Süleymdən və Ömər ibn Əbu Sələmədən (hər ikisi də eyni hədisi söyləyiblər) nəql edir:

"Müaviyə Möminlərin əmiri (ə) şəhid olduqdan və İmam Həsənlə (ə) sülh bağladıqdan sonra öz xəlifəliyi dövründə Həcc ziyarəti üçün Mədinəyə gəldi. Mədinəlilər onu qarşılamağa çıxdılar[1]. Müaviyə onu qarşılamağa gələn qüreyşlilərin sayının ənsardan çox olduğunu gördü və bunun səbəbini soruşdu. Ona deyildi: "Onlar kasıbdırlar və minikləri yoxdur".

Müaviyə Qeys ibn Səd ibn Übadə tərəf üzünü tutub dedi: "Ey Ənsarlar! Siz niyə Qüreyşdən olan qardaşlarınızla məni qarşılamağa gəlmədiniz?" Ənsarın başçısı və başçılarının oğlu olan Qeys dedi: "Ey möminlərin əmiri, miniyimiz olmadığı üçün yerimizdə oturduq!" Müaviyə dedi: "Bəs dəvələriniz haradadır?" Qeys dedi: "Onları Bədrdə, Ühüddə və Ühüddən sonrakı Peyğəmbərlə (s) getdiyimiz döyüşlərdə, sizin xoşunuza gəlməsə belə Allahın əmri zahir olana qədər İslam uğrunda sənə və atana qarşı qılınc yellədiyimiz vaxtlarda itirdik".

Müaviyə dedi: "İlahi, bağışla!" Qeys dedi: "Peyğəmbər (s) belə buyurub: "Məndən sonra bölgüdə başqalarını sizdən önə keçirəcəklərini görəcəksiniz". Müaviyə dedi: "Bəs bununla bağlı sizə nəyi əmr etdi?" Qeys dedi: "Ona qovuşana qədər səbr etməyi əmr etdi". Müaviyə dedi: "Elə isə ona qovuşana qədər səbr edin!"

Sonra Qeys dedi: "Ey Müaviyə! Dəvələrimizə görə bizi qınayırsan? Allaha and olsun ki, Bədr günü onlara minib sizinlə qarşılaşdıq, siz həmin vaxt Allahın nurunu söndürməyə və Şeytanın sözlərini ucaltmağa çalışırdınız. Sonra sən və atan istəmədiyiniz halda qarşı çıxdığınız İslama daxil oldunuz".

Müaviyə dedi: "Sanki sən bizə bu yardımına görə minnət qoyursan! Allaha and olsun, bu barədə Qüreyşin minnəti və üstünlüyü daha çoxdur. Ey Ənsarlar! Siz Peyğəmbərə də yardım etmisiniz, o, Qüreyşdən idi, o bizim əmioğlumuz və bizdən biri idi. Ona da minnət qoyursunuz?" Minnət və üstünlük bizdədir ki, Allah sizi bizim yardımçımız və tabeçilərimiz etmiş, siz də bizim vasitəmizlə doğru yolu tapmısız".

---

[1] İbn Şəhr Aşubun "Məsalib"də yazdığına görə Qüreyş Qura vadisində, Ənsar isə Mədinədə onu qarşıladılar.

## Əbu Talibin (ə) İslama yardımda hamıdan öndə olması

Qeys dedi: “Allah Muhəmmədi aləmlərə rəhmət olaraq, bütün insanlara, cinlərə, qırmızı, qara və ağdərililərin hamısına göndərdi. Onu nəbi edib və risaləti üçün seçdi. Onu ilk təsdiq edən və ilk iman gətirən şəxs əmisi oğlu Əli ibn Əbu Talib idi. Əmisi Əbu Talib onu qoruyur, onu qorxudub əziyyət etməmələri üçün Qüreyşin kafirləri qarşısında maneə olur, Rəbbinin risalətini təbliğ etməyi ona əmr edirdi. O, əmisi Əbu Talib ölənə qədər haqsızlıq və əziyyətlərdən qorunurdu. Ölərkən oğlu Əliyə ona yardım etməsini və dəstək olmasını əmr etdi. Əli də ona dəstək oldu və yardım etdi. Hər çətinlik, darlıq və qorxuda canını ona fəda elədi. Allah qüreyşlilər arasında bunu Əliyə xas qıldı, bütün ərəblər və əcəmlər arasından ona kəramət göstərdi.

Peyğəmbər (s) Bəni-Əbdülmüttəlibi bir yerə topladı. Əbu Talib və Əbu Ləhəb də onların arasında idi. Həmin gün onlar qırx nəfər idilər. Peyğəmbər (s) onları dəvət etdi. Peyğəmbərin (s) xidmətçisi Əli (ə) idi və Peyğəmbər (s) əmisi Əbu Talibin himayəsi altında qorunurdu. Peyğəmbər (s) orada buyurdu: “Sizdən kim qardaşım, vəzirim, varisim, ümmətim içində xəlifəm və məndən sonra möminlərin mövlası olmaq istəyir?”

Oradakılar susdular, Peyğəmbər (s) isə bu sözlərini üç dəfə təkrar etdi. Əli isə deyirdi: “Mən, ey Allahın Peyğəmbəri, Allahın salamı sənə olsun”. Peyğəmbər (s) Əlinin başını dizinə qoyub ağzının suyunu onun ağzına sürtüb dedi: “İlahi, Əlini (qəlbini) elm, fəhm və hikmətlə doldur”. Sonra Əbu Talibə dedi: “Ey Əbu Talib, bu andan etibarən oğlun Əlini dinlə və ona itaət et. Çünki Allah onun Peyğəmbərə olan nisbətini Harunun Musaya olan nisbəti kimi qərar verib”. Peyğəmbər insanlar arasında qardaşlıq yaratdığı vaxt Əlini özünə qardaş seçdi”.

Qeys ibn Səd Əlinin (ə) fəzilətlərindən heç nəyi tərk etmədən onları Müaviyəyə qarşı dəlil olaraq göstərdi və dedi: “Cənnətdə iki qanadla uçan Cəfər ibn Əbu Talib də onlardan, Əhli-Beytdəndir. Allah bunu insanlar arasından yalnız ona xas etmişdir. Həmçinin şəhidlərin ağası Həmzə və aləm qadınlarının seyyidəsi Fatimə də onlardandır. Əgər Peyğəmbəri, Əhli Beytini və pak nəslinin Qüreyşdən ayırsaq, Allaha and olsun, biz sizdən daha xeyirli və Allahın, Peyğəmbərinin və Əhli-Beytinin yanında daha çox sevilən olarıq.

Peyğəmbər vəfat etdi və Ənsar atam Sədin yanında toplanıb dedilər: “Səddən başqasına beyət etmərik”. Sonra qüreyşlilər Əlinin və Əhli-Beytinin dəlillərilə gəlib onun haqqı və Peyğəmbərə olan yaxınlığını dəlil göstərib bizi məğlub etdilər. Bununla Qüreyş ya Ənsara, ya da Ali-Muhəmmədə (ə) zülm

etmişdir. Ömrümə and olsun, nə Ənsardan, nə Qüreyşdən, nə Ərəbdən və nə də əcəmdən bir kəsin Əli ibn Əbu Talib və ondan sonra övladları müqabilində xilafətdə nə bir haqqı və nə də bir nəsibi yoxdur”.

Müaviyə qəzəblənib dedi: “Ey İbn Səd, bunları kimdən götürüb, kimdən eşidib və kimdən nəql edirsən? Bunları sənə atan xəbər verib? Ondan eşitmisən?” Qeys dedi: “Elə bir şəxsdən eşidib öyrənmişəm ki, atamdan daha xeyirlidir və mənim üzərimdə haqqı atamın haqqından daha çoxdur”. Müaviyə dedi: “O kimdir?” Qeys dedi: “O, Möminlərin əmiri Əli ibn Əbu Talibdir. Bu ümmətin alimi, hakimi, Siddiqi və Faruqudur, Allah onun haqqında ayələr nazil etmişdir: ***“Mənimlə sizin aranızda Allahın və yanında kitabın elmi olan şəxs şahid olaraq yetər!”*** [1] Qeys Əli (ə) haqqında enən bir ayəni belə tərk etmədən hamısını bir-bir oxudu.

Müaviyə dedi: “Bu ümmətin Siddiqi Əbu Bəkr, faruqu isə Ömərdir, yanında kitabın elmi olan şəxs isə Abdullah ibn Salamdır!”

Qeys dedi: “Bu adlara daha layiq və daha çox haqq sahibi Allah onun barəsində bu ayəni nazil etdiyi şəxsdir: ***“Məgər Rəbbindən açıq-aydın bir dəlilə istinad edən, ardınca Allahdan bir şahid gələn...”*** [2] **Və həmçinin bu ayə nazil olan:** ***“Sən yalnız qorxudansan. Hər bir qövmün bir hidayət edəni vardır”.*** [3] Allaha and olsun, belə nazil olub ki, “Əli hər bir qövmün hidayət edənidir”. Siz isə onu sildiniz[4]. Və o şəxsdir ki, Peyğəmbər (s) Qədir Xumda onu xəlifə olaraq təyin etdi və buyurdu: “Mən kimə canından övlayamsa (üstünəmsə), Əlidə ona canından övladır”. Və Peyğəmbər (s) Təbuk döyüşündə Əliyə (s) belə dedi: “Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbətidir. Yalnız məndən sonra peyğəmbər yoxdur”.

## 2. Müaviyənin İmam Əlinin (ə) lənətləməyə başlanması haqda məktubu

Müaviyə o gün Mədinədə qaldı. Şəhərlərdəki valilərinə belə bir məktub yazdı və bir münadi yüksək səslə bunu çatdırdı: “Bilin ki, Əli ibn Əbu Talibin və Əhli-Beytinin fəzilətləri və üstünlükləri barədə bir hədis nəql edəcək şəxsin üstündən amanımı götürürəm. Belə bir şəxs özünə qarşı cəzanı halal etmişdir”.

Bundan sonra xətiblər hər yerdə və hər məqamda minbərlərindən Əli ibn Əbu Talibə (ə) lənət etməyə və ondan uzaq olduqlarını bildirməyə, onun və

[1] “Rəd” surəsi, ayə 43.
[2] “Hud” surəsi, ayə 17.
[3] “Rəd” surəsi, ayə 7.
[4] Məqsəd ayənin təfsiridir. (Tərc.)

Əhli-Beytinin barəsində uydurulmuş çirkin sözləri söyləməyə və onlara lənət etməyə başladılar.

### 3. İbn Abbasın Müaviyə ilə mübahisəsi

Müaviyə dairə şəklində toplanmış bir dəstə qüreyşlinin yanından keçirdi. Onu gördükdə Abdullah ibn Abbasdan başqa hamı ayağa qalxdı. Müaviyə dedi: "Ey İbn Abbas! O birilər kimi ayağa qalxmağına əlbət ki, sizinlə Siffin günü savaşmağımız mane oldu. Ey İbn Abbas! Həqiqətən də əmim oğlu, möminlərin əmiri Osman məzlum olaraq öldürülmüşdü".

İbn Abbas dedi: "Elə isə Səhhakın oğlu da məzlum olaraq öldürüldü. Bu zaman xəlifəliyi onun oğluna niyə vermədiniz?! Onun oğlu buradadır". Müaviyə dedi: "Səhhakın oğlu qatili müşrik idi". İbn Abbas dedi: "Osmanı öldürən bəs kim idi?" Müaviyə dedi: "Onu müsəlmanlar öldürdü!" İbn Abbas dedi: "Bu sənin dəlilini daha da batil edir və onun qanının tökməsinə haqq qazandırır. Əgər onu müsəlmanlar öldürüb alçaldıblarsa, bu haqdan başqa bir şey deyil".

Müaviyə dedi: "Biz uzaqlara (şəhərlərə) məktub yazdıq. Əli və Əhli-Beytinin fəzilətləri barədə danışmağı qadağan elədik. Ey İbn Abbas! Dilini dinc saxla və özünə hakim ol!"

İbn Abbas ona dedi: "Bizə Quran oxumağı da qadağan edirsən?" Müaviyə dedi: "Xeyr".

İbn Abbas dedi: "Bizə Quranın təvilini (təfsirini) qadağan edirsən?" Müaviyə: "Bəli" dedi.

İbn Abbas dedi: "Quranı oxuyaq, amma Allahın nə demək istədiyini soruşmayaq, eləmi?!" Müaviyə dedi: "Bəli, elə".

İbn Abbas dedi: "Bu ikisindən hansı bizə daha vacibdir: Quran oxumaq, yoxsa ona əməl etmək?" Müaviyə dedi: "Onda yazılanlara əməl etmək".

İbn Abbas dedi: "Allahın bizə nazil etdiyində məqsədin nə olduğunu bilmədən ona necə əməl edək?" Müaviyə dedi: "Bu barədə səndən və Əhli-Beytdən başqa şəxslərin Quranı necə təvil etdiklərini soruş".

İbn Abbas dedi: "Quran mənim Əhli-Beytimə nazil olduğu halda onu Əbu Süfyanın və ya Əbu Muitin ailəsindən, ya yəhudi, xristian və məcusilərdən soruşum?!" Müaviyə ona dedi: "Bizi yəhudi, xristian və məcusilərlə eyni tutdun. Bizi onlardan hesab elədin?!"

İbn Abbas dedi: "Ömrümə and olsun ki, səni onlarla bir tutmadım. Ancaq sən bizim Quranla və ondakı əmr və qadağa, halal və haram, nasix və mənsux, xas və ümumi, möhkəm və mütəşabih olanlarla Allaha ibadət etməyimizi qa-

dağan edirsən. Əgər ümmət bunlar barədə soruşmasa həlak olar, parçalanar və çaşqın vəziyyətə düşər".

Müaviyə dedi: "Quranı oxuyun və onu təfsir edin, ancaq Allahın Quranda sizin haqqınızda nazil etdiyi ayələrin təfsirindən və Peyğəmbərin sizin haqqınızda söylədiyi hədislərdən heç birini deməyin. Bundan başqa nə istəsəniz danışın".

İbn Abbas dedi: "Allah Quranda buyurur: ***"Onlar Allahın nurunu (dəlillərini, İslam dinini, Quranı) ağızları (batil sözləri) ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu (dinini) tamamlamaq istər".***[1]

Müaviyə dedi: "Ey İbn Abbas! Məndən uzaq dur və mənim barəmdə dilini dinc saxla. Əgər məcbur qalsan, bunları gizlində söylə! Bir nəfər belə bunları səndən aşkar eşitməsin".

Sonra Müaviyə evinə qayıtdı və İbn Abbasa əlli min dirhəm göndərdi.

## 4. Müaviyə dövründə şiələrin bəlalarının çoxalması

Sonra Əlinin Əhli-Beytinin (ə) və şiələrinin başına gələn bəlalar daha da çoxaldı. Ən şiddətli bəlalar kufəlilərin başına gəlirdi. Çünki onların əksəriyyəti Əli şiəsi idilər. Müaviyə qardaşı Ziyadı onlara vali təyin edib Bəsrəni, Kufəni və bütün iraqlıların rəhbərliyini ona tapşırdı. Ziyad Əli şiələrini təqib edirdi. Onlar haqqında məlumatı çox idi. Belə ki, əvvəllər onlardan biri idi, onları tanıyırdı, söhbətlərini eşitmişdi.

Onları hansı ulduzun, daşın və təpənin altında tapırdısa, öldürürdü. Onlarla məzələnir, qorxudur, əl və ayaqlarını kəsir, xurma liflərində dara çəkir, gözlərini çıxarır, sürgün edir və qovurdu. Ta ki, onlar İraqı tərk edirdilər. İraqda öldürülməyən, asılmayan, sürgün edilməyən və ya qaçmayan bir məşhur Əli şiəsi qalmadı.

Müaviyə bütün şəhər və bölgələrdəki vali və hakimlərinə yazdı: "Əli ibn Əbu Talibin Əhli-Beytinin, şiələrinin və vilayətini qəbul edib, onun fəzilətlərini danışan şəxslərin şahidliklərini qəbul etməyin!"

## Müaviyənin bəziləri haqqında fəzilətlər uydurması

Müaviyə məmurlarına belə yazdı: "Əffanın oğlunun tərəfdarlarından, ailəsindən və vilayətini qəbul edib, fəzilətlərini danışan kəsləri himayə edin. Onları özünüzə yaxınlaşdırın, məclislərində iştirak edin, ehtiram göstərin və şərəfləndirin. Əffanın oğlunun fəzilətləri barədə rəvayət edən şəxslərin

[1] "Tövbə" surəsi, ayə 32.

sözlərini, ravilərin adlarını, atalarının adlarını və kimlərdən olduqlarını yazıb mənə göndərin".

Əffanın oğlu barədə hədislərin sayı çoxalana qədər buna riayət elədilər. Müaviyə də onlara bunun qarşılığında hədiyyələr və paltarlar göndərdi. Onlardan Ərəb və kölələrə də bir çox ərazi hədiyyə elədi. Belə kəslər şəhərlərdə artmağa davam edirdi. Ev və torpaq əldə etmək üçün səy göstərir və dünyadan geniş pay əldə etməyə çalışırdılar. Şəhər və ya kəndlərdən bir valilərin yanına gəlib, Əffanın oğlu barədə fəzilət rəvayət edib adı yazılmayan, yaxınlaşdırılmayan və ya şəfaəti qəbul edilməyən heç kim qalmamışdı. Camaat Allah izin verdiyinə qədər bunu etdilər.

## Bəzilərinin adının ucaldılmasına Müaviyənin göstərdiyi səy

Bundan sonra Müaviyə məmurlara yazdı: "Əffan oğlu barədə hədislər artıq yetərincə çoxalıb, hər bir şəhər, kənd və bölgələrdə də yayılmışdır. Məktubum sizə çatdıqda camaatı yaşlı səhabə və Səhhakın oğlu haqqında hədis danışmağa dəvət edin. Çünki onların fəzilət və üstünlükləri mənim daha çox xoşuma gəlir və gözümü nurlandırır. Həmçinin bu Əhli-Beytin dəlillərini etibardan daha yaxşı salar, onlar üçün Osmanın fəzilət və üstünlüklərini inkar etməkdən daha çətin olar".

Müaviyənin məmurlarından hər bir hakim və vali bu məktubu camaata oxudu. Camaat o ikisinin, onların fəzilətləri haqqında rəvayətlər danışmağa başladılar.

## Müaviyə uydurulmuş fəzilətləri uşaq və qadınlara da öyrətməyi əmr edir

Sonra Müaviyə onlar haqqında uydurma fəzilət və üstünlüklərin toplandığı bir kitabı məmurlarına göndərdi. Onlara şəhərdə və məsciddə hər bir minbərdən bu kitabın oxudulmasını əmr etdi. Həmçinin bunları uşaqlara öyrətmələrini, uşaqların Quranı öyrənib söylədikləri kimi bunları da öyrənib yaymaları üçün məktəblərdəki müəllimlərə göndərmələrini tapşırdı. Qızlar, qadınlar, xidmətçilər və yaxınlar bunları əzbərlədi. Allahın dilədiyi vaxta qədər bu davam elədi.

## Şiənin kökünü kəsmək üçün Müaviyənin proqramı

Sonra Müaviyə şəhərlərdəki məmurlarına məktub yazdı: "Baxın ki, Əlini və Əhli-Beytini kimin sevdiyi dəlillə sübut olunsa, onun adını dövlət divanından silin və şahidliyini əsla qəbul etməyin".

Sonra başqa bir məktubda belə yazdı: “Hər kimi Əli şiəsi olmaqda ittiham edib, ancaq əleyhinə dəliliniz olmasa, onu öldürün”.

Beləliklə də yalnız zənn və şübhəyə əsaslanaraq şiələri gördükləri yerdə öldürürdülər. Belə ki, bəzən bir kəs səhvən bir söz söylədikdə belə buna görə boynunu vururdular. Bu bəla heç bir şəhərdə İraqdakı, xüsusilə də Kufə şəhərindənki qədər genişmiqyaslı və daha şiddətli deyildi. Hətta Mədinədə və digər şəhərlərdə yaşayan Əli şiələri güvəndiyi bir şəxsin evinə gedib və sirrini ona açarkən evin xidmətçisindən və köləsindən çəkinirdi. Beləliklə də dediklərini gizli saxlaması barədə çox ağır andlar vermədən heç kəsə hədis nəql etmirdilər.

Bu minvalla yalanlar getdikcə şiddətləndi və ətraflarındakı düşmənlər çoxaldı. Müaviyə tərəfdarları isə yalan və böhtanla uydurduqları hədisləri dostları arasında aşkar söyləyir, camaata öyrədildilər. Camaat bunlardan başqa bir şey öyrənmirdilər. Hakimlər, valilər və fəqihlər də bunlara əsasən hökm verirdilər.

Bu fitnə və bəlalardan ən çox riyakar və xain Quran qariləri qazanc əldə elədilər. Onlar camaatın qarşısında hüznlü, çəkingən, ibadət və itaət əhli kəslər kimi görünür, sonra da yalan danışır və hədis uydururdular. Bunu valilərin yanında mənsəb əldə etmək, onların məclislərində iştirak etmək, mal, ev və ərazi əldə eləmək üçün edirdilər. Onların bu hədis və rəvayətləri camaatın əlinə düşdükdə onları həqiqi və doğru zənn edirdilər. Ona görə də camaat bunları rahatlıqla qəbul və rəvayət edir, öyrənir və başqalarına öyrədirdilər. Bunlara görə bir-birlərini sevir və nifrət bəsləyirdilər. Onların məclisləri bu hədislərə əsasən toplanır və camaatın həqiqətən dindar, yalana şahidlik etməyən və yalançılara nifrət bəsləyən şəxslərin əlinə düşürdü. Onlar bu uydurma hədisləri həqiqi bilib qəbul və nəql edirdilər. Əgər batil olduğunu bilsəydilər bunları əsla nəql etməz, dinin hökmü kimi qəbul etməz və ona qarşı çıxanları təqsirkar bilməzdilər. Həmin vaxt haqq batilə, batil isə haqqa çevrilmişdi! Doğru yalan və yalan isə doğru sayılmışdı! Peyğəmbər (s) buyurmuşdu: “Sizi elə bir fitnə əhatə edəcək ki, o fitnə içində uşaqlar böyüyəcək və böyüklər qocalacaq. İnsanlar ona əməl edəcək və onu sünnəyə çevirəcəklər. Nə vaxt ondan bir şey dəyişilsə deyəcəklər: “Camaat pis iş gördülər və sünnəni dəyişdirdilər!””.

Həsən ibn Əli (ə) öldükdən bəri fitnələr və bəlalar günbəgün artdı və şiddətləndi. Elə bir Allah dostu yox idi ki, qanının tökülməsindən qorxmasın, ya öldürülməsin, ya sürgün edilməsin, ya da qaçmasın. Bütün Allah düşmənləri isə sözlərini açıq deyir, dinə gətirdikləri bidətləri və azğınlıqları aşkarda icra edirdilər.

## 5. İmam Hüseynin (ə) Məkkədə mübahisələri

Müaviyənin ölümündən bir il əvvəl Hüseyn ibn Əli (ə) Abdullah ibn Abbas və Abdullah ibn Cəfərlə birlikdə Həccə getdi. İmam Hüseyn (ə) Bəni-Haşimin qadın və kişilərini, dostlarından və şiələrindən Həccə gələnləri, ənsardan onu və Əhli-Beytini tanıyan bir dəstə insanı ətrafına topladı.

Sonra elçilər göndərdi: "Peyğəmbərin (s) səhabələrindən düzgünlük və adibliyi ilə tanınan və bu il Həccə gələn bir nəfəri belə tərk etmədən hamısını yanıma toplayın".

Sonra Minada yeddi yüzdən[1] artıq insan onun xeyməsində toplandılar. Əksəriyyəti tabeunlardan idi. Təxminən iki yüz nəfərini də Peyğəmbərin (s) səhabələri və digərləri təşkil edirdilər.

İmam Hüseyn (ə) onların arasında ayağa qalxıb xütbə deməyə başladı. Allaha həmd və səna etdikdən sonra buyurdu: "Həqiqətən də bu azğın tağutun bizə və şiələrimizə etdiklərini görmüş, şahidi olmuş və əməllərindən xəbərdarsınız. Mən sizdən bir şey haqqında soruşmaq istəyirəm. Əgər doğru söyləsəm təsdiqləyin, əgər yalan desəm inkar edin. Sizdən Allahın, Peyğəmbərinizin və ona olan yaxınlığım haqqına and verib diləyirəm ki, burada olanları özünüzlə aparıb və sözlərimi yayasınız. Öz qəbilələrinizdəki yardımçılarınızı, güvəndiyiniz və inandığınız hər kəsi dəvət edəsiniz. Onları bizim haqqımızda bildiyiniz şeylərə dəvət edin. Mən bu məsələlənin silinməsindən, haqqın aradan getməsindən və məğlub olmasından qorxuram. Amma Allah kafirlərin xoşuna gəlməsə də Öz nurunu tamamlayacaq".

## İmam Hüseynin (ə) dilindən Əmirəl-mömininin (ə) fəzilətləri

Allahın onların barəsində Quranda nazil etdiyi bir ayəni belə nəzərdən qaçırmadan hamısını oxuyub təfsir elədi. Peyğəmbərin (s) atası, qardaşı, anası və onun barəsində söylədiyi hər bir kəlməni söylədi. Səhabələr isə deyirdilər: "Allaha and olsun, bəli, elədir. Bunları Peyğəmbərdən (s) eşitdik və şahidi olduq". Tabeunlar isə deyirdilər: "Allaha and olsun ki, inandığımız və doğru danışan kimi tanıdığımız səhabələr bunları bizə danışıblar". İmam (ə) dedi: "Sizi Allaha and verirəm, bunları özünə və dininə güvəndiyiniz şəxslərə də danışın".

Süleym deyir: "Hüseynin (ə) onları şahid tutduğu və xatırlatdığı dəlillər bunlar idi:

"Sizə Allahı şahid tuturam! Əshabı arasında qardaşlıq yaradarkən Əli ibn Əbu Talibi Peyğəmbər (s) özünə qardaş seçib, onunla özü arasında qardaş-

[1] "İhticac"da onların sayının min olduğu bildirilir.

lıq yaradaraq: “Dünya və axirətdə sən mənim və mən də sənin qardaşınam” demədimi?!” Dedilər: “İlahi, elədir!”

“Sizə Allahı şahid tuturam! Peyğəmbər (s) məscid və evləri üçün yer alıb, orada məscid, həmçinin doqquz dənə özü üçün və onuncusu da onların ortasında atam üçün, ümumilikdə on dənə ev tikmədimi?

Sonra onun (Əlinin) qapısından başqa məscidə açılan qapıların hamısını bağlatdırdı. Bu barədə narazılıq edib danışan oldu və Peyğəmbər (s) buyurdu: “Sizin qapılarınızı bağlayıb və onun qapısını açıq qoyan mən deyiləm. Allah mənə sizin qapılarınızı bağlayıb, yalnız onun qapısını açıq qoymağımı əmr etdi”. Sonra Peyğəmbər ondan başqasına məsciddə yatmağı qadağan elədi. Evi peyğəmbərin evi ilə iç-içə idi. Orada peyğəmbərin və onun övladları dünyaya gəldi”. Dedilər: “Allaha and olsun ki, elədir”.

“Ömər ibn Xəttabın evindən məscidə baxmaq üçün bir göz miqdarında kiçik bir dəlik açmaq istədikdə Peyğəmbər (s) mane oldu və ona: “Həqiqətən də Allah Musaya pak və təmiz bir məscid tikməsini, özü, qardaşı Harun və iki oğlundan başqa orada heç kəsi məskunlaşdırmamağı əmr etdi. Həmçinin Allah mənə də pak və təmiz bir məscid tikməyi, məndən, qardaşımdan və onun iki oğlundan başqa bir kəsin orada yaşamamasını əmr etdi”. Bunu bilmirsiniz?!” Səhabələr dedilər: “Allaha and olsun ki, bəli, elədir”.

“Sizə Allahı şahid tuturam! Allahın Peyğəmbəri (s) Qədir Xum günü onu vəlisi təyin edib vilayətini elan elədi və sonra da: “Burada olanlar olmayanlara çatdırsın” demədimi?!” Dedilər: “Allaha and olsun, bəli”.

“Sizə Allahı şahid tuturam! Allahın Peyğəmbəri (s) Təbuk döyüşündə ona: “Sənin mənə nisbətin Harunun Musa nisbəti kimidir və sən məndən sonra bütün möminlərin mövlasısan” demədimi?!” Dedilər: “Allaha and olsun, elədir”.

“Sizə Allahı şahid tuturam! Allahın Peyğəmbəri (s) Nəcran xristianlarını mübahələyə dəvət etdikdə özü ilə ondan, zövcəsindən və iki oğlundan başqasını yanında gətirmədi. Bunu bilirsiniz?” Dedilər: “Allaha and olsun, bilirik”.

“Sizə Allahı şahid tuturam! Allahın Peyğəmbəri (s) Xeybər döyüşündə bayrağı ona verib: “Bayrağı Allahı və Peyğəmbərini sevən, Allahın və Peyğəmbərin də onu sevdiyi bir şəxsə təslim edirəm. O geriyə qaçmadan təkrar-təkrar hücum edəndir. Allah onun əlilə Xeybəri fəth edəcək” demədimi?!” Dedilər: “Allaha and olsun ki, bəli”.

“Allahın Peyğəmbəri “Bəraət” surəsini oxumaq üçün onu göndərdi və buyurdu: “Mənim adımdan yalnız mən və ya məndən olan bir kəsdən başqası təbliğ edə bilməz!” Bunu bilmirsinizmi?” Dedilər: “Allaha and olsun ki, elədir”.

“Peyğəmbər (s) qarşısına çıxan hər bir çətinlikdə hiss etdiyi etibara görə onu önündə göndərdiyini və heç vaxt onu adı ilə çağırmayıb “Ey qardaşım!” və ya “Qardaşımı yanıma çağırın” dediyini bilmirsiniz?” Dedilər: “Allaha and olsun, elədir”.

“Peyğəmbər (s) onunla Cəfər və Zeydin arasında hökm verib: “Ya Əli, sən məndənsən, mən də səndən. Sən məndən sonra bütün mömin kişi və qadınların mövlasısan” demədimi?” Dedilər: “Allaha and olsun ki, bəli!”.

“Hər gündüz Peyğəmbərlə tək qaldığını və hər gecə yanına getdiyini, sual verdikdə Peyğəmbərin (s) cavab verdiyini və susduqda isə Peyğəmbərin danışmağa başladığını bilirsinizmi?” Dedilər: “Allaha and olsun, elədir!”.

“Peyğəmbər (s) onu Həmzə və Cəfərdən üstün tutaraq Fatiməyə: “Sənin həyat yoldaşın Əhli-Beytimin ən xeyirlisi, ilk müsəlmanı, ən çox helmə və elmə sahibdir” demədimi?” Dedilər: “Allaha and olsun, elədir”.

“Peyğəmbərin (s) belə buyurduğunu bilmirsinizmi: “Mən Adəm övladlarının, qardaşım Əli də Ərəbin ağasıdır, Fatimə Cənnət qadınlarının xanımı, iki oğlum Həsən və Hüseyn isə Cənnət gənclərinin ağalarıdırlar”. Dedilər: “Allaha and olsun, bilirik”.

“Peyğəmbərin (s) öz cənazəsini yumağı Əliyə tapşırdığını və bu işdə Cəbrayılın ona yardım edəcəyini xəbər verdiyini bilmirsiniz?” Dedilər: “Allaha and olsun, elədir”.

“Peyğəmbər (s) söylədiyi son xütbəsində belə buyurmadımı: “Ey insanlar! Mən sizin aranızda iki ağır əmanət qoyuram: Allahın kitabı və Əhli-Beytim. Onlara yapışsanız əsla yoldan azmazsınız”. Dedilər: “Allaha and olsun ki, bəli, bilirik”.

Allahın xüsusilə Əli ibn Əbu Talib (ə) və Əhli-Beyti barədə Quranda nazil etdiyi və Peyğəmbərinin (s) dilindən söylənən heç bir sözü tərk etmədən hamısına onlara Allahı şahid tutdu. Səhabələr də “Allaha and olsun, bəli, eşitdik” deyirdilər. tabeun isə “Allaha and olsun ki, inandığımız və etibar etdiyimiz filan və filan şəxslər bizə bunları nəql etdilər” deyirdilər.

Sonra onları Peyğəmbərin (s) belə söylədiyinə onlara Allahı şahid tutdu: “Hər kim məni sevdiyini iddia edib Əliyə kin bəsləsə, yalan danışmışdır. Əliyə nifrət etdiyi halda məni sevə bilməzlər”. Bir nəfər həmin vaxt soruşdu: “Ya Peyğəmbər, bu necə ola bilər?” Peyğəmbər (s) cavabında buyurmuşdu: “Çünki o məndəndir və mən də ondanam. Kim onu sevsə, məni sevmiş, məni sevən də Allahı sevmişdir. Və kim ona nifrət etsə mənə nifrət etmiş, mənə nifrət edən də Allaha nifrət bəsləmişdir”.

Onlar dedilər: “Allaha and olsun, bəli, eşitdik”. Bundan sonrada dağılıb getdilər”.

# HƏDİS 27

## İbn Abbas vəsiyyət hadisəsini danışır

Aban ibn Əbu Əyyaş Süleymdən rəvayət edir ki, Abdullah ibn Abbasın yanında evində oturmuşdum, onun yanında bir dəstə şiə vardı. Peyğəmbəri (s) və ölümünü xatırladılar, İbn Abbas ağlayaraq dedi: Peyğəmbər (s) vəfat etdiyi bazar ertəsi günü ev əhli və otuza yaxın səhabəsi yanında ikən dedi: "Mənə bir vərəq verin, sizin üçün bir şey yazım ki, məndən sonra zəlalətə və ixtilafa düşməyəsiniz".

Bu ümmətin fironu ona imkan vermədi və dedi: "Həqiqətən də Peyğəmbər sayıqlayır!" Peyğəmbər (s) qəzəblənib: "Görürəm ki, mən sağ olduğum halda mənə qarşı çıxırsınız, ölümümdən sonra nə edəcəksiniz?!" dedi və yazmadı.

Süleym deyir: "Sonra Əli (ə) ilə ibn Abbas gəldi və dedi: "Ey Süleym, əgər bu kişinin dedikləri olmasaydı, Peyğəmbər (s) bizim üçün heç bir kəsin azmayacağı və ixtilafa düşməyəcəyi bir yazı qoyacaqdı".

Oradakılardan biri dedi: Həmin kişi kim idi? Dedi: "Buna heç bir yolumuz yoxdur".

Camaat qalxdıqdan sonra İbn Abbasla təklikdə qaldım, onun Səhhakın oğlu olduğunu söylədi. "Düzdür, Əlidən (ə), Əbu Zərdən, Miqdaddan və Salmandan onun Səhhakın oğlu olduğunu eşitmişəm".

Dedi: "Ey Süleym, inandığın qardaşlarından savayı bunu hər kəsdən gizlət. Bu ümmətin qəlbi yəhudilərin qəlbinin buzov və Samirinin sevgisilə dolduğu kimi bu iki nəfərin sevgisilə dolub.

# HƏDİS 28

## Cəməl savaşı haqqında hədislər

Aban Süleym ibn Qeysin belə dediyini nəql edir: Cəməl günü Əli (ə) ilə birlikdə idik, bizim sayımız on iki min, Cəməl əhli isə yüz iyirmi mindən artıq idilər.

Peyğəmbərlə (s) bərabər Bədr, Hüdeybiyyə və digər savaşlarda olmuş ənsar və mühacirdən dörd min səhabə də Əlinin (ə) tərəfində savaşırdı. Bəsrə və Hicaz, eləcə də Məkkənin fəthindən sonra İslamı qəbul edənlərdən orduya qoşulanlardan başqa, yerdə qalanları Kufə əhli idilər. Təkcə ənsardan dörd min adam vardı.

İmam Əli (ə) nə beyətə, nə də savaşa getmək üçün bir nəfəri belə məcbur etmədi. Onlara səsləndi, Bədr əhlindən yüz yetmiş nəfər, onlara əlavə olara Ühüd və Hüdeybiyyə savaşlarında iştirak edən ənsarlar gəlmiş, onlardan biri də kənarda qalmamışdı.

Mühacir və ənsardan hər kəs Əlinin (ə) yanında idi. Ona arxa olub, zəfərə və yardıma səsləyir, hər kəsi ona tərəf dəvət edirdilər. Onlarla nə savaşmış, nə çətinliyə salmışdı, öz istəkləri ilə beyət etmişdilər. Amma onların hamısı Allah yolunda savaşmırdılar.[1]

Az sayda adam ona tənə vurur, ona beyət etmir və itaətdən boyun qaçırmışdılar. Üç nəfərdən savayı, onlar beyət etmiş, sonra onunla savaşa getməkdə şəkk etmiş və evlərində oturmağa qərar vermişdilər. Bunlar Muhəmməd ibn Mələmə, Səd ibn Əbu Vaqqas və Ömərin oğlu idi.

Üsamə ibn Zeyd bundan sonra təslim oldu, Əlidən (ə) onun üçün dua etməsini istədi, o da onun üçün bağışlanma dilədi. Üsamə onun düşmənlərindən uzaqlaşdı, Əlinin haqq üzərində olduğuna şəhadət gətirdi, onun müxaliflərinin lənətlənmiş və qanlarının halal olduğunu bəyan etdi".

---

[1] Yəni, İmamın (ə) onları məcbur etməməsi, niyyətlərinin xalis olması anlamına gəlmir.

# HƏDİS 29

## Əlinin (ə) Təlhə Və Zübeyrə qarşı dəlilləri

Aban Süleymin belə dediyini nəql edir: "Cəməl döyüşü günü Möminlərin əmiri Əli Bəsrə əhli ilə görüşdükdə Zübeyrə səslənərək dedi: "Ey Əbu Abdullah! Yanıma gəl!"

Səhabələri dedilər: "Ey Möminlərin əmiri! Beyətini pozan Zübeyrlə görüşə gedirsən? Halbuki o, at belində və silahlıdır. Sən isə qatırda və silahsızsan". Əli (ə) buyurdu: "Mənim üzərimdə Allah tərəfindən qoruyucu bir qalxan (sipər) var. Heç kim əcəlindən qaça bilməz. Allahın dəvəsi Səmudun ən bədbəxtinin əlilə kəsildiyi kimi mən də bu ümmətin ən bədbəxtinin əlilə öldürülmədən nə ölcəyəm, nə də öldürüləcəyəm".

Zübeyr onun yanına gəldi. Əli (ə) dedi: "Təlhə haradadır? O da gəlsin". Təlhə də gəldi.

## Cəməl əshabı Peyğəmbərin (s) dililə lənətləniblər

Əli (ə) buyurdu: "Allahı sizə şahid tuturam! Siz ikinizin xəbəri yoxdurmu, həmçinin Peyğəmbərin (s) Əhli-Beyti və yaşlı səhabənin qızı tərəfindən də eşidib bilirsinizmi ki, Cəməl əshabı və Nəhrivan əhli Muhəmmədin dililə lənətləniblər? Hər kim böhtan atırsa, zərərə uğramışdır!"

Zübeyr dedi: "Cənnətlik olduğumuz halda biz necə lənətlənə bilərik?!" Əli (ə) dedi: "Sizin Cənnətlik olduğunuzu bilsəydim sizə qarşı savaşmağı halal bilməzdim".

Zübeyr dedi: "Peyğəmbərin Uhud döyüşü günü "Cənnət Təlhəyə vacib olmuşdur. Hər kim yer üzündə canlı halda gəzən bir şəhidi görmək istəsə, Təlhəyə baxsın" dediyini eşitmədinmi? (Həmçinin) "Qüreyşdən on nəfər Cənnətdədir" dediyini necə, eşitmədinmi?

## Əlinin (ə) "Müjdələnmiş on nəfər" hədisini rədd etməsi

Əli (ə) buyurdu: "Onların adlarını sadala!" Zübeyr doqquz nəfərin adını dedi. Onların arasında Əbu Übeydə ibn Cərrah və Səid ibn Zeyd ibn Əmr ibn Nufeyl də vardı.

Əli (ə) buyurdu: "Doqquz nəfəri saydın! Bəs onuncu kimdir?" Zübeyr dedi: "Sənsən!". Əli (ə) dedi: "Sən mənim cənnətlik olduğumu təsdiq və iqrar etdin. Amma mən sənin özün və yoldaşların barədə söylədiklərini inkar edirəm. Allaha and olsun ki, adlarını saydığın kəslərdən bəziləri cəhənnəmin ən alt təbəqəsində olan bir quyuda bir tabutun içindədirlər. Bu quyunun üzərində bir daş vardır. Allah cəhənnəmi alovlandırmaq istədikdə bu daşı qaldırar və cəhənnəm alovlanar. Bunları Peyğəmbərdən (s) eşitdim. Əgər belə deyilsə, Allah səni mənə qalib etsin və sənin əlinlə qanımı töksün. Əgər mən doğru söyləyirəmsə, Allah məni sənə və yoldaşlarına qalib etsin".

Zübeyr ağlayaraq yoldaşlarının yanına qayıtdı.

## Təlhə və Zübeyrin vasitəsilə Peyğəmbərin (s) zövcəsinin savaşa çıxarılması

Sonra Əli (ə) Təlhəyə üzünü tutub dedi: "Ey Təlhə! Qadınlarınız da sizinlədir?" Təlhə dedi: "Xeyr". Əli (ə) buyurdu: "Siz elə bir qadına etimad etdiniz ki, Allahın kitabında onun evində oturması əmr edilmişdir. Öz qadınlarınızı çadır və xeymələrinizdə qoruduğunuz halda onu (hər kəsə) göstərdiniz. Nə Peyğəmbərə (s) və nə də özünüzə qarşı insaflı rəftar etdiniz. Öz qadınlarınızı evlərdə oturtdunuz, amma Peyğəmbərin (s) həyat yoldaşını çölə çıxardınız. Halbuki Allah onlarla yalnız pərdə arxasından danışmağı əmr etmişdir.

Mənə Abdullah ibn Zübeyrin imam olaraq sizə namaz qıldırmasından xəbər ver! İkinizdən biri digərindən razı deyilmi? Həmçinin, bədəviləri mənimlə döyüşə dəvət etməyinizdən də xəbər ver! Sizi buna məcbur edən nə idi?"

Təlhə dedi: "Ey, biz şurada altı nəfər idik. Bizdən biri (Əbdürrəhman ibn Ovf) öldü və digəri də (Osman) öldürüldü. Bu gün dörd nəfər qalmışıq və heç birimiz səni istəmirik".

Əli (ə) buyurdu: "Bu mənim əleyhimə deyil. Biz şurada ikən iş bizdən başqasının əlində idi. Amma bu gün mənim əlimdədir. Mən Osmana beyət etdikdən sonra xilafəti məsələsini yenidən şuraya qaytara bilərdimmi? Buna ixtiyarım vardı?" Təlhə dedi: "Xeyr". Əli (ə) "Niyə?" deyə soruşdu. Təlhə dedi: "Çünki sən öz istəyinlə beyət etmişdin".

Əli (ə) buyurdu: "Bu necə olur? Ənsar qılınclarını çəkərək "Əgər öz içinizdən birinə beyət etsəniz, məsələni bitirərsiniz. Əks halda hamınızın boyununu vuracağıq" dedikləri halda necə öz istəyimlə beyət etmiş sayılıram?! Məgər siz ikiniz mənə beyət etdiyiniz zaman sənə və yoldaşlarına belə bir söz

deyildimi? Zorla beyət etdirilmək barədə mənim dəlilim səninkindən daha açıqdır. Sən və yoldaşın məcburiyyət olmadan, öz istəyinizlə mənə beyət etdiniz. Siz bunu edən ilk kəslər idiniz və sizə heç kim “Beyət etməlisən, yoxsa sizi öldürərik” demədi”.

Təlhə geri döndü və döyüş başladı. Təlhə öldürüldü və Zübeyr məğlub oldu[1].

---

[1] Zübeyr döyüşdən qaçmış, Bəsrə şəhəri kənarında Əmr ibn Cərmuz tərəfindən qətlə yetirilmişdi.

# HƏDİS 30

## Elmin açarları Əmirəl-möminindədir (ə)

Aban nəql edir ki, Süleym İbn Abbasın belə dediyini eşidib: "Əlidən (ə) bir söz eşitmişəm ki, onu nə anlaya, nə də inkar edə bilirəm. İmam Əli (ə) deyir: "Peyğəmbər (s) xəstələndikdə mən onunla yalnız qaldım, mənə elmin min fəslini öyrətdi ki, hər fəsildən də min fəsil açılır".

Mən Əli (ə) ilə bir xeymədə oturmuşdum. O, Həsəni (ə) və Əmmarı Kufəyə göndərib onun üçün ordu toplamalarını istədi. Bu zaman mənə yaxınlaşıb dedi: "Ey İbn Abbas, Həsən gəldikdə onunla birlikdə on bir mindən bir və ya iki nəfər[1] az adam olacaq". Özüm-özümə dedim: "Əgər onun dediyi kimi olsa, demək ki bu, həmin min fəsil elmdən bir fəsildir".

Həsən (ə) gəldikdə onu qarşılamağa çıxdım. Ordu katibini tapıb əsgərlərin sayı ilə maraqlandım. O, bir və ya iki nəfər az olmaqla əsgərlərin sayının on bir min olduğunu dedi.

[1] Tərəddüd ravinindir. Çünki "Bihar"da nəql olunan bu rəvayətdə "bir nəfər az" kəlməsi keçir.

# HƏDİS 31

## Məni itirməzdən əvvəl soruşun

Aban ibn Əbu Əyyaş Süleymdən rəvayət edir: "Kufədə, məsciddə Əli (ə) ilə birgə oturmuşdum. Camaat da ətrafında idi. Əli (ə) dedi: "Məni itirməzdən əvvəl soruşun. Allahın kitabı barədə soruşun. Allaha and olsun ki, Allahın kitabında elə bir ayə nazil olmayıb ki, Peyğəmbər (s) onu mənə oxuyub və təvilini öyrətməsin".

İbn Kəvva dedi: "Bəs sən yanında olmadığın zaman nazil olan ayələr barədə necə?"

Əli (ə) dedi: "Bəli, yanında olmadığım zaman nazil olanları saxlayır və mən gəldikdə "Ey Əli, Uca Allah səndən sonra filan, filan ayələrini endirmişdir. Həmin ayəni mənə oxuyur, təvilinin filan-filan şeylər olduğunu deyir, məni öyrədirdi".

# HƏDİS 32

## Ümmətlərin parçalanması

Aban nəql edir ki, Süleym Əlinin (ə) yəhudilərin başçısına belə dediyini eşitdi: "Neçə yerə parçalanmısınız?" Yəhudi dedi: "Filan, filan firqələrə bölünmüşük". Əli (ə) dedi: "Yalan söylədin!".

Sonra camaata tərəf gəlib dedi: Allaha and olsun ki, əgər mənim üçün bir balış bükülsəydi,[1] Tövrat əhlinə Tövratla, İncil əhlinə İncillə, Quran əhlinə də Quranla hökm edərdim.

Yəhudilər yetmiş bir firqəyə ayrıldılar, onlardan yetmişi od, biri isə cənnət əhlidir. Həmin o tək firqə Musanın (ə) vəsisi Yuşa ibn Nuna tabe olanlardır. Xristianlar yetmiş iki firqəyə ayrıldılar, onlardan yetmiş ikisi od, biri isə cənnət firqəsidir. O tək firqə İsanın (ə) vəsisi Şəmuna tabe olanlardır. Bu ümmət isə yetmiş üç firqəyə bölünəcək, onlardan yetmiş ikisi od, biri isə cənnət firqəsidir. Həmin tək firqə isə (əlini sinəsinə vuraraq) Muhəmmədin (s) vəsisinə tabe olanlardır.

Sonra buyurdu: Yetmiş üç firqədən on üçü mənə sevgi və məhəbbətlərinin olduğunu iddia edəcəklər. Onlardan da biri cənnətdə, on ikisi isə oddadır.

---

[1] "...əgər mənim üçün bir balış bükülsəydi" sözü kinayədir. Bunu sözü ilə "mənə xoşluqla müti olub itaət edəcək camaat tapsaydım rahatlıqla .... hökm edərdim" mənasını ifadə edir (Tərc).

# HƏDİS 33

## Xoşbəxtlik və bədbəxtlik əhlinin adları

Aban Süleymin İbn Abbasa belə dediyini nəql edir: “Əli ibn Əbu Talibdən (ə) eşitdiyin ən əzəmətli söz nədir?”

Mənə Əlinin (ə) özündən də eşitdiyim sözləri söylədi. Dedi: “Peyğəmbər (s) məni (Əlini (ə)) çağırdı, əlində bir kitab da vardı. Buyurdu: “Ey Əli, Bu kitabı götür”. Dedim: “Ey Allahın peyğəmbəri! Bu kitab nədir?”. Buyurdu: “Allahın yazdığı bir kitabdır, orada qiyamət günündək ümmətimdən olan xoşbəxtlərin və bədbəxtlərin adları yazılıb. Rəbbim onu sənə verməyi mənə əmr edib”.

# HƏDİS 34

## Siffin döyüşünün ən şiddətli Hərir gecəsi

Aban deyir ki, Süleymdən Siffin müharibəsinin şahidi olduğunu soruşdum[1] və o da "Bəli" deyə cavab verdi. Dedim: "Bəs Hərir gününün necə, şahidi oldunmu?" Yenə də "Bəli" deyə cavab verdi. Dedim: "Həmin vaxt neçə yaşın vardı?" "Qırx"[2] dedi. Dedim: "Allah sənə rəhm eləsin! Həmin hadisəni mənə danış".

Dedi: "Bəli! Nəyi unutsam da bu hadisəni əsla unutmaram". Sonra ağlayaraq sözünə davam etdi: "Onlar orduda səf tutdular və biz də cərgələrə düzüldük. Maliki Əştər tünd qara rəngli atla çölə çıxdı. Atın yan tərəfində dayanmışdı. Silahını atının üzərindən asmışdı. Mizrağı əlində idi və onunla başımıza vuraraq deyirdi: "Səflərinizi düzəldin!"

Bölüklər nizamlanıb səflər düzəldikdə atına minib iki səf arasında dayandı. Kürəyini şamlılara çevirmiş, üzü bizə tərəf idi. Allaha həmd və səna edib, Peyğəmbərə (s) salavat göndərib dedi:

"Yer üzünün bu küncündə yaxınlaşmış əcəllər və tamamlanmalı işlər üçün toplanmağımız şübhəsiz ki, Allahın qəza və qədərindəndir. Bu döyüşdə bizim rəhbərimizi müsəlmanların ağası, möminlərin əmiri, vəsilərin ən xeyirlisi, Peyğəmbərimizin (s) əmisi oğlu, qardaşı və varisidir. Qılınclarımız Allahın qılınclarıdır. Onları başçıları isə ciyər yeyən qadının oğlu, nifaq mağarası və Əhzabdan (Xəndək savaşından) qalandır. Onları bədbəxtliyə və oda sürükləyir. Biz onlara qarşı döyüşməklə Allahın savabına ümid edirik. Onlar isə əzabı gözləyirlər. Ortalıq qızışıb döyüş şiddətləndikdə, atlar bizim və onların ölüləri üzərində gəzdikdə biz onları öldürmək üçün Allahın yardımını diləyirdik. Qulağımıza qarışıq sözlərdən və səs-küydən başqa heç nə gəlmirdi.

Ey insanlar! Gözlərinizi qıyın və dişləriniz bir-birinə möhkəm sıxın ki, tərpənməsin. Həqiqətən bu başa vurulan zərbədən daha ağrılıdır. Düşməni üzüzə qarşılayın, qılınclarınızın dəstəyindən sağ əllərinizdə yapışın, zərbəni başlara endirin, mizraqlarınızı qabırğanın altına batırın, həqiqətən bu öldürücü-

[1] Qarşıdakı söhbətlərdə "Süleym dedi" sözləri həqiqətən də Süleymin Siffin döyüşünün əvvəlindən sonunadək orada iştirak etməsini bir daha təsdiqləyir.

[2] Buna əsasən Süleymin hicrətdən 2 və ya 4 il əvvəl doğulduğu anlaşılır. Belə ki, Siffin döyüşü hicrətin 36-38-ci illərində baş vermişdir.

dür. Atalarının qanı tökülmüş, qardaşlarının qanını almaq üçün intiqam hissilə düşmənin üzərinə yeriyən və özünü ölümə hazırlamış kəslər kimi sərt olun. Beləcə alçalmaz və dünyada utanacağınız bir şeyiniz qalmaz".

Sonra iki ordu bir-birilə qarşılaşdı və aralarındakı boyük hadisə baş verdi. Ərəbin öndə gedənlərindən yetmiş min nəfərin ölməsilə bir-birlərindən ayrıldılar. Döyüş cümə axşamı günü, günəş yüksələrkən başladı və gecənin ilk üçdə birinə qədər davam etdi. Əsgərlərdən günortandan gecə yarısına qədər dörd namazı: zöhr, əsr, məğrib və işanı bir nəfər də qılmadı və Allaha səcdə edən olmadı.[1]

### Hərir gecəsindən sonra Əmirəl-mömininin (ə) xütbəsi

Süleym deyir: "Sonra Əli (ə) ayağa qalxıb bir xütbə söylədi. Buyurdu: "Ey insanlar! Gördüyünüz şeylər həm sizə və eyni şəkildə düşmənlərinizə də yetişmişdir. Geridə yalnız son bir nəfəs qalmışdır. hadisələrin sonu başlanğıcı ilə ölçülər. Bu qövm çata biləcəklərinə çatana qədər sizin qarşınızda dinsiz olaraq dayanmışdır. İnşallah, sabah səhər onların üzərinə gedəcək və Allahın hüzurunda onları mühakimə edəcəyəm".

### Quranların nizələrdə qaldırılması

Bu xəbər Müaviyəyə çatdı. Şiddətli qorxuya düşdü. O, əshabı və şamlılar bundan sarsıldılar. Əmr ibn Ası yanına çağırıb dedi: "Ey Əmr! Üzərimizə gəlmələrinədək əvvəl yalnız bir gecəmiz var. Nə fikirləşirsən?" Əmr dedi: "Adamların azaldığını görürəm. Yerdə qalanlar da onun əsgərləri qarşısında dözə bilməzlər və sən də onun kimi deyilsən. O səninlə bir şey üçün və sən də onunla tam başqa bir şey üçün döyüşürsən. Sən (burada, dünyada) qalmağı və O fənanı (axirəti) istəyir. İraqlıların sənin onlara qalib gəlməyindən qorxduqları qədər, şamlılar Əlinin onlara qalib gəlməsindən qorxmurlar. Sən gəl, onların arasına bir məsələ at, onu rədd etsələr də ixtilafa düşsünlər, qəbul etsələr də. Onları Allahın kitabına dəvət et və Quranları mizraqların uclarına keçir. Beləcə istədiyinə çatacaqsan. Bunu sənin üçün sona saxlayırdım".

### Müaviyənin Əliyə (ə) məktubu bir yayındırma idi

Müaviyə bunu başa düşdü və dedi: "Doğru söylədin. Lakin ağılıma bir fikir də gəldi. Onunla Əlini aldatmağa çalışacağam. Şamı mənə həvalə etməsini tələb edəcəyəm. Bu mənim əlimdən aldığı ilk şey idi".

---

[1] Onların namazları qorxu halındakı namazlar idi. Şeyx Səduqun "Əmali"də İmam Baqirdən (ə) nəql etdiyinə əsasən "Döyüşdə onların namazları azan vaxtlarında təkbirlər söyləməklə idi...".

Əmr gülərək dedi: “Sən kimsən ki, Əlini aldada biləsən?! Lakin, yazmaq istəyirsənsə, yaz”.

Süleym deyir: “Müaviyə Əliyə (ə) bir məktub yazdı və Səkasək əhlindən Abdullah ibn Uqbə adlı bir nəfərlə onu göndərdi: “Həqiqətən döyüşün bizi və səni bu vəziyyətə gətirəcəyini bilsəydin və biz də bunu bilsəydik, heç bir zaman bir-birimizə bu zərərləri yetirməzdik. Əgər ağıllarımız bizə qalib gəlirsə, yerdə qalanlarla keçmişi bərpa edib gələcəyi islah edərik.

Məni itaət və beyətə məcbur etməmək şərti ilə səndən Şamı istəmişdim. Sən bunu rədd etdin və Allah məhrum etdiyin şeyi mənə bəxş elədi. Mən səni dünən dəvət etdiyim şeyə bu gündə dəvət edirəm. Sən bəqanı (dünyada qalmağı) mənim istədiyim qədər istəmirsən və fənadan (ölümdən) mənim qorxduğum qədər qorxmursan. Allaha and olsun, ciyərlər üzüldü və kişilər getdilər. Biz (hamımız) Əbdu-Manaf övladlarıyıq. Bizim bir-birimiz üzərində bir üstünlüyümüz yoxdur ki, izzətli onunla alçalsın və zəlil onunla kölə olsun. Vəs-salam!”

## Əmirəl-mömininin (ə) Müaviyəyə cavabı

Süleym deyir: “Əli (ə) Müaviyənin məktubunu oxuyub güldü və dedi: “Müaviyəyə və mənə qarşı bu hiyləsinə təəccüb edirəm!” Sonra katibi Abdullah ibn Əbu Rəfini çağırıb buyurdu: “Yaz!”

“Məktubun mənə çatdı. Orada “Həqiqətən döyüşün bizi və səni bu vəziyyətə gətirəcəyini bilsəydin və biz də bunu bilsəydik, heç bir zaman bir-birimizə bu zərərləri yetirməzdik” deyə qeyd edirsən. Mən və sən, ey Müaviyə, döyüşün son mərhələsindəyik, hələ onu bitirməmişik.

Şamı istəməyinə gəlincə, dünən əlindən aldığımı bu gündə sənə verməyəcəyəm. “Qorxu və ümiddə bərabər olduğumuz” barədə isə, sənin şübhən mənim yəqinimdən daha güclü deyil və iraqlılar axirəti arzuladıqları qədər şamlılar dünyanı arzulamırlar. “Biz Əbdu-Manaf övladlarıyıq. Bizim bir-birimiz üzərində bir üstünlüyümüz yoxdur...” sözünə gəlincə, biz eləyik. Amma Üməyyə Haşim kimi, Hərb Əbdülmüttəlib kimi, Əbu Süfyan Əbu Talib kimi, tüləqa mühacir kimi, münafiq mömin kimi və batil də haqqı göstərən kimi deyil! Ərəblərə hökm etdiyimiz və və əcəmləri boyun əydirdiyimiz peyğəmbərlik fəziləti bizim əlimizdədir. Vəs-salam!”

## Əmr ibn Asın Müaviyəni qınaması

Süleym deyir: “Əlinin (ə) məktubu Müaviyəyə çatdıqda onu Əmrdən gizlətdi. Amma sonra onu çağırdı və o da məktubu oxudu. Əmr Müaviyəni qınadı. Belə

ki, onu məktub yazmaqdan çəkindirmişdi. Əmri miniyindən endirdiyi gündən bəri Qüreyşdən heç kim onun qədər Əliyə (ə) təzim etmirdi. Əmr dedi:

Ey Hindin oğlu, Allaha and olsun ki, səndən bir xeyir gəlməyib,
Amma o xeyirli şəxsin ağalıq halına bax!
Əlinin atası kimi atan olmasını diləyərdin
Bil ki, dəmir dəmir üstə döyülər!
Sən onu şəklə aldatmaq istəyirsən?!
Yoxsa səni Cəhənnəm əzabı ilə qorxutmağını diləyirsən?!
O qılıncını qınından çıxarıb savaşa gəlib
Qorxudan Vəlidin başındakı tüklər tökülür.
Əbul-Həsənin nəyini inkar edə bilərsən?!
Amma səni bu axşam gözləyən şey heç də uzaq deyil.
Ona miskin, zəif qəlbli və damarı kəsilmiş bir kəs kimi söz dedin,
Şamı istəməyin pislik və rəzalət olaraq sənə kifayətdir!
Əgər sənə Şamı versəydi, bu sənə əsla izzət gətirməzdi.
Niyə daha artığını ondan istəyirsən?
Bu fikirlə onsuz da sınıq taxtanı bir də sındırma!

## Müaviyə və Əmr ibn Asın rüsvay olmaları

Müaviyə dedi: "Allaha and olsun, bununla nəyi nəzərdə tutduğunu başa düşdüm".

Əmr dedi: "Nəyi nəzərdə tuturam?" Müaviyə dedi: "Mənim fikrimə eyib tutursan, mənə qarşı çıxırsan və Əli ilə döyüşdüyün gün səni rüsvay elədiyinə görə onu uca tutursan".

Əmr güldü və dedi: "Sənə qarşı çıxmağım və üsyan etməyim olub. Rüsvay olmağıma gəlincə, Əli ilə döyüşən adam rüsvay olmalıdır.[1] Belə bir şeyə qarşılaşmaq istəyirsənsə, səndə bunu et!"

Müaviyə susdu və aralarındakı bu söhbət şamlılar arasında yayıldı.

---

[1] Əllamə Əmini məşhur "əl-Ğədir" kitabının 2-ci cildinin 161-ci səhifəsində Nəsr ibn Məzahirin "Siffin" kitabından nəql ilə Abdullah ibn Abbasın belə dediyini nəql edir: "Siffin günlərindən Əmr ibn As diqqət yayındırıb bir zərbə endirmək məqsədilə Möminlərin əmirinə (ə) hücum etdi. Əli (ə) də ona hücum etdi. əlinin (ə) onunla vuruşmaq istədiyini görən Əmr ibn As özünü atın belindən yerə atdı, paltarını yuxarı qaldırıb cinsi orqanı görünənə qədər qıçlarını açdı. Möminlərin əmiri (ə) üzünü ondan çevirdi. Əmr ibn As toz torpaq içində yerdən qalxdı və ayaqyalın qaçaraq özünü orduya çatdırdı. İraqlılar dedilər: "Ey Möminlərin əmiri! Bu, qaçdı!" Əli (ə) buyurdu: "Bilirsiniz o kimdi?" "Xeyr" dedilər. Əli (ə) buyurdu: "O, Əmr ibn As idi. Cinsi orqanı ilə mənim qarşıma çıxdı və qohumluq xatirinə mənə yalvardı. Mən də ondan üz çevirdim". Əmr ibn As Müaviyənin yanına qayıtdı. Müaviyə ona dedi: "Sən nə edirdin?" Əmr dedi: "Əli mənimlə qarşılaşdı və məni yerə sərdi". Müaviyə dedi: "Əvvəl Allaha həmd, sonra da cinsi orqanına təşəkkür elə".

# HƏDİS 35

## Siffin savaşından bir epizod

Aban Süleymin belə dediyini nəql edir: "Əli aralarında Vəlid ibn Uqbə ibn Əbu Muitin olduğu bir dəstə Şam əhlinin[1] yanından keçdi. Onlar Əlini söydülər.

Bunu (Əliyə (ə)) xəbər verdilər. Əli (ə) səhabələrindən onlara qarşı olan bir dəstənin arasında dayanıb dedi:

"Onların üzərinə gedin. Sükunət (arxayınlıq), salehlərin siması və İslamın vüqarı sizin üzərinizdədir. Onlar Allaha qarşı cəhldə, Ona qarşı cürətdə

---

[1] Vəlid ibn Uqbə Osmanın yaxın qohumlarındandır. Onu Kufəyə vali təyin etmişdi. Əllamə Əmini "əl-Ğədir" kitabının 8-ci cildinin 120-ci səhifəsində belə nəql edir: "Vəlid ibn Uqbə zinakar və şərab içən bir kəs idi. Bir dəfə Kufədə şərab içdikdən sonra şəhərin məscidində camaata imam olmuş və sübh namazı qıldırmışdı. Sübh namazını dörd rükət qıldırmış, sonra üzünü camaata tutub belə demişdi: "Yenə də davam etməmi istəyirsiniz?" Bundan sonra məscidin mehrabına qusdu və namaz əsnasında bu mahnını oxudu ki, sözlərinin mənası belədir: "Hər ikisi də yaşlandıqdan sonra ürəyi Rübaba meyl etdi".

Təlhə və Zübeyr Əffanın oğlunun yanına gəlib dedilər: "Biz səni müsəlmanların başına Vəlidi təyin etməkdən çəkindirdik. Amma sən qəbul etmədin. Şərab içdiyinə və sərxoş olduğuna dair əleyhinə şahidlik etdilər. Onu vəzifədən (Kufə valiliyindən) çıxar". Əli (ə) də dedi: "Onu vəzifədən götür, şahidlər onunla üzünə şahidlik etsələr ona hədd cəzası tətbiq et!"

Osman Kufə valiliyinə Səid ibn Ası təyin etdi və Vəlidi geri göndərməsini tapşırdı. Səid Kufəyə gəldikdə hökumət evini və məscid minbərini yudu, Vəlidi geri göndərdi. Onun əleyhinə şahidlik edildikdə Osman hədd cəzası tətbiq olunmasına göstəriş verdi. Ona incə və yeni bir paltar geydirib bir otağa həbs etdi. Əffanın oğlu Vəlidi qamçılamağa adam göndərdikdə o: "Səni Allaha and verirəm! Məndən mərhəmətini əsirgəmə və Əffanın oğlunun qəzəbini üzərinə çəkmə" deyirdi. O da vurmaqdan çəkinirdi. Əli (ə) bunu gördükdə qamçını götürüb otağa girdi. Əli onu vurur. o da söyürdü".

"Biharul-ənvar"ın köhnə çapında, (c.2, s.302) belə deyilir: "Vəlid Əlidən (ə) bir o yana, bir bu yana qaçırdı. Əli onu tutdu və sərt şəkildə yerə vurdu. Sonrada həddi ona tətbiq etdi".

Nabiğənin oğlu Əmr ibn Asdır. Anası Məkkənin məşhur zinakarlarından idi. Qüreyşdən altı nəfər onunla zina etmiş və nəticəsində Əmr ibn As dünyaya gəlmişdi. Bu altı nəfərdən hansının oğlu olduğu barədə mübahisə düşdükdə anası Nabiğə onu As ibn Vailə nisbət verdi". ("əl-Ğədir", c.2, s.121)

Əbul-Əvər Əsləmi isə Əmr ibn Süfyanın oğludur. Peyğəmbərin (s) vəfatına yaxın münafiqlərin Əlinin (ə) əleyhinə bağladıqları müqavilədə iştirak etmişdi. Möminlərin əmirinə (ə) qarşı düşmənçilik edirdi. Bu səbəbdən Müaviyə onu Siffində ordunun başçılarından biri təyin etdi.

Mərvan ibn Həkəm - Peyğəmbər (s) onu atası Həkəmlə birlikdə Mədinədən sürgün etmişdi. Bundan sonra o, taifdə məskunlaşmışdı. Mərvan doğulduqda onu Peyğəmbərin (s) yanına gətirmişdilər və Peyğəmbər (s) onun haqqında belə buyurmuşdu: "Kərtənkələ oğlu kərtənkələ, lənətlənmiş oğlu lənətlənmişdir". ("əl-Ğədir", c.8, s.244 və 260.)

və aldanmağa ən yaxınlar olaraq başçıları Müaviyə, nabiğənin oğlu, Əbul-Əvər Sələmi (Əsləmi), Əyyaş ibn Əbu Muit, İslamda hədd cəzası olaraq qamçı vurulmuş (Vəlid) və sürgün edilmiş Mərvandan ibarət dəstədir. Onlar orada dayanmış və söyürlər. Əvvəlki günlərdə mənimlə döyüşmədilər, (amma) söydülər. Mən o zaman onları İslama dəvət edirdim və onlar isə məni bütlərə ibadət etməyə çağırırdılar. Allaha həmd olsun ki, keçmişdə də və indi də mənə düşmənçilik edənlər fasiq münafiqlərdir. Həqiqətən, bu, əhəmiyyətli məsələdir. Bu fasiq münafiqlər bizim yanımızda etibarlı deyillər və İslam üçün təhlükəli şəxslərdirlər. Bu ümmətin yarısına hiylə qurdular, fitnənin sevgisini qəlblərinə doldurdular və onları batilə tərəf sürüdülər. Bizə qarşı savaşa təhrik etdilər və Allahın nurunu söndürməyə səy göstərirlər. Kafirlər istəməsə də Allah Öz nurunu tamamlayacaq".

Sonra əsgərlərini onlara hücuma təşviq etdi və dedi: "Onlar qəlbləri uçuran, ard-arda gələn, başları yaran, burunları və sümükləri ayıran, yumruqları qıran zərbələr olmasa yerlərini tərk etməzlər. Ta ki, alınları dəmirdən payalarla əzilər, qaşları sinələrinin, çənələrinin və boğazlarının üzərinə dağılar. Din əhli və mükafat axtranlar haradadır?"

## Muhəmməd ibn Hənəfiyyənin dörd min əsgərlə Müaviyyənin ordusunun üzərinə həmləsi

Təxminən dörd min nəfər hücuma keçdi. Əli (ə) Muhəmməd Hənəfiyyəni yanına çağırdı və dedi: "Ey oğlum! Yavaş-yavaş bu bayrağa doğru get! Mizraqları sinələrinə söykədiyiniz zaman nəzərlərimin sənə çatmasını gözlə!" Əlinin (ə) dediyini etdi.

Əli (ə) onlar kimi bir dəstə hazırladı. Muhəmməd düşmənə yaxınlaşıb mizraqlarını sinələrinə söykədikdə Əli (ə) hazırladığı dəstənin onlarla birlikdə hücum etmələrini əmr etdi. Onların üzərinə hücuma keçdilər, Muhəmməd və onunla birlikdə olanlar eyni vaxta döyüşə başladılar, onları dayandıqları yerdən uzaqlaşdırdılar və onları öldürdülər.

# HƏDİS 36

## Peyğəmbərin (s) İmam Əli (ə) üçün duası

Aban Süleymdən Miqdaddan Əli (ə) barəsində belə soruşduğunu nəql edir: "Peyğəmbərlə (s) birgə səfər edirdik (bu, Peyğəmbərin (s) qadınlarına hicabı əmr etməsindən əvvəl idi). Əli (ə) Peyğəmbərə (s) xidmət edirdi, ondan başqa xidmətçisi yox idi. Həmçinin Peyğəmbərin (s) yalnız bir yorğanı vardı. Aişə də onunla (s) idi.

Peyğəmbər (s) Əli (ə) ilə Aişənin arasında bir yorğanın altında yatırdı. Peyğəmbər (s) gecə namazına qalxarkən əli ilə yorğanı ortadan döşəyə toxunanadək yerə birləşdirər, bundan sonra namaza başlardı.

Bir gün Əlini (ə) qızdırma tutdu, səhərədək yata bilmədi. Peyğəmbər də (s) onunla birgə səhərədək ayıq qaldı. Gecənin bir hissəsini namaz qılır, bir hissəsini də Əliyə (ə) baş çəkməyə, səhərədək ona baxmağa gedirdi. Səhabələrlə sübh namazını qıldıqdan sonra dedi: "İlahi, Əliyə şəfa və sağlamlıq ver, onun ağrılarına görə mən də gecəni oyaq qalmışam". Bu duadan həmən sonra Əli sağaldı, sanki heç bir narahatlığı və xəstəliyi olmamışdı.

## Peyğəmbərin (s) Əli (ə) üçün Rəbbindən diləyi

Sonra Peyğəmbər (s) buyurdu: "Müjdələr olsun, ey Əli!". Bunu deyərkən səhabələri də yanında idi. Əli (ə) dedi: "Ya Peyğəmbər, Allah səni xeyirlə müjdələsin və məni sənə fəda etsin!". Peyğəmbər (s) buyurdu: "Mən bu gecə Allahdan bir şey dilədim və O mənə əta etdi. Rəbbimdən özüm üçün elə bir şey istəməmişəm ki, sənin üçün də eynisini istəməyim. Mən Rəbbimdən səninlə mənim aramda qardaşlıq yaratmasını istədim, bunu etdi, Ondan səni məndən sonra bütün möminlərə vəli qərar verməsini istədim, bunun belə olmasına hökm etdi, mənə nübuvvət və risalət libası geyindirdiyi kimi sənə də vəsilik və şücaət libası geyindirməsini istədim, bunu da qəbul etdi, səni mənim vəsim, varisim, elmimin xəzinəsi etməsini dilədim buna da qərar verdi, sənin mənə olan nisbətini Harunun Musaya olan nisbətindən etməsini, səninlə məni qüvvətləndirməsini və işimə ortaq etməsini istədim bunun belə olmasına hökm verdi, sadəcə məndən sonra peyğəmbərin olmayacağını buyurdu. Mən də razı

oldum. Səni qızımla evləndirməsini, övladlarımın atası etməsini dilədim, bunun belə olmasını qəbul etdi”.

Səhabələrdən bir nəfər dedi: “Nə istədiklərinizi görürsünüz, Allaha and olsun ki, əgər Rəbbindən ona düşmənlərinə qarşı yardım üçün bir mələk göndərməsini, yaxud özünün və səhabələrinin faydalanacağı bir xəzinə göndərməsini diləsəydiniz (belə ki, ona da ehtiyacı var) bunlardan daha xeyirli olardı!” başqa bir səhabə isə dedi: “Allaha and olsun ki, bir sa` xurma istəsəydiniz, bu onun üçün daha yaxşı idi”.

# HƏDİS 37

## 1. "Şəhifə əhli"nin ölüm ayağında söylədikləri

### Muaz ibn Cəbəlin ölüm vaxtı dedikləri və gördükləri

Aban Süleym ibn Qeysdən belə nəql edir: "Şam əhlinin ən elmlisi və ən çalışqanı olan Muaz ibn Cəbəlin qayınatası Əbdürrəhman ibn Ğanəm əl-Əzdi Somalinin[1] belə dediyini eşitdim:

"Muaz ibn Cəbəl vəba xəstəliyindən öldü.[2] Öldüyü gün orada idim. İnsanlar vəba ilə mübarizə aparırdılar. Evdə onunla məndən başqa heç kəs yox idi. Bu Səhhakın oğlunun xilafəti dövründə idi. Muaz deyirdi: "Vay olsun mənə! Vay olsun mənə! Vay olsun mənə! Vay olsun mənə!" Öz-özümə düşündüm: "Vəba xəstələri sayıqlayar, danışar və qəribə sözlər söyləyərlər".

Dedim: "Allah sənə rəhm eləsin, sayıqlayırsan?" Dedi: "Xeyr".

Dedim: "Bəs niyə özünə vay deyirsən?" Dedi: "Allahın dostuna qarşı Allahın düşmənini dost tutduğuma görə!"

Dedim: "O kimdir?" Muaz dedi: "Peyğəmbərin xəlifəsi, vəsisi Əli ibn Əbu Talibə qarşı Allahın düşmənləri Ətiq (Yaşlı səhabə) və Səhhakın oğlunun vilayətini qəbul etdiyim üçün!"

Dedim: "Həqiqətən də sən sayıqlayırsan!". Muaz dedi: "Ey İbn Ğanəm! Allaha and olsun ki, sayıqlamıram! Allahın Peyğəmbəri və Əli ibn Əbu Talib deyirdilər: "Ey Muaz ibn Cəbəl! "Əgər Peyğəmbər ölsə və ya öldürülsə xilafəti Əlidən alacağıq və əsla o xilafətə yetişəməyəcək" deyən sən və yoldaşların cəhənnəm odu ilə müjdələnin! Sən, Ətiq, Ömər, Əbu Übeydə və Salim".

Dedim: "Ey Muaz! Bu nə vaxt olub?" Dedi: "Vida Həccində. O zaman biz vədələşdik ki, Əli qarşısında bir-birimizə kömək edək, biz yaşadığımız müddətdə xilafətə yetişməsin". Peyğəmbər vəfat etdikdə onlara dedim: "Mən camaatım olan ənsarlar barədə sizə təminat verirəm. Siz də Qüreyş barədə mənə təminat verin". Peyğəmbərin dövründə Əliyə qarşı bağladığımız müqaviləyə Bəşir ibn Səid[3] və Üseyd ibn Hüzeyri də dəvət etdim və onlar da bu məsələdə mənə beyət etdilər".

---

[1] Əbdürrəhman ibn Ğanəm Peyğəmbər (s) zamanında müsəlman olmuşdu. Amma onu görmədi və faydası toxunmadı. Şam əhlinin əksəriyyətinə və tabeinlərə fiqh öyrədən o olub.

[2] Bu hicrətin 18-ci ilində baş verib.

[3] Bəşir ibn Səid Xəzrəc qəbiləsinin başçısı idi. Əbu Bəkrin xilafəti dövründə Yəməndə öldürül-

Dedim: “Ey Muaz! Sən həqiqətən də sayıqlayırsan!” Dedi: “Yanağımı yerə qoy!” Ölənə qədər “Vay olsun mənə! Ölüm olsun mənə!” deyə bağırdı.

## Əbu Übeydə ibn Cərrahın və Əbu Hüzeyfənin azad edilmiş köləsi Salimin ölüm vaxtı dedikləri

Süleym deyir: “İbn Ğanəm mənə dedi: “Allaha and olsun ki, ondan eşitdiklərimi səndən əvvəl iki nəfərdən başqa heç kimə söyləməmişəm. Muazdan eşitdiklərim məni qorxutdu. Bir müddət sonra Həccə getmişdim. Orada Əbu Übeydə ibn Cərrah və Əbu Hüzeyfənin azad edilmiş köləsi Salimin[1] ölümünə şahid olan şəxslərlə qarşılaşdım. Dedim: Salim məgər Yəmamə döyüşündə öldürülmədi?” Dedilər: “Bəli, amma son nəfəsində onu döyüş meydanından çıxardıq”. Hər ikisi də mənə Muazın dediklərinin eynini söylədilər. Nə artıq, nə də əskik. Həqiqətən də Əbu Übeydə və Salim Muazın dediklərinin eynisini demişlər.

## Yaşlı səhabənin ölüm vaxtı dedikləri

Aban Süleymin belə dediyini söyləyir: “İbn Ğanəmin mənə dediklərinin hamısını Əbu Bəkrin oğlu Məhəmmədə danışdım. Məhəmməd dedi: “Sirrimi qoru! Mən şahidlik edirəm ki, atam da ölüm anında bu sözləri söylədi. Aişə isə: “Atam sayıqlayır!” dedi”.

## Ölüm zamanı Səhhakın oğlunun sözləri

Məhəmməd deyir: “Osmanın xəlifəliyi dövründə Abdullah ibn Ömərlə görüşdüm. Atamın ölüm anında söylədiklərini ona danışdım. Kimsəyə söyləməməsi barədə ona and içdirdim və vəd aldım. Ömərin oğlu mənə dedi: “Sən də sirrimi qoru! Allaha and olsun, mənim atam da ölüm yatağında sənin atanın dediklərini söylədi. Nə artıq, nə də əskik”. Sonra Abdullah ibn Səhhakın oğlu sözlərini yarımçıq kəsdi, bunları Əli ibn Əbu Talibə (ə) danışmağımdan qorxdu. Çünki mənim Əliyə olan sevgimi və bağlılığımı bilirdi. Buna görə də “Atam bunları söylərkən sayıqlayırdı” dedi.

---

dü. Üseyd ibn Hüzeyr ibn Səmmak ibn Ətik əl-Övsi əl-Ənsari əl-Əşhəli isə Övs qəbiləsinin başçısı idi. Hicrətin 20-ci ilində öldü. O, Fatimənin (s.ə.) evini yandırmaq üçün odun daşıyanlardan idi. “Səhifə əhli” ənsarın başçılarından olan Səd ibn İbadədən ümidlərini üzdükdə hər biri ənsar camaatının böyük bir hissəsinin başçısı olan bu iki nəfərlə əhd bağladırlar.

[1] Əbu Übeydə hicrətin 18-ci ilində Şamın Homs şəhərində öldü. Salim isə hicrətin 12-ci ilində Yəmamə döyüşündə öldürüldü.

## Bu sözləri Əmirəl-mömininin (ə) təsdiqləməsi

Sonra Möminlərin əmiri Əlinin (ə) yanına gəldim[1]. Atamdan eşitdiklərimi və Səhhakın oğlunun oğlunun atasından eşitdiklərini ona danışdım. Möminlərin əmiri (ə) dedi: "Bunları mənə səndən və Səhhakın oğlunun oğlundan daha doğru sözlü bir nəfər onun atasından, sənin atandan, Əbu Übeydədən, Salimdən və Muazdan mənə nəql etdi". Dedim: "O şəxs kimdir, ey Möminlərin əmiri?" Buyurdu: "Bəzi adamlar mənə danışdı". Kimi nəzərdə tutduğunu anladım[2] və dedim: "Doğru söylədin, ey Əmirəl-möminin! Mən bir insanın bunları sənə söylədiyini zənn etdim. Halbuki atam bunları söylədikdə yanında məndən başqa heç kəs yox idi".

Süleym Əbdürrəhman ibn Ğanəmə dedi: "Muaz vəbadan öldü. Əbu Übeydə ibn Cərrah bəs hansı xəstəlikdən öldü?" Dedi: "Dübeylədən"[3].

## 2. Yaşlı səhabənin ölümü zamanı baş verənlər

Sonra Məhəmməd ibn Yaşlı səhabələ qarşılaşdım və dedim: "Atanın ölümünə qardaşın Əbdürrəhman, Aişə və Səhhakın oğlundan başqa kimsə şahid oldumu?" Dedi: "Xeyr!". "Bəs sənin eşitdiklərini onlar da eşitdilər?" Dedi: "Bir hissəsini eşidib ağladılar və "Sayıqlayır!" dedilər. Amma mənim eşitdiklərimin hamısını onlar eşitmədilər".

## Yaşlı səhabə ölüm ayağında Peyğəmbəri (s) və Əlini (ə) görür

Dedim: "Onlar nə eşitdilər?" Dedi: "O, "vay olsun, ölüm olsun" deyərkən Səhhakın oğlu "Ey Peyğəmbərin xəlifəsi! Nə oldu ki, ah-vay çəkirsən?" deyə soruşdu. Atam dedi: "Bu Peyğəmbərdir, Əli də onun yanındadır. Məni odla müjdələyir. Əlində onun əleyhinə Kəbədə imzaladığımız müqavilə var və mənə deyir: "Ömrümə and olsun, bu müqaviləyə vəfa etdin, sən və dostların Allahın vəlisinə qarşı birləşdiniz. Cəhənnəmin ən alçaq yerindəki odla müjdələn!"

Səhhakın oğlu bunları eşitdikdə "Sayıqlayır!" deyərək otaqdan çıxdı. Atam dedi: "Allaha and olsun ki, sayıqlamıram. Hara gedirsən?" Səhhakın oğlu dedi: "Sən mağarada olan iki nəfərdən birisən!" Atam dedi: "İndidəmi! Mən sənə da-

---

[1] Bu Məhəmməd ibn Əbu Bəkrin sözləridir.

[2] Bunları insan olmayan bir məxluqun ona xəbər verdiyini anladım. Çünki atam bu sözləri söylədikdə yanında məndən başqa birisi yox idi.

[3] Dübeylə - bir növ taundur, insanın daxilində ağciyər pərdələri arasında sızanaq kimi çıxır və nəticədə sahibini öldürür.

nışmadımmı ki, onunla mağarada olarkən Muhəmməd (diqqət yetirin ki, Allahın peyğəmbəri (s) demir) mənə nə dedi: "Mən Cəfəri və yoldaşlarının gəmisini görürəm. Dənizdə üzürlər". Mən dedim: "Mənə də göstər!" Əlini üzümə sürtdü və mən gəmini gördüm. Həmin vaxt onun sehrbaz olduğuna əmin oldum. Mən bunları Mədinədə sənə danışdım və onun sehrbaz olması barədə səninlə həmfikir olmadıqmı?!"

Səhhakın oğlu dedi: "Ey camaat, atanız sayıqlayır! Ondan eşitdiklərinizin üstünü örtüb gizlədin ki, Əhli-Beyt sizi ələ salmasın". Sonra Səhhakın oğlu, qardaşım və Aişə namaz üçün dəstəmaz almağa çıxdılar və mən atamdan onların eşitmədiyi sözləri də eşitdim.

## Cəhənnəmdəki tabuta daxil olması barədə iqrarı

Onunla yalnız qaldıqda dedim: Atacan, "La ilahə illəllah!" de". Dedi: "Heç vaxt söyləmərəm. Odu görmədən və tabuta girmədən buna gücüm çatmaz". Tabutdan danışdıqda sayıqladığını zənn etdim. "Hansı tabut?" dedim. Dedi: "Atəşdən bir qıfılla qıfıllanmış oddan ibarət bir tabutdur! İçində on iki nəfər var. Bu dostum və mən onlardanıq". Dedim: "Səhhakın oğlunu nəzərdə tutursan?" Dedi: "Bəli! Başqa kimi nəzərdə tutacağam?! Orada başqa on nəfər də var. Tabut Cəhənnəmdə, üzərində daş olan bir quyudadır. Allah nə vaxt Cəhənnəmi alovlandırmaq istəsə, bu daşı quyunun üzərindən qaldırar".

* * *

Dedim: "Sayıqlayırsan?" Dedi: "Yox! Allaha and olsun ki, sayıqlamıram! Allah Səhhakın oğluna lənət eləsin! Yanıma gəldikdən sonra məni Allahın zikrindən saxlayan o oldu. Nə pis bir yoldaşdır![1] Allah ona lənət eləsin! Üzümü

---

[1] Onun söylədikləri Qurani-Kərimin iki ayəsinə işarə ola bilər. Bunlar:

***1. "O gün zalım (küfrə düşməklə özünə zülm edən peşmançılıqdan) əllərini çeynəyib deyəcəkdir: "Kaş ki, mən Peyğəmbər vasitəsilə doğru bir yol tutaydım; Vay halıma! Kaş filankəsi özümə dost etməyəydim; And olsun ki, Quran mənə gəldikdən sonra məni ondan o sapdırdı. Şeytan insanı (yoldan çıxartdıqdan, bəlaya saldıqdan sonra) yalqız buraxar (zəlil, rüsvay edər). Peyğəmbər də: "Ey Rəbbim! Həqiqətən, qövmüm bu Quranı tərk etmişdi!" -deyəcək"*** ("Furqan" surəsi, ayə 27-30).

2. ***"Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona Şeytanı ürcah edərik və onun (Şeytanın) yaxın dostu olar. (Şeytanlar) onları doğru yoldan çıxardar, onlar isə özlərinin haqq yolda olduqlarını güman edərlər! Nəhayət, o, hüzurumuza gəldikdə (öz yanında olan yoldaşına) belə deyər: "Kaş ki, mənimlə sənin aranda şərqlə qərb arasındakı məsafə qədər uzaqlıq olaydı. Sən nə pis yolda imişsən!" Bu gün (peşmançılığınız) sizə heç bir fayda verməz. Siz birlikdə zülm (küfr) etdiyinizə görə əzaba da ortaqsınız!"*** ("Zuxruf" surəsi, ayə 36-39).

yerə qoy!" Yanağını yerə qoydum. Mən gözlərini bağlayana qədər "Vay olsun mənə!" deyə bağırdı.

Sonra Ömər içəri girdi. Həmin vaxt artıq atamın gözlərini yummuşdu. Dedi: "Məndən sonra bir şey söylədi?" Dediklərini ona danışdım. Dedi: "Allah Peyğəmbərin xəlifəsinə rəhm eləsin! Bu sözləri gizli saxla. Şübhə yoxdur ki, bu sözlər sayıqlamadır. Sizin ailə xəstəlik vaxtı sayıqlamaqla məşhurdur". Aişə dedi: "Düz deyirsən". Sonra mənə dedilər: "Heç kim sizdən bu olanlar barədə bir söz eşitməməlidir, yoxsa Əli ibn Əbu Talib və Əhli-Beyti bu sözlərinizlə sizi ələ salarlar".

Süleym deyir ki, Məhəmməddən soruşdum: "Əmirəl-mömininə (ə) bu beş nəfərin dediklərini kimin söylədiyi barədə fikrin nədir?" Dedi: "Peyğəmbər (s). O, hər gecə yuxuda Peyğəmbəri (s) görür. Onun Peyğəmbərlə (s) yuxuda danışması, onunla həyatda və oyaq ikən danışması kimidir. Peyğəmbər (s) buyurub: "Kim məni yuxuda görsə, həqiqətən məni görmüşdür. Çünki Şeytan qiyamət gününə qədər nə yuxuda və nə də həqiqətdə mənim və vəsilərimdən heç birinin surətinə girə bilməz".

Süleym Məhəmməd ibn Əbu Bəkrə dedi: "Sənə bu hədisi kim nəql edib?" Dedi: "Əli (ə) söyləyib". Dedim: "Mən də sənin eşitdiklərinin eynisini ondan eşitmişəm".

Məhəmmədə dedim: "Ola bilər ki, bir mələk ona bunları desin?" Dedi: "Bəlkə də". Dedim: "Məgər mələklər yalnız peyğəmbərlərlə danışırmırlar?" Dedi: "Məgər Quran oxumursan? "***"Biz səndən əvvəl elə bir rəsul, elə bir nəbi, (mühəddəs[1]) göndərmədik ki..."***[2] Ona dedim: "Mələklər Əmirəl-mömininlə (ə) danışırdılar?" Dedi: "Bəli. Fatimə (s.ə.) mələklərlə danışırdı. Amma ki, peyğəmbər deyildi. Həmçinin Məryəm mələklərlə danışırdı, amma o da peyğəmbər deyildi. Musanın anası da mələklərlə danışırdı. O da peyğəmbər deyildi. İbrahimin zövcəsi Sara mələkləri görürdü. Onu İshaq ilə və ardından da Yaqubla müjdələdilər. Halbuki o da peyğəmbər deyildi".

## Əmirəl-mömininin (ə) bu söhbəti ikinci dəfə təsdiqləməsi

Süleym deyir: "Məhəmməd ibn Əbu Bəkr Misirdə öldürüldüyü zaman Əmirəl-mömininin (ə) yanına baş sağlığı vermək üçün gəldim. Onunla yalnız qaldıqda Məhəmməd ibn Əbu Bəkrin və Əbdürrəhman ibn Ğanəmin mənə

---

[1] Mühəddəs - mələklərin səsini eşidib, amma onları görməyən şəxsə deyilir. Bu barədə müraciət edilə bilərsiniz: "Bəsairud-dərəcat", s.320; "Kafi", c.1, s.176 və 270; "İxtisas" Şeyx Müfid, s.323; "Əmali", Şeyx Tusi, c.2, s.21.

[2] "Həcc" surəsi, ayə 52.

dediklərini ona danışdım”. Əli (ə) buyurdu: “Məhəmməd doğru deyib. Allah ona rəhmət eləsin. O şəhiddir, diridir və (Allah yanında) ruzi yeyir”.

## On iki imamın (ə) xüsusiyyətləri

Ey Süleym! Mənim vəsilərim övladlarımdan on bir nəfərdir. Onlar hidayət olmuş imamlar və hidayət edəndirlər. Hamısı mühəddəsdirlər”.

Dedim: “Ya Əmirəl-möminin! Onlar kimdirlər?” Dedi: “Bu oğlum Həsən, sonra bu oğlum Hüseyn, sonra bu oğlum (həmin vaxt südəmər olan Hüseyn oğlu Əlinin əlini tutdu). Sonra bir-biri ardınca bunun övladlarından səkkiz nəfər. Bunlar Allah and içdiyi və belə buyurduğu şəxslərdir: ***“And olsun ataya və onun övladına ki...”***[1] Ata Peyğəmbər və mənəm, övlad isə on bir nəfər vəsilərdir. Allahın salavatı onlara olsun!”

Dedim: “Ya Əmirəl-möminin! Eyni vaxtda iki imam bir yerdə ola bilər?” Buyurdu: “Bəli! Amma birinci vəfat edənə qədər ikinci susar, danışmaz”.

*Kitabın 69 nüsxəsində bunlar da qeyd edilib. Mövzuya uyğun olduğuna görə burada qeyd edirik:*

## “Səhifə əhli”nin cahiliyyə ölümü ilə ölməsi

Bunu Aban öz əlilə Süleymin dilindən yazıb: “O üç nəfər və Təlhə, Zübeyr, Ənəs, Sad və Əbdürrəhman ibn Ovf ölüm anında özləri əleyhlərində şahidlik etmişlər ki, həqiqətən də onlar ataları kimi cahiliyyə dövründəki inancları üzərində ölüblər...”

---

[1] “Bələd” surəsi, ayə 3.

# HƏDİS 38

## Ümmətin haqq və batil əhlinə bölünməsi və bu ikisi arasında gedib-gəlməsi

Aban Süleymdən nəql edir ki, Salman, Əbu Zərr və Miqdad belə deyirlər: "Biz Peyğəmbərlə (s) birgə əyləşmişdik, bizdən savayı Peyğəmbərin (s) yanında heç kəs yox idi. Bədr savaşında iştirak edən mühacirlərdən üç nəfər içəri daxil oldu.

Peyğəmbər (s) buyurdu: "Məndən sonra ümmətim üç dəstəyə ayrılacaq: haqq dəstəsi, ona batildən heç nə sirayət etməyəcək. Onların misalı qırmızı qızıl kimidir, hər dəfə onu odda qızdırdıqda parlaqlığı və gözəlliyi daha da artar. Onların imamı bu üç nəfərdən biridir; bir dəstə batil əhlidir. Onlara haqdan heç bir şey sirayət etməyəcək. Onların misalı keyfiyyətsiz çürümüş dəmir kimidir. Hər dəfə onu odda qızdırdıqda keyfiyyəti daha da azalar və pis qoxusu yayılar. Onların imamı bu üç nəfərdən biridir; üçüncü dəstə şübhədə olan azmışlardır. Nə birincilərin, nə də ikincilərin yanında qərar tuta bilmirlər. Onların da imamı bu üç nəfərdən biridir".

Süleym deyir: "Onlardan bu üç imam haqqında soruşdum, belə dedilər: "Haqq və hidayət imamı Əli ibn Əbu Talibdir, üçüncü dəstənin imamı Sad ibn Əbu Vəqqasdır". Üçüncü şəxsin adını onlardan eşitmək istədim. Amma söyləməkdən imtina etdilər, kimin qəsd olunduğunu bildiyimi dedilər.

Kufədə olarkən İmam Əlidən (ə) Salmanın, Əbu Zərrin və Miqdadın nəql etdikləri, Peyğəmbərin (s) yanında baş vermiş bu hadisəni və "məndən sonra ümmətim üç dəstəyə ayrılacaq" sözlərini soruşdum, onların sənin və Sadın adını çəkdiklərini bildirdim. Üçüncü şəxsin adını çəkmədiklərini, lakin işarə ilə kimi qəsd etdiklərini söylədiklərini dedim.

İmam Əli (ə) buyurdu: "Ey Süleym, kədərləndirici haldır ki, Bəni-İsrailin qəlbləri buzova olan sevgi ilə dolduğu kimi bu ümmətin də qəlbləri həmin kəsə sevgi ilə doludur. Ey Süleym, onun kim olduğu barədə şəkdəsənmi?". Dedim: "Bəli. İstəyirəm ki, mənim üçün onu adını çəkəsən, mən də səndən eşidim və yəqinim artsın".

Dedi: O, həmin yaşlıdır.

### Vilayət məsələsi qızıl və gümüşdən daha aşkardır

Allahın sizə bildirdiyi və ehsan etdiyi bu məsələ qızıl və gümüşdən daha aşkardır. Ümmətdən az adam bunu bilir. Ummu Əymən öldü, o, cənnət əhlindəndir. O, Allahın sənə bildirdiklərinin hamsını bilmirdi. Ona görə də Allaha həmd et, Allahın sənə verdiyini götür və şükür elə!

Bil ki, Allah-Təala dünyanı xeyirxaha da, zalıma da verir. Sənin etiqad bəslədiyin məsələni Allah məxluqlarından seçdiklərinə bəxş edir. Bizim məsələni məxluqlardan yalnız üç dəstə bilir: müqərrəb mələklər, mürsəl peyğəmbərlər və Allahın qəlbini imanla imtahan etdiyi bəndə.

Ey Süleym, bu məsələnin təməli təqvalı olmaqdır, buna ancaq təqva və vərə ilə nail olmaq olar”.

# HƏDİS 39

## Qədir Xum

Aban ibn Əbu Əyyaş Süleymdən nəql edir ki, Əbu Səid Xudrinin belə dediyini eşitdi: “Peyğəmbər Qədir Xumda camaatı çağırdı. Ağacın altındakı tikanların təmizlənməsini əmr etdi və həmin yer təmizləndi. Cümə axşamı idi. Camaatı yanına çağırdı və Əbu Talib oğulu Əlinin bazusundan tutub o qədər qaldırdı ki, Peyğəmbərin (s) qoltuğunun altındakı ağlıq göründü. Sonra buyurdu: “Mən kimin mövlasıyamsa Əli də onun mövlasıdır. İlahi, onu sevəni sev, ona düşmən olana düşmən ol, ona yardım edənə yardım et və onu alçaldanı alçalt!”

Əbu Səid dedi: “Peyğəmbər (s) minbərdən enməmiş bu ayə nazil oldu: ***“Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim”.***[1] **Peyğəmbər (s) buyurdu:** “Dinin kamalı, nemətin tamamlanması, Rəbbin mənim peyğəmbərliyimə və məndən sonra Əlinin vilayətinə görə Allaha təkbir deyirəm!”

## Həssanın Qədir Xumda Peyğəmbərin (s) hüzurunda söylədiyi şeir

Həssan ibn Sabit dedi: “Ya Peyğəmbər! İzn ver Əli haqqında şeir söyləyim!” Peyğəmbər (s) buyurdu: “Allahın bərəkətilə, söylə!”

Həssan dedi: “Ey Qüreyş şeyxləri! Peyğəmbərin (s) şahidliyində sözlərimi dinləyin:

«Bilmirsinizmi ki, Muhəmməd peyğəmbər
Xum ağaclarının altında qalxıb nida elədi
Cəbrayıl Rəbbinin yanından gəlib
Sən qorunmusan, elə isə zəiflik göstərmə.
Allahın endirdiyini onlara təbliğ et.
Əgər bunu etməsən və zülmlərindən çəkinsən
Allahlarının risalətini onlara təbliğ etməmişsən.
Əgər düşmənlərdən qorxsan

---

[1] “Maidə” surəsi, ayə 3.

O an da qalxıb ayağa, əlini yüksəltdiyində
(Əlinin) əli sağ əlində ikən uca bir səslə:
"Mən sizdən kimin mövlasıyamsa dedi,
Və hər kim sözümü qoruyub unutmursa
Əli də məndən sonra onun mövlasıdır.
Başqasına deyil, mən sizin üçün ona razıyam
Ey Rəbbim Əlini sevəni Sən də sev,
Ona düşmən olana Sən də düşmən ol!
Ey Rəbbim - on dörd gecəlik ay zülmətlərə nur saldığı kimi
Hidayətə işıq saçana yardım edənə yardım et!
Və ey Rəbbim, onu alçaldanı alçalt,
Hesab günü həbs edildikdə Sən onlara kafisən!"

Kitabın 69-cu nüsxəsinin əlyazmasından nəql olunur. Bu hədislə uyğunluğu olduğu üçün burada qeyd edirik:

## Qədir Xumda etiraz

Peyğəmbər (s) günorta vaxtı ayağa qalxdı, bir çadır qurulmasına göstəriş verdi və Əliyə (ə) həmin çadıra daxil olmasını buyurdu. Peyğəmbərin (s) beyət etmək əmrini verdiyi ilk kəslər Əbu Bəkr və Ömər idi. O ikisi ayağa qalxmazdan əvvəl Peyğəmbərə (s) bu sualı verdilər: "Bu beyət Allahın əmridir?" Peyğəmbər (s) o ikisinə belə cavab verdi: "Bəli Uca Allahın əmridir. Bilin ki, kim bu beyəti pozsa, kafirdir. Kim Əliyə (ə) itaət etməzsə kafirdir. Əlinin sözü mənim sözüm, əmri mənim əmrimdir. Əlinin əmrinə və sözünə qarşı çıxan kəs mənə qarşı çıxmışdır".

Bu sözü onlara təkidlə söylədikdən sonra cəld beyət etmələrini əmr etdi. Onlar qalxıb Əlinin yanına getdilər və "Möminlərin əmiri" ünvanı ilə beyət etdilər. Ömər beyət edərkən dedi: "Nə xoş sənin üçün, ya Əli! Mənim, bütün kişi və qadın möminlərin mövlası oldun". Sonra Peyğəmbər (s) Salman və Əbu Zərrə beyət etmələrini buyurdu. Onlar bir söz söyləmədən qalxdılar..."

# HƏDİS 40

## Əmirəl-mömininin (ə) xüsusiyyətləri

Aban Süleym ibn Qeysin belə dediyini nəql edir: "Əlinin (ə) belə dediyini eşitdim: "Peyğəmbərdən (s) mənə keçən on xüsusiyyətim var ki, günəşin üzərinə doğulduğu və batdığı heç bir şey məni onlar qədər xoşbəxt edə bilməz".

Deyildi: "Ey Əmirəl-möminin, onları bizim üçün bəyan et!"

Əli (ə) buyurdu: "Peyğəmbər (s) mənə dedi: "Ey Əli, sən qardaş, dost, vəsi, vəzir, ailəmdə, malda və mənim qaib olduğum hər şeydə xəlifəsən! Sənin mənim yanımdakı məqamın mənim Rəbbimin yanındakı məqamım kimidir. Sən ümmətim arasında xəlifəmsən. Dostun dostum və düşmənin mənim düşmənimdir. Sən Möminlərin əmiri və məndən sonra müsəlmanların ağasısan".

## İmanında sabitqədəm olmaqda Əhli-Beytə (ə) məhəbbətin təsiri

Sonra Əli (ə) üzünü səhabələrinə tərəf tutub dedi: "Ey səhabələr! Allaha and olsun, yalnız Peyğəmbərin (s) barəsində məndən əhd aldığı işlərə doğru addım atdım. Biz Əhli-Beytin sevgisi qəlbində kök salmış şəxs nə xoşbəxtdir! İman onun qəlbində Uhud dağının dayandığı yerdən daha sabitdir. Kimin qəlbinə məhəbbətimiz daxil olmasa, duz suda əridiyi kimi imanı onun qəlbindən əriyib gedər.

Allaha and olsun və yenə də and olsun! Aləmlərdə Peyğəmbər üçün məndən daha sevimli bir xatirə yoxdur. Heç kim mənim kimi iki qibləyə (yönələrək) namaz qılmamışdır. Namazı uşaq yaşlarımdan, hələ həddi-buluğa çatmamışdan qılmışam.

Fatimə, Peyğəmbərin (s) bir parçası və mənim yoldaşımdır. O öz zəmanəsində İmran qızı Məryəm kimidir.

Sizə üçüncüsünü də söyləyim: Həsən və Hüseyn bu ümmətin iki nəvəsidir. O ikisi Muhəmmədə nisbətlə başdakı iki göz kimidirlər. Mən bədəndəki iki əl kimiyəm. Fatimə isə ə bədəndəki qəlb kimidir.

Bizim misalımız Nuhun gəmisinin misalıdır. Ona minən xilas oldu, ondan üz çevirən suda boğuldu.

# HƏDİS 41

## Peyğəmbərin (s) şiələr haqqında son sözləri

Aban Süleymdən Əlinin (ə) belə dediyini nəql edir: “Peyğəmbər (s) vəfat etdiyi gün mənə tapşırıq verdi. Onu qucaqlamış, başı qulaqlarıma yaxın idi. İki xanım[1] da diqqətlə qulaq asır, nə deyəcəyini eşitmək istəyirdilər.

Peyğəmbər (s) bu zaman belə dua elədi: “İlahi, o ikisinin qulaqlarını ört”.

Sonra mənə dedi: “Ey Əli, Allahın ***“Həqiqətən də iman gətirənlər və saleh işlər görənlər yaradılmışların ən yaxşılarıdır”***[2] ayəsinin kimlər olduğunu bilirsənmi?” Dedim: “Allah və rəsulu daha yaxşı bilir”. Buyurdu: “Onlar sənin şiələrin və yardımçılarındır, qiyamət günü hovuzun başında onlarla görüşəcəyəm, Bu, ümmətlər diz üstə çökmüş, məxluqları Uca Allaha tərəf çağırılan və heç kim bundan yaxa qurtara bilməyən zaman mənə və onlara vəd edilən hovuzdur. Həmin gün Uca Allah səni və şiələrini çağıracaq, siz alınlarınızdan nur parlayan halda, suya doymuş vəziyyətdə gələcəksiniz.

Ey Əli, ***“Həqiqətən, kitab əhlindən kafir olanların və müşriklərin yeri cəhənnəm odudur. Onlar orada əbədi qalacaqlar. Onlar yaradılmışların ən pisləridir”***[3]***.*** Onlar yəhudilər, Bəni-Üməyyə və onların tərəfdarlarıdır. Onlar qiyamət günü bədbəxt, ac və susuz, üzü qara vəziyyətə həşr ediləcəklər”.

Bu kitabın qədim “b” və “d” nüsxələrində bu kəlmələr də var:

## Haqq zahir olanadək kitabı qorumaq barədə əmr

Ey Cabir[4], bu kitabı (Süleymin kitabını) qoru! Bəni-Abbasdan sonuncusu “Zül-eyn” olan Allah bəndəsidir. Hicazdan bir münadi (başqa nüsxədə - “od”) çıxacaq, Kufə məscidini və ikincinin Fəratda tikdiyini dağıdacaq. Türk padşahı həlak olduqda Şamın dili titrəyəcək, padşahlar çoxlacaq, (sonda) Allaha həmd olsun ki, haqq zahir olacaq.

---

[1] Yəni: Aişə və Həfsə.

[2] “Bəyyinə” surəsi, ayə 7.

[3] “Bəyyinə” surəsi, ayə 6.

[4] Ehtimal ki, xitab Məsumdandır (ə). Müraciət olunan şəxs isə ya Cabir ibn Abdullah Ənsari, ya da Cabir ibn Yezid Cofidir.

# HƏDİS 42

## Abdullah ibn Cəfərin Müaviyəyə qarşı dəlillər gətirməsi

Aban ibn Əbu Əyyaş Süleym ibn Qeysdən Adbullah ibn Cəfər ibn Əbu Talibin ona belə dediyini nəql edir: Həsən (ə) və Hüseynlə (ə) birgə Müaviyənin yanında idik. Onun yanında Abdullah ibn Abbas və Fəzl ibn Abbas da vardı.

Müaviyə mənə tərəf baxıb dedi: "Abdullah ibn Cəfər! Həsən və Hüseynə nə çox təzim edirsən. Allaha and olsun, onlar səndən və ataları da sənin atandan daha yaxşı deyillər. Əgər anaları Peyğəmbərin qızı Fatimə olmasaydı anan Əsmə binti Umeys ondan fəzilətdə heç də aşağı deyil deyərdim!"

Onun bu sözlərinə qəzəbləndim və özümə hakim ola bilməyib dedim: "Allaha and olsun, sən o ikisini, atalarını və analarını çox az tanıyırsan. Əksinə, o ikisi məndən daha fəzilətli, ataları atamdan, anaları da anamdan daha üstündürlər. Ey Müaviyə! Sən mənim Peyğəmbərdən (s) o ikisi, ataları və anaları haqqında eşidib əzbərlədiyim, qəlbimə yerləşdirdiyim və rəvayət etdiyim sözlərlərdən qafilsən".

Müaviyə dedi: "Eşitdiklərini söylə! Allaha and olsun ki, sən nə yalançısan, nə də indiyədək (hər hansı bir günahda) ittiham edilməmisən". Bu vaxt Həsən, Hüseyn, Abdullah ibn Abbas, Fəzl ibn Abbas və Əbu Ləhəbin oğlu da orada idilər. Mən dedim: "Məsələ sənin düşündüyündən daha böyükdür". Dedi: "Ühüd və Hira dağlarının ikisindən daha böyük olsa belə! Burada bir şamlı biri olmadığı müddətcə qorxum yoxdur. Onsuz da Allah sənin yoldaşını öldürdü, dəstəniz dağıldı, xilafət də əhlinə və mədəninə çatdı. Sən söylə. Sizin söyləyəcəklərinizdən və iddialarınızdan qorxmuram".

## Bəni-Üməyyə Quranda lənətlənmiş şəcərədir (ağacdır)

Mən dedim: ***"Sənə göstərdiyimizi və Quranda lənətlənmiş ağacı insanlar üçün yalnız bir imtahan etdik"***[1] ayəsi haqqında Peyğəmbərdən (s) soruşulduqda belə dediyini eşitdim: "Azğınlıq imamlarından on iki nəfərdir, onların minbərimə çıxdıqlarını və endiklərini gördüm. Ümmətimi keçmişə (köhnə dinlərinə) qaytararlar. Onlardan ikisi Qüreyşin iki fərqli tayfasından - Teym və Udey qəbiləsindəndir. Üçü Bəni-Üməyyədən və yeddi nəfəri də Hakəm ibn

[1] "İsra" surəsi, ayə 60.

Əbul-Asın övladlarındandır". Yenə belə dediyini eşitdim: "Nə vaxt Əbul-As övladları otuz nəfərə çatsa, Allahın kitabını camaatı aldatmaq vəsiləsi, bəndələrini özlərinə kölə və nökər edər, Allahın sərvətini öz aralarında bölüşdürərlər".

## Peyğəmbərin (s) on iki İmam (ə) barədə sözləri

Ey Müaviyə! Peyğəmbərin (s) belə dediyini eşitdim. Həmin vaxt o, minbərdə oturmuşdu. Mən, Əmr ibn Əbu Sələmə, Usamə ibn Zeyd, Sad ibn Əbu Vaqqas, Saman Farisi, Əbu Zərr, Miqdad və Zübeyr ibn Əvvam da onun qarşısında oturmuşduq. Peygəmbər (s) dedi: "Məgər mən möminlərə öz canlarından övla (üstün) deyiləmmi?" Biz: "Bəli, elədir, ya Peyğəmbər!" dedik. Buyurdu: "Məgər zövcələrim sizin analarınız deyilmi?" Biz yenə də: "Bəli, elədir, ya Peyğəmbər!" dedik. Buyurdu: "Mən kimin mövlasıyamsa (kimə canından övlayamsa) bu Əlidə onun mövlasıdır". Əlilə Əlinin (ə) çiyninə toxundu. "İlahi, ona dost olana dost və düşmən olana düşmən ol!"

«Ey insanlar! Mən möminlərə öz canlarından daha övlayam, onların məndən başqa əmirləri yoxdur. Əli məndən sonra möminlərə öz canlarından daha üstündür və onlar üçün Əlidən başqa bir əmir yoxdur. Atasından sonra oğlu Həsən möminlərə öz canlarından daha övladır, Həsəndən başqa onların bir əmiri yoxdur. Qardaşından sonra Əlinin oğlu Hüseyn möminlərə öz canlarından daha övladır. Hüseyndən başqa onların bir əmiri yoxdur".

## Peyğəmbərin (s) özünün və imamların şəhid edilməsi barədə sözləri

Sonra dedi: "Ey insanlar! Mən şəhid olduqda Əli sizə öz canlarınızdan daha övladır. Əli şəhid olduqda oğlum Həsən möminlərə öz canlarından daha övladır. Oğlum Həsən şəhid olduqda oğlum Hüseyn möminlərə öz canlarından daha övladır. Oğlum Hüseyn şəhid olduqda onun oğlu Əli möminlərə öz canlarından daha övladır. Onların Əli ibn Hüseyndən başqa bir əmiri yoxdur". Sonra üzünü Əliyə tutub dedi: "Ya Əli! Sən onu görəcəksən. Məndən ona salam çatdır. Sonra o şəhid olduqda oğlu Muhəmməd möminlərə öz canlarından daha övladır. Sən onu görəcəksən, Hüseyn! Gördükdə məndən ona salamımı çatdır. Sonra Muhəmmədin nəslindən bir-birinin ardınca imamlar olacaq və möminlər üçün onlardan başqa bir əmr yoxdur". Bunları üç dəfə təkrarladı və dedi: "Onların hamısı möminlərə öz canlarından daha övladırlar və onlarla bərabər möminlərin heç bir əmiri yoxdur. Hamısı hidayət olmuş və hidayət edəndirlər. Bunlar Hüseynin nəslindən gələcək doqquz nəfərdirlər".

Əli ibn Əbu Talib (ə) ağlayaraq ayağa qalxdı və dedi: “Atam və anam sənə fəda olsun, ya Peyğəmbər! Səni öldürəcəklər?” Peyğəmbər (s) buyurdu: “Bəli. Mən zəhərlənib şəhid olaraq öləcəyəm. Sən qılıncla öldürüləcəksən və saqqalın başının qanına boyanacaq. Oğlum Həsən zəhər ilə öldürüləcək. Oğlum Hüseyn isə qılıncla öldürüləcək. Onu zalım oğlu zalım, zinazadə oğlu zinazadə və münafiq oğlu münafiq öldürəcək”.

## Müaviyənin etiarfı ilə məhv olanlar

Müaviyə dedi: “Ey İbn Cəfər! Çox böyük söz danışdın. Bu sözlərin doğrudursa mən, məndən əvvəlki üç nəfər və bu ümmətdən o üç nəfəri başçı qəbul edənlər məhv olmuşlar. Hətta Əhli-Beytin özləri, dostları və yardımçılarından savayı bütün Muhəmməd ümmətinin həlak olmuşdur demək!”

Mən dedim: “Allaha and olsun ki, söylədiklərim haqdır. Onları Peyğəmbərdən (s) eşitdim”.

Müaviyə dedi: “Ey Həsən! Ey Hüseyn! Ey İbn Abbas! Cəfərin oğlu nə deyir?” Abdullah ibn Abbas dedi: “Əgər söylədiklərinə inanmırsansa, bunu (orada olan) adlarını çəkdiyi şəxslərdən də soruş”. Müaviyə Əmr ibn Əbu Sələmə və Usamə ibn Zeydin yanına adam göndərib onlardan soruşdu. Onlar Abdullah ibn Cəfərin Peyğəmbərdən (s) eşitdiklərini onların da eşitdiyini söylədilər və buna şahidlik etdilər. Bu hadisə Mədinədə ümmətin Müaviyə ətrafında toplanmasının birinci ilində baş vermişdi.

Süleym deyir: “Abdullah ibn Cəfərin bu hədisi Ömər ibn Xəttab zamanında da söylədiyini eşitmişdim”.

## On dörd məsum höccətlər (ə)

Müaviyə dedi: “Ey İbn Cəfər! Həsən, Hüseyn və ataları haqqında dediklərini eşitdik. Anaları haqqında nələr eşitdin?” Müaviyə bunları söyləyərkən sanki istehza edirdi.

Mən dedim: “Bəli, Peyğəmbərin (s) belə dediyini eşitdim: “Ədn cənnətində mənim evimdən daha şərəfli, daha üstün və Rəbbimin Ərşinə daha yaxın bir ev yoxdur və o evdə yaşayanlar biz on dörd nəfərik. Mən, qardaşım, o, onların ən yaxşıları və mənə ən çox sevimli olandır. Fatimə - cənnət qadınlarının xanımıdır. (Evdəki digər şəxslər) Həsən, Hüseyn və Hüseynin övladlarından olan doqquz imamlardır. Biz on dörd nəfər bir evdəyik. Allah bütün çirkinlik və pisliyi bizdən uzaqlaşdırmış, bizi pak və pakizə etmişdir. Bizlər hidayət olunmuş və hidayət edənlərik.

Mən Allah tərəfindən təbliğ edən, onlar isə həm mənim və həm də Allahın tərəfindən təbliğ edənlərdir. Onlar Allahın məxluqlarına höccətləri, yer üzündəki şahidləri, elminin xəzinədarları və hikmətinin mədənləridirlər. Onlara itaət edən Allaha itaət etmiş və onlara qarşı çıxan Allaha qarşı çıxmışdır. Onlar olmasa yer üzü bir göz qırpımı qədər qalmaz və onlar olmadan aramlaşmaz. Ümməti dinlərinin əmrlərindən, halallarından və haramlarından xəbərdar edərlər. Onlar Rəblərinin razılığına tərəf yol göstərər, bir əmr və bir qadağa ilə onları (Allahın) qəzəbinə səbəb olan şeylərdən çəkindirərlər. Aralarında ixtilaf, təfriqə və ziddiyyət yoxdur. Sonra gələnləri əvvəlkilərindən mənim imla etdiyim və Əlinin də əli ilə yazdığını götürərlər. Qiyamətə qədər bir-birlərinə varis olarlar. Onlardan, şiələrindən və dostlarından başqa bütün yer üzü əhli cəhalət, qəflət, korluq və çaşqınlıq içindədir. Dinləri ilə bağlı heç bir şeydə ümmətdən heç bir kəsə möhtac deyillər. Amma ümmət onlara möhtacdır. Onlar Allahın Quranda nəzərdə tutduğu, itaətlərini Özünün və peyğəmbərinin itaətinə yaxınlaşdırdığı kimsələrdirlər. Uca Allah buyurur: ***"Allaha, rəsuluna və sizdən olan əmr sahiblərinə itaət edin".*** [1],[2]

Abdullah ibn Cəfər sözünün davamında dedi: Müaviyə, Həsənə, Hüseynə, Abdullah ibn Abbasa, Fəzl ibn Abbasa, Əmr ibn Əbu Sələməyə, oğulu və Usamə ibn Zeydə baxdı və dedi: "Hamınız Adbullah ibn Cəfərin sözlərini qəbul edirsiniz?" Onlar "Bəli" dedilər. Müaviyə dedi: "Ey Bəni-Əbdül-müttəlib! Siz çox böyük bir şey iddia edirsiniz və əgər bu haqdırsa, çox güclü dəlillər göstərirsiniz. Siz gizlədirsiniz və insanlar o baxımdan kor bir qəflət içindədirlər. Əgər söylədikləriniz haqdırsa, siz Əhli-Beyt və sözlərinizi söyləyənlərdən başqa bütün ümmət həlak olmuş, dinlərindən dönmüş və Peyğəmbərlərinin əhdini tərk etmişlər. Camaat arasında onların (onlara sadiq qalanların) sayı çox azdır.

## 2. İbn Abbasın Müaviyəyə qarşı dəlilləri

Abdullah ibn Abbas üzünü Müaviyəyə tutub dedi: "Allah kitabında belə buyurur: ***"Bəndələrimdən şükr edənləri çox azdır"***[3]; ***"Sən (qövmünün imana gəlməsi üçün) təşnə olsan da, insanların əksəriyyəti iman gətirən deyildir!"***[4]; ***"Yalnız iman gətirib yaxşı işlər görənlərdən savayı! Onlar da (təəssüf ki) çox***

[1] "Nisa" surəsi, ayə 59.
[2] "C" nüsxəsində bu əlavə də var: "Allahın kitabında onlar barəsində nazil olan bütün ayələri söylədi.
[3] "Səba" surəsi, ayə 13.
[4] "Yusuf" surəsi, ayə 103.

***azdırlar!”.***[1] Nuh (ə) haqqında buyurur: ***“Əslində onunla birlikdə (tayfasından) çox az adam iman gətirmişdi”.***[2]

Buna da təəccüb edirsən, ey Müaviyə? Bəni-İsrailin məsələsi bizim məsələmizdən daha təəccüblüdür. Sehirbazlar Firona: ***“Biz heç vaxt səni bizə gələn bu açıq möcüzələrdən və bizi yaradandan üstün tutmayacağıq. İndi nə hökm edəcəksənsə, et. Sən ancaq bu dünyada hökm edə bilərsən! Biz, həqiqətən, Rəbbimizə iman gətirdik...”***[3] deyib Musaya (ə) iman gətirdilər, onu təsdiqlədilər və ona tabe oldular. O da onlarla və Bəni-İsraildən özünə tabe olanlarla birlikdə yola çıxdı. Dənizi yarıb onlara əcaib möcüzələr göstərdi. Onlar da Musanı və Tövratı təsdiqləyib, onun dinini qəbul etdilər. Bir dəfə Musa onları bütə ibadət edən bir camaatın yanından keçirdi. Dedilər: “Ey Musa! Bizə də onların ilahları kimi bir ilah düzəlt”[4]. Sonra Harundan və Əhli-Beytindən başqa hamı buzovu ilah seçdilər və ona ibadət elədilər. Samiri onlara dedi: ***“Bu sizin tanrınızdır. Musanın da tanrısı budur, lakin unutmuşdur”.***[5] «Bu hadisədən sonra (Musa) onlara dedi: ***“Ey camaatım! Allahın sizin üçün əzəldən müəyyən etdiyi müqəddəs torpağa daxil olun”***[6]” Onlar da Allahın kitabında buyurduğu bu cavabı verdilər: ***“Ya Musa, orada nəhəng (qüvvətli) adamlar vardır. Onlar oradan çıxmayınca biz ora girməyəcəyik. Əgər onlar oradan çıxsalar, biz ora daxil olarıq”.***[7] Musa dedi: ***“Ey Rəbbim! Mənim yalnız özümə və qardaşıma (Haruna) gücüm çatar (sözüm keçər). Sən bizi bu günahkar və azğın camaatdan ayır!”***[8] Uca Allah belə buyurdu: ***“O günahkar (və azğın) camaatın halına acıma!”***[9]

Bu ümmət də eynisini etdi. Ümmətin Peyğəmbərlə (s) birlikdə fəzilətləri, üstünlükləri və ona yaxınlıqları vardı. Peyğəmbər (s) onlardan ayrılana qədər onun dinini və Quranı təsdiq edirdilər. Amma sonra ixtilaf etdilər, ayrıldılar, bir-birlərinə həsəd etdilər, imamlarına və vəlilərinə qarşı çıxdılar. Belə ki, Peyğəmbərə (s) nisbəti Harunun Musa nisbəti kimi olan yoldaşımızdan (Əlidən (ə)) və din, iman üzərində Allaha qovuşan çox az şəxslərdən başqa ümmət Peyğəmbərə (s) verdiyi əhdə vəfa etmədi. Digərləri əvvəlki hallarına (köhnə dinlərinə) döndülər. Eynilə Musanın səhabələrinin buzova ibadət etməsi kimi.

---

[1] “Sad” surəsi, ayə
[2] “Hud” surəsi, ayə 40.
[3] “Taha” surəsi, ayə 72-73.
[4] “Əraf” surəsinin 138-ci ayəsinə işarə edilir.
[5] “Taha” surəsi, ayə 88.
[6] “Maidə” surəsi, ayə 21.
[7] «Maidə” surəsi, ayə 22.
[8] “Maidə” suərsi, ayə 25.
[9] “Maidə” surəsi, ayə 26.

Yalnız Harun, övladları və Əhli-Beytindən az bir dəstədən başqa əksəriyyət buzovu Rəbləri zənn etdi.

Peyğəmbərimiz bu ümmət üçün insanların ən üstününü, ən fəzilətlisini və ən xeyirlisini Qədir Xumda, eləcə də digər bir çox yerlərdə öz yerinə xəlifə təyin etdi. Onunla ümmət üzərinə höccəti tamamladı və ona itaəti əmr etdi. Əlinin ona nisbətinin Harunun Musaya nisbəti kimi olduğunu, özündən sonra bütün möminlərin vəlisi olduğunu, özü kimin mövlasıdırsa Əlinin də (ə) onu mövlası olduğunu, hər kimsə öz canından övla idisə Əlinin ona öz canından övla olduğunu, Əlinin ümmət arasında xəlifəsi və vəsisi olduğunu, ona itaətin Allaha itaət və ona üsyanın Allaha üsyan olduğunu, onu sevəni Allahın sevdiyini, ona düşmən olana Allahın düşmən olduğunu hamıya bildirdi. Amma (bütün bunlara baxmayaraq) onu inkar etdilər, göz yumdular və başqasını özlərinə vəli təyin etdilər.

## Peyğəmbər (s) camaatın xəlifə seçməsinə razı olmadı

Ey Müaviyə! Məgər bilmirsənmi ki, Peyğəmbər (s) Mütə savaşına ordu göndərdiyi zaman Cəfər ibn Əbu Talibi onlara başçı təyin etdi və buyurdu: "Cəfər ibn Əbu Talib ölsə Zeyd ibn Hərisə onun yerinə orduya başçılıq etsin, əgər Zeyd ölsə Abdullah ibn Rəvahə onlara rəhbərdir". Onların özlərinə başçı seçmələrinə əsla razı olmadı. Belə olduğu halda, ümmətindən ayrılarkən onların üzərindəki xəlifəsini bəyan etməzmi?! Allaha and olsun ki, xeyr! Onları korluq və şübhə içində buraxmadı. Əksinə, camaatın bu etdikləri Peygəmbərin (s) aşkar bəyanından sonra baş verdi. Peyğəmbəri (s) inkar etdilər və həlak oldular. Onlara tabe olanlar da həlak oldular, yoldan azdılar. O azanlara tabe olanlar da doğru yoldan azdılar. Zalım qövm Allahın rəhmətindən uzaq olsun!".

Müaviyə dedi: "Ey İbn Abbas! Ağzından böyük sözlər çıxır. Bizim nəzərimizdə bir olmaq ixtilafdan daha yaxşıdır. Ümmətin sənin dostunun barəsində sabitqədəm olmadığını da bilirsən".

İbn Abbas dedi: "Mən peyğəmbərin belə dediyini eşitdim: "Elə bir ümmət yoxdur ki, peyğəmbərindən sonra ixtilaf etməsin və batil əhli haqq əhlinə qalib gəlməsin". Bu ümmət aralarında ixtilaf və təfriqə olmayan bir çox məsələdə ittifaq etmişlər: Allahdan başqa ilahın olmadığında, Muhəmmədin Onun elçisi olduğunda, beş namazda, fərz olan zəkatda, Ramazan ayının orucunda, Allahın Evinin həccində və s. ibadətlərdə, həmçinin şərabın, zinanın, oğurluğun, qohumluq əlaqələrini kəsməyin, yalanın, xəyanətin, bir çox günahların haram olmasında və s.. Lakin iki məsələdə ixtilaf etdilər: bunlardan birinə görə bir-birlərilə savaşdılar, ixtilafa düşdülər, firqələrə parçalandılar, bir-birlərini

lənətlədilər və bir-birlərindən uzaqlaşdılar. İkincisi üçün isə döyüşmədilər, ixtilafa düşmədilər, o barədə bir-birlərinə vüsət tanıdılar. Bu da Allahın kitabı və Peyğəmbərin (s) sünnəsidir. Sonradan ortaya çıxan məsələlərin Allahın kitabında və Peyğəmbərin (s) sünnəsində olmadığını zənn etdilər. İxtilaf etdikləri, parçalandıqları və bir-birlərindən uzaqlaşdıqları məsələ hakimiyyət və xəlifəlikdir. O ikisinə Peyğəmbərin (s) Əhli-Beytindən daha çox layiq olduqlarını güman etdilər.

Hər kim qiblə əhlinin ixtilaf etmədikləri məsələləri əxz edib və ixtilaf etdikləri məsələlərin elmini Allaha həvalə eləsə, salamat qalar və oddan xilas olar. İxtilaf edilən məsələ barədə müşkülə düşdüyü üçün Allah ondan hesab soruşmayacaq. Allah hər kimə tofiq verib, ona minnət qoysa, qəlbini nurlandırar, əmr sahiblərini və elmin mədəninin harada olduğunu tanıdar. Əgər o da tanısa, belə bir şəxs səadət əhli və Allahın dostudur. Peyğəmbər (s) buyurub: "Allah haqqı söyləyib qənimət əldə edən və ya susub salamat qalan bəndəyə rəhm eləsin".

## Bütün elm Əhli-Beytdədir (ə)

İmamlar Peyğəmbərin Əhli-Beyti, risalət mədəni, kitabın və vəhyin mənzili və mələklərin gəlib-getdikləri yerdəndirlər. Xəlifəlik onlardan başqasına layiq deyil. Çünki Allah onları bu iş üçün seçmiş, kitabında və Peyğəmbərinin dilində onları bu işin əhli qərar vermişdir. Elm onlardadır, elm əhli onlardır və elm bütünlüklə: batini və zahirilə, möhkəmi və mütəşabihilə, nasixi və mənsuxu ilə onların yanındadır.

## Quranın cəm edilməsi və qorunması

Ey Müaviyə! Səhhakın oğlu öz xəlifəliyi dövründə məni Əli ibn Əbu Talibə bu sözləri çatdırmaq üçün onun yanına göndərdi: Quranı bir kitab halında yazmaq istəyirəm. Qurandan yazdıqlarını bizə göndər".

İmam Əli (ə) dedi: "Allaha and olsun, boynumu vurmadan onu əldə edə bilməzsən". Mən dedim: "Nə üçün?". Buyurdu: "Çünki Uca Allah belə buyurur: ***"Ona paklaşdırılmışlardan başqası toxuna bilməz!"***[1] Yəni onun hamısına paklardan başqası toxuna bilməz. Allah bizi nəzərdə tutur, Allahın pisliyi aradan apardığı və pak-pakizə qərar verdiyi şəxslər bizik. Və yenə buyurur: ***"Sonra Kitabı bəndələrimizdən seçdiklərimizə miras verdik".***[2] Allahın bəndələrindən seçdikləri bizik, misallar bizim üçün verilmiş və vəhy bizə enmişdir".

---

[1] "Vaqiə" surəsi, ayə 79.
[2] "Fatir" surəsi, ayə 32.

Abdullah ibn Abbas sözünə davam etdi: “Səhhakın oğlu qəzəbləndi və dedi: “Əbu Talibin oğlu ondan başqasında elm olmadığını zənn edir?! Hər kim Qurandan bir şey bilirsə, onu yanımıza gətirsin!” Bundan sonra camaat (bir parça) Quran ilə gəlib oxuyur, (onun eynisini) başqa bir nəfər də oxusa, həmin sözlər ayə olaraq yazılırdı. Əks halda isə tərk edilirdi.

Ey Müaviyə! Hər kim Qurandan bir şey itmişdir desə, yalan söyləmişdir. Kitab öz əhlinin yanında cəm edilmiş və qorunmaqdadır.

### Allahın dinində şəxsi rəyin ilk rəsmi elanı

Sonra Səhhakın oğlu hakimlərinə və valilərinə əmr verib dedi: “Öz fikirlərinizi irəli sürməyə cəhd göstərin və nəyi haqq görürsünüzsə, ona uyğun hökm verin!”. Bu səbəbdən o və bəzi valiləri davamlı olaraq böyük problemlərə düçar olurdular. Əli ibn Əbu Talib (ə) öz bəyanları ilə onlara qarşı çıxırdı. Ömərin vali və hakimləri bir şey barəsində fərqli hökmlər verir və o da (Səhhakın oğlu) hamısını onlar üçün təsdiqləyirdi. Çünki Allah heç bir zaman ona hikmət və gözəl xitab bəxş etməmişdi.

Qiblə əhlindən bir çoxları onların elm və xəlifəlik mədəni olduqlarını, başqalarının bu haqqa sahib olmadıqlarını güman etdilər. Biz (Əhli-Beytin (ə)) haqqını inkar edənlərə və sənin kimilər o adətləri Əhli-Beyt əleyhinə dəlil olaraq istifadə etsin deyə camaat arasında qanunlar qoyan kəslərə qarşı Allahdan yardım diləyirik. Allah bizə kifayət edər və O, nə gözəl vəkildir.

### İnsanlar Əhli-Beytə (ə) nisbətdə üç qisimdirlər

İnsanlar üç qisimdirlər: (birincisi) haqqımızı tanıyan, bizə təslim olan və bizə itaət edən mömindir. Belə şəxs nicat tapmış və Allahın dostudur. (İkincisi) bizə qarşı düşmənçilik edərək bizdən uzaqlaşan, bizi lənətləyən, qanımızı halal bilən, haqqımızı inkar edən və bizdən uzaq olmağı dinin zərurəti bilən nasibidir. Belə kəs Allaha qarşı kafir və müşrik olmuş, Allahın rəhmətindən uzaq düşmüşdür. (Üçüncüsü isə) üzərində ixtilaf edilməyən şeylərə sarılan, bizim vilayətimizlə əlaqədar həll edə bilmədiyi məsələləri Allaha həvalə edən və bizimlə düşmənçilik etməyən kimsədir. Biz belə şəxslərdən ümidliyik. Onun işi Allaha qalmışdır”.

Müaviyə bunları eşidib Həsən və Hüseynə bir milyon dirhəm, yəni hər birinə beş yüz min dirhəm təqdim edilməsini əmr etdi”.

# HƏDİS 43

## Təqvalıların vəsfləri haqqında İmam Əlinin (ə) xütbəsi

Aban ibn Əbu Əyyaş Süleym ibn Qeysdən nəql edir: İmam Əlinin (ə) səhabələrindən Həmmam ayağa qalxdı. O, abid və çalışqan bir şəxs idi. Dedi: "Ey Əmirəl-möminin, mənim üçün möminlərin xüsusiyyətlərini elə bəyan et ki, sanki mən onları müşahidə edirəm".

İmam Əli (ə) bir qədər sükut edərək buyurdu: "Ey Həmmam, Allah qarşısında təqvalı ol və yaxşı əməllər et! Həqiqətən, Allah Onun qarşısında təqvalı olub pis əməllərdən çəkinənlər və yaxşı işlər görənlərlədir". Həmmam dedi: "Səni hörmətli, xüsusi edən, sevən və fəzilətli edənin haqqına and verirəm, o şəxsləri mənim üçün vəsf et".

Möminlərin-əmiri ayağa qalxdı. Allaha həmd və səna etdi, Peyğəmbərinə və Əhli-Beytinə salavat söylədi. Sonra buyurdu:

"Həqiqətən də Allah məxluqları yaratdı. Onları yaradır, amma itaətlərinə ehtiyacı yoxdur və üsyanlarından da amandadır. Çünki üsyankarın günahı Ona bir zərər, itaətkarın itaəti də fayda verməz. Onların arasında məişət və dolanışıqlarını bölüşdürdü, hər birini özünə layiq və münasib mövqedə yerləşdirdi. Adəmi ora endirməsi Allahın qadağasını pozması, əmrinə xilaf çıxması və asi olmasına görə idi.

## Mömin dünyada

Möminlər dünyada fəzilət sahibidirlər. Danışıqları düzgün, geyimləri orta səviyyədə, rəftarları isə təvazö üzrədir. Allaha itaətdə mütidirlər, Allahın haram etdiyi şeylərə göz yumar və qulaqlarını yalnız faydalı elm eşitməyə həsr edərlər. Bəlada da, asayişdə də eyni əhvalda olarlar. Allahın qəzasına razıdırlar.

Əgər Allahın onlar üçün təyin etdiyi əcəl olmasaydı, savabın şövqündən və cəzanın qorxusundan ruhları bir göz qırpımı qədər belə bədənlərində qalmazdı. Allah onların ruhlarında çox böyük cilvələnmiş və Ondan qeyrisi isə gözləri önündə çox kiçik, zəlil və xar görünür.

## Mömin, cənnət və cəhənnəm

Onlar sanki cənnəti görür və sanki orada saysız-hesabsız nemətlərlə bəhrələnirlər. Və həmçinin, elə bil cəhənnəmi görür və orada əzab olunurlar.

Qəlbləri qəmlə dolu, (camaat onların) şərindən uzaq, bədənləri arıq, arzu və istəkləri az və nəfsləri iffətlidir. İslamdakı varlıqları əzəmətlidir.

Bu dünyanın qısa ömrünə səbr edib, bunun ardınca axirətdə uzun müddətli rahatlıq və asayiş əldə edərlər. Bu, Kərim Rəblərinin onlara qismət etdiyi çox faydalı bir ticarətdir. Dünya onları (aldatmaq) istədi, amma onlar dünyanı istəmədilər (aldanmadılar). Dünya onları özünə əsir etmək istədi, amma onlar çarpışaraq özlərini azad etdilər.

## Möminin gecə və gündüzü

Gecələri ayaq üstə keçirər, təfəkkür və tədəbbürlə Quranın cüzlərini (ayələrini) oxuyaraq özlərini qəmgin edər və bununla da dərdlərini müalicə etməyə çalışarlar. Hüznləri günahlarına və içdəki yaralarına ağlamaqdan həyəcanlanar. Nə vaxt cənnətə şövq edən bir ayəyə rast gəlsələr həsrətlə ona bağlanarlar və nəfsləri istəklə ona yönələr. Gözlərinin qarşısında olduğunu zənn edərlər. Kəmərlərini sıxar, Cabbar və Əzimə təriflər söyləyərlər. Alınlarını, ovuclarını, dizlərini və ayaqlarının uclarını yerə qoyarlar. Göz yaşları yanaqlarından süzülər. Oddan xilas olmaq üçün boyunlarını əyərək Allaha yalvararlar. Hərgah qorxudan bir ayəyə rast gəlsələr qəlblərinin qulaq və gözlərini ona yönəldərlər. Ondan tükləri ürpərər və ürəkləri qorxu ilə dollar. Cəhənnəmin səs-küyünü və xırıltısını qulaqlarının önündə zənn edərlər.

Amma gündüzləri həlim, alim və Allaha təqvalı olan xeyirxahlardırlar. Qorxu onları yonulmuş oxa çevirmiş, onları görənlər xəstə olduqlarını və ya ağıllarını itirdiklərini zənn edərlər. Halbuki xəstəlikləri yoxdur və böyük bir iş onları məşğul etməkdədir.

Allahın əzəmətini və səltənətinin gücünü düşündükdə ölümün xatırlamaqdan və qiyamətin qorxularından qəlbləri dəhşətə gələr, düşüncələri qərarsız qalar, ağılları başlarından gedər və dəriləri ürpərər. Özlərinə gəldikdə dərhal pak əməllərlə Allaha yönələrlər. Allah üçün aza razı olmaz və çoxu gözlərində böyük görməzlər.

## Möminin zahiri əlamətləri

Onlar öz nəfslərini ittiham edər, əməllərinə görə narahat olarlar. Onlardan birini tərifləsələr deyilənlərə görə qorxar və (öz-özünə) deyər: “Mən özümü

başqalarından yaxşı tanıyaram, Rəbbim də məni özümdən daha yaxşı tanıyır. İlahi, onların söylədikləri sözlərə görə məni günahlandırma, məni onların zənn etdiklərindən daha yaxşı et! Onların bilmədiyi günahlarımı bağışla. Həqiqətən sən qeybi bilən və eyibləri örtənsən!"

Onların əlamətlərindəndir ki, sən onu dində güclü, mülayimlikdə ehtiyatlı, imanda yəqinlikdə, elmdə həris, fiqhdə anlayan, həlimlikdə elmli, xərclikdə şəfqətli, zənginlikdə qənaətcil, ibadətdə mütəvazi, yoxsulluqda dözümlü, çətinlikdə səbirli görərsən. Onlar itaətkar şəxsə qarşı mərhəmətli, yerinə müvafiq əta edən, qazancda mötədil, halalda pak, hidayətdə fəal, tamahdan uzaq, tutduğu yolda xeyirxah və şəhvət zamanı özünü qoruyandırlar.

## Möminin batini əlamətləri

Onu tanımayan şəxsin onu tərifləməsindən qürurlanmaz və əməllərini hesaba çəkməyi tərk etməz. Əməllərini yetərsiz görər və yaxşı işlər edər.

O elə bir şəxsdir ki, axşama şükürlə qarşılayar, səhərləri zikrlə açar keçər. Gecəni qayğılı keçirər və səhərlər isə sevinclə oyanar. Qayğısı çəkinməsi lazım olan şeylərdən, sevinci isə əldə etdiyi fəzilət və rəhmətə görədir. Əgər nəfsi onu xoşlanmadığı şeylərə məcbur etsə, sevincinə səbəb olan istəklərini nəfsinə verməz. Sevinci yalnız əbədi və davamlı, gözünün nuru isə zail olmayan şeylərdə, arzusu baqilərdə və zöhdü fanilərdəndir.

O helmini elmlə, elmini ağılla qarışdırar. Sən onu tənbəllikdən uzaq, daim fəal, arzuları yaxın, səhvləri az, əcəlini gözləyən, qəlbi qorxuda, nəfsi tox, cəhaləti gizli, işi asan, dinini qoruyan, şəhvəti ölmüş, qəzəbini boğmuş, əxlaqı təmiz, qonşusu əlindən etibarda, qüruru zəif, özü üçün təqdir edilənlə kifayətlənən, səbri möhkəm, işi hikmətli və çox zikr edən görərsən.

Dostlarının ona etibar etdiklərini (sirlərini) danışmaz, düşmənindən şahidliyi əsirgəməz, haqq olan bir şeyi riya üçün etməz və utandığı üçün onu tərk etməz. Ondan ancaq yaxşılıq umular, şərindən isə amandadırlar.

Ona zülm edəni bağışlayar, onu məhrum edənə əta edər, onunla əlaqəni kəsənlərlə əlaqə yaradar, helmi tərk etməz, şübhələndikdə tələsməz, ona aydın olan şeydə yenə diqqətli olar, cahillikdən uzaq, sözü yumşaq, hiyləsiz, yaxşı əməlləri çox, sözü doğru, hərəkəti gözəl, yaxşılığı toxunan və pislik etməyəndir.

Sarsıntılı zamanlarda vüqarlı, çətinlikdə səbirli və bolluqda şükür edəndir.

## Mömin və camaat

Ona nifrət edənə qarşı ədalətsiz olmaz, sevdiyi şeydə günah işləməz, haqqı olmayan şeyi iddia etməz və boynunda olanı inkar eləməz. Onunla əleyhinə şahid qalxmadan haqqı etiraf edər.

Qorumaq üçün verilən əmanəti zay etməz, başqalarını pis ləqəblərlə çağırmaz, heç kimə haqsızlıq etməz, həsədlə hərəkət etməz, qonşusuna zərər yetirməz və (başqalarının) müsibətinə lağ eləməz.

Əmanətləri sahibinə qaytarar, namaza tələsər, pis işlərə marağı olmaz, yaxşılığı tövsiyə edər və pislikdən çəkindirər. Bilmədiyi işlərə girişməz və acizliyində belə haqdan çıxmaz.

Sussa susmasından üzülməz, danışsa yanlış söz söyləməz, gülsə səsini qaldırmaz. Özü üçün təqdir edilənə qanedir, qəzəb onu özündən çıxartmaz, istəkləri ona qalib gəlməz, xəsislik onu məğlub etməz və özünün olmayan şeyə tamah salmaz.

Elm öyrənmək üçün camaata qarışar, salamat qalmaq üçün susar, anlamaq üçün soruşar, qazanmaq üçün ticarət edər və öyrənmək üçün araşdırar. Yaxşı sözü başqaları qarşısında öyünmək üçün dinləməz, başqalarına üstün olmaq üçün danışmaz.

Nəfsi onun əlindən narahat, amma insanlar ondan rahatdırlar. Nəfsini axirəti üçün yorar, amma insanları onun sayəsində rahatlığa çıxarar. Ona zülm edilsə, Allah intiqamını alana qədər səbr edər. Birindən uzaqlaşsa, bu, həmin şəxsdən çəkinməsi və özünü qorumasından, birinə yaxınlaşsa da bu, yaxınlaşdığı şəxsə şəfqət və mərhəmətidir. Uzaqlaşması qürur və təkəbbürdən, yaxınlaşması da hiylə və aldatmaq üçün deyil. Əksinə, özündən əvvəlki xeyir əhlindən nümunə götürmüşdür. Bunula da o, özündən sonra gələn xeyir əhli üçün bir öndərdir".

## İmam Əlinin (ə) xütbəsinin Həmmama təsiri

Süleym deyir: "Həmmam fəryad etdi və huşunu itirib yerə yıxıldı. İmam Əli (ə) dedi: "Allaha and olsun, mən də bundan qorxurdum. Nəsihət öz əhlinə belə təsir edir". Orada olan bir nəfər dedi: "Bəs, sənin vəziyyətin necədir, ey Möminlərin-əmiri?" Əli (ə) buyurdu: "Hər kəs üçün bir əcəl vardır, ondan qaça bilməz, (hər şey üçün) bir səbəb vardır, onu tərk edə bilməz. Sakit ol və sözünü təkrar etmə! Bu sözü Şeytan sənin dilinə gətirmişdir".

Sonra Həmmam başını qaldırdı, fəryad etdi və dünyadan köçdü. Allah ona rəhmət eləsin.

# HƏDİS 44

## Peyğəmbərin (s) "Dilədiyinizi soruşun!" sözü

Aban ibn Əbu Əyyaş Süleym ibn Qeysdən, o da Salman, Əbu Zərr və Miqdaddan belə nəql edir:

"Bir dəstə münafiq bir yerə toplaşıb dedilər: "Muhəmməd bizə cənnətdən, orada Allahın Öz dostları və itaət edənlər üçün hazırladığı nemətlərdən xəbər verir. Həmçinin cəhənnəmdən, Allahın orada düşmənləri və üsyankarlar üçün hazırladığı əziyyətlərdən, alçaldıcı şeylərdən xəbər verir. Əgər bizə atalarımızdan, cənnət və cəhənnəmdəki yerimizdən xəbər versəydi, bundan sonrasını dünyaya, ya axirətə əsasən qurmalı olduğumuzu bilərdik".

Bu söz Peyğəmbərə (s) çatdı. Bilala camaat namazına səsləmək üçün azan verməyi tapşırdı. Camaat toplandı. Məscid insanlarla dolub daşdı və sıxlıq yarandı. Peyğəmbər (s) əsəbi halda, qollarını dirsəklərə və ayaqlarını dizlərə qədər qatlamış halda minbərə çıxdı. Allaha həmd və səna dedikdən sonra buyurdu:

"Ey insanlar! Mən də sizin kimi bir insanam. Rəbbim mənə vəhy edir. Məni Öz risalətinə layiq gördü, peyğəmbərliyə seçdi, bütün Adəm övladlarından üstün qərar verdi, qeybindən dilədiyini mənə bildirdi. Elə isə, fikrinizdə olan hər şeyi məndən soruşun. Canım əlində olana and olsun, sizdən bir kəs atası, anası, cənnət və cəhənnəmdəki yeri haqqında soruşsa, mütləq ona xəbər verərəm. Bu, Cəbrayıldır. Sağımda dayanıb və Rəbbimdən mənə xəbər gətirir. Nə istəyirsinizsə, soruşun!"

## Camaatın nəsəbləri, cənnət və cəhənnəm barədə sualları

Allahı və Peyğəmbərini (s) sevən mömin bir şəxs ayağa qalxıb dedi: "Ya Peyğəmbər! Mən kiməm?" Peyğəmbər (s) buyurdu: "Sən Abdullah ibn Cəfərsən". Onu adı ilə çağırıldığı atasına nisbət verdi. O şəxs sevincək vəziyyətdə yerinə oturdu.

Sonra qəlbi xəstə, Allaha və Peyğəmbərinə (s) kin bəsləyən münafiq bir kəs ayağa qalxdı və dedi: "Ey Peyğəmbər! Mən kiməm?"

Peyğəmbər (s) buyurdu: "Sən Bəni-Usamə qəbiləsindən filan ibn filan adında bir çobanın oğlusan və onlar Səqifdə yaşayanların ən pisləridir. Allaha

üsyan etdilər və Allahda onları alçaltdı”. Kişi yerinə oturdu. Allah onu alçaltdı və hər kəsin qarşısında rüsvay etdi. Bundan əvvəl onun Qüreyşin cəsur igidlərindən və öndə gələnlərindən olduğuna camaatda şübhə yox idi.

Sonra qəlbi xəstə olan bir münafiq üçüncü şəxs olaraq ayağa qalxdı və dedi: “Ey Peyğəmbər! Mən cənnətliyəm, yoxsa cəhənnəmlik?” Peyğəmbər (s) buyurdu: “Düşündüyünün əksinə, oddasan!” O da yerində oturdu. Belə ki, Allah hər kəsin qarşısında onu da alçaltdı və hörmətdən saldı.

Sonra Səhhakın oğlu qalxdı və dedi: “Rəbb olaraq Allaha, din olaraq İslama və peyğəmbər olaraq sənə razı olduq, ya Peyğəmbər! Allahın və Peyğəmbərinin (s) qəzəbindən Allaha sığınırıq. Bizi bağışla, ya Peyğəmbər! Allah da səni bağışlasın. Eyiblərimizi ört! Allahda səni örtsün”. Peyğəmbər (s) buyurdu: “Başqa bir şey soruş. Sən başqa bir şey soruşmaq istəyirdin, ey Səhhakın oğlu!” Səhhakın oğlu dedi: “Ya Peyğəmbər! Ümmətin üçün bağışlanma diləyirəm”.

## Peyğəmbərin (s) və Əlinin (ə) yaradılışı

Əli ibn Əbu Talib ayağa qalxdı və dedi: “Ya Peyğəmbər! Mən kiməm, nəslimi və nəsəbimi söylə ki, camaat mənim səninlə olan yaxınlığımı bilsinlər”.

Peyğəmbər (s) buyurdu: “Ya Əli! Sən və mən Ərşin altında asılmış nurdan olan iki sütundan xəlq edildik. Məxluqlar yaradılmazdan iki min il əvvəl Məliki (Allahı) təqdis edirdilər. Sonra o iki sütundan ağ, bükülmüş iki məni yaratdı. Onları seçmə və şərəfli sülblərdən pak və təmiz rəhmlərə nəql etdi. Yarısını Abdullahın sülbündə və yarısını da Əbu Talibin sülbündə qərar verənə qədər belə davam etdi. Onun bir parçası mən və bir parçası da sənsən. Bu, Allahın həmin sözüdür: ***“İnsanları sudan (nütfədən) yaradan, onları əvvəlcə əsl qohum və sonradan (kürəkən) qohumu edən Odur. Rəbbin qadirdir!”***[1]

## İmam Əli (ə) Allahla bəndələri arasında bir səbəbdir

Ya Əli! Sən məndən və mən də səndənəm. Ətin ətimə və qanın qanıma qarışmışdır. Sən məndən sonra Allahla məxluqları arasındakı səbəbsən. Kim sənin vilayətini inkar etsə, özü ilə Allah arasındakı səbəbi (bağı) qoparmışdır və cəhənnəmin ən alt dərəcələrindən birində olacaq.

Ya Əli! Allah yalnız mənimlə və sonra səninlə tanınar. Sənin vilayətini inkar edən Allahı və Onun rübubiyyətini inkar etmişdir.

---

[1] “Furqan” surəsi, ayə 54.

Ya Əli! Sən məndən sonra Allahın yer üzündəki ən böyük əlaməti və qiyamətdə ən böyük rüknsən. Kim sənin kölgənə sığınsa, qələbə çalar. Çünki məxluqların hesabı sənə həvalə edilmişdir və sənə (vilayətinə) qayıdacaqlar. Mizan sənin mizanın, yol (Sirat) sənin yolun, (qiyamət) dayanacağı sənin dayanacağın və hesab sənin hesabındır. Sənə arxalanan xilas olar və sənə müxalif çıxan məhv və həlak olar. İlahi, şahid ol! İlahi şahid ol!"

Sonra Peyğəmbər (s) aşağı endi.

# HƏDİS 45

## Peyğəmbərin (s) Əli (ə) və İmamlar (ə) haqqında sözləri

Aban Süleymdən Salmanın belə dediyini nəql edir: “Qüreyş bir məclisdə yığışdıqda Əhli-Beytdən birini gördükləri vaxt söhbəti saxlayardılar. Bir dəfə məclislərində onlardan biri dedi: “Məhəmmədin öz Əhli-Beyti arasında misalı yalnız zibillikdə böyüyən xurma ağacının misalı kimidir!”

Bu söz Peyğəmbərə (s) çatdı və eşitdiyi sözdən qəzəbləndi. Evdən çıxdı və camaat toplanana qədər gedib minbərin üzərinə oturdu. Sonra qalxıb Allaha həmd və səna söləyib dedi: “Ey insanlar! Mən kiməm?” Dedilər: “Sən Allahın Peyğəmbərisən!”

Peyğəmbər (s) buyurdu: “Mən Allahın Peyğəmbəriyəm! Mən Muhəmməd ibn Abdullah ibn Əbdül-müttəlib ibn Haşiməm”. Sonra Nizara[1] çatana qədər nəsil şəcərəsini saydı.

## Əhli-Beytin (ə) yaradılışı və nəsəbləri

Sonra buyurdu: “Bilin və agah olun ki, mən və Əhli-Beytim bir nur idik, Allah Adəmi yaratmazdan iki min il əvvəl qarşısında hərəkət edirdik (Allaha təqdis deyirdik). Bu nur təsbih dedikcə mələklərdə onu təkrarlamaqla Allaha təsbih deyirdilər.

Adəmi yaratdıqda bu nuru onun sülbünə yerləşdirdi. Sonra Adəmin sülbündə onu yer üzünə göndərdi. Onu Nuhun sülbündə dənizdə daşıdı, sonra İbrahimin sülbündə atəşə atdı. Sonra bizi alicənablıq cəhətdən ən üstün mədənlərdən, yetişmə baxımından ən seçmə yerlərdən, analar və atalardan dünyaya gətirənə qədər ən seçmə və şərəfli sülblərdə daşıdı. Belə ki, onlardan heç biri əsla zina edərək bir-birinə yaxınlaşmadılar.

Bilin və agah olun ki, biz Əbdül-müttəlib övladları cənnət əhlinin ağalarıyıq: Mən, Əli, Həmzə, Həsən, Hüseyn, Fatimə və Mehdi!

---

[1] Bu kitabın 14-cü hədisində Peyğəmbərin (s) nəsil nəsəbinə bax.

## Uca Allah Muhəmmədi (s) Əlini (ə) və İmamları (ə) höccət seçmişdir

Bilin və agah olun ki, Allah bir dəfə yer üzünə nəzər saldı və onlardan iki nəfəri seçdi. O ikisindən biri mənəm. Məni nəbi və rəsul göndərdi. Digəri isə Əli ibn Əbu Talibdir. Mənə onu özümə qardaş, dost, vəzir, vəsi və xəlifə etməyimi buyurdu.

Bilin və agah olun ki, o, məndən sonra bütün möminlərin mövlasıdır. Allah onu sevəni sevər və onun düşməninə düşmən olar. Onu mömindən başqası sevməz və ona münafiqdən başqası nifrət etməz. O, məndən sonra yer üzünü saxlayan və sakitləşdirəndir. O, Allahın təqva sözü və qopmaq bilməyən möhkəm ipidir. ***"Onlar Allahın nurunu öz ağızları ilə söndürmək istəyirlər. Allah isə - kafirlərin xoşuna gəlməsə də - öz nurunu tamamlayacaqdır".***[1]

Bilin və agah olun ki, Allah yer üzünə ikinci dəfə nəzər saldı və mənim Əhli-Beytimdən on iki nəfəri vəsi olaraq seçdi. Onları ümmətimin ən üstünü qərar verdi. Onlar bir-birinin ardınca göylərdəki ulduzlar kimidirlər. Nə vaxt bir ulduz batsa başqa bir ulduz doğar. Onlar hidayət olmuş və hidayət edən imamlardır, onlara hiyləgərin hiyləsi və alçaldanın alçaltması zərər verməz.

Onlar Allahın yer üzündəki höccətləri, məxluqları üzərində şahidləri, elminin xəzinədarları, vəhyinin tərcüməçiləri və hikmətinin mədənləridirlər. Onlara itaət edən Allaha itaət etmiş və onlara qarşı çıxan Allaha qarşı çıxmışdır. Onlar Quranla və Quran da onlarladır. Hovuzun başında mənimlə görüşənə qədər bir-birlərindən ayrılmazlar.

Bu sözlərimi burada olanlar olmayanlara çatdırsın. İlahi, şahid ol! İlahi şahid ol!" Bunu üç dəfə təkrarladı".

[1] "Saff" surəsi, ayə 8.

# HƏDİS 46

### Əbu Zər və Miqdadın dilindən Əlinin (ə) ən əzəmətli üstünlükləri

Aban ibn Əbu Əyyaş Süleym ibn Qeysdən nəql edir ki, Əbu Zərdən soruşdu: “Allah sənə rəhm eləsin! Əli ibn Əbu Talib (ə) haqqında Peyğəmbərdən (s) eşitdiyin ən gözəl hədisi mənə söyləyə bilərsən?”

### Mələklərin nəzərində Əliyə (ə) itaət və düşmənlərindən uzaqlaşmaq

Miqdad dedi: Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: “Həqiqətən də Ərşin ətrafında 90 min mələk var ki, onların təsbih və ibadətləri yalnız Əli ibn Əbu Talibə (ə) itaət, onun düşmənlərindən bezarlıq və şiələri üçün bağışlanma diləməkdir”.

Dedim: “Allah sənə mərhəmət göstərsin, bəs bundan başqa yenə də varmı?” Dedi: “Belə buyurduğunu eşitdim: “Uca Allah Cəbrailə, Mikailə və İsrafilə Əliyə (ə) itaəti, düşmənlərindən bezarlığı və şiələri üçün bağışlanma diləmələrini xüsusi olaraq tapşırıb”.

### Allahın keçmiş ümmətlərə Əlini (ə) höccət göstərməsi

Dedim: “Allah sənə rəhm etsin! Bəs bundan əlavə”. Dedi: “Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: “Uca Allah mürsəl peyğəmbər göndərdiyi hər bir ümmətə höccətini Əli ilə tamamladı. Onların Allah yanında ən yüksək məqam sahibi Əlini ən çox tanıyanıdır”.

### İmam Əli (ə)  Allahla məxluqları arasındakı örtük və hicabdır

Dedim: “Allah sənə mərhəmət göstərsin. Bundan başqa!” Dedi: “Peyğəmbərin (s) belə dediyini eşitdim: “Mən və Əli olmasaydıq Allah tanınmazdı. Əgər mən və Əli olmasaydıq Allaha ibadət olunmazdı. Əgər mən və Əli olmasaydıq savab və cəza olmazdı. Əlilə Allah arasında nə bir örtük, nə də bir hicab var. Əksinə, o, Allahla məxluqları arasında bir hicab və örtükdür.

## İmam Əlinin (ə) vilayəti qəlblər üçün bir paklıqdır

Süleym deyir: "Sonra Miqdaddan soruşdum və dedim: "Allah sənə rəhm eləsin! Əli ibn Əbu Talib (ə) haqqında Peyğəmbərdən (s) eşitdiyin ən fəzilətli sözü mənə söyləyə bilərsən?"

Dedi: Peyğəmbərin belə buyurduğunu eşitdim: "Həqiqətən Allah mülkündə yeganədir. O Özünü nurları[1] ilə tanıtdı. Sonra öz işlərini onlara həvalə edib cənnəti onlara mübah etdi. Uca Allah insanlardan və cinlərdən hər kimin ürəyini paklamaq istəsə, ona Əli ibn Əbu Talibin (ə) vəlayətini tanıdar. Hər kimin qəlbinə pərdə çəkmək istəsə, onun qəlbindən Əli ibn Əbu Talibin mərifətini uzaq tutar.

## Peyğəmbər (ə) və Əlinin (ə) təsdiqində peyğəmbərlərin (ə) məqamı

Canım əlində olana and olsun ki, Adəm yaradılmağa, ruhun ona üfürülməsinə, tövbəsinin qəbul olunmasına və cənnətdə qərarlaşmasına yalnız mənim peyğəmbərliyimə və məndən sonra Əlinin (ə) vilayətinə iman edəndən sonra layiq oldu.

Canımın əlində olana and olsun! Mənim peyğəmbərliyim və Əlinin vilayətini iqrar etdikdən sonra İbrahimə yerin və göylərin mələkutu göstərildi, Allah onu Özünə xəlil (dost) seçdi.

Canımın əlində olana and olsun! Yalnız mənim peyğəmbərliyim və Əlinin vilayətinin mərifətindən sonra Allah Musa (ə) ilə danışdı, İsanı (ə) aləmlərə əlamət qərar verdi. And olsun canımın əlində girov olduğu Allaha!

Canımın əlində olana and olsun! Əlini (ə) tanımadan və vilayətimizi iqrar etmədən heç bir peyğəmbər həmin məqama yüksəlmədi. Bütün məxluqat yalnız Allaha olan bəndəçilikləri və bizim vəlayətimizə olan iqrarlarına görə yaradılmağa və Allahın onlara nəzər salmasına layiq oldular.

Miqdad bundan sonra susdu. Mən dedim: "Allah sənə rəhm eləsin! Yenə varmı?"

## Qiyamətdə ümmətin hesabına müvəkkil Əlidir (ə)

Miqdad dedi: "Bəli, Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Əli bu ümmətin hakimi, şahidi və (qiyamətdə) hesabına müvəkkil şəxsdir. O, uca məqamın, üz tutulması sevinc bəxş edəcək haqq yolun sahibidir. O, siratul-müstəqimdir (doğru yoldur). Məndən sonra insanlar onun vasitəsilə zəlalətdən

---

[1] Nurlarda məqsəd Məsumlardır (ə).

hidayət tapacaq, korluqdan bəsirət əldə edəcəklər. Onunla nicat tapacaq, ölümdən qurtulacaq, qorxulardan əminlik əldə ediləcək, pisliklər pozulacaq, haqsızlıqlar dəf ediləcək və rəhmət nazil olacaq.

Allahın görən gözü, eşidən qulağı, məxluqatı içində danışan dili, bəndələrinə açılan rəhmət əli, göylərdə və yerdəki üzü, görünən sağ böyrü, ən möhkəm və qırılmaz ipi, daxil olacaq qapısı, içinə girildiyi zaman amanda olduğu Evi, qiyamət günü Sırat üzərindəki əlaməti (və ya bayrağı) odur. Kim onu tanısa, nicat tapıb cənnətə gedəcək. Kim onu inkar etsə cəhənnəmdə məhv olacaq.

# HƏDİS 47

**Əlinin (ə) vilayəti imanla küfrü ayıran meyardır**

Aban ibn Əbu Əyyaş Süleym ibn Qeysdən Salman Farisinin belə dediyini nəql edir: “Həqiqətən də Əli Allahın açdığı bir qapıdır. Kim oradan daxil olsa mömin, kim ondan çıxsa kafir olar”.

# HƏDİS 48

## İbn Abbasın dilindən Səqifə hadisələri

Aban ibn Əbu Əyyaş Selüym ibn Qeysdən nəql edir: “Abdullah ibn Abbasın evində idim və orada bir dəstə şiə də vardı. Bizim üçün bəzi söhbətlər elədi ki, onlardan:

«Ey qardaşlarım! Peyğəmbər (s) vəfat etdi. Vəfat etdiyi gün hələ qəbirə qoyulmamışdı ki, camaat əhdlərini pozdular, dindən döndülər və birləşib mənə qarşı çıxdılar. Həmin vaxtlarda Əli ibn Əbu Talib Peyğəmbərin (s) qüslü, kəfənlənməsi və hənutlanması ilə məşğul idi. Peyğəmbəri (s) dəfn edənə qədər başı bu işlərə qarışmışdı. Sonra Quranı cəm etməyə başladı və Peyğəmbərin (s) vəsiyyətinə əməl etdi. Əlinin hədəfi hakimiyyət deyildi. Çünki Peyğəmbər (s) camaatın ona qarşı edəcəklərini qabaqcadan xəbər vermişdi.

## 1. İmam Əlidən (ə) beyət alınması

Camaat o iki nəfərin fitnəsinə düşdükləri zaman Əlidən (ə), Bəni-Haşimdən, Əbu Zərrdən, Miqdaddan, Salmandan və onlarla birlikdə olan bir dəstə adamdan başqa heç kim bu fitnədən amanda qalmadı. Səhhakın oğlu yaşlı səhabəyə dedi: “Bundan, Əhli-Beytindən və bir neçə nəfərdən başqa hamı sənə beyət etdi. İndi onun yanına elçi göndər”. Yaşlı səhabə Səhhakın oğlunun Qunfuz adlı əmisi oğlunu göndərib dedi: “Ey Qunfuz! Əlinin yanına get və ona de: “Peyğəmbərin xəlifəsinin dəvətinə cavab ver”. Qunfuz gedib deyilənləri çatdırdı. Əli (ə) dedi: “Peyğəmbərin (s) adından nə tez yalan danışdınız, əhdinizi pozdunuz və dindən döndünüz?! Allaha and olsun, Peyğəmbər (s) məndən başqasını xəlifə təyin etmədi. Qayıt, ey Qunfuz! Sən ancaq bir elçisən. Ona de: “Allaha and olsun, Peyğəmbər (s) səni xəlifə təyin etmədi, sən kimin Peyğəmbərin (s) xəlifəsi olduğunu həqiqətən yaxşı bilirsən”.

Qunfuz yaşlı səhabənin yanına gəlib bu sözləri ona çatdırdı. Yaşlı səhabə dedi: “Əli doğru deyir. Peyğəmbər (s) məni xəlifə təyin etmədi”. Səhhakın oğlu isə qəzəblənərək ayağa qalxdı. Yaşlı səhabə ona “otur” oturmasını söylədi və sonra üzünü Qunfuza tutub dedi: “Onun yanına gedib de: “Möminlərin əmiri yaşlı səhabənin dəvətinə cavab ver!”

Qunfuz Əlinin yanına gəlib xəbəri ona çatdırdı. Əli (ə) dedi: “Allaha and olsun ki, yalan danışır. Onun yanına get və de: “Allaha and olsun, özünü

sənə aid olmayan bir adla çağırırsan. Möminlərin əmirinin başqası olduğunu bilirsən".

Qunfuz qayıdıb deyilənləri onlara çatdırdı. Səhhakın oğlu qəzəblənib ayağa qalxdı və dedi: "Allaha and olsun, mən onun ağlının və rəyinin zəif olduğunu bilirəm. Onu öldürmədən bizim işimiz düzəlməyəcək. İzin ver, onun başını bura gətirim". Əbu Bəkr "Otur!" dedi. Səhhakın oğlu bu sözə qulaq asmadı. Yaşlı səhabə ona oturması üçün and verib dedi: "Ey Qunfuz! Onun yanına get və de: "Yaşlı səhabə dəvətinə cavab ver!"

Qunfuz gəlib dedi: "Ey Əli! Yaşlı səhabənin dəvətinə cavab ver". Əli (ə) dedi: "Mən məşğulam. Dostumun və qardaşımın vəsiyyətini tərk etməyəcəyəm. Yaşlı səhabənin və üzərində icma etdiyiniz zülmün yanına qayıt!"

## Fatimənin (s.ə.) evi və o hadisələr

Qunfuz yaşlı səhabənin yanına qayıdıb deyilənləri ona xəbər verdi. Səhhakın oğlu yenə də qəzəblənib yerindən qalxdı. Xalid ibn Vəlidlə Qunfuzu çağırdı. Onlara odun və atəş gətirməyi əmr elədi. Sonra Əlinin (ə) qapısının qarşısına gəldi. Həmin vaxt Fatimə (ə) qapının arxasında oturmuşdu. Başını bağlamış, Peyğəmbərin (s) vəfatına görə bədəni zəifləmişdi. Səhhakın oğlu irəli keçib qapını döydü və yüksək səslə dedi: "Ey Əbu Talibin oğlu, qapını aç!"

Fatimə (s.ə.) dedi: "Ey Səhhakın oğlu! Bizim səninlə nə işimiz var, bizi öz halımıza burax!"

Səhhakın oğlu dedi: "Qapını aç! Yoxsa siz içəridə ikən qapıya od vuraram".

Fatimə (s.ə.) dedi: "Ey Ömər! İzzət və Cəlal sahibi olan Allahdan qorxmursan?! Evimə girib hücum edirsən?" Səhhakın oğlu geri çəkilmədi. Od istədi, onu qapının yanına qoydu və qapını yandırdı. Sonra qapını itələdi.

## Siddiqeyi-Tahirənin (s.ə.) vurulması

Fatimə (s.ə.) onunla üz-üzə gəldi və uca səslə nida etdi: "Ey atacan! Ya Peyğəmbər!" Səhhakın oğlu qılıncını qını ilə birlikdə qaldırdı və böyüründən vurdu. Fatimə qışqırdı. Səhhakın oğlu qamçısını qaldırdı və qoluna vurdu. Fatimə "Ey atacan!" deyib fəryad etdi.

* * *

Əli Əbu Talib (ə) irəli atılıb Səhhakın oğlunun yaxasından tutdu, onu silkələyib və yerə çırpdı. Burnunu və boyunu əzdi, öldürmək istəsi. Bu vaxt səbr və itaət barədə Peyğəmbərin (s) ona etdiyi vəsiyyəti xatırladı. Buyurdu: "Ey

Səhhakın oğlu! Muhəmmədi nübuvvətlə kəramətləndirənə and olsun ki, əgər Allahın əvvəldən nə təqdir etdiyini bilməsəydim, sən evimə girə bilməzdin”.

### Zəhranı (s.ə.) qılıncla öldürmək istədilər

Səhhakın oğlu yardım üçün adam göndərdi. Bir dəstə adam gəlib evə soxuldular. Xalid ibn Vəlid Fatiməni (s.ə.) öldürmək üçün qılıncını qınından çıxardı. Əli (ə) qılıncı ilə Xalidə həmlə etdi. Xalid and verərək ona yalvardı və fikrindən əl çəkdi.

### Əmirəl-mömininin (ə) evindən çıxarılması

Sonra Miqdad, Salman, Əbu Zərr, Əmmar və Bureydə Əsləmi Əliyə (ə) kömək etmək üçün evə girdilər. Bir fitnə çaxmasına az qalmışdı. Əlini (ə) çölə çıxardılar, camaat da Əlinin (ə) ardınca gedirdi. Salman, Əbu Zərr, Miqdad, Əmmar və Bureydə Əsləmi Əlinin (ə) arxasınca gedərək belə deyirdilər: “Nə tez Peyğəmbərə (s) xəyanət etdiniz və qəlbinizdəki nifrətinizi ortaya çıxardınız?!”

Bureydə ibn Xəsib Əsləmi dedi: “Ey Səhhakın oğlu! Peyğəmbərin (s) qardaşının və vəsisinin üzərinə hücum etdin? Peyğəmbərin (s) qızının üzərinə hücum edib onu vurdun?! Sən Qüreyşin içində necə tanındığı məlum kəssən!”

Xalid ibn Vəlid qılıncını qını ilə birlikdə qaldırıb Bureydəni vurmaq istədi. Amma Səhhakın oğlu onun əlindən tutub mane oldu.

## 2. Beyət necə baş verdi

### Beyət zamanı Əmirəl-mömininin (ə) ilk sözləri

Əlini (ə) yaxasından çəkərək yaşlı səhabənin yanına gətirdilər. Əbu Bəkr onu gördükdə “Buraxın onu!” deyib qışqırdı. Əli (ə) dedi: “Peyğəmbərinizin Əhli-Beytinin üzərinə nə tez atıldınız?! Ey sən! Hansı haqla, hansı vərəsəliklə və hansı keçmişlə (və ya üstünlüklə) camaatı beyətə məcbur edirsən? Sən elə dünən Peyğəmbərin (s) əmri ilə mənə beyət etmədinmi?!”

### Əliyə (ə) qarşı ilk təhdid

Səhhakın oğlu dedi: “Ey Əli, Bu söhbəti burax! Allaha and olsun, beyət eləməsən səni öldürəcəyik”. Əli (ə) dedi: “O zaman qətlə yetirilmiş Allah qulu və Peyğəmbər qardaşı olaram”. Səhhakın oğlu dedi: “Allahın qətlə yetirilmiş qulu sözün doğrudur, amma Peyğəmbərin qardaşı sözü əsla!” Əli (ə) dedi: “Al-

laha and olsun ki, əgər öncədən təqdir etdiyi qəzası və dostumun mənimlə bağladığı əhdi olmasaydı, bunu sənə icazə verməz, hansımızın yardım və say baxımından daha az olduğunu bilərdin”. Yaşlı səhabə sakit dayanıb heç nə demədi.

Bureydə ayağa qalxdı və dedi: “Ey Səhhakın oğlu! Məgər siz Peyğəmbərin (s) barənizdə bu sözləri dediyi adamlar deyilsiniz: “Əlinin yanına gedin və “Möminlərin əmiri” deyib ona salam verin!” Bu əmrdən sonra siz ikiniz belə dediniz: “Bu Allahın və Peyğəmbərinin əmridir?” Peyğəmbər (s) buyurudu: “Bəli”.

Yaşlı səhabə dedi: “Ey Bureydə! Bu dediyin hadisə olub. Sən orada yox idin və amma biz buna şahid olmuşuq. Hər işdən sonra bir iş olur!”. Səhhakın oğlu dedi: “Ey Bureydə, bu məsələdən sənə nə?! Niyə bu işə qarışırsan?” Bureydə dedi: “Allaha and olsun, sizin hakim olduğunuz şəhərdə əsla oturmam”. Bu sözlərdən sonra (Bureydə) Səhhakın oğlunun əmrilə döyüldü və şəhərdən çıxarıldı.

Sonra Salman ayağa qalxıb dedi: “Ey Ətiq! Allahdan qorx və oturduğun yerdən qalx. Onu əhlinə təhvil ver ki, qiyamət gününə qədər (camaat) gen-bol ruzilənsin və ümmət arasında iki qılınc belə bir-birilə əsla ixtilaf eləməsin!” Yaşlı səhabə cavab vermədi. Salman yenidən buna oxşar sözlər söylədi. Səhhakın oğlu onu kənara itələyib dedi: “Bu məsələdən sənə nə? Niyə baş verənlərə qarışırsan?”

Salman dedi: “Yavaş ol, ey Səhhakın oğlu! Ey Ətiq, oturduğun yerdən qalx! Onu əhlinə təhvil ver! Allaha and olsun, qiyamət gününə qədər bərəkətdən faydalanacaqlar. Əgər bunu qəbul etməsəniz qan çığacaq, tüləqalar, sürgünə göndərilənlər və münafiqlər xəlifəliyə tamah salacaqlar. Allaha and olsun əgər zülmü dəf edib və ya Allahın dinini şərəfləndirəcəyimi bilsəm, qılıncımı çiynimə salıb, geri dönmədən başımın üstündə yelləyərəm. Peyğəmbərin (s) vəsilərinə hücum edirsiniz?! Bəlalarla müjdələnin, rahatlıqdan ümidiniz kəsin!”

Sonra Əbu Zərr, Miqdad və Əmmar ayağa qalxıb Əliyə (ə) dedilər: “Nə əmr edirsən? Allaha and olsun, bizə əmr versən, ölənə qədər vuruşarıq”. Əli (ə) dedi: “Allah sizə rəhm eləsin! Əl saxlayın! Peyğəmbərin (s) əhdini və sizə etdiyi vəsiyyəti xatırlayın”. Onlar sakitləşib dayandılar.

## İmam Əliyə (ə) qarşı ikinci təhdid

Səhhakın oğlu minbərdə oturmuş yaşlı səhabə dedi: “Bu adam müharibə niyyətində ikən və sənə beyət etməzkən, niyə minbərdə oturursan?! Boynunun vurulması üçün əmr verir!” Bu vaxt Həsən (ə) və Hüseyn (ə) Əlinin (ə) yanında dayanmışdılar. Səhhakın oğlunun bu sözlərini eşidib ağladılar və “Ey babacan! Ya Peyğəmbər!” deyərək səslərini qaldırdılar. Əli (ə) onları bağrına basıb dedi:

“Ağlamayın! Allaha and olsun, atanızı öldürməyə qüdrətləri çatmaz. Bu ikisi bunu etməkdən daha aşağı, daha zəlil və daha rəzildirlər”.

Peyğəmbərin qulluqçusu və süd anası Ümmü Əymən ilə Ümmü Sələmə irəli keçib dedilər: “Ey Ətiq! Nə tez Muhəmmədin Əhli-Beytinə olan həsədinizi zahir etdiniz!” Səhhakın oğlu ikisinin də məsciddən çıxarılmasını əmr elədi və dedi: “Bizim qadınlarla nə işimiz var!”

## İmam Əliyə (ə) qarşı üçüncü təhdid

Sonra dedi: “Ey Əli! Qalx, beyət et!” Əli (ə) dedi: “Əgər beyət etməzsəm nə olacaq?” Səhhakın oğlu dedi: “Allaha and olsun, boynunu vuraram”. Əli (ə) dedi: “Allaha and olsun, yalan danışırsan, ey Səhhak oğlu! Bunu etməyə qüdrətin çatmaz. Sən bundan daha şərəfsiz və zəifsən!”

## İmam Əliyə (ə) qarşı dördüncü təhdid

Xalid ibn Vəlid yerindən sıçrayıb qılıncını çəkdi və dedi: “Allaha and olsun, beyət etməsən səni mütləq öldürəcəyəm”. Əli ayağa qalxıb onun üstünə yeridi və paltarının yaxasından tutub itələdi. Xalid başının arxası üstə yerə yıxıldı və qılıncı əlindən düşdü.

## İmam Əliyə (ə) qarşı beşinci təhdid

Səhhakın oğlu dedi: “Ey Əli ibn Əbu Talib, qalx və beyət elə!” Əli (ə) dedi: “Əgər etməsəm?” Səhhakın oğlu dedi: “Allaha and olsun, səni öldürərik!” Əli (ə) yenə onlara höccətini tamamladı. Sonra ovcunu açmadan əlini uzatdı. Yaşlı səhabə də onun əlinə toxunub buna da razı oldu. Sonra Əli (ə) evinə üz tutdu, camaat da onun arxasınca getdilər.

## 3. Peyğəmbərin (s) Zəhraya (s.ə.) hədiyyəsi olan Fədəyi

İbn Abbas deyir: “Yaşlı səhabə Fədəyə əl uzatdığı xəbəri Fatiməyə çatdı. Bəni-Haşim qadınları ilə birgə çıxıb Yaşlı səhabənin yanına gəldi və dedi: “Ey Ətiq! Peyğəmbər (s) müsəlmanların döyüşmədən əldə etdikləri qənimətlərdən mənə verdiyi və mülkümə çevirdiyi ərazini məndən almaq istəyirsən?! Məgər Peyğəmbər (s) “Şəxsin özündən sonra övladlarının haqqı qorunar” demədimi? Sən də bilirsən ki, Peyğəmbər (s) övladları üçün Fədəkdən başqa bir şey buraxmayıb”.

## Fədəyin qaytarılması ilə bağlı məktubun yazılmasına maneə

Yaşlı səhabə Fatimənin və yanındakı qadınların sözlərini eşidib Fədəyi ona məxsus olduğunu təsdiqləmək üçün mürəkkəb istədi. Səhhakın oğlu məsələyə müdaxilə edib dedi: "Ey Peyğəmbərin xəlifəsi, iddiasına şahid gətirənə qədər gözlə, yazma!" Fatimə (s.ə.) dedi: "Yaxşı, şahid gətirərəm". Səhhakın oğlu dedi: "Kimi?". Fatimə (s.ə.) dedi: "Əlini və Ümmü Əyməni". Səhhakın oğlu dedi: "Sözləri tam başa düşülməyən əcəmi bir qadının şahidliyi qəbul edilməz. Əliyə gəlincə, odu ətrafında dövr etdirir". Fatimə vəsf edilməyəcək bir qəzəblə geri qayıtdı. Bir müddət sonra xəstələndi.

## Əbu Bəkr və Ömər Fatiməyə (s.ə.) baş çəkirlər

Əli (ə) məsciddə vacibi namazını qılırdı. Hər dəfə namaz qılarkən o ikisi ona deyirdilər: "Peyğəmbərin qızı necədir?"

Xəstəliyi ağırlaşana qədər bu davam etdi. Sonra bir gün soruşub dedilər: "Bizimlə onun arasında olanları bilirsən. Mümkündürsə ondan bizim üçün izin istə ki, günahlarımıza görə üzr istəyək". Əli (ə) dedi: "Bu sizin boynunuzdadır!"

Gəlib evin qapısının qarşısında oturdular. Əli (ə) Fatimənin (s.ə.) yanına gedib dedi: "Ey azad qadın! Filan və filan kəslər qapıda gözləyirlər. Sənə salam vermək istəyirlər. Fikrin nədir?" Fatimə (s.ə.) dedi: "Ev sənindir və azad qadın da zövcəndir! Necə münasib bilsən, elə et". Əli (ə) dedi: "Üstünü ört". Fatimə (s.ə.) üstünü örtdü və üzünü divara çevirdi.

## Fatimənin (s.ə.) bədduası

Yaşlı səhabə və Səhhakın oğlu içəri girib salam verdilər və dedilər: "Bizdən razı ol, Allah da səndən razı olsun". Fatimə (s.ə.) dedi: "Sizi buna nə məcbur etdi?" Dedilər: "Pis əməlimizi etiraf edir və bizi bağışlamağını diləyir, bizə qarşı hiss etdiyin nifrəti qəlbindən çıxarmağını istəyirik". Fatimə (s.ə.) dedi: "Əgər doğru deyirsinizsə, sualıma cavab verin. Mənim və sizin bildiyiniz şeyi soruşacağam. Əgər doğru söyləsəniz, niyyətinizin həqiqi olduğunu biləcəyəm". Dedilər: "Hər nə istəyirsən, soruş". Fatimə (s.ə.) dedi: "Sizə Allahı şahid tuturam! Peyğəmbərin (s) "Fatimə mənim bir parçamdır, onu incidən məni incitmişdir" (Və ya "Fatimə mənim bir parçamdır. Ona əziyyət edən mənə əziyyət etmişdir") dediyini eşitmisiniz?" Dedilər: "Bəli, eşitmişik". Fatimə (s.ə.) əllərini səmaya tərəf qaldırıb dedi: "İlahi, bu ikisi mənə əziyyət etdilər. Mən bunları sənə və peyğəmbərinə şikayət edirəm. Allaha and olsun, xeyr! Atam

Peyğəmbərlə görüşüb etdiklərinizi ona xəbər verənə qədər sizdən razı olmayacağam. O sizin barənizdə hökm verəcək".

İbn Abbas deyir: "Bunu eşidən yaşlı səhabə ah-vah çəkib səsini qaldırdı və şiddətli narahatlıq keçirdi". Səhhakın oğlu dedi: "Bir qadının sözünə görə narahat olursan, ey Peyğəmbər xəlifəsi?!"

## 4. Fatimeyi-Zəhranın (s.ə.) vəsiyyəti və şəhadəti

İbn Abbas deyir: "Fatimə (s.ə.) atası Peyğəmbərin (s) vəfatından sonra cəmi qırx gecə yaşadı. Xəstəliyi ağırlaşdıqda Əlini (ə) çağırıb dedi: "Ey əmim oğlu! Mənim halımı görürsən. Sənə bacım Zeynəbin qızı ilə evlənməyini tövsiyə edirəm. Uşaqlarıma qarşı mənim kimi olacaq. Mənim üçün bir tabut hazırla. Mələklərin onu mənim üçün vəsf etdiklərini gördüm. Allah düşmənlərindən heç biri cənazəmə, dəfnimə və cənazə namazıma şahid olmasınlar".

İbn Abbas deyir: "Bu Möminlərin əmirinin (ə) sözüdür: "Bəzi şeylər var ki, onları tərk edə bilmərəm. Çünki Quran onunla Peyğəmbərin (s) qəlbinə nazil edilib: dostum Peyğəmbərin (s) Nakisin, Qasitin və Mariqinlərlə döyüşmək barədə məndən aldığı əhd və Fatimənin (s.ə.) Əmamə binti Zeynəblə evlənməyi vəsiyyət etməsi".

İbn Abbas deyir: "Fatimə o gün vəfat etdi. Mədinə şəhərini kişi və qadınların ağlama səsləri bürüdü. Camaat Peyğəmbərin (s) vəfatında olduğu kimi çaşqın vəziyyətdə idilər. Əbu Bəkr və Ömər gəlib Əliyə təsəlli verdilər və dedilər: "Ey Əbul-Həsən! Peyğəmbərin qızına namaz qılmaqda bizi qabaqlama".

Gecə olarkən Əli (ə) Abbası, Fəzli, Miqdadı, Salmanı, Əbu Zərri və Əmmarı çağırdı. Abbas önə keçib cənazə namazı qıldı və sonra onu dəfn etdilər.

## Zəhranın (s.ə.) qəbrini qazdırmaq istənilməsi və Əlinin (ə) bunun qarşısını alması

Səhər ertədən yaşlı səhabə, Səhhakın oğlu və bir dəstə camaat gəldilər. Fatiməyə (s.ə.) cənazə namazı qılmaq istəyirdilər. Miqdad dedi: "Dünən gecə Fatiməni dəfn etdik". Səhhakın oğlu üzünü yaşlı səhabəyə tutub dedi: "Onların bunu edəcəklərini sənə demədimmi?" Abbas dedi: "Fatimə siz ikinizin ona cənazə namazı qılmamanızı vəsiyyət etdi".

Səhhakın oğlu dedi: "Ey Bəni-Haşim! Siz bizə olan köhnə həsədinizi əsla tərk etməyəcəksiniz. Bu sizin qəlbinizdə olan nifrətdir ki, heç vaxt aradan getməyəcək. Allaha and olsun, məzarını qazıyıb ona cənazə namazı qılmağı qərara aldım".

Əli (ə) dedi: "Ey Səhhakın oğlu! Əgər buna cəhd etsən səni sağ böyürün üstə çevirərəm. Allaha and olsun, əgər qılıncımı çəksəm sənin canını almadan qınına qoymaram. İstədiyini etməyə cəhd et görüm!" Səhhakın oğlu cürəti bir anda yoxa çıxdı və susdu. Çünki Əlinin (ə) anda sadiq olduğunu bilirdi.

Sonra Əli (ə) dedi: "Ey Səhhakın oğlu! Sən Peyğəmbərin (s) öldürmək niyyətilə yanıma göndərdiyi kəs deyilsən?! Mən belimdə qılıncımla gəldim, öldürmək üçün sənə tərəf yönəldim. Həmin vaxt Allah bu ayəni nazil etdi: ***"Elə isə onlardan ötrü (onların tezliklə məhv edilməsinə) tələsmə, çünki Biz onlar üçün saymaqdayıq".*** [1] Onlar çevrilib getdilər.

## 5. Əmirəl-mömininin (ə) öldürülməsi ilə baglı hadisə

İbn Abbas deyir: "Sonra onlar öz aralarında məşvərət və müzakirə aparıb dedilər: "Bu kişi həyatda ikən bizim işimiz yolunda getməyəcək". Yaşlı səhabə dedi: "Kim onu bizim üçün öldürər?" Səhhakın oğlu dedi: "Xalid ibn Vəlid!" Xalidə xəbər göndərib dedilər: "Ey Xalid! Səndən istədiyimiz bir məsələ barədə fikrin nədir?" Xalid dedi: "Nə istəyirsinizsə mənə tapşırın. Allaha and olsun, əgər Əli ibn Əbu Talibi öldürməyimi istəsəniz, bunu edərəm". Yaşlı səhabə və Səhhakın oğlu dedilər: "Allaha and olsun, bundan başqa bir şey istəmirik!" Xalid dedi: "Bu iş mənlikdir!"

Yaşlı səhabə dedi: "Sübh namazını qılarkən sən qılıncınla Əlinin yanında dayan. Namaz üçün salam verdiyimdə onun boyunu vur!" Xalid "Yaxşı!" dedi və qərarlaşıb dağıldılar.

## Qərarlaşdıqları iş barədə peşmançılığ

Sonra yaşlı səhabə Əlini (ə) öldürmək barədə verdiyi əmri düşündü. Bunu edeəcəyi təqdirdə (qəbilələr arasında) şiddətli bir müharibənin və uzun zaman sürəcək bir fitnənin meydana çıxacağını anladı. Bu əmri verdiyi üçün peşman oldu. Səhərə qədər gözünə yuxu getmədi. Sonra məscidə getdi. Artıq namaz başlamışdı. Önə keçib nə dediyini anlamayacaq dərəcədə fikirli halda camaata namaz qıldırdı.

Xalid ibn Vəlid belində qılıncla gəlib Əlinin (ə) yanında dayandı. Əli (ə) olanların niyyətlərini hiss etməyə başlamışdı. Yaşlı səhabə təşəhhüdü oxudu və salam vermədən uca səslə dedi: "Ey Xalid! Sənə əmr etdiyimi etmə! Əgər etsən, səni öldürəcəyəm". Sonra sağ və sol tərəfinə salam verdi.

---

[1] "Məryəm" surəsi, ayə 84.

## Qətl əmrinə görə baş verənlər

Əli (ə) yerindən sıçrayıb Xalidin yaxasından tutdu və qılıncını əlindən aldı. Xalidi yerə sərib sinəsinin üzərinə oturdu və onu öldürmək üçün qılıncını götürdü. Məsciddəkilər Xalidi xilas etmək üçün yığıldılar. Amma gücləri çatmadı. Abbas deyir: "Peyğəmbərin (s) qəbrinə onu and verdilər və Xalidi buraxmasını istədilər. Bundan sonra Əli (ə) qalxıb onu buraxdı və qalxıb evinə getdi.

Zübeyr, Abbas, Əbu Zərr, Miqdad və Bəni-Haşim gəlib qılınclarını çəkib dedilər: "Allaha and olsun, danışıb nə isə edənə qədər siz bu məsələni bitirməyəcəksiniz!" Camaat aralarında ixtilafa düşdülər və narahat oldular.

Bəni-Haşimin qadınları çölə çıxıb fəryad edərək dedilər: "Ey Allahın düşmənləri! Peyğəmbər və Əhli-Beytinə olan düşmənçiliyinizi nə tez zahir etdiniz? Nə vaxt idi ki, bunları Peyğəmbərə qarşı etmək istəyirdiniz, amma gücünüz çatmırdı. Elə dünən onun qızını öldürdünüz. Bu gün də qardaşı, əmisi oğlu, vəsisi və övladlarının atasını öldürmək istəyirsiniz?! Kəbənin Rəbbinə and olsun, yalan danışdınız. Siz onu öldürməyə əsla əl uzada bilməyəcəksiniz!"

Camaat böyük bir fitnənin çıxacağından qorxdular.

**"Süleymin kitabı"nın mətni burada bitdi.**

**Bu kitabın digər "C" nüsxəsində qeyd edilən hədisləri buraya əlavə edirik. Onlar ümumilikdə 22 hədisdən ibarətdir.**

# SÜLEYM İBN QEYS ƏL-HİLALİNİN DİGƏR NÜSXƏSİNDƏN

# II HİSSƏ

# HƏDİS 49

## Peyğəmbərin (s) kağızda yazdıqları

Süleym ibn Qeys Salmanın belə dediyini eşitdiyini söyləyir: "Həmin kəsin (Səhhakın oğlu) söylədiklərinə görə Peyğəmbərin (s) qəzəblənib yazmaq fikrindən daşınmasından sonra Əlinin (ə) belə dediyini eşitdim: "Peyğəmbərdən (s) kağıza nə yazmaq istədiyini soruşaqmı? Belə ki, həmin şey yazılsa heç kəs yoldan azmaz və iki nəfər belə bir-birilə əsla ixtilafa düşməz".

## Peyğəmbərin (s) dedikləri

Evdə olanlar qalxıb gedənə qədər mən susdum. Evdə yalnız Əli, Fatimə, Həsən və Hüseyn qaldılar. Mən və yoldaşım Əbu Zərr və Miqdad da getmək üçün ayağa qalxdıq, lakin Əli (ə) bizə oturmamızı söylədi.

Əli Peyğəmbərdən (s) soruşmaq istəyirdi və bizdə onu dinləyirdik. Amma Peyğəmbər (s) ondan əvvəl sözə başlayıb dedi: "Ey qardaşım! Allah düşməninin nə dediyini eşitdin? Cəbrayıl bir az əvvəl yanıma gəlmişdi. Onun bu ümmətin Samirisi və dostunun isə ümmətin buzovu olduğunu bildirdi. Uca Allah məndən sonra ümmətimdə bölünməyi və ixtilafı təqdir edib. Mənə kağıza yazmaq istədiklərimi sənin üçün yazmamı və bu üç nəfəri də şahid tutmamı əmr etdi. Mənə bir kağız gətir".

## On iki imamın (ə) adları kağızda yazılmışdı

Kağızı gətirdi. Peyğəmbər (s) bir-bir özündən sonrakı hidayət imamlarının adlarını söyləyirdi və Əli də (ə) yazırdı. Sonra buyurdu: "Mən sizi şahid tuturam ki, qardaşım, vəzirim, varisim, ümmətim arasında xəlifəm Əli ibn Əbu Talibdir. Ondan sonra Həsən, ondan sonra Hüseyn və ondan sonra da Hüseynin övladlarından doqquz nəfərdir".

Onlardan yalnız ikisinin adı - Əli və Muhəmməd yadımda qaldı. Digər imamların (ə) adlarını qarışdırdım[1]. Amma Mehdinin xüsusiyyətləri, ədaləti və

---

[1] Bu yanlışlıq Salmandan, Süleymdən və ya Abandan qaynaqlanmır. Çünki kitabdakı hədislərin bir çoxunda İmamların (ə) adları aydın və aşkar qeyd edilir. Ola bilsin ki, bu cümlələr hədisi Abandan sonra nəql edən şəxsə aiddir.

edəcəkləri haqqında eşitdiklərimi unutmadım. Allah onun vasitəsilə haqsızlıq və zülmlə dolmuş yer üzünü haqq və ədalətlə dolduracaq.

Sonra Peyğəmbər (s) buyurdu: "Mən bunları yazmağı, məscidə getməyi, hər kəsi çağırmağı, onlara oxumağı və onları buna şahid tutmağı istəyirdim. Amma Uca Allah istəmədi və təqdir etdiyi şeyin olmasına hökm verdi.

Süleym deyir: "Osmanın xəlifəliyi zamanında Əbu Zərr və Miqdadla görüşdüm. İkisi də bunu mənə danışdılar. Sonra Kufə şəhərində Əli (ə), Həsən (ə) və Hüseyn (ə) ilə görüşdüm. Onlar da gizlicə bunları mənə söylədilər. Sanki bir ağızdan danışırmışlar kimi nə bir hərfi əskik, nə də artıq söylədilər..."

Həmçinin onların adlarının burada aşkar çəkilməməsi hədis ravisinin İmamların (ə) adlarını söyləməkdə təqiyyə edib, onları zalımlardan qoruması da səbəb ola bilər.

# HƏDİS 50

## Peyğəmbərə (s) məsciddə halal olanlar Əliyə (ə) də halaldır

Süleym Cabir ibn Abdullah Ənsaridən nəql edir: “Biz məsciddə ikən Peyğəmbər (ə) əlində xurma yarpağı evindən çıxdı, bizi çölə itələyib “Məsciddə yatmayın” dedi.

Cabir deyir: Biz çıxdıqda Əli də bizimlə birgə çıxmaq istədi. Peyğəmbər (s) buyurdu: “Ey qardaşım, sən hara çıxırsan? Məsciddə mənə halal olan sənə də halaldır. Sənin mənə nisbətin Harunun Musaya olan nisbətidir. Uca Allah Musaya təmiz, pak bir məscid tikməsini, orada onunla birgə yalnız qardaşının və övladları Şəbərlə Şübeyrin məskunlaşmasını əmr etdi.

## Qiyamət günündə Əli (ə) Kövsərin hamisidir

Ey qardaşım, canım əlində olana and olsun ki, sən mənim hovuzumun hamisisən. Xəstə dəvənin sürünün yanından qovduğu kimi hovuzumun yanından da yadlar sənin əlinlə qovulacaq. Sanki hovuzumun başında sənin məqamını görür kimiyəm, əlində bir əsa ilə onu himayə edirsən.

# HƏDİS 51

**Peyğəmbər (s) məscidi yalnız Əhli-Beytinə halaldır**

Süleym ibn Qeys deyir: "Əmirəl-möminin Əlinin (ə) belə dediyini eşitdim: "Sanki mən Peyğəmbərə (s) məscidinin həyətində baxır və belə dediyini görürəm: "Bilin və agah olun ki, məscidimə məndən, qardaşımdan, iki övladından, qadınlarım, xidmətçilərimdən başqa heç bir cünub və heyzli şəxsin girməsi halal deyil. Eşitdinizmi?! Sizə aydın oldumu?! Ehtiyatlı olun ki, azmayasınız!" Bu sözlərlə nida edir.

# HƏDİS 52

## Əli (ə) ümmətin Siddiqi və Faruqudur

Süleym ibn Qeys deyir ki, Ömər ibn Xəttabın hökuməti zamanı idi. Salman, Əbu Zərr və Miqdadla birlikdə oturmuşduq. Kufəli bir nəfər gəlib ona doğru yolu göstərmələrini istədi. Dedilər: “Sənə Allahın kitabını tövsiyə edirik, ona sarıl. Həmçinin Əli ibn Əbu Talibi (ə) tövsiyə edirik. O, Quranladır və ondan əsla ayrılmaz.

Biz Peyğəmbərdən (s) belə buyurduğunu eşitdiyimizə şahidlik edirik: “Əli Quranla və haqladır. Hara üz tutsa haqq da ora üz tutar. O, Allaha ilk iman gətirən və qiyamət günü ümmətimdən mənimlə görüşəcək ilk şəxsdir. O, ən böyük Siddiq (çox təsdiqləyən) və haqq ilə batilin arasını ayırandır (Faruqdur). O, mənim vəsim, vəzirim, ümmətim arasında xəlifəm və sünnətimə görə savaşandır”.

## Başqasının adının mənimsənilməsi

Kufəli kişi onlara dedi: “Bəs niyə camaat yaşlı səhabəyə Siddiq və Səhhakın oğluna Faruq deyirlər?”

Dedilər: “Camaat Peyğəmbər (s) xəlifəliyini və Möminlərin əmirin olmağı o ikisinə rəva bildikləri kimi onlardan başqasına aid olan adları onlara verdilər. Halbuki bu adlar onların deyil, başqasının adlarıdır. Şübhəsiz Əli (ə) Peyğəmbərin (s) xəlifəsi və Möminlərin əmiridir. Peyğəmbər (s) bizə və bizimlə birlikdə o ikisinə Möminlərin əmiri ünvanı ilə Əliyə (ə) salam verməyimizi əmr etmişdi”.

# HƏDİS 53

**Cəməl və Siffin savaşları üçün Əlinin (ə) səbəbləri**

Süleym deyir ki, Cəməl və Siffin savaşı günlərində Əlinin (ə) belə dediyini eşitdim: "Mən baxdım, qarşımda ya Allaha və onun nazil etdiklərinə küfr və inkar, ya da Allahın, yaxşılığı əmr edib, pislikdən çəkindirmək yolunda cihaddan başqa yol olmadığını gördüm. Əgər yardımım varsa, Allaha küfr və inkarın qarşılığında, cəhənnəm odunun qandallarının əllərimizdən açılması üçün Allah yolunda cihadı, yaxşılığı əmr edib, pislikdən çəkindirməyi seçirəm.

Mən, Peyğəmbərin (s) vəfatından bəri hələ də məzlumam. Əgər bundan (bu gündən) öncə kitab və sünnəti diriltmək üçün yardım tapsaydım - necə ki, bu gün tapmışam - əsla oturmazdım, savaşardım.

# HƏDİS 54

## Əhli-Beyt (ə) insanlar üzərində şahidlərdir

### Dininizdə üç nəfərdən çəkinin

Süleym ibn Qeys Əli ibn Əbu Talibin (ə) belə dediyini eşitdiyini söyləyir: "Peyğəmbər (s) buyurdu: "Dininiz barədə üç nəfərdən çəkinin! Birincisi, sanki iman paltarı onu Allahın istədiyi hala çevirmiş kimi xoşbəxt olduğunu görənə qədər Quran oxuyan kəsdir. Müsəlman qardaşına qılınc qaldıra bilər və onu müşriklikdə ittiham edər".

Dedim: "Ya Peyğəmbər! Bunlardan hansı şirkdən daha yaxşıdır?" Buyurdu: "Müşriklikdə ittiham etməsi. İkincisi – sözlərinin əzdiyi kimsədir. Bir sözü bitdikdə ondan daha uzun və yalan söz söyləyər. Belə bir kəs Dəccalı görsə ona tabe olar.

Üçüncüsü elə bir kəsdir ki, Allahın ona güc və qüdrət vermişdir. O özünə itaətin Allaha itaət və özünə üsyanın Allaha üsyan olduğunu zənn edər. O yalan danışır. Allaha üsyanla məxluqa itaət edilməz, Allaha üsyan edən kəsə itaət edilməz.

### Məsumluq peyğəmbər və imamlara itaətin şərtidir

Yalnız Allaha, peyğəmbərinə və Allahın özünə yaxınlaşdırdığı əmrin sahiblərinə İtaət etmək olar. Uca Allah buyurur: ***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!"***[1] Peyğəmbər (s) məsum və pak olduğu üçün Allah ona itaət etməyi buyurur. O, əsla Allaha üsyanı əmr etməz. Allah əmr sahiblərinə də itaət etməyi buyurur. Çünki onlar günahsız və məsumdurlar. Əsla Allaha üsyanı əmr etməzlər".

### Əhli-Beytin (ə) yolu zəlalətdən nicat verir

Süleym deyir: "Əli ibn Əbu Talib (ə) Peyğəmbərin (s) söylədiklərini bitirdikdən üzünü mənə tutub dedi: "Bir zəlalət dəyirmanı mütləq olacaq. Üyütməyə başladıqda gözəl görünəcək. Gözəlliyi isə sərtliyindədir. Onun kütlənməsi isə Allahın üzərindədir.

---

[1] "Nisa" surəsi, ayə 59.

İtrətimin ən yaxşıları və əslimin ən təmizləri kiçik ikən insanların ən helmliləri, səbirliləri və böyük ikən də insanların ən alimləridirlər. Bilin ki, Allah çətinlik və məşəqqət zamanlarını bizim vasitəmizlə rahatlığa çevirər, bizim əlimizlə yalanı dəyişdirər.[1]

Bilin ki, biz Əhli-Beytin hökmü Allahın hökmündəndir və biz doğru söyləyənin sözünü eşitdik. Əgər bizim yolumuzu izləyib, yolumuz və izimizlə addım-addım getsəniz, bizim bəsirətlərimizə (dərin fikirlərimizə) hidayət olarsınız. Əgər bizə müxalif çıxsanız həlak olarsınız. Əgər bizi nümunə götürsəniz, Allahın kitabına əsaslananlar olaraq bizi önünüzdə görərsiniz. Əgər bizə qarşı çıxarsanız, bununla yalnız özünüzə zərər yetirərsiniz.

## Allah Əhli-Beytdən (ə) olan şahidlərdən zəmanələrinin insanlarını soruşacaq

Allah hər bir zamanda yaşayan insanlardan hesab soruşacaq və onların zamanlarında bizdən onların üzərində şahid olanları çağıracaq. Kim doğru söyləsə, onu təsdiqləyəcəyik, kim yalan danışsa onu inkar edəcəyik. Peyğəmbər (s) qorxudan, hidayət edən, cinlərə və insanlara qiyamət gününə qədər göndərilən elçidir. Ondan sonra nəbi və rəsul yoxdur. Qurandan sonra da kitab enməyəcək.

Hər bir zamanda yaşayanlar üçün bir doğru yol göstərən, höccət və imam vardır. Onlara doğru yolu və dəlilləri göstərər, onları Rəblərinin kitabına və Peyğəmbərlərinin sünnəsinə istiqamətləndirər. Hər dəfə dünyadan ayrıldıqda yerinə özü kimi birini vəsiyyət edər. Onlar Quranla və Quran onlarladır. Hovuzun başında Peyğəmbərə (s) qovuşana qədər onlar Qurandan və Quran da onlardan ayrılmaz.

Biz elə bir Əhli-Beytik ki, atamız İbrahim bizim üçün dua edib belə dedi: ***“Ya Rəbbim, elə et ki, insanların bir qisminin qəlbləri onlara meyl etsin”.***[2] Allahın bu ayəsində məqsəd yalnız bizlərik.

Biz Allahın bu ayədə buyurduğu şəxslərik: ***“Ey iman gətirənlər! rüku edin, səcdəyə qapanın; Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız!”***[3] Bu ayələrdən surənin sonuna qədər[4] nəzərdə tutulanlar da bizik.

---

[1] Həqiqəti ortaya çıxarar.

[2] İbrahim” surəsi, ayə 37.

[3] “Həcc” surəsi, ayə 77.

[4] Sonunadək olan ayələr bunlardır - 77-78: “***Ey iman gətirənlər! rüku edin, səcdəyə qapanın; Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız!***
***Allah yolunda layiqincə cihad edin. O sizi seçdi və dində sizin üçün heç bir çətinlik yeri qoymadı -atanız İbrahimin dini kimi. Allah bundan əvvəl də, bunda da sizə müsəlman adını verdi ki,***

Peyğəmbər (s) Allahın bizim üzərimizdə şahididir. Biz isə Allahın məxluqları üzərində şahidləri və yer üzündəki höccətləriyik.

Həmçinin biz Allahın bu ayədə nəzərdə tutduğu şəxslərik: ***"Beləliklə də, sizi (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanların əməllərinə (qiyamətdə) şahid olasınız, Peyğəmbər də sizə şahid olsun".***[1] Ayənin başından sonuna qədər[2] nəzərdə tutulan bizik. Hər bir zamanda bizdən olan bir imam zəmanəsinin məxluqları üzərində şahiddir".

***Peyğəmbər sizə, siz də insanlara şahid olasınız. Elə isə namaz qılın, zəkat verin və Allaha sığının. (Allah) sizin ixtiyar sahibinizdir. O nə yaxşı ixtiyar sahibi, necə də gözəl imdada yetəndir!"***

[1] "Bəqərə" surəsi, ayə 143.

[2] Həmin ayənin davamı belədir: ***"Beləliklə də, sizi (ədalətli və seçilmiş) bir ümmət etdik ki, insanların əməllərinə (qiyamətdə) şahid olasınız, Peyğəmbər də sizə şahid olsun. (Ya Rəsulum!) İndi yönəldiyin qibləni yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün təyin etdik. Bu, ağır görünsə də, ancaq Allahın doğru yola yönəltdiyi şəxslər üçün ağır deyildir. Allah sizin imanınızı əvəzsiz buraxmaz. Allah insanlara qarşı, əlbəttə, mehribandır, mərhəmətlidir".***

# HƏDİS 55

## Səd ibn Əbu Vaqqasın Əli (ə) barəsində etirafları

Süleym ibn Qeys deyir ki, Səd ibn Əbu Vaqqas ilə görüşdüm və ona dedim: “Mən Əlinin (ə) belə dediyini eşitdim: “Peyğəmbər (s) buyurur: “Üxeynisin[1] fitnəsindən çəkinin! Sadın fitnəsindən çəkinin! O haqqı və haqq əhlini köməksiz qoymağa çağırar”. Sad dedi: “İlahi, Əliyə kin bəsləməkdən və ya Əlinin mənə kin bəsləməsindən, Əli ilə döyüşməkdən və ya Əlinin mənim ilə döyüşməsindən, Əliyə düşmənçilik etməkdən və ya Əlinin mənimlə düşmənçilik etməsindən Sənə sığınıram”.

## Sədin dilindən İmam Əlinin (ə) fəzilətləri

Əlidə insanlardan heç kimin sahib olmadığı fəzilətlər vardı.

O, “Bəraət” sahibidir ki, Peyğəmbər (s) belə buyurmuşdu: “Mənim adımdan yalnız məndən olan bir şəxs təbliğ edə bilər”.[2]

Təbük qəzvəsi günü Peyğəmbər (s) ona dedi: “Sənin mənə nisbətin - peyğəmbərlikdən savayı – Harunun Musaya nisbəti kimidir. Çünki məndən sonra peyğəmbər yoxdur”.

Peyğəmbər (s) Əlinin qapısından savayı məscidə açılan bütün qapıların bağlanmasını əmr elədi. Ömər, göz miqdarında bir dəlik açmaq üçün Peyğəmbərdən (s) icazə istəməyə cəhd etsə də Peyğəmbər (s) izn vermədi. O zaman Həmzə, Abbas və Cəfər dedilər: “Bizim qapılarımızı bağlayıb Əlinin qapısını açıq saxlayırsan?” Peyğəmbər (s) buyurdu: “Qapılarınızı bağlayıb, yalnız onun qapısını açıq saxlayan mən deyiləm. Onları Allah bağlayıb və onun qapısını açıq saxlayır”.

Peyğəmbər (s) bütün səhabələri arasında iki-iki olmaqla qardaşlıq yaratdı. Əli (ə) dedi: “Bütün səhabələrin arasında qardaşlıq yaradıb, məni isə kənarda saxlayırsan?” Peyğəmbər (s) buyurdu: “Dünyada və axirətdə sən mənim və mən də sənin qardaşınam”.

---

[1] Başqa nüsxədə “Üceynis”. “Təxirə salan” və “uzaq dayanan” mənasındadır.
[2] “Tövbə” surəsinin Məkkə müşriklərinə oxunması hadisəsinə işarə edir.

## Sədin dilindən Xeybər savaşı

Xeybər savaşında Əbu Bəkr və Ömər düşmənə məğlub olduqdan sonra Peyğəmbər (s) qəzəblənib dedi: "Bu camaata nə olub ki, müşriklərlə üzüzə gəldikdə qaçırlar?! Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allahı və rəsulunu sevir, Allah və rəsulu da onu sevir. Qorxaq deyil və əsla geri qaçmaz. Allah onun əlilə Xeybəri fəth edənə qədər o, geriyə qayıtmayacaq".

Səhər açıldıqda Peyğəmbərin (s) hüzurunda toplandıq və mən özümü ona göstərməyə çalışdım.[1] Peyğəmbər (s) buyurdu: "Qardaşım haradadır? Əlini çağırın!" Onu Peyğəmbərin (s) yanına gətirdilər. Gözləri ağrıyırdı və ağrısından[2] ona yol göstərirdilər. Üzərində bir örtük vardı və ailəsi üçün un üyütdüyünə görə üzəri tozla örtülmüşdü. Peyğəmbər (s) ona başını qucağına qoymasını əmr etdi və ağzının suyunu Əlinin gözlərinə sürtdü. Sonra onu orduya rəhbər təyin edib və dua elədi. Allah fəthi nəsib edənədək Əli geri dönmədi və Hüyeyyə ibn Əxtabın qızı Səfiyyəni Peyğəmbərə (s) gətirdi. Peyğəmbər (s) onu azad etdi. Sonra onunla evləndi və azadlığını onun mehriyyəsi qərar verdi.

## Sədin dilindən Qədir Xum hadisəsi

Ey Bəni-Hilalın qardaşı! Bundan daha əzəmətlisi Qədir Xumdur. Peyğəmbər (s) Əlinin əlindən tutub iki qolunu da yuxarı qaldırdı. Mən də ona baxırdım. Sonra buyurdu: "Məgər mən sizə öz canınızdan övla deyiləmmi?" Dedilər: "Bəli, (övlasan)!" Bunun ardınca Peyğəmbər (s) buyurdu: "Mən kimə canından övlayamsa, bu Əli də onun mövlasıdır. İlahi, onu sevəni sev və ona düşmən olana düşmən ol. Burada olanlar bunu burada olmayanlara çatdırsınlar".

Süleym deyir: "Sonra Sad mənə yaxınlaşıb dedi: "Mən şübhə etdim, amma özümü buna görə öldürəcək deyiləm. Əli fəzilətdə məndən öndə olsa da, mən səhv və günah etdiyimi güman etmirəm. Hərçənd o, haqq üzərindədir".

---

[1] Bayrağı mənə verməsini arzulayırdım.

[2] Yolu yaxşı görə bilmədiyi üçün.

# HƏDİS 56

### Savaşlarda mühacir və ənsardan İmam Əliyə (ə) qarşı heç kim yox idi

Dedi: Süleym dedi ki, nə Təlhə və Zübeyrlə, nə Müaviyə ilə və nə də Nəhrivanda xəvariclə birgə savaşda mühacir və ənsardan bir nəfər də olsun yox idi.

### Səd xəvariclərin başçıları haqda xəbər verir

Sədin Muxdəci belə yad etdiyini eşitdim: "İmam Əli (ə) buyurdu: "Rəzil Şeytan dərəsi məhv olsun! Peyğəmbərin (s) belə dediyini eşitdim: "Anası Bəni-Səlim qəbiləsindən olan kölədir, atası isə Şeytan!""

# HƏDİS 57

## İmam Əliyə (ə) qarşı çıxan üç nəfərin peşmançılığı

Süleym ibn Qeys deyir ki, bir gün Muhəmməd ibn Məsləmə, Səd ibn Malik[1] və Abdullah ibn Ömərlə[2] oturmuşduq. Onların belə dediklərini eşitdim: "Əliyə yardım etməkdən və azğın qövmlə savaşmaqdan boyun qaçırdığımıza görə həlak olacağımızdan qorxuruq".

Dedim: "Allaha and olsun ki, həqiqətən də Əlinin (ə) belə dediyini eşitmişəm: "Peyğəmbər (s) mənə Nakisinlər, Qasitinlər və Mariqinlərlə savaşmağı əmr edib".

Onlar ağladılar, sonra dedilər: "Əli (ə) düz deyir, onun Allahın və rəsulunun adından söylədiklərinin hamısı həqiqətdir. Ona xilaf çıxdığımıza və aciz buraxdığımıza görə Allahdan bağışlanma diləyəcəyik".

---

[1] Əbu Vaqqasın oğludur.

[2] Bu üç nəfər Əliyə (ə) olan beyətlərinə xilaf çıxdılar və savaşa getməkdən boyun qaçırdılar. İbn Əbu Hədid deyir ki, Məhəmməd ibn Məsləmə Əbu Bəkrə beyət günü orada idi və Zübeyrin qılıncını yerə vurub sındıran da məhz odur.

# HƏDİS 58

## Abanın Həsən Bəsriyə qarşı dəlilləri

### Əmirəl-mömininin (ə) ayaq basdığı torpaqdan təbərrük

Süleym ibn Qeys dedi: "Salman belə dediyini eşitdim: "Peyğəmbər (s) Əliyə (s) dedi: "Əgər ümmətimdən bir dəstə insan xristianların İsa ibn Məryəm haqqında söylədiklərini deməsəydilər sənin barəndə elə bir söz söyləyərdim ki, ümmətim torpaqdakı ayaq izlərini izləyər və onu öpərdilər".

### Həsən Bəsrinin dilindən Əmirəl-mömininin (ə) fəzilətləri

Aban dedi: "Əbu Xəlifənin[1] evində Salmandan Süleymin mənə nəql etdiyi bu hədisi Həsən Bəsriyə danışdım. Həsən dedi: "Allaha and olsun, Əli haqqında iki hədis eşitmişəm və onları heç kimə danışmamışam". Sonra mələklərin Əliyə salam verdikləri hədisini və Ühüd döyüşündə baş vermiş hadisəni söylədi.[2]

---

[1] Əbu Xəlifə Həccac ibn Əbu İtab əd-Deyləmi əl-Əbdi əl-Bəsri. O, Həccac Səqəfinin zülmündən bir çoxlarının evinə pənah gətirdiyi şəxsdir.

[2] "Bihar"da (c.39, s.9) İbn Abbasa istinadla rəvayət olunur ki, Peyğəmbər (s) Bədr döyüşündə gecə vaxtı bir nəfərin könüllü olaraq su gətirmək üçün çıxmasını istədi. Əli (ə) könüllü oldu və çölə çıxdı. O gecə küləkli, soyuq və qaranlıq idi. Əli (ə) su tuluğunu götürdü və yola düşdü. Quyuya çatdıqda qab tapa bilmədi. Çarəsiz qalıb quyuya endi. Tuluğu doldurub çıxdı və yola düşdü. Qarşısından şiddətli bir külək əsdi. Yerə oturdu və külək ötüşənə qədər gözlədi. Sonra qalxdı, bu zaman ikinci bir külək əsdi. Oturdu və o keçənə qədər yenə gözlədi. Sonra qalxdı və üçüncü bir külək daha əsdi. Oturdu və o keçənə qədər də gözlədi.

Geri qayıtdıqdan sonra Peyğəmbər (s) soruşdu: "Ya Əbul-Həsən! Niyə gecikdin?" Əli (ə) dedi: "Şiddətli bir küləklə qarşılaşdım. Arxasından başqa bir küləklə və onun arxasından da digər bir küləklə, titrədirdim". Peyğəmbər (s) dedi: "Ya Əli! Onun nə olduğunu bilirsən?" Əli (ə) dedi: "Xeyr". Peyğəmbər (s) buyurdu: "O, Cəbrayıl idi və yanında min mələk də vardı. Cəbrayıl və o mələklər sənə salam verdilər. Sonra Mikayıl min mələklə birlikdə keçdi. Mikayıl və o mələklər də sənə salam verdilər. Sonra İsrafil min mələklə birlikdə keçdi. İsrafil və o mələklər də sənə salam verdilər".

Yenə də "Bihar"da (c.20, s.85) rəvayət olunur: "Ühüd döyüşündə Peyğəmbər (s) dağ tərəfdən gələn bir dəstə düşmənə işarə etdi. Əli (ə) onlara hücum edib pərəm-pərəm saldı. Sonra başqa bir dəstəyə işarə elədi. Əli (ə) yenə onlara hücum edib geriyə oturtdu. Sonra yaxınlaşan digər bir dəstə düşməni göstərdi. Əli (ə) onların da üzərinə hücum edib qaçmağa məcbur elədi. Cəbrayıl enib dedi: "Ya Peyğəmbər! Mən və mələklər Əlinin sənə qarşı bu fədakarlığından və sənə etdiyi yardımdan heyrətə gəlmişik". Peyğəmbər (s) buyurdu: "Niyə də olmasın?! Mən ondanam və o

Həsən Bəsri bunları söylədikdən sonra mən hər iki hədisi Süleymin kitabında tapdım. Onları Əlidən (ə) eşitmiş və nəql etmişdi.

## Həsən Bəsrinin nifaqını gizlətmək üçün söylədiyi yalanlar

Aban deyir: "Bu iki hədisi bizə nəql etdiyi vaxt onunla yalnız idik, camaat artıq getdi. Yalnız mən və Əbu Xəlifə qalmışdıq. Mən gecəni onun yanında keçirdim.

Həsən həmin gecə dedi: "Əgər camaatın Peyğəmbərdən (s) nəql etdikləri rəvayət olmasaydı, Əlidən (ə) və şiələrindən başqa bütün ümmətin Peyğəmbərin (s) vəfatından bəri həlak olduğunu zənn edəcəkdim".

Dedim: "Ya Əbu Səid! Yaşlı səhabə və Səhhakın oğlu da?" Dedi: "Bəli".

Dedim: "Ey Əbu Səid, o hansı rəvayətdir?" Dedi: "Hüzeyfənin söylədiyidir: "Bir qövm nicat tapar və onların ardından gələnlər həlak olarlar". Deyildi: "Ey Hüzeyfə, bu necə ola bilər?" Dedi: "Öndə olan bir dəstə dinə yeni şeylər gətirər və öndə olmayanlar da onların bu yeniliklərinə tabe olarlar. Onlar öndərləri vasitəsilə xilas olarlar və onlara tabe olanlar isə dinə gətirdikləri yenilikləri səbəbilə məhvə düçar olarlar".[1] Və yenə Hatib ibn Əbu Bəltənin qətli üçün Səhhakın oğlu Peyğəmbərdən (s) icazə istədikdə buyurduğu söz: "Sən nə bilirsən, ey Ömər? Bəlkə də Allah Bədr əhlindən olan bu dəstə insana nəzər salıb və mələklərini şahid tutaraq buyurub: "Həqiqətən Mən onları bağışladım. Nə istəyərlərsə etsinlər". Həmçinin Cabir ibn Abdullah Ənsarinin nəql etdiyi bu hədis: "Peyğəmbər (s) (yaxşı və pis şeylərə) səbəb olan iki şeyi qeyd etdi. Dedilər: "Ya Peyğəmbər! Bunlarla nəyi nəzərdə tutursan?" Peyğəmbər (s) buyurdu: "Hər kim Allahın hüzuruna Ona heç bir şeyi şərik qoşmadan çıxarsa, Cənnətə girər və kim də Allahla Ona şərik qoşduğu halda görüşərsə, oda daxil olar". Mənim Əbu Bəkr, Ömər, Osman, Təlhə və Zübeyrin nicat tapması və salamata qovuşması üçün bu rəvayətlərdən başqa bir ümidim yoxdur".

---

da məndəndir". Cəbrayıl dedi: "Mən də sizdənəm".

Həmçinin "Bihar"da (c.20, s.72) İbn Məsuddan nəql olunan rəvayətdə deyilir: "Ühüd günün ordu (Peyğəmbərin (s) ətrafından) dağıldı, yalnız Əlidən başqa. (Öz-özümə) dedim: "Əlinin (ə) mətanəti insanda heyrət doğurur!" Peyğəmbər (s) buyurdu: "Sənin heyrətləndiyin kimi mələklər də heyrətlənirlər. Məgər bilmirsən ki, Cəbrayıl həmin gün səmada dayanıb belə nida edirdi: "Zülfiqardan yaxşı qılınc, Əlidən yaxşı gənc yoxdur!"

"Bihar"da (c.20, s.69) Əmirə-möminin (ə) Şura günü dedi: "Allahı sizə şahid tuturam! Aranızda elə bir şəxs varmı ki, Ühüd günündə məndən savayı hamının qaçdığı vaxt mələklər onunla birgə dayansın?!" Dedilər: "Xeyr!".

[1] Həsən Bəsrinin istinad etdiyi bu hədisin uydurma olduğuna şübhə yoxdur. O, bununla öz nifaqını gizlətmək istəyir.

Dedim: “Əgər bu iş (xəlifəlik) Allah və Peyğəmbəri (s) tərəfindən yalnız Əliyə məxsus idisə, o zaman o ikisinin dinə gətirdiyi yeniliklərin Osman, Təlhə və Zübeyrin dinə gətirdikləri bidətlər kimi olduğunu qəbul edirsənmi?”

Dedi: “Ey səfeh, Əgər ona məxsus idisə demə! Allaha and olsun ki, (xəlifəlik) onların deyil, elə Əlinin idi. O dörd xüsusiyyət sahib olduğu halda, onlara məxsus olması necə düşünülə bilər?! Bir çox səhabə mənə bunları Peyğəmbərdən (s) nəql edib”.

Dedim: “Bu dörd xüsusiyyət hansılardır?”

Dedi: “Peyğəmbərin (s) Qədir Xumda Əlini öz yerinə xəlifə təyin etməsi və söylədiyi sözlər. Yenə də, Peyğəmbərin (s) Təbuk savaşında söylədiyi bu söz: “(Ya Əli), sənin mənə nisbətin – peyğəmbərlik istisna olmaqla - Harunun Musaya nisbətidir”. Əgər peyğəmbərlikdən başqa bir şey olsaydı, Peyğəmbər (s) mütləq onu da istisna edərdi. Biz də bilirik ki, peyğəmbərliklə xəlifəlik ayrı-ayrı şeylərdir.

Eləcə də, Peyğəmbərin (s) söylədikdən sonra evinə girib vəfat edənə qədər bir daha çölə çıxmadığı bu xütbəsi: “Ey insanlar! Aranızda iki əmanət qoyuram. Onlardan yapışdığınız müddətdə əsla yoldan azmayacaqsınız. Bunlar Allahın kitabı və Əhli-Beytimdir. Lətif və hər şeydən xəbərdar olan (Allah) mənə bu ikisinin hovuzun başında mənimlə görüşənə qədər bir-birlərindən ayrılmayacaqlarını vəd verib. Onlar bu ikisi kimidir (işarə barmaqlarını birləşdirdi), bu ikisi kimi deyillər (orta və işarə barmağını birləşdirdi). Çünki bu ikisindən biri digərindən öndədir. Bu ikisinə yapışın ki, yoldan azmayasınız və dönməyəsiniz. Onlardan önə keçməyin, həlak olarsınız və onlara bir şey öyrətməyə çalışmayın, çünki onlar sizdən daha elmlidirlər”.

Həmçinin Peyğəmbər (s) Əbu Bəkr və Ömərə Əliyə (ə) “Möminlərin əmiri” deyib salam vermələrini əmr etmişdir.

Ey Əbdul-Qeysin qardaşı,[1] ömrümə and olsun ki, əgər dinə gətirdikləri yenilikləri bizlərə aşkar olacaq həddə çatmış olan Osman, Təlhə və Zübeyr üçün Allahdan bağışlanma diləmək bizə caizdirsə[2], bu zaman o ikisi[3] üçün də bağışlanma diləməyimiz caizdir.

Təlhə və Zübeyrə gəlincə, o ikisi öz istəklərilə və məcbur edilmədən Əliyə (ə) beyət etdilər və mən buna şahid idim. Sonra beyətlərini pozub dünya sevgisi və səltənət ehtirasına görə Allahın tökülməsini haram etdiyi qanı axıtdılar. Allahın nəzərində şirkdən sonra heç bir günah Allahın haram etdiyi qanın axıdılmasından daha böyük deyil.

---

[1] Xitab Aban ibn Əbu Əyyaşadır.

[2] Caiz – icazəli.

[3] Əbu Bəkr və Ömər üçün.

Osmana gəlincə, axmaqları özünə yaxınlaşdırdı, Allaha təqvalıları uzaqlaşdırdı, Peyğəmbərin (s) qovduğu kəslərə pənah verdi, Əbu Zərr və bir dəstə xeyirxah insanları sürgün elədi, Beytul-malı zənginlərin arasında bölüşdürdü və Allahın nazil etdiyindən başqa hər şeylə hökm verdi. Onun dinə gətirdiyi yeniliklər sayıla bilməyəcək qədər çox və böyükdür. Onların ən böyüyü Allahın kitablarını yandırmasıdır. Ən dözülməzi və iyrənci isə Minada Peyğəmbərin (s) sünnəsinin əksinə olaraq qıldığı dörd rükətli namazdır".

Dedim: "Allah sənə xeyir bəxş eləsin! Bəs bun Osmana rəhmət oxumağın və onu üstün bilməyin nədir?"

Dedi: "Mən bunu onun tağut, zorba və zalım dostları – Həccac və ondan əvvəl İbn Ziyad ilə atasının eşitməsi üçün edirəm. Məgər bilmirsən ki, onlar Osmana nifrət etməkdə, Əliyə (ə) və Əhli-Beytinə məhəbbət bəsləməkdə ittiham etdikləri hər kəsi sürgün edir, kəsir və öldürürlər?!" Peyğəmbər (s) buyurub: "Mömin özünü alçaltmaz". Dedim: "Özünü alçaltmaq necə olur?" Dedi: "(İnsanın) özünü gücünün çatmadığı və dözə bilməyəcəyi bir bəlaya mübtəla edər. Osman öldürüldüyü gün Əlinin (ə) Peyğəmbərdən (s) belə nəql etdiyini eşitdim: "Təqiyyə Allahın dinindəndir. Təqiyyəsi olmayanın dini də yoxdur. Allaha and olsun, təqiyyə olmasaydı İblis dövlətində Allaha ibadət etmək mümkün olmazdı". Bir nəfər soruşdu: "İblis dövləti nədir?" Əli (s) buyurdu: "Nə vaxt zəlalət imamı insanlara rəhbər olsa, o İblisin Adəm övladı üzərində qurduğu dövlətdir. Nə vaxt hidayət imamı camaata rəhbər olsa, bu da Adəm övladının İblis üzərinə qurduğu dövlətdir".

Sonra yavaş səslə Əmmara və Məhəmməd ibn Əbu Bəkrə bunları söylədi və mən də eşitdim: "Peyğəmbəriniz (s) vəfat etdiyi gündən bəri məni tərk etdiyiniz və məndən başqasına tabe olduğunuz üçün iblisin dövlətində idiniz".

## Osmanın qətlindən sonra camaat İmam Əliyə (ə) necə beyət elədi

Sonra Əli (ə) üç gün camaatdan uzaqlaşdı. Camaat onu istəyirdilər. Bəni-Nəccara məxsus ağacdan evdə yanına getdilər və dedilər: "Biz üç gün bu iş (xəlifəlik) barəsində məşvərət etdik və camaat arasında səndən daha çox xəlifəliyə haqqı çatan bir nəfər də tapa bilmədik. Muhəmməd (s) ümməti barəsində səni Allaha and veririk ki, bu ümmət zay olmasın və iş səndən başqasının əlinə keçməsin". Ona beyət etdilər. İlk beyət edən Təlhə və Zübeyr oldu. Sonra o ikisi Bəsrəyə gəldilər və beyətə məcbur edildiklərini iddia elədilər. Halbuki yalan söylədilər.

Sonra Mehrədən[1] bir nəfər Əlinin (ə) yanına gəldi. Bu vaxt Əbu Məhəmməd ibn Əbu Bəkr Əlinin (ə) yanında idi və mən də söhbətlərini eşidirdim. Əli (ə) həmin şəxsə dedi: "Ey Mehrənin qardaşı! Beyət etmək üçün gəlmisən?" O: "Bəli" dedi. Əli (s) dedi: "Peyğəmbər (s) vəfat etdikdə xəlifəliyin mənim olduğu, Əbu Quhafənin oğlunun və ondan sonra da Ömərin zülm və düşmənçiliklə bizə qarşı çıxdığını qəbul edərək mənə beyət edəcəksən". Həmin şəxs dedi: "Bəli". Heç bir məcburiyyət olmadan müti şəkildə Əliyə (ə) beyət elədi.

Mən Həsən Bəsriyə dedim: "Camaatın hamısı buna əsasən beyət etdilər?" Dedi: "Xeyr! Yalnız Əlinin inandığı və etibar etdiyi şəxslər bu cür beyət edirdilər.

Ey Əbul-Qeysin qardaşı! Osmanın işlədiyi böyük günahlar və pisliklərinə baxmayaraq onun üçün bağışlanma diləməyimiz bizə caizdirsə, bu zaman o ikisi üçün bağışlanma diləməyə icazə verər. Çünki onlar qan tökmədilər, hakimiyyətdə olduqları vaxtda mərhəmətlə rəftar elədilər, əllərini dinc saxladılar və yaxşı davrandılar. Osmanın etdiyi zülm və yanlışlıqları eləmədilər. Təlhə və Zübeyr kimi dünya və səltənət tamahından beyətlərini pozmadılar və haqsız yerə qan tökmədilər. Halbuki Təlhə və Zübeyrin əməllərinin və cinayətlərinin Peyğəmbər (s) tərəfindən qadağan edildiyini hamı eşitmişdi. Onlar Allahın və Peyğəmbərin əmrlərini açıq aşkar dəlillərdən və bəyandan sonra yüngül sayıb tərk etdilər.

Ey Əbul-Qeysin qardaşı, əgər yaşlı səhabənin və Səhhakın oğlunun Peyğəmbərin (s) Əli barəsində söylədiklərini eşitdiklərini desən, həmin sözləri Osman, Təlhə və Zübeyr də eşitmişdilər. Buna baxmayaraq haqsız yerə qan tökmüş və Əliyə (s) qarşı savaşmışdılar. Əbu Bəkr və Ömər isə bundan çəkindilər.

## Ümmət içində zəlalətin təməlini qoyanlar

Əgər desən ki, o ikisi haqları olmadığı və Allahın başqasına verdiyini bildikləri şey (xəlifəlik) üçün mübarizə aparıblar, bu ümmətin başına gətirilən fitnə və bəlaların yolunu açıb, təməlini qoyublar, Əliyə (ə) "Möminlərin əmiri" deyərək salam veriblər; hətta Peyğəmbər (s) onlara Əliyə (ə) salam vermələrini əmr etdikdə: "Bu Allahın və Peyğəmbərinin əmridir?" deyə soruşublar və Peyğəmbər (s) də: "Bəli! Allahın və Peyğəmbərinin əmridir! deyə cavab verib; o zaman bütün bu söylədiklərin yerində söylənmiş sözlər olar.

Əbu Zərr o ikisinin "Möminlərin əmiri" ünvanı ilə Əliyə (ə) salam vermə hadisəsini Salman və Miqdadla birlikdə mənə danışdığı zaman dedi: "Biz Peyğəmbərin (s) belə buyurduğunu eşitdik: "Aralarında daha elmli (ə`ləm) ol-

[1] Mehrə Ərəb yarımadasında Həzrəmövtlə və Əmman arasında quraqlıq olan bir şəhərdir.

duğu halda işlərini (rəhbərliyi) başqa şəxsə həvalə edən hər ümmətin işi tərk etdiklərinə qayıdana qədər işləri pisə doğru gedər".

## Bütün səhabələrin Peyğəmbərdən (s) sonra İmam Əlinin (ə) xilafəti barədə etirafı

Ey Əbdul-Qeysin qardaşı! Əbu Bəkrin, Ömərin, Osmanın, Təlhənin, Zübeyrin və bütün səhabələrin Əli ibn Əbu Talibin hamıdan əvvəl İslamı qəbul etdiyi, hamıdan elmli olduğu, Allah yolunda cihadda, qohumlarla mübarizədə və Peyğəmbəri (s) qorumaqda hamıdan daha çox müsibətlərlə üzləşib canını fəda etməsi barədə şübhələri, ixtilafları və ziddiyyətləri yox idi. Peyğəmbər (s) Əlinin (ə) sahib olduğu etibar və fəzilətiləri bildiyi üçün daim qarşısına çıxan çətinlik və bəlalarda, yaxınları ilə mübarizədə, qala fəthlərində Əlini (ə) öndə göndərirdi. Əli onların arasında Allahın kitabını və Peyğəmbərin (s) sünnəsini ən yaxşı bilən, Peyğəmbərin ən çox sevdiyi şəxs və vəsisi idi.

O, hər gün səhər və axşam Peyğəmbərin (s) yanma gedir və onunla təklikdə görüşürdü. Əli (ə) sual verdikdə cavab verir, susduqda isə özü danışmağa başlayırdı. Əli (ə) Peyğəmbərdən (s) sonra elm və fiqhdə heç kimə möhtac olmadı. Halbuki onların hamısı Əliyə möhtac idilər. Amma o, əsla bir kəsə ehtiyac duymadı.

Onlardan heç birinin sahib olmadığı üstünlüklərə, fəzilətlərə sahibdi. Quranda onun barəsində ayələr nazil olmuşdu. Əli ən əliaçıq, ən səxavətli və döyüşdə ən şücaətliləri idi. Nə dünya barədə zöhdündə və nə də çalışqanlığında onda olan gözəl xüsusiyyətlər heç kəsdə yox idi.

Ona məxsus olan insanlar üzərindəki üstün xüsusiyyətlərindən: Yaxşılıqda heç kim ondan önə keçə bilmədi, Peyğəmbər (s) heç kəsi ona rəhbər təyin eləmədi, namazda heç kimi onun önünə keçirmədi. Bunlar yalnız Peyğəmbərlə (s) ona məxsus fəzilətlərdəndir.

## Peyğəmbər (s) vəfat edərkən Əbu Bəkrin namaz qıldırması hadisəsi barədə

Aban deyir: "Mən dedim: "Ey Əbu Səid! Bəs Peyğəmbər (s) Əbu Bəkrə camaata namaz qıldırmağı əmr etmədimi?"

Dedi: "Bu səni hara apardı! Əbu Bəkrə namazı əmr edərkən Əli camaatın arasında deyildi. Peyğəmbər xəstə ikən Əli (ə) onun yanında idi. Əliyə (ə) öz namazını vəsiyyət edirdi. Həmçinin Əbu Bəkr namazı tamamlamadı. Peyğəmbər (s) çölə çıxdı və Əbu Bəkri geriyə çəkib namazı özü qıldırdı.

Allaha and olsun, Əlinin (ə) belə dediyini eşitdim: "Peyğəmbər (s) xəstələndiyi zaman mənim üçün elmin min qapısını açdı ki, hər qapıdan min qapı açılır".

Sonrakı dövrlərdə zülmə səbr etdi. Yardım tapdığı zaman Quranın nazil olması ilə bağlı döyüşdüyü kimi Quranın batini və təfsiri üçün savaşdı. Yaxşılığı əmr edib, pislikdən çəkindirdi və şəhid olana qədər Allah yolunda savaşdı. Təmiz, pak, məsum, şəhid və razı olaraq Allaha qovuşdu. Allahın və Peyğəmbərinin (s) savaşmağı əmr etdiyi Nakisin, Qasitin və Mariqinlərlə savaşdı".

## Həsə Bəsrinin nifaqla təqiyyəni qarışdırması

Aban deyir: "Həsən Bəsri bunları ömrünün cavanlığında, Həccacın valiliyi zamanında demişdi. Əbu Xəlifənin evində qaçaq olaraq gizlənirdi və həmin gün Əli şiələrindən idi. Böyüyüb məşhur olduqda isə Əli (ə) haqqında danışdığı pis sözləri eşitdim. Onunla bir gün təkbətək görüşüb ondan əvvəllər eşitdiyim sözlərini xatırlatdım. Mənə cavabında belə dedi: "Bunları mənim üçün gizlət! Mən (indiki) bu sözləri canımı qorumaq üçün deyirəm. Əgər belə etməsəm taxta başıma dəyər".

# HƏDİS 59

**Cəməl, Siffin və Nəhrivanda İmam Əlinin (ə) duaları**

Süleym ibn Qeys rəvayət edir ki, Cəməl, Siffin və Nəhrivan gülərində düşmənlə üz-üzə dayandıqda üzünü qibləyə çevirib Peyğəmbərin (s) bəlağətinə bənzər bəlağətilə belə dedi:

"İlahi, əllər Sənə tərəf uzanmış, gözlər yuxarı qalxmış, qəlblər Səninlə daşmış və ayaqlar hərəkətə gəlmişdir. ***"Ey Rəbbimiz! Bizimlə qövmümüz arasında ədalətlə hökm et. Axı Sən hökm verənlərin ən yaxşısısan!"***[1] O, əllərini yuxarı qaldırmış, əshabı isə "Amin!" deyirdi.

[1] "Əraf" surəsi, ayə 89.

# HƏDİS 60

## Quranda və Peyğəmbərin nəzərində İmam Əlinin (ə) ən üstün fəzilətləri

Süleym ibn Qeys deyir ki, bir nəfər Əlinin (ə) yanına gəldi. Mən də orada idim və söhbətlərini eşidirdim. Kişi dedi: Mənə ən üstün fəzilətindən xəbər ver". Əli (ə) dedi: "Bunlar Allahın mənim haqqımda kitabda endirdikləridir".

Kişi dedi: "Allah sənin haqqında nə nazil edib?" İmam (ə) buyurdu: "Allahın bu ayəsi: ***"Məgər Rəbbindən açıq-aydın bir dəlilə istinad edən, ardınca Allahdan bir şahid gələn".***[1] Mən peyğəmbərin ardınca gələn həmin şahidəm. Həmçinin Allahın bu sözü ***"Mənimlə sizin aranızda Allahın və yanında kitabın elmi olan şəxs şahid olaraq yetər!"*** [2] Yəni mən".

Allahın onun haqqında (Quranda) nazil etdiyi heç bir şeyi nəzərdən qaçırmadan hamısını bir-bir sadaladı.

## Peyğəmbərin (s) dilindən onun ən üstün fəzilətləri

Kişi dedi: "Peyğəmbərin (s) sənin barəndə söylədiyi ən üstün fəzilətlərini məni xəbər ver".

Əli (ə) buyurdu: "Qədir Xumda məni yerinə xəlifəliyimi elan etdi və mənim üçün Allahın əmrilə Allah tərəfindən təyin olunduğum vilayəti insanlara çatdırdı. Həmçinin haqqımda belə söylədi: "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbətidir".

Peyğəmbərlə (s) birgə səfər edirdik (bu, Peyğəmbərin (s) qadınlarına hicabı əmr etməsindən əvvəl idi). Mən Peyğəmbərə (s) xidmət edirdim, onun məndən başqa xidmətçisi yox idi. Həmçinin Peyğəmbərin (s) yalnız bir yorğanı vardı. Aişə də onunla idi.

Peyğəmbər (s) mənimlə Aişənin arasında bir yorğanın altında yatırdı. Peyğəmbər (s) gecə namazına qalxarkən əli ilə yorğanı ortadan döşəyə toxunanadək yerə birləşdirər, bundan sonra namaza başlardı.

Bir gün məni qızdırma tutdu, səhərədək yata bilmədim. Peyğəmbər də (s) mənimlə birgə səhərədək oyaq qaldı. Gecəni mənə baş çəkməklə və mümkün

---

[1] "Hud" surəsi, ayə 17.

[2] "Rəd" surəsi, ayə 43.

olduğu qədər namaz qılmaqla keçirirdi. Sonra yenə mənə baş çəkir halımı soruşurdu. Bu gediş-gəlişi səhərədək davam etdi. Səhər olduqda səhabələrlə sübh namazını qıldı, sonra belə dua etdi: "İlahi, Əliyə şəfa və sağlamlıq ver, onun ağrılarına görə mən də gecəni oyaq qalmışam". Bu duadan həmən sonra mən sağaldım, sanki heç bir narahatlığım və xəstəliyim olmamışdı[1].

Əli (ə) sözünə davam etdi: "Sonra Peyğəmbər (s) buyurdu: "Müjdələr, ey qardaşım!" Bunu dedikdə səhabələri də yanında idi və ona qulaq asırdılar. Mən dedim: "Allah sənin xeyirlərlə müjdələsin, məni sənə fəda etsin, Ya Peyğəmbər!"

Buyurdu: "Allahdan özüm üçün elə bir şey istəməmişəm ki, sənin üçün də eynisini istəməyim. Mən Rəbbimdən səninlə mənim aramda qardaşlıq yaratmasını istədim, bunu etdi, Ondan səni məndən sonra bütün möminlərə vəli qərar verməsini istədim, bunu da etdi.

İki səhabədən biri yoldaşına dedi: "Bunları istəməkdə məqsədi nədir? Allaha and olsun ki, bir sa` xurma istəsəydiniz, bu onun üçün daha yaxşı idi! Allaha and olsun ki, əgər Rəbbindən ona düşmənlərinə qarşı yardım üçün bir mələk göndərməsini, yaxud özünün və səhabələrinin faydalanacağı bir xəzinə göndərməsini diləsəydi (belə ki, ona ehtiyacı var) bunlardan daha xeyirli olardı! Əlini haqq və ya batil[2] nəyə dəvət etsə, o da razı olur".

Bu hədisi Muhəmməd ibn Müslim İmam Baqirdən (ə) də nəql edib.[3]

---

[1] Bu hadisə kitabın 36-cı hədisində də qeyd edilib.

[2] Buradakı "batil" sözü o iki nəfərin sözüdür və onların zənnidir. Belə ki, Peyğəmbər (s) heç vaxt batilə dəvət etməz və Əli (ə) batilə razı olmaz.

[3] Bəlkə də bu, Aban ibn Əbu Əyyaşın sözüdür. O, İmam Baqirin (ə) əshabələrindən idi.

# HƏDİS 61

## Peyğəmbərin (s) Bəni-Haşimə vəsiyyəti

Süleym nəql edir ki, bir gün Abdullah ibn Abbasın yanında Cabir ibn Abdullah Ənsari dayanmışdı. Abdullaha dedim: “Peyğəmbər (s) vəfat edərkən sən orada idin?” Dedi: “Bəli, Peyğəmbər xəstəliyi ağırlaşdığında bütün Əbdül-muttəlib övladlarını, qadınlarını və həddi-buluğa çatan uşaqlarını yanına topladı. Zübeyrdən başqa qeyri Əbdül-müttəlib övladlarından heç kəsə içəri girməyə izn vermədi. Zübeyr də Səfiyyəyə[1] xatir içəri girmişdi. Həmçinin Ömər ibn Əbu Sələmə və Üsamə ibn Zeyd də orada idilər. Sonra buyurdu: “Bu üç nəfər bizim ailəmizdəndir. Üsamə bizim azad edilmiş qulumuz və o da bizdəndir”.

Peyğəmbər (s) onun üçün bir ordu hazırlamış və rəhbərliyi ona vermişdi. Əbu Bəkr və Ömər də həmin orduda idilər. Onların hər ikisi də belə dedilər: “Gətirib işi hara çıxarıb! Bir kölənin oğlunu bizə ordu başçısı qoyub!” Üsamə Peyğəmbərlə (s) vidalaşmaq və ona salam vermək üçün icazə istədi. Onun bu istəyi Bəni-Haşimin toplantısına təsadüf etdi və onlarla birlikdə içəri girdi. Əbu Bəkr və Ömər də Üsamədən Peyğəmbərə (s) salam vermək üçün icazə istədilər və o da icazə verdi.

Bəni-Haşimdən sayılan və Peyğəmbərin (s) çox sevdiyi Üsamə bizimlə içəri girdikdə Peyğəmbər (s) xanımlarına dedi: “Qalxın və otaqdan çıxın! Məni qohumlarımla tək qoyun!” Aişə və Həfsədən savayı hamısı qalxdılar. Peyğəmbər (s) o ikisinə baxdı və buyurdu: “Məni qohumlarımla tək buraxın!” Aişə Həfsənin əlindən tutdu və qalxdı. O qəzəblənmiş və dodağının altında deyilir: “Səni onlarla tək qoyduq”. Sonra taxtadan olan bir evə daxil oldular.

## On iki hidayət və on iki zəlalət imamları barədə xəbər

Peyğəmbər (s) Əliyə (ə) buyurdu: “Ey qardaşım, məni oturt!” Əli (ə) onu oturtdu. Allaha həmd və səna etdikdən sonra belə dedi: “Ey Əbdül-müttəlib övladları! Allaha təqvalı olun, Ona ibadət edin. Hamınız Allahın ipindən yapışın, bölünməyin və ixtilaf etməyin. Həqiqətən, İslam beş şey üzrə qurulub:

---

[1] Səfiyyə Peyğəmbərin (s) xalası, Zübeyr isə onun oğludur.

vilayət, namaz, oruc, zəkat və həcc! Vilayət Allahın, Peyğəmbərinin və rüku vəziyyətində ikən zəkat verənlərindir”.[1] ***“Hər kəs Allahı, Onun Peyğəmbərini və həmin iman gətirənləri özünə vəli etsə, şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir”.***[2]

İbn Abbas deyir ki, bu vaxt Salman, Miqdad və Əbu Zərr gəldilər. Peyğəmbər (s) onlara da Əbdül-müttəlib övladları ilə olan toplantıya qoşulmağa icazə verdi.

Salman dedi: “Ya Peyğəmbər! Ayə bütün möminlərə aiddir, yoxsa müəyyən şəxslərə?” Peyğəmbər (s) buyurdu: “Xeyr, müəyyən şəxslərə aiddir. Allah onları Quranda bir çox ayədə Özünə və Peyğəmbərinə yaxınlaşdırdı”.

Salman dedi: “Onlar kimlərdir, ya Peyğəmbər!” Peyğəmbər (s) buyurdu: “Onların birincisi, ən fəzilətlisi və ən xeyirliləri bu qardaşım Əli ibn Əbu Talibdir (bunu söylərkən əlini Əlinin (ə) başının üzərinə qoydu). Ondan sonra bu oğlum (əlini Həsənin (ə) başının üzərinə qoydu), sonra bu oğlum (əlini Hüseynin (ə) başının üzərinə qoydu) və bir-birinin ardınca Hüseynin övladlarından olacaq doqquz nəfər mənim vəsilərimdirlər. Onlar Allahın möhkəm və qopmayan ipidirlər.

Onlar Allahın məxluqları üzərində höccətləri və yer üzündəki şahidləridir. Kim onlara itaət etsə Allaha və mənə itaət etmişdir, kim onlara qarşı çıxsa Allaha və mənə qarşı çıxmışdır. Onlar Quranla və Quran da onlarladır. Hovuzun başında mənə qovuşana qədər Quran onlardan və onlar da Qurandan ayrılmazlar.

Ey Əbdül-müttəlib övladları! Siz məndən sonra Qüreyşin zalımlarından, ərəbin cahillərindən və onlara itaət edən tağutlardan zülm və bəlalar görəcəksiniz. Sizə qarşı birləşəcəklər, sizi alçaldacaqlar, üzərinizə hücum edəcəklər, sizi qısqanacaqlar və zülm edəcəklər. Siz mənə qovuşana qədər səbr edin.

Ey Əbdül-müttəlib övladları! Kim Allahı bir bildiyi və Peyğəmbərliyimi təsdiq etdiyi halda Allaha qovuşsa, Allah onu Cənnətdə məskunlaşdırar, etdiyi az (saleh) əməli ondan qəbul edər və pis əməllərini bağışlayar.

Ey Əbdül-müttəlib övladları! Mən özümdən sonra Qüreyşdən olan on iki nəfərin minbərimə çıxdığını gördüm. Hamısı azmış və azdıran kəslərdi. Ümmətimi atəşə dəvət edəcəklər və doğru yoldan döndərəcəklər. Onlardan ikisi Qüreyşin iki fərqli tayfasındandır[3]. Ümmətin günahlarının və görəcəyi

---

[1] İşarə “Maidə” surəsinin 55-ci ayəsinədir.

[2] “Maidə” surəsi, ayə 56.

[3] Bunlar Bəni-Teym tayfasından Əbu Bəkr və Bəni-Üdey qəbiləsindən olan Ömərdir.

əzabın bir qatı bu ikisinin üzərinə olacaq. On nəfəri də Bəni-Üməyyədəndir. Bu on nəfərin ikisi Bəni-Üməyyədən olan Hərbin övladları və digərləri isə Bəni-Üməyyədən olan Əbul-Asın oğullarıdır.

Mənim Əhli-Beytimdən hidayət edən (doğru yolu göstərən) on iki nəfər imam olacaq. Hamısı da Cənnətə dəvət edəcəklər. Onlar Əli, Həsən, Hüseyn və Hüseynin övladlarından bir-biri ardınca gələcək olan doqquz imamlardır. Onların rəhbərləri və ataları Əlidir. Mən də Əlinin və onların rəhbəriyəm. Onlar Quranla və Quran da onlarladır. Hovuzun başında mənimlə görüşənə qədər Quran onlardan və onlar da Qurandan ayrılmazlar.

Ey Əbdül-müttəlib övladları! Əliyə itaət edin, ona izləyin, vilayətini qəbul edin, ona qarşı çıxmayın, düşmənlərindən uzaqlaşın, ona dəstək olun və yardım edin. Onun yanında olun ki, doğru yolu tapasınız, hidayət olasınız və səadətə qovuşasınız.

Ey Əbdül-müttəlib övladları! Əliyə itaət edin. (Bilin ki,) əgər mən Cənnətin qapısının halqasından yapışsam, qapı Rəbbimin hüzurunda üzümə açıldıqda səcdəyə düşsəm və mənə: "Başını qaldır! İstə eşidilsin və şəfaət et qəbul olunsun!" deyilsə, heç kimi sizdən önə salmaram".

Dedilər: "Eşitdik və itaət etdik, ey Peyğəmbər!"

## 2. Əhli-Beytin (ə) başına gətiriləcək müsibətlər barədə Peyğəmbərin (s) mübarək ömrünün sonunda verdiyi xəbər

Sonra üzünü Əliyə tutub dedi: "Ey qardaşım! Yaxın zamanda Qüreyş sizə qarşı çıxacaq. Sənə zülm etmək və səni məğlub etmək üçün sözü bir yerə qoyacaqlar. Əgər yardımın olsa onlarla savaş, əgər yardımın olmasa əlini dinc saxlayıb və canını qoru. Bil ki, şəhidlik sənin ardınca gəzir. Allah sənin qatilinə lənət eləsin!"

Sonra üzünü qızına çevirdi və dedi: "Sən Əhli-Beytimdən mənə qovuşacaq ilk şəxssən. Cənnət qadınlarının xanımısan (seyyidəsisən). Sən məndən sonra zülm və qəzəb görəcəksən. Belə ki, döyüləcəksən və sinə sümüklərindən biri sındırılacaq. Allah sənin qatilinə, ona əmr verənə, buna razı olana, yardım edənə, sənə qarşı çıxana, ərinə və oğullarına zülm edənə lənət eləsin!

Sənə gəlincə, ey Həsən! Ümmət sənə xəyanət edəcək. Əgər yardımın olsa, onlarla savaş. Əks təqdirdə əlini dinc saxlayıb canını qoru. Şəhidlik sənin arxanca gəzir. Allah sənin qatilinə və ona yardım edənə lənət eləsin! Sənin qatilin zinazadə oğlu zinazadə və zinazadə nəvəsidir.  Biz elə bir Əhli-Beytik ki, Allah bizim üçün axirəti üstün bilmiş və dünyaya (mükafatına) razı olmamışdır".

Sonra üzünü İbn Abbasa[1] tutub belə dedi: "Onlardan on nəfəri hakimiyyəti ələ keçirdikdən sonra Bəni-Üməyyənin həlakı sənin övladlarının əlilə olacaq. Allahdan qorxsunlar, övladlarım və itrətim barədə diqqətli olsunlar. Dünya bizdən əvvəl heç kimə qalmadı və bizdən sonra da heç kimə qalmayacaq. Bizim dövlətimiz dövlətlərin sonuncusudur. Hər gün yerinə iki gün və hər il yerinə iki il olacaq. Yer üzü zülm və haqsızlıqla dolduğu kimi onu haqq və ədalət dolduracaq olan şəxs bizdən, mənim övladlarımdandır".

[1] Ehtimal ki, burada xitab Abbasadır. Amma İbn Abbasa söyləməsində də bir müşkül yoxdur.

# HƏDİS 62

**On iki vəsi haqqında Peyğəmbərin (s) sözləri**

Süleym Salmanın belə dediyini eşitdiyini söyləyir: "Ya Peyğəmbər (s), Allah səndən əvvəl elə bir peyğəmbər göndərmədi ki, özündən sonra vəsisi olmasın. Bəs sənin vəsin kimdir, ya Peyğəmbəri?" Peyğəmbər (s) buyurdu: "Ey Salman! Bu barədə Allahdan mənə bir göstəriş gəlməyib".

Bir az dayandıqdan sonra mənə dedi: "Ey Salman! Soruşduğun məsələ barədə Allahdan mənə vəhy gəldi. Ey Salman, səni şahid tuturam ki, Əli ibn Əbu Talib mənim vəsim, qardaşım, varisim, vəzirim, ailəm arasında xəlifəm, məndən sonra hər bir mömininin vəlisi, borcumu ödəyən və sünnəmə görə döyüşəcək şəxsdir.

"Ey Salman! Allah yer üzünə (məxluqlarına) nəzər salıb onlardan məni seçdi. Sonra ikinci dəfə nəzər salıb onların arasından qardaşım Əlini seçdi. Mənə onu cənnət qadınlarının seyyidəsi ilə evləndirməyimi əmr etdi. Sonra üçüncü dəfə baxıb Fatiməni və vəsilərimi seçdi. Onlar oğlum Həsən, Hüseyn və qalanları da Hüseynin övladlarındandır.

Onlar Quranla və Quran da onlarladır". Sonra iki işarə barmağını yan-yana gətirib – "Bunlar kimi (Kövsər) hovuzunun başında mənə qovuşana qədər Quran onlardan və onlar da Qurandan ayrılmazlar. Bir-birinin ardınca gələrlər. Allahın məxluqları üzərindəki şahidləri və yer üzündəki höccətləridirlər. Kim onlara itaət etsə Allaha itaət etmişdir və kim onlara qarşı çıxsa Allaha qarşı çıxmışdır. Onların hamısı hidayət olmuş və hidayət edəndirlər.

Bu ayə mənim, qardaşım Əlinin, qızım Fatimənin, oğullarım və Hüseynin nəslindən bir-biri ardınca gələcək olan vəsilər haqqındadır: ***"Ey Əhli-Beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[1] Ayədəki çirk (rics) nədir bilirsənmi, ey Salman?» Mən: "Xeyr" dedim".

Buyurdu: "Şikdir. Onlar heç vaxt Allah tərəfindən gələn bir şeyə şübhə etməzlər. Biz doğumda və (yoğrulduğumuz) palçığımızda Adəmə qədər pak və tərtəmizik. Hər pislikdən təmizlənmiş və qorunmuşuq".

---

[1] "Əhzab" surəsi, ayə 33.

## Mehdi (ə) barəsində xəbər

Sonra əlilə Hüseynə vuraraq belə dedi: “Ey Salman! Yer üzü zülm və haqsızlıqla dolduğu kimi haqq və ədalətlə dolduracaq olan ümmətimin Mehdisi bu oğlumun övladlarındandır. İmam oğlu İmam, alim oğlu alim, vəsi oğlu vəsidir! Atası Özündən əvvəl imam, vəsi və alimdir”.

Salman dedi: “Ey Allahın Peyğəmbəri! Mehdi əfzəldir, yoxsa atası?” Buyurdu: “Atası ondan daha fəzilətlidir. Əvvəlkilərin mükafatları daha çoxdur. Çünki Allah onların vasitəsilə sonradan gələnləri hidayət edir”.

Hansı dəvət edən doğru yola dəvət etsə mükafatını alacaq və onların mükafatlarından heç bir şey azalmadan onlara tabe olanların mükafatlarının bir mislinə də malik olarlar. Kim zəlalətə dəvət etsə öz günahları və dəvət etdiklərinin günahlarından heç bir şey azalmadan özünə tabe olanların günahlarının bir misli də ona əlavə olunar. Tabe olanların günahlarından isə heç nə azalmaz.

Ey Salman! Musa Rəbbindən ailəsindən biri nəfəri özünə vəzir etməsini istədi və Allah da qardaşı Harunu ona vəziri etdi. Mən də Rəbbimdən ailəmdən birini mənə vəzir etməsini dilədim. Allah da qardaşımla məni gücləndirdi və onu işimə ortaq etdi. Allah onun istəklərini qəbul etdiyi kimi mənim istəklərimi qəbul etdi.

## Əlinin (ə) ayaq izlərinin torpağından təbərrük

Ey Salman! Əgər xristianların İsa ibn Məryəm haqqında həddi aşdıqları kimi ümmətimin də qardaşım Əli barəsində həddi aşmayacağını bilsəydim, elə bir söz söyləyərdim ki, torpaqda onun ayaq izləri ilə gedib həmin torpağı öpərdilər”.

# HƏDİS 63

## Əmirəl-mömінindən (ə) başqa heç kəsin demədiyi söz

Süleym deyir ki, İmam Əlinin (ə) Kufə minbərindən belə dediyini eşitdim: "Toxumu yarana və nəfəsi yaradana mən Allahın bəndəsi və Peyğəmbərinin qardaşıyam. Rəhmət Peyğəmbərinin varisi, ümmətin ən xeyirli xanımının əri və vəsilərin ən xeyirlisiyəm".

Xəvariclərdən olan bir nəfər yerindən qalxıb dedi: "Mən də Allah bəndəsi və Peyğəmbərin qardaşıyam!" Bu sözündən sonra elə yerindəcə canını tapşırıb keçindi.

# HƏDİS 64

### Əmirəl-mömininin (ə) elmi

Süleym deyir ki, Əlinin (ə) belə dediyini eşitdim: “Peyğəmbər (s) mənə elmin min qapısını öyrətdi ki, hər bir qapıdan da min qapı açılır”.

Onun doğru danışdığına əsla şübhə etmirəm və bu barədə başqa heç kəsdən soruşmadım.

# HƏDİS 65

## Ümmətin ixtilafı və nicat tapan firqə

Süleym deyir ki, mən, Əli (ə) və camaat oturmuşduq. Bu zaman yəhudilərin və xristianların başçıları gəldi. Yəhudilərin başçısına yaxınlaşıb dedi: "Yəhudilər neçə firqəyə ayrılıblar?" Yəhudi başçısı dedi: "Bu məndə olan bir kitabda yazılıb". İmam (ə) dedi: "Allah o qövmün başçısını məhv eləsin ki, ondan dini haqda soruşulur, o isə "Bu məndə olan bir kitabda yazılıb" deyə cavab verir".

Sonra xristianların başçısına üzünü tutub soruşdu: "Bəs xristianlar neçə firqəyə bölündülər?" Xristianların başçısı "filan, filan firqələrə" deyə cavab verdi. Amma yanlışa yol verdi. İmam Əli (ə) dedi: "Əgər yoldaşının dediyi kimi desəydin, söyləyib xəta etməyindən daha yaxşı olardı".

Sonra Əli (ə) camaatın arasında onlara yaxınlaşdı və dedi: "Allaha and olsun ki, mən Tövratı Tövrat əhlindən, İncili İncil əhlindən, Quranı isə Quran əhlindən daha yaxşı bilirəm. Mən sizə neçə firqəyə bölündüyünüzü xəbər verəcəyəm.

## Peyğəmbərlərdən (ə) sonra nicat tapan firqə

Peyğəmbərin (s) belə dediyini eşitdim: "Yəhudilər yetmiş bir firqəyə bölündülər, onlardan yetmişi odda, biri isə cənnətdədir. Cənnətdə olanlar Musadan (ə) sonra onun vəsisinə tabe olanlardır. Xristianlar İsadan (ə) sonra yetmiş iki firqəyə ayrıldılar, yetmiş biri odda, biri isə cənnətdədir. Bu bir firqə İsanın (ə) vəsisinə tabe olanlardır. Mənim ümmətim isə yetmiş üç firqəyə ayrılacaq ki, onlardan yetmiş ikisi odda, biri isə cənnətdə olacaq. Cənnətə düşəcənlər mənim vəsimə tabe olanlardır".

Sonra əlini Əlinin (ə) çiyninə vurub dedi: "Bu yetmiş üç firqədən on üçü mənə sevgilərini və məhəbbətlərini iddia edəcəklər, onlardan da biri cənnətdə, on ikisi oddadır".

# HƏDİS 66

## Aləmdə baş verənlərin yazılmış olduğu kitab Əlidədir (ə)

Süleym dedi: "Hüseyn (ə) qətlə yetirildikdə İbn Abbas hönkürtü ilə ağladı. Sonra dedi: "Bu ümmət Peyğəmbərindən sonra nələr gördü? İlahi, Səni şahid tuturam ki, Əli ibn Əbu Talibi (ə) və onun övladlarını sevirəm. Onun və övladlarının düşmənlərindən uzağam. Mən onların əmrlərinə təsliməm.

## Əlinin (ə) kitabında Əhli-Beytə (ə) olunacaq zülmlər barədə xəbərlər

Zi-Qarda Əlinin (ə) yanına getdim. Bir kitab çıxartdı və dedi: "Ey İbn Abbas! Bu kitabı Peyğəmbər (s) mənə imla etmiş və mən də öz əlimlə yazmışam". Dedim: "Ey Möminlərin əmiri! Onu mənim üçün oxu!"

Kitabı oxudu. Kitabda Peyğəmbərin (s) vəfatından bəri Hüseynin (ə) qətlinədək olan hər şey yazılmışdı. Necə öldürüləcəyi, onu kimin öldürəcəyi, kimlərin ona yardım edəcəyi və kimlər onunla birlikdə şəhid olacaqları... Bundan sonra Əli (ə) o qədər ağladı ki, məni də ağlatdı.

Mənə oxuduğu kitabda bunlar vardı: ona qarşı necə davranacaqları, Fatiməni necə şəhid edəcəkləri, oğlu Hüseynin necə şəhid olacağı və ümmət ona necə xəyanət edəcəyi. Hüseynin necə öldürüləcəyini və onu kimin öldürəcəyini oxuduğunda çox şiddətlə ağladı. Sonra qiyamətə qədər olacaq hadisələri oxumadan kitabı bağladı.

## Kitabda qəsbkarların dövləti barədə xəbərlər

Əlinin (ə) kitabdan oxuduqları arasında bunlar vardı: Əbu Bəkr, Ömər və Osmanın məsələsi və onlardan hər birinin nə qədər müddətdə hakimiyyətdə olacaqları, Əliyə (ə) necə beyət olunacağı, Cəməl savaşı, Aişənin, Təlhənin və Zübeyrin hərəkətləri, Siffin savaşı və o hadisədə kimlərin öldürüləcəyi, Nəhrivan savaşı və iki hakim məsələsi, Müaviyənin səltənəti və şiələrdən qətlə yetiriləcək şəxslərin adları, camaatın Həsənə qarşı edəcəkləri, Yezid ibn Müaviyənin nəticədə Hüseynin qətlə yetirilməsilə bitəcək işləri. Bunları dinlədim, mənə oxuduğu şeylər azalıb artmadan eynilə baş verdi.

Onun əlyazısını tanıyırdım və kitabda onları gördüm. Dəyişməmişdi və yazılar silinməmişdi. Kitabı bağladıqda dedim: “Ey Möminlərin əmiri! Kitabın qalan hissəsini mənə oxumayacaqsan?” Buyurdu: “Xeyr! Amma sənə onlardan danışacağam. Sənə oxumağıma mane olan şey sənin ailən və övladlarından görəcəklərimizdir. Onlar çirkin işlərdir. Bizi öldürəcək, düşmənçilik edəcək, pis bir hakimiyyət quracaq və fəlakətlər gətirən bir qüdrətə sahib olacaqlar. Bunları eşidib kədərlənməyini və qəmlənməyini istəmirəm. Amma sənə danışacağam.

Peyğəmbər (s) vəfatı əsnasında əlimi tutdu. Mənim üçün elmdən min qapı açdı ki, hər qapıdan da min qapı açılır. Həmin vaxt Əbu Bəkr və Ömər bizə baxırdılar. Çölə çıxdığımda o ikisi mənə dedilər: “Sənə nə dedi?” Mənə Peyğəmbərin (s) dediklərini o ikisinə izah etdim. Əllərini yellədilər və sözlərimi təkrar etdilər. Sonra arxalarını çevirib yenə də sözlərimi təkrar edə-edə və əllərini yelləyə-yelləyə getdilər.

### Bəni-Abbas dövləti barədə xəbərlər

Ey İbn Abbas! Həsən Kufədən bir neçə mindən[1] 1 nəfər əskik adamla yanına gələcək.

Ey İbn Abbas! Bəni-Üməyyənin hakimiyyəti bitdikdə ilk Bəni-Haşimdən hakimiyyətə gələcək ilk şəxs sənin övladlarındır. Onlar bəzi etdiklərini edəcəklər”.

İbn Abbas deyir: “O kitabın bir nüsxəsi mənim olsaydı, bu mənim üçün üzərinə günəş doğan hər şeydən daha sevimli olardı”.

[1] Bu kitabın 30-cu hədisinə müraciət et.

# HƏDİS 67

## Cəməl savaşından sonra Əmirəl-mömininin (ə) Bəsrədəki xütbəsi

Süleym dedi: "Cəməl savaşında qələbə çaldıqdan sonra Əlinin (ə) Ziyad ibn Ubeydin evinə getdiyinin şahid oldum. Ev Peyğəmbərin səhabələrilə dolu idi. Onların arasında Əmmar, Əbu Heysəm ibn Teyhan, Əbu Əyyub və yetmiş nəfərə yaxın Bədr əhli də vardı. Evə sığışmayanlar isə həyətində toplaşmışdılar. Həmin vaxt bir kişi İmamın (ə) Şamdakı şiələrindən birinin məktubunu gətirdi: "Müaviyə camaatı döyüşə və Osmanın qanının intiqamına çağırır. Onları bu sözlərlə təşviq edir: "Həqiqətən Əli Osmanı öldürdü və qatillərini himayə etdi. O, Əbu Bəkr və Ömər haqqında tənəli sözlər danışır, özünün Peyğəmbərin xəlifəsi olduğunu və xəlifəliyə onlardan daha çox haqq sahibi olduğunu iddia edir". Bu sözlərdən avam camaat və Quran əhli hiddətləndilər və onlardan az bir dəstə istisna olmaqla hamısı Müaviyənin ətrafında toplaşıblar".

## Xilafət barəsində Əmirəl-mömininin (ə) sözləri

Süleym deyir: İmam Əli (ə) Allaha həmd və səna etdikdən sonra dedi: "Peyğəmbərinin (s) vəfatından bəri bu ümmətdən nələr gördüm? Səhhakın oğlu və əshabı mənə qarşı yaşlı səhabəni qoydular və sonra da ona beyət etdilər. Mən həmin vaxt Peyğəmbərin (s) qüslu, kəfənlənməsi və dəfnilə məşğul idim. Hələ bu işləri başa çatdırmamışdım ki, onu beyət etdilər, mənim haqq və höccətim barədə ənsarla mübahisələrə başladılar. Allaha and olsun, o və ona yardım edənlər xəlifəliyin yaşlı səhabədən çox mənim haqqım olduğunu yəqin bilirdilər.

Onların yaşlı səhabənin ətrafında birləşib və məni tərk etdiklərini gördüyümdə onları Allaha and verdim və bəlkə islah olarlar deyə Fatiməni bir ulağa mindirib, iki oğlum Həsən və Hüseynin əlindən tutdum. Bədr müharibəsində iştirak edənlər, ənsar və mühacirlərin öndə gedənlərindən yardım istəmədiyim və köməyə çağırmadığım bir kəs qalmadı. Haqqım barəsində onları Allaha and verdim. Dəvətimə cavab vermədilər və yardım etmədilər. Siz, ey Bədr müharibəsində iştirak edənlərdən burada olanlar, mənim haqdan başqa bir şey söyləmədiyimi bilirsiniz!

Onlar dedilər: "Ey Möminlərin əmiri! Doğru söyləyirsən! Bu əməlimizə görə Allahdan bağışlanma diləyir və tövbə edirik".

Əli (ə) dedi: “Camaat cahiliyyə dövrünə yaxınlaşmışdılar. Mən isə Muhəmməd (s) ümmətinin parçalanmasından və sözlərinin ixtilafından qorxdum. Peyğəmbərin (s) mənə olan əhdini xatırladım. Çünki onların edəcəklərini mənə öncədən xəbər vermiş və yardım tapsam onlarla döyüşməyi, əks təqdirdə isə əl saxlayıb canımı qorumağı əmr etmişdi.

Sonra yaşlı səhabə (xəlifəliyi) Səhhakın oğluna qaytardı. Allaha and olsun ki, o, xəlifəliyin Səhhakın oğlundan çox mənim haqqım olduğunu bilirdi. Ümmətin parçalanmasını istəmədiyim üçün beyət etdim, dinlədim və boyun əydim.

Sonra Səhhakın oğlu məni altı nəfərdən biri edib şuranın rəhbərliyini Əbdürrəhman ibn Ovfa tapşırdı. Əbdürrəhman isə Osmanla gizli görüşdü və özündən sonra xəlifəliyi ona verəcəyinə vəd alıb onu xəlifə etdi. Və mən yenə ümmətin parçalanma və ixtilafından çəkindim.

Sonra Osman İbn Ovfa xəlifəliyi vermədi. Ovfun oğlu da Osmandan uzaqlaşdığını bildirdi, xütbə söyləyib başmağını çıxarar kimi onun beyətini boynundan çıxardı. Bir müddət sonra Ovfun oğlu öldü və onun cənazə namazına Osmanın buraxılmamasını vəsiyyət etdi. Ovfun övladları onu Osmanın zəhərlədiyini güman etdilər.

Sonra Osman öldürüldü və camaat toplaşıb üç gün mənim haqqımda məşvərət apardılar. Ardınca yanıma gəldilər və öz istəklərilə, məcbur edilmədən mənə beyət etdilər.

## Müsəlmanların ummul-muminin ilə imtahanı

Sonra Təlhə və Zübeyr yanıma gəlib Ümrəyə getmək üçün məndən izin istədilər. Mənə olan beyətlərini pozmayacaqları, xəyanət etməyəcəkləri və əleyhimə üsyan qaldırmayacaqları barədə ikisindən də söz aldım. Sonra Məkkəyə getdilər. Aişəni götürüb cahil və düşüncələri dar olan bir şəhər əhlinə (Bəsrəyə) tərəf apardılar. Onları mənə olan beyətlərini pozmağa və qanımı halal bilməyə məcbur etdilər”.

Ardınca Əli (ə) Aişəni, evindən çıxmasını və düçar olduğu şeyləri qeyd etdi. Əmmar dedi: “Ey Möminlərin əmiri! Onun barəsində danışmaqdan şəkin! Çünki o sənin anandır”. Aişə barəsində danışmağı tərk etdi və başqa mövzuya keçdi. Amma yenidən həmin söhbətə qayıdıb əvvəlkindən daha ağır sözlər söylədi. Əmmar dedi: “Ey Möminlərin əmiri! Onun haqqında danışmaqdan çəkin. Çünki o sənin anandır!” Yenə bu barədə söhbəti tərk etdi. Amma üçüncü dəfə yenidən onun barəsindəki sözlərinə qayıtdı və əvvəlkilərindən daha ağır sözlər işlətdi. Əmmar dedi: “Ey Möminlərin əmiri! Onun barəsində danışmaq-

dan çəkin. Çünki o sənin anandır!" Əli (ə) buyurdu: "Əsla! Mən Allaha qarşı çıxanlar qarşısında Allahla birlikdəyəm. Allah sizi öz ananızla imtahan elədi ki, Onunla, yoxsa ananızla eyni səfdə durduğunuz bilinsin!"

## Xəlifə təyini nəzəriyyəsində ziddiyətli sözlər

Süleym deyir: "Sonra Əli (ə) o üçünə olunan beyət barədə danışıb dedi: "Ömrümə and olsun, əgər məsələ onların dedikləri kimi olsaydı... Amma Allaha and olsun ki, onları dedikləri kimi deyil!" Sonra susdu. Əmmar dedi: "Onlar nə deyirdilər?" Buyurdu: "Deyirlər ki, Peyğəmbər (s) heç kimi öz yerinə xəlifə təyin etmədi və xəlifə seçməyi məşvərət yolu ilə ümmətin öz öhdəsinə buraxdı. Amma söylədiklərinə əsasən belə, əmr olunduqlarını tərk edib öz istədikləri kimi etdilər. Ümmət heç bir məşvərət keçirmədən və onların razılığı alınmadan bir dəstə adam yaşlı səhabəyə beyət elədi. Sonra məni və səhabələrimi beyət etməyə məcbur etdilər. Ardınca da heç bir məşvərət olmadan yaşlı səhabə Səhhakın oğluna beyət etdi. Səhhakın oğlu isə özündən sonra xilafəti altı nəfərlik şuraya həvalə etdi, bütün ənsar və mühacirləri şuradan kənarda saxladı və dedi: "Səhib (və ya Suheyb) üç gün camaata namazda imamlıq eləsin". Camaata isə əmr elədi: "Əgər üç gün bitdikdə bu altı nəfər bir nəticəyə gələ bilməsələr onların boyunlarını vurun, əgər dördü bir şəxs barədə ittifaq edib ikisi qarşı çıxarsa, o ikisini öldürün!" Mənim barəmdə isə camaat üç gün məşvərət elədi və etdikləri beyət hamısının rəy birliyi ilə baş verdi. Sonra da gördüklərinizi elədilər!

Ardınca İmam (ə) buyurdu: "Musa Haruna dedi: ***"Onların azdıqlarını gördüyün zaman sənə nə mane oldu ki, məni izləmədin?"***[1] Mənim Peyğəmbərə (s) nisbətim Harunun Musaya olan nisbəti kimidir. Peyğəmbər (s) məndən belə əhd aldı: "Əgər ümmət yoldan azsa və başqasına tabe olsa, yardım tapdığım təqdirdə onlarla döyüşüm, əgər yardımım olmasa, əlimi dinc saxlayıb canımı qoruyum". Peyğəmbər (s) mənə ümmətin ondan sonra nələr edəcəklərini xəbər vermişdir.

## Əmirəl-möminin (ə) Siffin və Nəhrivan barədə verdiyi xəbər

Osman öldürüldükdən sonra yardım tapdığıma görə Allahın əmrini dirçəltmək, Quran və Peyğəmbər sünnəsini həyata keçirmək üçün əlimi dinc saxlamağa haqqım yoxdur. Əlimi açdım və bu Nakisinlərlə (beyət sındıranlarla) savaşdım. İnşallah, sabah Şam torpaqlarında, "Siffin" deyilən bir yerdə Qasitinlərlə savaşacağam. Ondan sonra İraq torpaqlarından "Nəhrivan" deyilən

[1] "Taha" surəsi, ayə 92.

bir yerdə Mariqinlərlə döyüşəcəyəm. Allahın Peyğəmbəri (s) bu üç yerdə onlarla savaşmağımı mənə əmr edib.

Mən acizliyimə, qorxaqlığıma və ya Rəbbimlə görüşü bəyənmədiyim üçün əlimi dinc saxlamadım. Əksinə, Peyğəmbərə (s) itaət edib və vəsiyyətini yerinə yetirdim. Yardım tapdıqda isə baxdım, iki yoldan üçüncüsünü görmədim: Ya Allahın yolunda döyüşmək, yaxşılığı əmr edib, pislikdən çəkindirmək, ya da Allahı və nazil etdiklərini inkar etmək, cəhənnəm odunda zəncirlərlə bağlanmaq və İslamdan üz döndərmək.

## Əmirəl-mömininin (ə) öz qatili haqqında sözləri

Peyğəmbər (s) mənə səhadətimin ardımca gəzdiyini və yaxın vaxtlarda saqqalımın başımın qanına boyanacağını xəbər verdi. Qatilim əvvəlkilərin və sonrakıların ən bədbəxtidir. Üheymir[1] tək bir kəsdir. O, Salehin dəvəsini kəsənin, qardaşı Habili öldürən Qabilin, İbrahim ilə Rəbbi haqqında mübahisə edən fironlar fironunun, Bəni-İsrailin kitablarını təhrif edən və sünnələrini dəyişən iki nəfərin tayıdır". Sonra dedi: "Və ümmətimdən iki nəfərin!"

## Muhəmməd (s) ümmətinin xətaları o iki nəfərin boynundadır

Sonra buyurdu: "Muhəmməd ümmətinin xətaları onların boynundadır. Qiyamət gününə qədər tökülən hər qanın, haram olaraq yeyilən hər malın və sahib olunan hər qadının, haqsız verilən hər hökmün günahı o ikisinin boynundadır. Günahkarların özlərinin etdiklərindən isə bir şey azalmaz".

Əmmar dedi: "Ey Möminlərin əmiri! O ikisinin adını bizə söylə ki, onlara lənət edək". Əli (ə) soruşdu: "Ey Əmmar, sən Peyğəmbəri sevib, onun düşmənlərindən təbərri edirsən?" Əmmar "Bəli" deyə cavab verdi. Əli (ə) yenə soruşdu: "Sən məni də sevib və düşmənlərimdən təbərri edirsənmi?" Əmmar dedi: "Bəli". Əli (ə) buyurdu: "Bu sənə yetər, ey Əmmar! Sən o ikisini adları ilə tanımasan da onlardan uzaq olduğunu bildirdin və onlara lənət etdin!"

Əmmar dedi: "Ey Möminlərin əmiri! Əgər onların adlarını söyləsən səhabələrin də o ikisindən təbərri edərlər, bu adlarını deməməyindən daha yax-

---

[1] Üheymir Səmudun dəvəsini kəsən Qəddar ibn Saləfin ləqəbidir. Öz qatili İbn Mülcəm üçün buradan ad kinayə etmişdir. Bir rəvayətdə Peyğəmbərin (s) İmam Əliyə (ə) belə dediyi nəql edilmişdir: "Sizə insanların ən bədbəxti olan iki nəfəri tanıdımmı?" Dedik: "Bəli, ey Allahın rəsulu!" Buyurdu: "Dəvəni öldürən Səmud qövmünün Üheymiri və ey Əli, (əlini başına qoyaraq) sənin burana vuran kəsdir ki, (əlilə saqqalını tutub) nəticədə bura islanar. "Mənaqib", İbn Məğazili, s.9; "Biharul-ənvar", c.32, s.312 və 286; "əl-Ğədir", c.6, s.334.

şı olar". Əli (ə) buyurdu: "Salman, Əbu Zərr və Miqdada Allah rəhm eləsin! O ikisini necə gözəl tanıyırdılar. Onlardan təbərri (uzaqlaşmaları) etmələri və onlara lənət demələri nə qədər də şiddətli idi!".

Dedi: "Ey Möminlərin əmiri! Canım sənə fəda olsun! Onların adını de! Söz veririk ki, sənin sevdiyini sevəcək və sənin uzaqlaşdığından uzaqlaşacağıq". Əli (ə) buyurdu: "Ey Əmmar! Söyləsəm səhabələrim öldürülər, camaatım, ordumdakı əsgərlərim və yanımda gördüyün insanlar ətrafımdan dağılarlar!

## Vilayət və təbərridə ümumi qayda

Ey Əmmar! Özü bilməsə belə, hər kim Musa və Harunu sevsə və düşmənlərindən təbərri etsə, bununla buzov və Samiridən təbərri etmişdir. Hər kim buzov və Samirini sevsə və düşmənlərindən təbərri etsə Musa və Harundan təbərri etmişdir. Ey Əmmar! Özü bunu bilməsə belə, hər kim Peyğəmbəri və Əhli-Beytini sevsə, məni sevmiş və düşmənimdən təbərri etsə də o ikisindən uzaqlaşmışdır. Hər kim tanımadığı halda belə o ikisinin düşmənlərindən təbərri etsə, Allahın Peyğəmbərindən (s) təbərri etmişdir".

## Əbu Bəkrin oğlu Muhəmməd tayfasının nəcib şəxsidir

Muhəmməd ibn Əbu Bəkr dedi: "Ey Möminlərin əmiri! Sən adlarını söyləmədin, amma mən onları tanıdım. Allahı şahid tuturuq ki, səni sevirik və uzaq, yaxın, əvvəlki, sonrakı, yaşayan, ölən, burada olan və olmayan bütün düşmənlərindən təbərri edirik".

Möminlərin əmiri (ə) buyurdu: "Allah sənə rəhm eləsin, ey Muhəmməd! Hər tayfanın bir nəcib, onlara şahid olan və yaxşılarına şəfaət edən bir üzvü var. Nəciblərin ən yaxşısı pis bir ailədən çıxmış nəcibdir. Ey Muhəmməd, sən öz ailənin nəcibisən!"

## Peyğəmbərin (s) xilafətdən çəkindirməsi

Amma mən sənə bunu xəbər verim: "Peyğəmbər (s) məni çağırdı. Həmin vaxt yanında Salman, Əbu Zərr və Miqdad vardı. Sonra Peyğəmbər (s) Aişəni öz atasının, Həfsəni öz atasının və qızını da həyat yoldaşı Osmanı çağırmaq üçün göndərdi. Onlar Peyğəmbərin (s) yanına gəldilər.

Peyğəmbər (s) Allaha həmd-səna deyib sonra buyurdu: "Ey Ətiq! Ey Səhhakın oğlu! Ey Əffanın oğlu! Mən bu gecə minbərimin üzərində oturub və ümmətimi köhnə cahiliyyə vaxtlarına qaytaracaq on iki nəfəri gördüm. Allahdan qorxun və əmri (xəlifəliyi) məndən sonra Əliyə təslim edin. Xəlifəlik

barədə onunla mübahisə etməyin, ona zülm eləməyin və heç kimlə ona qarşı birləşməyin”. Dedilər: “Ey Allahın Peyğəmbəri! Bundan Allaha sığınırıq. Allah bu işdən əvvəl bizi öldürsün!”

## Onların müqabilində on iki İmamın (ə) bəyanı

Peyğəmbər (s) buyurdu: “Mən bu evdə olan bütün kişi və qadınların hamısını şahid tuturam ki, Əli ibn Əbu Talib ümmətim arasında mənim xəlifəmdir. O, möminlərə öz canlarından daha övladır. O, vəfat etdikdə bu oğlum “əlini Həsənin başına qoydu), o da vəfat etdikdə bu oğlumdur (əlini Hüseynin başına qoydu). Sonra Hüseynin övladlarından bir-biri ardınca gələcək doqquz nəfərdir. Onlar Allahın bu sözündə nəzərdə tutduğu şəxslərdir: ***“Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!”.***[1] Sonra Peyğəmbər (s) İmamlar (ə) barəsində nazil olan bir ayəni belə buraxmadan hamısını oxudu”.

## Peyğəmbərin (s) yuxusu

O üçü qalxıb getdilər. Mən və səhabələrim Salman, Əbu Zərr və Miqdad, eləcə də Fatimə, Həsən və Hüseyn də qaldılar. Peyğəmbərin xanımları və Fatimədən başqa Peyğəmbərin (s) digər qızları da getdilər. Sonra Peyğəmbər (s) buyurdu: “Bu üçünü və Bəni-Üməyyədən doqquz nəfərin - ikisi Əbu Süfyan ailəsindən və yeddisi isə Həkəm ibn Əbul-As nəslindən olanların ümmətimi köhnə cahiliyyə dinlərinə qaytardıqlarını gördüm”.

Əli (ə) bunları dediyi vaxt Ziyadın evi Peyğəmbər (s) səhabələri ilə doluydu. Onlara səslənib buyurdu: “Eşitdiklərinizi doğru yolu tapmaq istəyənlərdən başqa hər kəsdən gizləyin. Ey Ziyad! Məndən sonra şiələrim barədə Allahdan qorx!”

Ziyadın yanından çıxdıqda üzünü bizə tərəf tutub dedi: “Müaviyə onun qardaşı olduğunu iddia edəcək və o da şiələrimi qətlə yetirəcək. Allah ona lənət eləsin”.

---

[1] “Nisa” surəsi, ayə 59.

# HƏDİS 68

## İbrahım Nəxəi İmamları (ə) iqrar edir

Süleymin kitabında Əməşdən, o da Xeysəmədən nəql edir: “İbrahim Nəxəinin ölümü yaxınlaşdıqda mənə dedi: “Məni özünə yaxınlaşdır”. Mən onu qucaqladım. Dedi: “Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur, şəriksizdir. Və şəhadət verirəm ki, həqiqətən də Muhəmməd (s) onun elçisi, Əli ibn Əbu Talib Muhəmmədin vəsisi, Həsən Əlinin vəsisi, Hüseyn Həsənin vəsisi, Əli ibn Hüseyn isə Hüseynin vəsisidir”.

Sonra gözləri yumulub halı dəyişdi. Özünə gəldikdə dedi: “Səndən başqası məni eşitdi?” Dedim: “Xeyr”. Dedi: “Bunun üzərində həyat sürmüş və bunun üzərində də dünyadan köçürəm. Əlqəmə və Əsvəd[1] də bu şəhadətin üzərində idilər. Kim bunun üzərində olmasa, İslamdan heç bir şey üzərində deyil”.

[1] Bu iki nəfər İbn Məsudun şagirdləridir.

# HƏDİS 69

## Əmirəl-mömininin (ə) son saatlarında vəsiyyəti

Süleym ibn Qeys deyir: "İmam Əlinin (ə) oğlu Həsənə (ə) vəsiyyət etdiyinin şahidi oldum. O, öz vəsiyyətinə oğlanları Hüseyni (ə) və Məhəmmədi, bütün övladlarını, ev əhlini və şiələrindən öndə gələnləri də şahid etdi.

## İmamlar (ə), onlara salam göndərməsi və imamətləri barədə

Kitabları və silahı ona (İmam Həsənə (ə)) verib dedi: "Ey oğlum! Peyğəmbər (s) mənə vəsiyyət etdiyi, kitablarını və silahını mənə verdiyi kimi, mənim də sənə vəsiyyət etməyimi, kitablarımı və silahımı sənə verməyimi mənə əmr etmişdi. Həmçinin sənin əcəlin yetişdikdə qardaşın Hüseynə vəsiyyət edib, bunları ona verməni də sənə söyləməyi mənə buyurdu".

Sonra Hüseynə (ə) baxıb dedi: "Peyğəmbər (s) sənin də bunları bu oğluna verməni əmr elədi". Hüseynin (ə) oğlu Əlinin (ə) əlindən tutdu. Həmin vaxt o kiçik uşaq idi.[1] İmam (ə) sözünə davam elədi: "(Üzünü kiçik Əliyə (ə) tutaraq) Peyğəmbər (s) sənin də bunları oğlun Muhəmmədə verməyini, ona Peyğəmbərin və mənim adımdan salam söyləməyi buyurdu".

Sonra yenidən oğlu Həsənə (ə) tərəf yönəlib dedi: "Ey oğlum, sən məndən sonra işlərin və qanımın vəlisisən. Əgər istəsən bağışlaya bilərsən. Əgər öldürsən, onun vurduğu yerdən bir zərbə endir və əziyyət vermə (muslə etmə)". Buyurdu: "Yaz:

## Möminlərin əmirinin vəsiyyəti

Bismillahir-rəhmanir-rəhim

Bu Əli ibn Əbu Talibin vəsiyyətidir. Şəhadət verirəm ki, şəriki olmayan vahid Allahdan başqa ilah yoxdur. Muhəmməd Onun qulu və rəsuludur. Müşriklər bəyənməsə belə onu bütün dinlərə qalib olsun deyə hidayət və haqq dinlə göndərmişdir.

Namazım, ibadətim, həyat və ölümüm aləmlərin şəriksiz olan Rəbbi üçündür. Buna əmr olunmuşam və mən müsəlmanlardanam.

---

[1] Onun həmin vaxt 2 yaşı vardı.

Ey Həsən sənə, bütün övladlarıma, ev əhlimə, bu yazdıqlarımın yetişdiyi hər kəsə Allaha təqvalı olmağı vəsiyyət edirəm. Yalnız müsəlman olaraq ölün. Allahın ipindən möhkəm yapışın və əsla ayrılmayın. Çünki Peyğəmbərdən (s) belə buyurduğunu eşitmişəm: “İnsanların arasını islah etmək bütün namaz və orucdan üstündür. Həqiqətən də üsyankarlıq dinin boşluğuna və insanların arasının pozulmasına səbəbdir”. Allahdan başqa qüvvət yoxdur.

Öz yaxınlarınıza diqqət yetirin, onlarla əlaqəni kəsməyin ki, Allah da sizinlə asan hesab çəksin.

Allah, Allah! Yetimlər barəsində diqqətli olun! Onları ac saxlamayın, yanınızda olanları sıxıntıya salmayın. Mən Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: “Hər kim yetimi ehtiyacsız olanadək himayə etsə, Allah cənnəti ona vacib edər, necə ki, yetimin malını yeyən kəsə cəhənnəmi vacib etmişdir”.

Allah, Allah! Quran barəsində diqqətli olun! Ona əməl etməkdə heç kim sizdən önə düşməsin!

Allah, Allah! Qonşularınız barədə diqqətli olun! Həqiqətən də Peyğəmbər (s) onları vəsiyyət edib.

Allah, Allah! Allahın Evi barədə diqqətli olun! Var olduğunuz müddətdə onu əsla boş qoymayın! Əgər tərk olunsa, onu kimisini əsla tapa bilməyəcəksiniz. Onun insana verdiyi ən kiçik şey əvvəlki bütün günahlarının bağışlanmasıdır.

Allah, Allah! Namaz barədə diqqətli olun! Həqiqətən də o ən yaxşı əməl və dinin sütunudur!

Allah, Allah! Zəkata diqqət yetirin! Həqiqətən də o Rəbbinizin qəzəbini söndürür!

Allah, Allah! Ramazan ayına diqqət yetirin! Həqiqətən də ondakı oruc cəhənnəm oduna qarşı bir qalxandır.

Allah, Allah! Fəqir və miskinlər barəsində diqqətli olun! Yaşayışınızda onlarla ortaq olun.

Allah, Allah! Allah yolunda mallarınız və canlarınızla cihada diqqət yetirin! Həqiqətən də Allah yolunda bu iki şəxs cihad edər: hidayət imamı, onun vasitəsilə hidayət tapan və ona itaətkar müqəllid.

Allah, Allah! Peyğəmbərin (s) nəsli barədə diqqətli olun! Onları müdafiə edə biləcəyiniz qüdrətə sahib ikən heç kimin sizin qarşınızda onlara zülm etməsinə izn verməyin!

Allah, Allah! (Peyğəmbərdən (s) sonra) dində dəyişiklik etməyən və dəyişiklik edənləri himayə etməyən Peyğəmbər səhabələrinə qarşı diqqətli olun! Həqiqətən də Peyğəmbər (s) onlar barəsində vəsiyyət etmiş, dində dəyişiklik edənləri və onları himayə edənləri lənətləmişdir.

Allah, Allah! Qadınlarınız və kənizləriniz barədə diqqətli olun! Allah yolundakı səylərinizdə danlayanın danlağından qorxmayın. Onlara qarşı Allah sənə kifayət edər. Allahın əmr etdiyi kimi insanlarla gözəl danışın.

Yaxşılığı əmr edib, pislikdən çəkindirməyi əsla tərk etməyin. Yoxsa Allah sizin pislərinizi yaxşılara hakim edər. Bu zaman dua etsəniz, qəbul olunmaz.

Ey övladlarım! Əlaqələrinizi qırmayın, insanlara hədiyyə verin və xeyirxahlıq göstərin! Nifaqdan, qohumlarla əlaqəni kəsməkdən, düşmənçilikdən və təfriqədən çəkinin! Yaxşı işlərdə bir-birinizə yardım edin. Günah və düşmənçilikdən bir-birinizin yardımçısı olmayın. Allahdan qorxun, həqiqətən də Onun cəzası şiddətlidir.

Allah sizi qorusun! Sizi Allaha tapşırır və salam söyləyirəm!"

Sonra "La ilahə illəllah!" deyib ruhunu təslim etdi. Bu, Ramazanın son on günün ilk gecəsində, ayın 21-də baş verdi. Cümə gecəsi, hicrətin qırx altıncı ili idi.

# HƏDİS 70

## Mömininin əqidəsini qorumasına görə vacib olan ən az şey

Süleym ibn Qeys deyir ki, bir Əmirəl-möminin Əli ibn Əbu Talibə (ə) dedim: "Ya Əmirəl-möminin! İnsana vacib olan məsələ və eləcə də götürəcəyi təqdirdə şəkkə düşəcəyi iş nədir?

Buyurdu: "Allahdan başqa ilahın və şərikinin olmadığına, Muhəmmədin onun qulu və elçisi olduğuna şəhadət versin, Allahın nazil etdiyini təsdiqləsin, namaz qılsın, zəkat versin, Ramazan ayında oruc tutsun, Allahın Evini həcc etsin, biz Əhli-Beytin (ə) vilayətini qəbul etsin, düşmənlərindən uzaqlaşsın və hər cür şərabdan uzaq dayansın.

## İcmali və təfsilatlı vilayət və təbərra

Dedim: Sənə fəda olum! Sizdən gələnləri də təfsilatı ilə iqrar etməlidir?" Dedi: "Yox, icmali kifayət edər".

Dedim: "Sənə fəda olum! Şərab nədir?" Buyurdu: "Çoxunu içdiyi təqdirdə sərxoş edən hər bir içkinin az, hətta bir damlası belə haramdır".

Dedim: "Sənə fəda olum! Vilayətdən savayı hər bir şeyə riayət edən şəxsə bütün Bəni-Haşimin, yoxsa sizlərdən fəqih və alim olanlarının vilayəti vacibdir? Həmçinin düşmənlərinizdən çəkinməkdə də, sizin hamınıza zülm edəndən, yoxsa yalnız birinizə olsa belə zülm edəndən çəkinmək vacibdir?

İmam (ə) buyurdu: "Ey Bəni-Hilalın qardaşı, sual verdin, indi cavabını dinlə. Əgər icmalı olaraq vilayətimizdə olsan və düşmənlərimizdən təbərra etsən (uzaq olsan), artıq bu sənə kifayət edər.

Əgər Allah sənə bizdən olan vəsi, alim və fəqih olan imamları tanıtsa, sən də onları tanıyıb təsdiq və itaət etsən, o zaman sən Allaha iman gətirmiş mömin və cənnət əhlisən. Belə şəxslər cənnətə sorğu-sualsız daxil olacaqlar.

Allahın yeganə bilsən, Muhəmmədin Allahın elçisi olduğuna şəhadət versən, bütün qiblə əhli arasında ixtilaf olmayan məsələləri (Allahın əmr və qadağan etdiyi məsələlərdə icma etdiklərini) götürsən, imamət, vəsilik, elm və fiqh məqamına şəkkin olsa, onun elmini Allaha buraxsan, onlarla düşmənçilik etməsən, uzaqlaşmasan və qarşı çıxmasan – sən bu mövzuda cahil, fəzilət və vilayət əhlinin hidayət tapdığı şeydə isə azmışsan. Sənin barəndə məsələ Alla-

hın istəyinə bağlıdır. Əgər sənə əzab versə, bu sənin günahlarına görədir, əgər bağışlasa, Öz rəhmətindən əta etmiş olacaq.

Amma bizə düşmən olub, əziyyət edənə gəldikdə, o müşrik, kafir və Allah düşmənidir.

Bizim haqqımızı tanıyanlar və bizə iman gətirənlər mömin, müsəlman və Allah övliyalarıdırlar.

# HƏDİS 71

## İmamını tanımayan kəs cahiliyyə ölümü ilə ölüb

Şeyx Səduq "Kamalud-din" kitabında deyir: "Atam və Muhəmməd ibn Həsəndən, onlar da Səd ibn Abdullah ibn Cəfər Həmiridən, onların hamısı Muhəmməd ibn İsadan, Yaqub ibn Yeziddən və İbrahim ibn Haşimdən, onlar da Həmmad ibn İsadan, o da Ömər ibn Üzeymədən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən nəql edir ki, o Salmandan, Əbu Zərdən və Miqdaddan Peyğəmbərin (s) bu sözünü eşidib: "Kim imamı olmadığı halda ölsə, cahiliyyə ölümü ilə ölüb".

Bunu Cabirə və ibn Abbasa söylədim, təsdiq edib doğru söylədiklərini bildirdilər. Buna şahidik və Peyğəmbərdən (s) eşitmişik. Salman deyir: "Ya Peyğəmbər, siz buyurmusunuz: "Kim imamı olmadığı halda ölsə, cahiliyyə ölümü ilə ölüb". Ya Peyğəmbər, bu imam kimdir?"

Peyğəmbər (s) buyurdu: "Ey Salman, mənim vəsilərimdəndir. Ümmətimdən kim ölsə, imamını tanımasa, cahiliyyə ölümü ilə ölüb. Əgər onu tanımasa və ya onunla düşmənçilik etsə, o şəxs müşrikdir. Əgər tanımasa, lakin düşmənçilik etməsə və düşmənlərinə dost olmasa, o şəxs müşrik deyil, cahildir".

# HƏDİS 72

## Əmirəl-möminin (ə) Peyğəmbərin (s) göstərişinə əsasən günəşlə danışır

Hüseyn ibn Əbdül-vəhhab "Uyunul-mucizat" kitabında deyir: "İbn Əyyaş Cövhəri mənə Əbu Talib Abdullah ibn Muhəmməd Ənbaridən, o da Əbu Hüseyn Muhəmməd ibn Zeyd Tustəridən, o da Əbu Səminə Muhəmməd ibn Əli Seyrəfidən, o da İbrahim ibn Ömər Yəmanidən, o da Həmmad ibn İsadan (ğariqil Cöhfə kimi tanınan), o da Ömər ibn Üzeynədən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən Əbu Zərr Cündəb ibn Cənadə Ğəffarinin belə dediyini nəql edir:

Həzrət Muhəmmədin (s) bir gün axşam vaxtı Əliyə (ə) belə dediyini eşitdim: "Sabah Bəqi dağına çıx, orada özünə yüksək bir yer seç. Günəş yüksəlməyə başladıqda ona salam ver. Allah ona sənə cavab verməyi əmr edib".

Sabah olduqda Əli (ə), Əbu Bəkr, Ömər, mühacir və ənsardan bir dəstə insanla çıxıb Bəqiyə gəldilər. Əli yüksək bir yer seçib dayandı. Günəşin şüaları ilə göründükdə Əli (ə) dedi: "Salam olsun sənə, ey Allahın yeni və itaətkar məxluqu!". Gurultulu bir səslə bu cavabı eşitdilər: "Salam olsun sənə! Ey Əvvəl, ey Axır, ey Zahir, ey Batin, ey hər şey bilən!"

Əbu Bəkr, Ömər, mühacir və ənsar bu səsi eşitdikdə bayıldılar. Bir neçə saatdan sonra özlərinə gəldikdə artıq Əli (ə) həmin yerdən düşmüşdü. Peyğəmbərin (s) yanına gəlib dedilər: "Sən deyirdin ki, Əli (ə) bizim kimi bir bəşərdir. Uca Yaradan ona xitab edib cavab aldığı kimi, Əli də günəşlə danışdı, o da cavab verdi!".

## Günəşin Əliyə (ə) verdiyi cavabın izahı

Peyğəmbər (s) buyurdu: "Siz ondan nə eşitdiniz?" Dedilər: "Salam olsun sənə! Ey Əvvəl...". Peyğəmbər buyurdu: "Günəş düz deyib, o, mənə iman gətirənlərin ilkidir".

Dedilər: "...ey Axır..."

Dedi (s): Düz deyib, mənə insanlar arasında axırıncı vəzifələrini icra edəcək, qüsl verib, kəfənləyəcək və dəfn edəcək şəxs odur.

Dedilər: "Eşitdik ki: "ey Zahir" dedi.

Buyurdu: Bəli, doğrudur, elmimin hamısı onda zahir olub.

Dedilər: “Ey Batin...”

Buyurdu: Düz deyib, mənim bütün sirlərimi batinində daşıyan da odur.

Dedilər: “Eşitdik ki, günəş “ey hər bir şeyi bilən!” dedi.

Buyurdu: Yenə də düz deyib. O, halal və haramları, vacib və sünnətləri, bunlara uyğun hər bir şeyi biləndir.

Hamısı ayağa qalxıb: “Muhəmməd bizi qaranlığa (çaşqınlığa) saldı” deyib məsciddən çıxdılar.

# HƏDİS 73

**İmam Əliyə (ə) məhəbbət mənə fayda verərmi?**

Kəracəki "Kənzul-fəvaid" kitabında deyir: "Əbul-Mərca Bələdi mənə xəbər verdi ki, Əbu Müfəzzəl Muhəmməd ibn Adbullah ibn Müttəlib Şeybani Kufidən, o da Həsən ibn Əli ibn Nəim ibn Səhl ibn Aban ibn Muhəmməd Bağdadidən, o da Əli ibn Hüseyn ibn Bəşir Kufidən, Muhəmməd ibn Sinan ibn Müfəzzəl ibn Ömər Cofidən, o da Əbu Xalid Kabilidən, o da Süleym ibn Qeys Hilalidən, o da Abdullah ibn Abbasdan nəql edir ki, bir kişi Peyğəmbərin (s) yanına gəlib dedi: "Əlini (ə) sevmək mənə fayda verərmi?". Peyğəmbər (s) buyurdu: "Vay sənə, kim Əlini sevsə məni sevmişdir, məni sevən Allahın sevmişdir, Allahı sevən şəxsə isə Allah əzab verməz".

Kişi dedi: "Əlinin (ə) məhəbbətinin fəzilətləri barədə bir az da danış".

Buyurdu: "Sənin üçün bu barədə Cəbraildən soruşuram".

Bu zaman Cəbrail nazil oldu. Peyğəmbər ondan kişinin sualı haqda soruşdu. Cəbrail "Bu haqda Rəbbimdən soruşacağam" deyib yuxarı qalxdı.

Uca Allah ona vəhy elədi: "Ən xeyirli məxluqum olan Muhəmmədə Məndən salam söylə və de: "Sən Məndənsən, bunu Mən belə olmasını istəmişəm, Əli isə sənə sənin Mənə olduğun kimidir. Əlinin aşiqləri isə Mənə Əlinin sənə olduğu nisbətindədir".

Kəracəki deyir: Bu hədisin sonu da var[1]. Orada soruşan kişinin Əbu Zərr olduğu qeyd edilir.

---

[1] Təəssüf ki, onun tam mətni bizə çatmayıb.

# HƏDİS 74

## İmam Əli (ə) əvvəlki müqərrəblərin[1] də ağasıdır

Muhəmməd ibn Abbas öz təfsirində yazır: "Əhməd ibn Muhəmməd ibn Səid hədisindəki şəxslərə istinadla, onlar da Süleym ibn Qeysdən, o da Həsən ibn Əlidən (ə), o da atasından (ə) Uca Allahın ***"Və öndə olanlar. Onlar öndədirlər! Onlar (Allah dərgahına, Allahın lütfünə) yaxınlaşdırılmış kimsələrdir"***[2] ayəsi haqqında belə buyurduğunu nəql edir: "Mən Allaha və rəsuluna öndə olanların ən öndəyəm, Allaha və rəsuluna ən yaxın olan şəxsəm".

---

[1] Allaha yaxın bəndələrin

[2] "Vaqiə" surəsi, ayə 10-11.

# HƏDİS 75

## Əbu Zərr Həcc mərasimində vilayəti bəyan edir

Təbərsi "İhticac" kitabında deyir: Süleym ibn Qeys dedi: Mən və Hənəş ibn Mötəmərin də iştirak etdiyi Həcc mərasimində Əbu Zərr qalxıb Kəbənin qapısının haqasından tutub uca səslə camaata səsləndi: Ey camaat, məni tanıyan tanıyır, tanımayanlara isə bildirirəm ki, mən Cundəb ibn Cənadə Əbu Zərrəm. Sizin Peyğəmbərinizin (s) belə dediyini eşitmişəm: "Mənim Əhli-Beytim Nuhun gəmisi timsalındadır. Ona minən nicat tapar, tərk edən isə qərq olar. Həmçinin Bəni-İsrailin arasındakı Hittə qapısı kimidir". Ey camaat, mən sizin Peyğəmbərinizin (s) belə dediyini eşitdiyimə şəhadət verirəm: "Sizin aranızda iki şey qoyuram ki, onlara yapışdığınız müddətdə azmayacaqsınız: Allahın kitabı və Əhli-Beytim...".

Əbu Zərr Mədinəyə qayıtdıqdan sonra Osman onu çağırtdırıb dedi: "Həcc mərasimində söylədiklərin nədir?" Əbu Zərr dedi: "Peyğəmbərə (s) verdiyim əhd və onun mənə əmri idi".

Dedi: "Buna kimsə şahidlik edə bilər?". Əli (ə) və Miqdad şahidlik etdilər. Onların üçü də çıxıb getdilər. Osman deyirdi: "Bu və iki dostu özlərini nəsə hesab edirlər".

# HƏDİS 76

## İmam Həsənin (ə) Müaviyə ilə sülh bağlayarkən söylədiyi xütbə

Təbərisi "İhticac"da, İbn Mutəhhər "əl-Ədədul-qaviyyə" kitabında Süleym ibn Qeysdən nəql edirlər: "İmam Əli ibn Əbu Talib oğlu Həsən sülh müqaviləsi imzalamaq üçün Müaviyə ilə bir yerdə olduqları vaxt minbərə çıxdı. Allaha həmd və səna etdikdən sonra buyurdu:

"Ey insanlar! Müaviyə onu xəlifəliyə layiq gördüyümü və özümü layiq görmədiyimi güman edir. Müaviyə yalan danışdı. Allahın kitabı və Peyğəmbərinin (s) dililə insanlara onların özlərindən övlayam.

Allaha and içirəm ki, əgər camaat mənə beyət, itaət və yardım etsəydilər səma öz yağışını və yer üzü bərəkətini onlara bəxş edərdi. Sən də, ey Müaviyə, xəlifəliyə əsla göz dikə bilməzdin. Həqiqətən Peyğəmbər (s) buyurub: "Aralarında daha elmli bir şəxs olduğu halda heç bir ümmət rəhbərliyini başqasına həvalə etməz. Əks halda başçıları anbaan alçalmağa doğru gedər. Belə ki, buzova ibadət edənlər öz dinlərinə qayıdanadək belə davam edər". Bəni-İsrail Harunun Musanın xəlifəsi olduğunu bildiyi halda onu tərk etdi və buzova ibadət etdilər.

Bu ümmət də Əlini tərk etdi. Halbuki Peyğəmbərin (s) Əliyə belə dediyini eşitmişdilər: "Peyğəmbərlik məqamından savayı, sənin mənə nisbətin Harunun Musaya nisbəti kimidir. Çünki məndən sonra peyğəmbər yoxdur".

Peyğəmbər öz qövmündən (Məkkə camaatından) uzaqlaşdı və mağaraya sığınmağa məcbur olanadək onları Allaha dəvət etdi. Əgər onlara qarşı yardımı olsaydı onları tərk etməzdi. Ey Müaviyə! Mənim də yardımım olsaydı sənə beyət etməzdim.

Harunu zəiflətdikləri, az qala öldürəcəkləri və onun da yardım tapa bilmədiyi zaman Allah Haruna ixtiyar və vüsət verdi. Peyğəmbər də (s) onlara qarşı yardım tapa bilməyib qövmündən qaçdığı zaman Allah ona da vüsət və ixtiyar verdi. Mən və atam da eləyik. Bu ümmət bizi tərk edib bizdən başqasına beyət elədikdə və bizim də onlara qarşı yardımımız olmadıqda Allah bizə vüsət verdi. Bunlar bir-birinin ardınca gələn sünnət və nümunələrdir.

"Ey insanlar! Şərqlə qərbin arasını gəzsəniz məndən və qardaşımdan savayı yer üzündə Peyğəmbər (s) övladı tapa bilməyəcəksiniz!"

# HƏDİS 77

## İmam Hüseyn (ə) imam oğlu imam, imamın qardaşı və imamların atasıdır

İbn Şazan "Miətu mənqibə" kitabında Əbu Muhəmməd Həsən ibn Əli ibn Abdullah Ələvi Təbəri rəvayət edir ki, Əhməd ibn Muhəmməd ibn Abdullahdan, o da babası Əhməd ibn Muhəmməddən, o da atasından, o da Həmmad ibn İsadan, o da Ömər ibn Üzeynədən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən, o da Salmanın belə dediyini bildirir: "Bir gün Peyğəmbərin (s) yanına gəldim, Hüseyn ibn Əli (ə) onun dizində oturmuşdu. Onun üzünə nəzər salır, gözlərinin arasından öpürdü. Buyurdu: "Sən ağa oğlu ağa, imam oğlu imam, imamın qardaşı və imamların atasısan. Sən Allahın höccətinin oğlu olan Allah höccətisən, sülbündən olan doqquz höccətin atasısan ki, onlardan doqquzuncusu Qaimləridir".

# HƏDİS 78

## Cənnət səhabələrdən dördünə müştaqdır

Fırat öz “Təfsir”ində Əli ibn Muhəmməd ibn Ömər Zəhridən, o da Qasim ibn İsmail Ənbaridən, o da Həfs ibn Asim, Nəsr ibn Məzahim və Abdullah ibn Müğeyrədən, o da Muhəmməd ibn Harun Sindidən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeysdən belə nəql edir:

## Uca Allah Peyğəmbərinə (s) dörd səhabəni sevməyi əmr etmişdir

Biz məsciddə oturmuşkən Əli ibn Əbu Talib (ə) evindən çıxdı. Bu hadisə Siffindən sonra, Nəhrivandan əvvəl idi. Əli (ə) oturdu, biz də onun ətrafında əyləşdik. Bir kişi ona dedi: “Ey Əmirəl-möminin, səhabələrin barədə bizə xəbər ver”.

Peyğəmbərdən (ə) uzun bir hekayəni nəql etdikdən sonra dedi: “Mən, Peyğəmbərin (s) uzun bir söhbəti əsnasında belə dediyini eşitdim: “Allah-Təala mənə səhabələrimdən dördünü sevməyi əmr edib, onları sevdiyini və cənnətin onlara müştaq olduğunu bildirib. Peyğəmbərdən (s) həmin şəxslərin kimliyi barədə soruşulduqda: “Əli ibn Əbu Talib” deyib sükut etdi. Sonra onların kimliyi barədə bir daha soruşuldu. Yenə “Əli” deyib sükut etdi. Səhabələr “Onlar kimdir, ya Peyğəmbər?” deyə sual verdikdə “Əli və onunla birgə üç nəfər. Əli onların imamı, dəlili və hidayətçisidir. Onlar dönməzlər, azmazlar, geri addım atmazlar, zamanın keçməsi qəlblərini sərtləşdirməz – bunlar Salman, Əbu Zərr və Miqdadır”.

## İmam Əlinin (ə) elmi qiyamətədək İmamlardadır (ə)

Peyğəmbər (s) uzun bir qissə danışıb sonra dedi: “Əlini çağırın!”. Mən gəldikdə onunla təklikdə qaldım, ona tərəf əyildim, mənə elmin min fəslini öyrətdi ki, hər fəsildən də min fəsil açılır”.

Sonra Əmirəl-möminin (ə) bizə tərəf gəlib dedi: “Məni itirməzdən əvvəl məndən soruşun. Toxumu yaran və nəfəsi yaradana and olsun ki, mən Tövratı Tövrat əhlindən, İncili İncil əhlindən və Quranı da Quran əhlindən daha yaxşı bilirəm.

Toxumu yaran və nəfsi yaradana and olsun ki, qiyamət gününədək sayları yüzə çatacaq elə bir dəstə yoxdur ki, onların rəhbərinin və başçılarının adını bilməyim.

Məndən Quran haqqında soruşun, həqiqətən də Quranda hər bir şeyin bəyanı var, orada keçmişdəkilərin və gələcəkdəkilərin elmi var, Quran heç bir kəsə deyəcək söz yeri qoymayıb.

***“Allah və elmdə dərin onlardan başqa heç kəs onun təvilini bilməz”***[1]. Elmdə dərin onlanlar bir nəfər deyillər. Peyğəmbər (s) onlardandır. Allah onu öyrətmiş, o da məni öyrətmişdir. Qiyamət gününədək o elm bizdədir”.

Sonra bu ayəni oxudu: ***“Musanın ailəsindən və Harunun ailəsindən qalan şeylər vardır...”***[2]Mənim Peyğəmbərə (s) nisbətim Harunun Musaya olan nisbətindədir. Qiyamətədək elm də bizdədir.

---

[1] “Ali-İmran” surəsi, ayə 7.
[2] “Bəqərə” surəsi, ayə 248.

# HƏDİS 79

## İmam Əlinin (ə) son günlərində xas şiələr haqqındakı sözləri

Həsən ibn Süleyman Hilli "Müxtəsər Bəsairud-dərəcat" kitabında Əhməd ibn Muhəmməd ibn İsadan, Əli ibn İsmayıl ibn İsadan və Muhəmməd ibn Hüseyn ibn Əbu Xəttabdan, o da Osman ibn İsadan, o da Ömər ibn Üzeynədən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən belə dediyini nəql edir:

## İnsanların batil əhlini seçməsi haqq əhlinə təsir etmir

Ramazan ayında (şəhid edildiyi həmin ayda) Əlinin (ə) yanında iki övladı Həsən (ə) və Hüseyn (ə), habelə Abdullah ibn Cəfər ibn Əbu Talibin oğullar və xas şiələri olduğu bir halda belə buyurduğunu eşitdim: "İnsanları özləri üçün razı olduqlarına buraxın. Dövlətinin düşmən olduqda sükut etməyi lazım bilin. Çünki sizə qarşı həsəd, ədavət və nifrəti səbəbindən sizin ona qarşı hərəkətlərinizdən heç bir şeyi nəzərindən qaçırmayacaq.

## İnsanlar Əhli-Beytə (ə) nisbətdə üç dəstədirlər

İnsanlar üç dəstədirlər: bir dəstəsi bizim nurumuzla aydınlığa çıxır, bir dəstəsi bizdən faydalanmaqla yemək yeyir, bir dəstə də bizim vasitəmizlə hidayət tapır və əmrimizə tabe olurlar. Sonuncu dəstənin sayları axdır. Bunlar nəcib, hikmətli, alim, fəqih, təqvalı və səxavətli şiələrdir (tərəfdarlarımızdır). Xoş onların halına, onların gedəcəkləri yer necə də gözəldir.

# HƏDİS 80

## İmamlar (ə) Allahın məxluqları üzərindəki şahidlərdir

Həskani "Şəvahidut-tənzil" kitabında deyir: "Muhəmməd ibn Abdullah ibn Əhməd Sufi, Muhəmməd ibn Əhməd ibn Muhəmməd Hafizdən, o da Əbdüləziz ibn Yəhya ibn Əhməddən, o da Əhməd ibn Muhəmməd ibn Ümeyrdən, o da Bəşər ibn Müfəzzəldən, o da İsa ibn Yusufdan, o da Əbul-Həsən ibn Yəhyadan, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən, o da Əlidən (ə) bizə nəql edir:

"Uca Allah mənim barəmdə belə buyurur: "***"...siz insanların əməllərinə şahid olasınız, Peyğəmbər də sizə şahid olsun"***[1]**.** Peyğəmbər (s) bizim şahidimiz, biz isə Uca Allahın məxluqları üzərindəki şahidləri və yer üzərində olanlara höccətiyik". Biz o kəslərik ki, Uca Allah bizim barəmizdə buyurur: ***"Beləliklə sizi orta ümmət etdik..."***[2]**.**

[1] "Bəqərə" surəsi, ayə 143.
[2] Həmin ayə.

# HƏDİS 81

### İmamlar (ə) Kitab və hikmət mədənidir

Muhəmməd ibn Abbas (r) öz təfsirində yazır: Muhəmməd ibn Qasim Übeydə ibn Kəsirdən, o da Hüseyn ibn Nəsr ibn Məzahimdən, o da atasından, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən, o da Əlidən (ə) belə buyurduğunu nəql edir: "Biz o şəxslərik ki, Uca Allah bizim aramızdan peyğəmbər göndərdi, bizə ayələrini oxudu, bizi təmizlədi, bizə Kitab və hikməti öyrətdi".[1]

[1] Bəlkə də bu "Cümə" surəsinin 2-ci ayəsinin təfsiridir. Yaxud da Uca Allahın "Ali-İmran" surəsinin 164-cü ayəsindəki sözünün təfsiridir.

# HƏDİS 82

## Əhli-Beyt (ə) Ali-Yasindir

Muhəmməd ibn Abbas və Firat öz təfsirlərində deyirlər: Muhəmməd ibn Qasim, Hüseyn ibn Həkəmdən, o da Hüseyn ibn Nəsr ibn Məzahimdən, o da atasından, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən, o da Əlidən (ə) belə dediyini nəql edir: "Həqiqətən də Allah Rəsulunun (s) adı (adlarından biri) Yasindir. Biz o şəxslərik ki, Uca Allah Qurani-Kərimdə bizə xitabən buyurur: ***"Salam olsun Ali-Yasinə!"***[1]

[1] "Saffat" surəsi, ayə 129.

# HƏDİS 83

## İmamlar (ə), barəsində soruşulanlardır

Muhəmməd ibn Abbas (r) öz təfsirində deyir: "Muhəmməd ibn Qasim, Hüseyn ibn Həkəmdən, o da Hüseyn ibn Nəsrdən, o da atasından, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən İmam Əlinin (ə) belə buyurduğunu nəql edir: ***"Şübhəsiz ki, o sənin üçün və sənin qövmün üçün şərəfdir (şərəfli bir xatırlama, öyüd-nəsihətdir). Siz mütləq sorğu-sual olunacaqsınız!"***[1] Uca Allahın bu ayəsindəki qövm də, barəsində sorğu-sual olunanlar da bizik".

[1] "Zuxruf" surəsi, ayə 44.

# HƏDİS 84

## Ali-Muhəmmədə (s) zülm edənlər üçün şiddətli əzab var

Muhəmməd ibn Abbas öz təfsirində, Kuleyni isə "Rövzətun minəl-Kafi" kitabında: Hüseyn ibn Əhməd Maliki, Muhəmməd ibn İsadan, o da Muhəmməd ibn Əbu Ümeyrdən (ya Əmirdən), o da Ömər ibn  Üzeynədən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən İmam Əlinin (ə) belə buyurduğunu nəql edir: Uca Allahın ***"...Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun"***[1] ayəsi və Ali-Muhəmmədə zülm eləyənə "***Həqiqətən, Allahın cəzası çox şiddətlidir".***

[1] "Həşr surəsi, ayə 7.

# HƏDİS 85

## Əhli-Beyt (ə) sevgisinə görə qətlə yetirilənlər barədə Quran ayəsi

Şərafuddin Nəcəfi "Təvilul-ayat" kitabında Süleyman ibn Simaədən, o da Abdullah ibn Qasimdən, o da Əbul-Hsən Əzdidən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən ibn Abbasın belə dediyini nəql edir:

***"Axı o hansı günaha görə öldürüldü?" -deyə soruşulacağı zaman..."***[1] ayəsi biz Əhli-Beytin (ə) məhəbbətinə görə qətlə yetirilən şəxslər barəsindədir.

[1] "Təkvir" surəsi, ayə 9.

# HƏDİS 86

## 1. Küfr dayaqları

Kuleyni "Kafi"də Əli ibn İbrahimdən, o da atasından, o da Həmmad ibn İsadan, o da İbrahim ibn Əmər əl-Yəmanidən, o da Ömər ibn Uzeynədən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən Əmirəl-mömininin (ə) belə dediyini nəql edir:

"Küfr dörd dayaq üzərində dayanıb: Fisq, ğüluvv, şəkk və şübhə.

## Fisq əhli

Fisq əhli (günah) dörd qisimdir: cəfa, korluq, qəflət və dikbaşlıq (və ya həyasızlıq).

Cəfa edən şəxs haqqı alçaldar, fəqihləri (və ya alimləri) bəyənməz və böyük günahda israr edər. Qəlbi kor olan şəxs isə, Allahı yad etməyi unudar, zənnə tabe olar, Xaliqi ilə mübarizə aparar, Şeytan onu rahat buraxmaz, tövbə etmədən, itaət etmədən və qəflətdən ayılmadan bağışlanma diləyər. Qəflətdə olan kəs isə özünə qarşı cinayət törədər; beli üstə çevrilər (işləri alt-üst olar); zəlaləti hidayət sanar, arzular onu aldadar; iş işdən keçincə, pərdələr üzərindən qalxınca və ümid etmədiyi şeylərlə qarşılaşınca təəssüf keçirər və peşman olar. Dikbaş kəs isə Allahın əmrinə qarşı çıxıb şəkkə düşər. Hər kim şəkk etsə kərim olan Rəbbinə qarşı qürurlandığı və həddi aşdığı kimi Allah ona yüksəkdən baxar, yenilməz qüvvəsilə onu alçaldar və cəlalıyla onu kiçildər.

## Ğüluvv əhli

Ğulüvv əhli (həddi aşanlar) dörd qisimdir: fikirdə (rəydə) dərinləşmək, onun uğrunda mübahisə eləmək, yolu itirmək və qarşı çıxmaq.

Öz rəyində dərinləşən şəxs haqqa dönməz, nöqsanlarda boğulmaqdan başqa heç nəyi artıra bilməz, bir fitnədən uzaqlaşıb başqa bir fitnəyə mübtəla olar və dini zay olub gedər. Qarışıq məsələlərdə məhv olar. Hər kim öz rəyinə görə camaatla mübahisə eləsə inadkarlığı səbəbindən axmaqlıqla məşhurlaşar. Yoldan azan şəxsə gözəllik pis və pislik isə gözəl görünər. Kim qarşı çıxıb ayrılsa yolları bağlanar və işlərinə etiraz edilər. Möminlərin yolunu izləmədikcə çıxış yolu daralar.

### Şəkk əhli

Şəkk əhli dörd qisimdir: mübahisə, həvaye-nəfsə itaət, tərəddüd və təslimiyyət. Bu Allahın bu sözüdür: ***“Sən öz Rəbbinin hansı nemətlərinə şəkk edirsən?!”***[1]

Kim qarşısındakından qorxsa, geriyə çəkilər. Kim din barədə mübahisə eləsə, şübhə və tərəddüdə düşər. İrəlidə gedən möminlərin onu ötüb keçər, arxada gələn ona yetişər və Şeytanın pəncələri altında əzilər. Kim dünya və axirətin təhlükələrinə təslim olsa bu ikisi arasında olanlarda həlak olar. Kim bundan nicat tapsa, bu, yəqinin fəzilətidir. Allah yəqindən daha kiçik bir varlıq yaratmamışdır.

### Şübhə əhli

Şübhə əhli dörd qisimdir: bəzəklərə məftunluq, nəfsi aldatmaq, əyrilikləri yozmaq (bəhanə tapmaq) və haqqa batil donu geyindirmək.

Belə ki, bəzəkli sözlər insanı aydın dəlildən uzaqlaşdırar, nəfsi aldatmaq onu şəhvətə sürüyər, əyriliklər sahibini böyük daha böyük yanlışlara yönəldər. Haqqa batil donu geyindirmək isə bir-biri üzərində olan zülmətlərdir.

Bunlar küfr, küfrün dayaqları və küfrün əhlidirlər”.

## 2. Nifaqın dayaqları

Əli (ə) buyurdu: “Nifaq dörd dayaq üzərindədir: həvaye-nəfsə itaət, asudəlik, qəzəb və tamah.

### Həvaye-nəfs əhli

Nəfsin istəklərinə tabe olmaq dörd qisimdir: ədalətsizlik, ədavət, şəhvət və zülm.

Kim haqsızlıq etsə, nöqsanları artar, tərk edilər və yardım görməz. Ədavət bəsləyən şəxsin pisliyindən aman olmaz, ürəyi sağalmaz və şəhvətlərdən özünü saxlaya bilməz. Kim şəhvətlərə görə özünü danlamasa, pisliklərə meyl edər. Kim zülm etsə, höccətsiz və bildiyi halda azar.

### Asudəlik əhli

Asudəlik əhli dörd qisimdir: qürurlanmaq, arzu, heybət (və ya qorxu) və təxirə salmaq.

---

[1] “Nəcm” surəsi, ayə 55.

Heybət haqdan uzaqlaşdırar. Təxirə etmək ölüm anına qədər işlərini geri salar. Əgər arzu olmasaydı insan özünə aid hesabını bilərdi, əgər hesabını bilsəydi üzüntü və qorxudan qəflətən ölərdi. Qürurlanmaq isə insanı əməlində qüsurlu edər.

## Qəzəb

Qəzəb əhli dörd qisimdir: təkəbbür, fəxr etmək, dikbaşlıq və təəssüb.

Kim təkəbbür etsə haqqa arxa çevirər, kim fəxr etsə günah edər, kim dikbaş olsa günahlarda israr edər, kim təəssübə qapılsa, zülm edər. Sirat üzərində haqqa arxa çevirmək, günah işləmək, günahda israr etmək və zülm arasında olan işlər necə də pis işlərdir!

## Tamah əhli

Tamah əhli dörd qisimdir: Fərəh, sevinc, inad və çoxluqla öyünmək.

Fərəhlənmək Allah yanında bəyənilməyən əməldir. Sevinc özünü bəyənməkdir. İnadkarlıq - günah yükünü daşımağa məcbur qalan kəs üçün bəladır. Çoxluqla öyünmək əyləncə, oyun, boş məşğuliyyət və yaxşını pisə çevirməkdir.

Bunlar nifaq, nifaqın dayaqları və nifaq əhlidir.

## Yaradılışdakı İlahi qanunlar (Sünnətallah)

Allah bəndələri üzərində qalibdir (qəhr edəndir). Zikri yüksək və vəchi (dini) ucadır. Məxluqları ən gözəl şəkildə yaratmışdır. Onun hər iki əli açıq, rəhməti hər şeyi əhatə etmiş, əmri zahir və nuru parlaqdır. Bərəkəti dolub daşmış və hikməti işıq saçmaqdadır. Kitabı şahid, dəlili qalib və dini xalisdir. Səltənətini zahir olmuş, sözü haqq, tərəziləri ədalətli və rəsulları təbliğ etmişdir.

Pisliyi günah və günahı fitnə qərar vermişdir. Yaxşılığı razılıq, razılığı tövbə və tövbəni paklayıcı etmişdir. Tövbə edən hidayət olar. Fitnəyə daxil olan Allaha tövbə edib günahlarını etiraf edənə qədər yolda azar. Həlak olacaq kəsdən başqası Allaha qarşı getməz.

Allah! Allah! Qarşındakı tövbə, rəhmət, müjdə və əzəmətli helm nə genişdir! Yanında olan cəzalar, cəhənnəm və şiddətli bəlalar nə qorxuncdur! Kim Ona itaətdə zəfər qazansa, kəraməti onu cəlb edər. Kim Ona qarşı günaha mürtəkib olsa, intiqamının vəbalını dadar. Peşman olmaları az müddət alar!

# HƏDİS 87

## Vacib və ondan daha vacib elm

Şüyx Səduq "Xisal"da Muhəmməd ibn Əli Macələveyhin belə dediyini qeyd edir: Muhəmməd ibn Yəhya Əttar, Muhəmməd ibn Əhməddən, o da Əhməd ibn Muhəmməddən, o da Abbas ibn Mərufdan, o da Əli ibn Məhziyardan, o da Həkəm ibn Bəhluldan, o da İsmayıl ibn Həmmamdan, o da Ömər ibn Üzeynədən, o da Süleym ibn Qeys Hilalidən İmam Əlinin (ə) Əbu Tüfeyl Amir ibn Vasilə Kənaniyə belə dediyini eşitdiyini nəql edir:

"Ey Əbu Tüfeyl! Elm iki qisimdir: elmin biri insanların nəzər yetirməklə əldə etmələri mümkün olan elmdir, bu, İslamın nişanələridir (və ya xüsusiyyətləridir), digəri isə insanların nəzər yürütməyi tərk etməli olduqları elmdir, bu elm, Uca Allahın qüdrətidir (və ya hikmətidir)".

# HƏDİS 88

## Doğuşun asanlaşması üçün dua

İbna Bistam "Tibbul-əimmə" kitabında Xəvatimidən, o da Muhəmməd ibn Əli Seyrəfidən, o da Muhəmməd ibn Əsləmdən, o da Həsən ibn Muhəmməd Haşimidən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən Əmirəl-möminin Əlinin (ə) belə dediyini nəql edir:

"Mən Allahın nazil etdiyi kitabdan iki ayə bilirəm ki, doğuş zamanı çətin olanda qadın üçün yazılar. Bunu ceyran dərisinə yeddi dəfə yazıb kəmər bağlanan yerinə bağlayarlar: ***"Bismillahir-rəhmanir-rəhim! Şübhəsiz ki, hər çətinlikdən sonra bir asanlıq gələr! Həqiqətən, hər çətinlikdən sonra bir asanlıq gələr!"***[1]***; "Ey insanlar! Rəbbinizdən qorxun. Həqiqətən, qiyamət gününün zəlzələsi dəhşətli şeydir! Onu görəcəyiniz gün hər bir əmzikli qadın əmizdirdiyi uşağını unudar, hər bir hamilə qadın bari-həmlini (vaxtından əvvəl) yerə qoyar. İnsanları sərxoş görərsən, halbuki onlar sərxoş deyillər. Ancaq Allahın əzabı çox şiddətlidir!"***[2] ayəsini isə bir dəfə yazmaq lazımdır.

Bu bir vərəqə yazılır, kətandan sapla tikilir və sol budunun üzərində sıxılır. Uşaq dünyaya gəldikdə hər ikisi də dərhal açılmalıdır.

Yazılır:[3] "Diri doğdu Məryəm, Məryəm diri doğdu, ey diri, Allahın izni ilə bu saat yerə en!"

---

[1] "İnşirah" surəsi, ayə 5-6.

[2] "Həcc" surəsi, ayə 1-2.

[3] Bu dua ya hər iki ayə ilə birgə yazılır, ya da müstəqil olaraq bir duadır. İkincisi daha doğru görünür.

# HƏDİS 89

## Allah cənnəti açıq-aşkar günah edən kəsə haram edib

Hüseyn ibn Səid "Zöhd" kitabında, Əyyaşi təfsirində, Kuleyni "Kafi"də bir neçə əshabımızdan, onlar da Əhməd ibn Muhəmməd ibn Xaliddən, o da Osman ibn İsadan, o da Ömər ibn Üzeynədən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeysdən Əmirəl-möminin Əlinin (ə) belə buyurduğunu nəql edir: Peyğəmbər buyurdu: "Həqiqətən də Allah cənnəti açıq-aşkar günah edən, həyası az, nə dediyinə və barəsində nə deyildiyinə əhəmiyyət verməyən kəsə haram edib. Əgər diqqətlə nəzər salsan onun boşboğaz və ya Şeytanın şəriki olduğunu görərsən".

Deyildi: "Ya Peyğəmbər, insanların arasında Şeytanın şərikləri var?". Buyurdu: "Məgər Allahın bu ayələrini oxumursunuz: ***"...mallarına və övladlarına ortaq ol,.."[1].***

Deyildi: "İnsanlar arasında nə dediyinə və barəsində nə deyildiyinə əhəmiyyət verməyən ola bilər?"

Buyurdu: "Bəli, insanların yanına gəlir, başqa şəxslər haqqında danışır və bilir ki, həmin şəxslər bu sözlərinə görə onu bağışlamayacaqlar (boş buraxmayacaqlar). Belə şəxs nə dediyinə və özünə nə deyildiyinə məhəl qoymayan kəsdir".

---

[1] "İsra" surəsi, ayə 64.

# HƏDİS 90

**Sözün azlığı şəxsin düşüncəli olmasının əlamətidir**

Şeyx Tusi "Əmali"də deyir: "Bir dəstə adam Əbu Müfəzzəldən, o da Əbdürrəzzaq ibn Süleyman ibn Ğalib Əzididən, o da Fəzl ibn Müfəzzəl ibn Qeys ibn Zəmanə Əşəridən, o da Həmmad ibn İsa Ğəriqdən, o da Ömər ibn Üzeynədən, o da Aban ibn Əbu Əyyaşdan, o da Sülem ibn Qeysdən Əli ibn Əbu Talibin (ə) belə dediyini nəql edir:

"Peyğəmbər (s) buyurur: "Adiyyatı olmayan məsələlər barədə az danışmaq insanın düşüncəli olmasındandır"".

# HƏDİS 91

## Peyğəmbərin (s) İmam Mehdi (ə) müjdəsi

Əbu Muhəmməd Fəzl ibn Şazan ibn Xəlil "isbatul-rəcəti" kitabında Həsən ibn Əli ibn Fəzzal və Əbu Nəcrandan, onlar da Həmmad ibn İsadan, o da Abdullah ibn Məskandan, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən Salman Farisinin belə dediyini nəql edir:

Peyğəmbər (s) buyurdu: "Ey camaat, sizi Mehdi ilə müjdələyimmi?!" Dedilər: "Bəli". Dedi: "Bilin ki, Uca Allah bu ümmətə yer üzü zülm və ədalətsizliklə dolduğu bir vaxtda onu haqq və ədalətlətlə dolduracaq bir rəhbər və imam göndərəcək. O övladlarımdan Hüseynin doqquzuncu övladıdır, adı adımdan, künyəsi isə künyəmdəndir.

Bilin ki, ondan sonra həyatda heç bir xeyir yoxdur, dövləti yalnız qiyamətdən qırx gün qabaq sona çatacaq".

# HƏDİS 92

## Göylərdə və yerdə Əlinin (ə) əzəməti

Seyid Nemətullah Cəzairi "Ənvarun-Numaniyyə" kitabında deyir: "Şeyx Səduq Süleym ibn Qeysə istinadla rəvayət edir ki, Peyğəmbər (s) belə buyurdu: "Əli yeddinci səmada Günəşin günorta yer üzündə olduğu kimidir, dünya səmasında isə gecələrdəki ay kimidir.

Uca Allah Əliyə fəzilətlərin bir hissəsini əta etmişdir ki, əgər onu yer əhli arasında paylaşdırsalar, onların hamısını ehtiva edər. Allah ona düşüncədən də bir hissə əta etmişdir ki, əgər yer əhli arasında bölünsə, onları bütünlüklə ehtiva edər.

Onun mülayimliyi Lutun mülayimliyinə, əxlaqı Yəhyanın əxlaqına, zöhdü Əyyubun zöhdünə, səxavəti İbrahimin səxavətinə, sevinci Süleyman ibn Davudun sevincinə, gücü isə Davudun gücünə bənzədilib.

Onun adı cənnətin hər bir hicabı üzərində yazılmışdır. Rəbbim məni müjdələyib ki..."[1]

---

[1] Hədisin sonunun bizə çatmaması təəssüf doğurur.

# HƏDİS 93

## İmam Əlinin (ə) fəzilətlərindən

Firat öz təfsirində, Həskani "Şəvahidut-tənzil"də deyirlər: "Cəfər ibn Muhəmməd ibn Haşim, İbadə ibn Ziyaddan, o da Əbu Muəmmər Səid ibn Xəsimdən, o da Muhəmməd ibn Xalid Zəbiy və Adbullah ibn Şərik Amiridən, o da Süleym ibn Qeysdən, o da Həsən ibn Əlidən (ə) bizə nəql edir[1]:

"O, Allaha həmd və səna etdikdən sonra dedi: "***"İlk əvvəl qəbul edib (bu işdə başqalarından) irəli düşən (sabiqun) mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələr....".***[2] İrəli düşənlərin (sabiqunlar) sonrakılar üzərində fəziləti olduğu kimi atam Əli ibn Əbu Talibin (ə) də irəli düşənlər üzərində bir fəziləti var ki, bu da onları imanda qabaqlamasıdır.

***"Məgər siz hacılara su verməyi və Məscidul-həramı təmir etməyi Allaha və qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz?"***[3] ayəsilə atam Peyğəmbərin (s) çağırışına cavab verib, onu öz canı ilə qoruyub.

Sonra Şəhidlər ağası, əmisi Həmzə, onunla birgə bir çoxları döyüşüb qətlə yetirilməsinə baxmayaraq, Həzmə Peyğəmbərə (s) yaxınlığına görə onların ağasıdır.

Uca Allah Cəfərin mələklərlə birlikdə cənnətdə dilədiyi yerə uçması üçün iki qanad bəxş eləyib. Bu da onun məqamına, Peyğəmbərlə (s) yaxınlığına və ona nisbətdə olmasına görədir. Peyğəmbər (s) Həmzə ilə birgə şəhid olanların arasından yalnız Həmzə üçün yetmiş dəfə namaz qıldı.

Həmçinin (Uca Allah) Peyğəmbərin (s) xanımlarına ona olan nisbətlərinə görə digər qadınlar üzərində bir fəzilət verib. Peyğəmbər (s) məscidindəki namazı İbrahimin (ə) Məkkədə bina etdiyi məsciddən savayı, digər məscidlərdəki namazlardan min dəfə üstün tutub. Bu da Peyğəmbərin (s) məqamına və fəzilətinə görədir.

Peyğəmbər (s) insanlara salavat deməyi öyrədib və belə demələrini buyurub: "Allahummə salli əla Muhəmməd və Ali-Muhəmməd kəma salleytə əla İbrahim və Ali-İbrahim. İnnəkə həmidun məcid" (Tərcüməsi: İlahi, İbrahimə

---

[1] Bu xütbə kamil şəkildə "Biharul-Ənvar"da c.1, səh.138, 5-ci hədisdə qeyd olunub.
[2] "Tövbə" surəsi, ayə 100.
[3] "Tövbə" suərsi, ayə 19.

və onun ailəsinə salavat göndərdiyin kimi Muhəmmədə və ailəsinə də salavat göndər). Allahın vacib buyurduğu hər bir namazda bizə salavat demələri bütün müsəlmanların üzərində haqqımızdır.

Uca Allah Peyğəmbərə (s) və bizə qəniməti halal elədi, ona sədəqəni haram qıldığı kimi bizə də haram buyurdu. Bu, Allahın bizlərə göstərdiyi bir ehtiram və fəzilətdir.

# HƏDİS 94

## Üveysin, Əmmarın və Xüzeymənin Siffində şəhadəti

İbn Əsakir "Tarixi Dəməşq" kitabında yazır: "Əbul-Ğənaim Muhəmməd ibn Üleyyə ibn Həsən Hüseyni xəbər verir ki, Qazi Muhəmməd ibn Abdullah Cofi, Hesüyn ibn Muhəmməd ibn Fərzəqdən, o da Həsən ibn Əli ibn Buzeydən, o da Muhəmməd ibn Ömərdən, o da İbrahim ibn İshaqdan, o da Abdullah ibn Üzeynə Bəsridən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Amiridən nəql edir: "Siffində Üveys Qəraninin (cəsədini) Əmmar və Xüzeymə ibn Sabitin cəsədlərinin arasında uzadıldığını gördüm".

# HƏDİS 95

## Qiyamət günü Peyğəmbərin (s) yanına ilk varid olacaq şəxs

İbn Şəhr Aşub "Məsalib" kitabında Muhəmməd ibn Xəşişdən, o da Süleymə istinadla Təmimidən nəql edir: "Salmanın belə dediyini eşitdim: "Ümmətdən Peyğəmbərin (s) yanına çatacaq ilk şəxs İslamı qəbul edən ilk şəxs olan Əli ibn Əbu Talibdir. Həqiqətən də bu evin[1] viran qalması fulanı oğlunun övladlarından bir kişinin əlilədir "yə-əyn-ra-yə-əyn-bə ibn".

[1] Evdə məqsəd Allahın Evi olan Kəbə, yaxud Peyğəmbər (s) xanədanı ola bilər. Çünki ilk xarab olan ev Səhifə və Səqifə əhlinin əli ilə məhz həmin evdir. Oradakı ad və ya adlar isə rəmzlərlə ifadə edilmişdir.

# HƏDİS 96

**Sünnət və bidət, camaat və təfriqə**

Müttəqi Hindi "Kənzul-Ummal"da Süleym ibn Qeys Amiriyə istinad edərək deyir: "İbn Kəvva İmam Əlidən (ə) sünnət və bidət, camaat və təfriqə barəsində soruşdu. İmam (ə) buyurdu: "Ey İbn Kəvva, sualı verdin, cavabını da dinlə. Sünnət – Muhəmmədin (s) sünnətidir (əməli, sözləri və iqrarıdır), bidət isə bundan ayrılanlar, camaat – haqq əhlinin sayları az olsalar belə bir şey üzərində müttəfiq olduğudur, təfriqə isə batil əhlinin çox olsalar belə üzərində cəm olduqlardır".

# HƏDİS 97

## Peyğəmbərin (s) ümmətin gələcəyi ilə bağlı xəbərləri

Muhəmməd ibn Süleyman Sənani "Şərhul-ixbar"da deyir: "Əbu Əhməd Ubeyddən, o da Muhəmməd ibn Ömər ibn Əbu Müslimdən, o da Ədbülqüddüs ibn İbrahim ibn Mirdasdan, o da Muhəmməd ibn Əbdürrəhman ibn Üzeynədən, o da Aban ibn Əbu Əyyaşdan, o da Süleym ibn Qeys Hilalidən Salman Farisinin belə dediyini nəql edir[1]: "Peyğəmbərin (s) vəziyyəti ağırlaşdıqda onun yanına daxil olduq. Üzünü camaata tutub dedi: "Məni Əhli-Beytlə yalnız qoyun". Camaat qalxdı, mən də onlarla birgə otaqdan çıxmaq üçün ayağa qalxdım. Mübarək üzünü mənə tərəf tutub "Sən otur, sən biz Əhli-Beytdənsən" – dedi.

## Bəni-Üməyyə, Bəni-Abbas və Əhli-Beyt (ə) dövləti haqqında xəbər

Allaha həmd və səna söylədi, sonra dedi: "Ey Əbdu-Manaf övladları! Allaha ibadət edin, Ona heç bir şeyi şərik qoşmayın, Əgər O mənə başqasına səcdəyə izn versəydi, sizdən başqasına səcdə etməzdim. Mən minbərimin üzərində on iki nəfərin hamısını görmüşəm. Onların hamısı Qüreyşdəndir. İkisi[2] Hərb ibn Üməyyənin, on nəfəri isə As ibn Üməyyənin övladlarındandır. Onların hamısı doğru yoldan azmış və azdıranlardır. Ümmətimi doğru yoldan çıxaracaqlar".

Sonra Abbasa dedi: "Onların məhv sənin övladlarının əlilə olacaq".

Sonra sözünə davam etdi: "İtrətim olan Əhli-Beytin haqqında Allahdan qorxun! Həqiqətən də dünya bizdən əvvəl heç kimin olmadı, bizə də qalmır və bizdən sonra da heç kimin olmayacaq".

Sonra Əliyə (ə) dedi: "Haqq dövləti dövlətlərin ən xeyirlisidir. Siz onlardan sonra onların bir gününün müqabilində iki gün, bir ayının müqabilində iki ay, bir ilinin müqabilində isə iki il hakimlik edəcəksiniz.

---

[1] Buna oxşar hədisi Süleym Cabirdən və İbn Abbasdan da nəql edib. 61-ci hədisə müraciət et.

[2] Zahir budur ki, məqsəd Müaviyə və Yeziddir (lənətullah əleyhim)..

## Allahın Kitabında lənətlədiyi altı nəfər

Sonra dedi: “Allah Kitabında altı nəfəri lənətləyib: “Allahın kitabına nə isə artıranı, Allahın qədərini yalan sayanı, itrətim haqda Allahın haram etdiyini halal sayanı, sünnətimi tərk edəni, müsəlmanları parçalayıb dəstələrə böləni, Allahın izzət verdiyi şəxsləri zəlil, zəlil etdiyi şəxsləri izzətli eləmək üçün müsəlmanlara zorla müsəllət olanı”.

# HƏDİS 98

## Şiələrin insanlar arasındakı mövqeyi

Numan ibn Muhəmməd Təmimi əl-Məğribi "Əmirəl-möminin Əlinin (ə) fəzilətləri" kitabında Süleym ibn Qeys Hilalidən belə nəql edir: "İmam Əliyə (ə) dedim: "Yaxınlarım mənimlə əlaqəni kəsirlər, amma mən hər dəfə onlarla yenidən sileyi-rəhm edirəm; məni məhrum qoyurlar, mən isə onlara hədiyyə verirəm; acı sözlər söyləyirlər, mən isə bağışlayıram; söyürlər, mən isə əsla onların söyüşlərinə cavab vermirəm".

İmam Əli (ə) buyurdu: "İnsanlardan tikansız yarpaq olacaqlarına əhd alınmışdı, amma (bu gün) onlar yarpağı olmayan tikandırlar (və ya tikana çevriliblər)".

Dedim: "Ey Əmirəl-möminin, bəs nə edim?"

Dedi: "Fəqirlik günün üçün onlarla yaxşı rəftar et. Şiələrimiz üç qisimdir: bir qismi bizə tərəf gəlir, bir qismi insanlara, bir qismi də dostlarımızı dost tutub, düşmənlərimizi özlərinə düşmən sayırlar. Bunlar xeyirxah övliyalar, hikmət sahibləri və alimlərdirlər. Xoş onların halına, qayıdacaqları yer necə də gözəldir!".

# MÜNDƏRİCAT

**KİTABIN ELMİ DƏYƏRİ .............................................................. 5**

## "KİTABU SÜLEYM İBN QEYS ƏL-HİLALİ"

Hədis 1 .......... 14
Hədis 2 .......... 17
Hədis 3 .......... 19
Hədis 4 .......... 23
Hədis 5 .......... 38
Hədis 6 .......... 39
Hədis 7 .......... 42
Hədis 8 .......... 47
Hədis 9 .......... 50
Hədis 10 .......... 51
Hədis 11 .......... 59
Hədis 12 .......... 77
Hədis 13 .......... 84
Hədis 14 .......... 86
Hədis 15 .......... 102
Hədis 16 .......... 108
Hədis 17 .......... 112
Hədis 18 .......... 117
Hədis 19 .......... 120
Hədis 20 .......... 123
Hədis 21 .......... 126

Hədis 22 ........ 129
Hədis 23 ........ 131
Hədis 24 ........ 136
Hədis 25 ........ 137
Hədis 26 ........ 156
Hədis 27 ........ 166
Hədis 28 ........ 167
Hədis 29 ........ 168
Hədis 30 ........ 171
Hədis 31 ........ 172
Hədis 32 ........ 173
Hədis 33 ........ 174
Hədis 34 ........ 175
Hədis 35 ........ 179
Hədis 36 ........ 181
Hədis 37 ........ 183
Hədis 38 ........ 189
Hədis 39 ........ 191
Hədis 40 ........ 193
Hədis 41 ........ 194
Hədis 42 ........ 195
Hədis 43 ........ 203
Hədis 44 ........ 207
Hədis 45 ........ 210
Hədis 46 ........ 212
Hədis 47 ........ 215
Hədis 48 ........ 216

## SÜLEYM İBN QEYS ƏL-HİLALİNİN DİGƏR NÜSXƏSİNDƏN

Hədis 49 ..... 226
Hədis 50 ..... 228
Hədis 51 ..... 229
Hədis 52 ..... 230
Hədis 53 ..... 231
Hədis 54 ..... 232
Hədis 55 ..... 235
Hədis 56 ..... 237
Hədis 57 ..... 238
Hədis 58 ..... 239
Hədis 59 ..... 246
Hədis 60 ..... 247
Hədis 61 ..... 249
Hədis 62 ..... 253
Hədis 63 ..... 255
Hədis 64 ..... 256
Hədis 65 ..... 257
Hədis 66 ..... 258
Hədis 67 ..... 260
Hədis 68 ..... 266
Hədis 69 ..... 267
Hədis 70 ..... 270
Hədis 71 ..... 272
Hədis 72 ..... 273
Hədis 73 ..... 275
Hədis 74 ..... 276
Hədis 75 ..... 277

Hədis 76 ........ 278
Hədis 77 ........ 279
Hədis 78 ........ 280
Hədis 79 ........ 282
Hədis 80 ........ 283
Hədis 81 ........ 284
Hədis 82 ........ 285
Hədis 83 ........ 286
Hədis 84 ........ 287
Hədis 85 ........ 288
Hədis 86 ........ 289
Hədis 87 ........ 292
Hədis 88 ........ 293
Hədis 89 ........ 294
Hədis 90 ........ 295
Hədis 91 ........ 296
Hədis 92 ........ 297
Hədis 93 ........ 298
Hədis 94 ........ 300
Hədis 95 ........ 301
Hədis 96 ........ 302
Hədis 97 ........ 303
Hədis 98 ........ 305

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

Suleym ibn Qeys Hilali

# ALİ-MUHƏMMƏDİN SİRLƏRİ

Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Elnur ƏHMƏDOV
Bədii redaktor: Fəxri VƏLİYEV
Səhifələyici: Sədaqət KƏRİMOVA

Yığılmağa verilmişdir: 17.08.2015
Çapa imzalanmışdır: 14.09.2015
Nəşrin ölçüsü: 70x100 1/16
Fiziki çap vərəqi: 19,5
Sifariş:155/15. Sayı: 1000 ədəd.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ
Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com